# İLHAM ƏLİYEV

ON BİRİNCİ KİTAB

İYUN 2005 - AVQUST 2005

AZƏRNƏŞR
BAKI - 2013

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR • FƏRMANLAR

AZƏRNƏŞR
BAKI - 2013

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2013, 400 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bu cildində ölkəmizə səfər etmiş Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, AŞ PA-nın komitə və qrup rəhbərləri, həmçinin Misir, İran, Yaponiya, ABŞ, Qətər, Tailand, və Gürcüstanın nüfuzlu dairələrinin nümayəndələri ilə görüşləri, dərin məzmunlu söhbətləri, çıxışları, kütləvi informasiya vasitələrinə verdiyi bəyanat və müsahibələri geniş yer almışdır.

Kitabda Azərbaycan Milli Mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimində parlaq nitqi, mətbuat işçiləri, eyni zamanda DİN-nin və bəzi polis orqanlarının rəhbərləri, idmançılar ilə görüşlərdəki çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Bu cilddə bölgələrin sosial-iqtisadi inkişafına, xalqımızın rifahı naminə aparılan geniş islahatlara həsr olunmuş çıxış və nitqləri və digər materiallar da toplanmışdır.

**İSBN 978-9952-8100-7-3**

**Ə $\frac{0801000000}{M-651(07)-2013}$** **BBK - 32**

© Azərnəşr, 2013

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*Prezident sarayı*

*30 iyun 2005-ci il*

*Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iyunun 30-da Prezident sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının asıldığı meydanda hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı böyük hörmət və səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyə hökumətinin başçısı Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*30 iyun 2005-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Azərbaycanın prezidenti Türkiyənin Baş nazirini bir daha səmimiyyətlə salamlayaraq, onun Bakıya ilk rəsmi səfərini yüksək qiymətləndirdi, bu səfərin dost və qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin gələcək inkişafında böyük əhəmiyyəti, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Türkiyənin tutduğu mövqeyə və Azərbaycana verdiyi dəstəyə görə təşəkkürünü bildirdi.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycanla ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu söylədi, beynəlxalq təşkilatlarda mövcud əməkdaşlığın gələcəkdə davam edəcəyini və Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcəklərini xüsusi vurğuladı.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*30 iyun 2005-ci il*

*Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın geniş tərkibdə görüşü keçirilmişdir.*

*Prezident İlham Əliyev Baş nazir Rəcəb Tayyib Ərdoğanı və səfərdə onu müşayiət edən nümayəndə heyətinin üzvlərini bir daha salamlayaraq, bu səfərə çox böyük əhəmiyyət verdiyini, onun ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığın daha da inkişafına yeni töhfə verəcəyini diqqətə çatdırdı.*

*Regional layihələrin böyük əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılacağına əminliyini də ifadə etdi və Azərbaycanın bu haqq işində göstərdiyi dəstəyə görə qardaş ölkəyə minnətdarlığını bildirdi. Türkiyə–Azərbaycan dostluğu və qardaşlığının təcəssümü olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin bölgədə sülhə, təhlükəsizliyə xidmət etdiyini, hər iki ölkənin birgə səyi nəticəsində əfsanənin reallığa çevrildiyini söyləyən prezident İlham Əliyev dedi ki, Azərbaycan–Türkiyə münasibətləri sağlam təməllər üzərində qurulmuşdur. Bunun böyük tarixi var, böyük ənənələri var. Çox şadam ki, bu ənənələr yaşayır, ölkələrimiz arasında olan bütün məsələlər həllini tapır.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğan ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan prezidentinə və xalqına dərin təşəkkürünü bildirdi, özlərini evlə-*

*rindəki kimi hiss etdiklərini, gələcəyə yönəlmiş çox mühüm işlərin xalqlarımız üçün faydalı olacağını söylədi. O, ümummilli lider Heydər Əliyevin «Bir millət, iki dövlət» müdrik kəlamını xatırladaraq, ölkələrimiz arasındakı əlaqələrin səviyyəsindən razılığını ifadə etdi və gələcəkdə əməkdaşlığın daha sürətlə inkişaf edəcəyinə əminliyini bildirdi. Cənab Ərdoğan dedi ki, Türkiyə daim Azərbaycanın yanında olmuşdur və bu siyasət bundan sonra da aparılacaqdır. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri çox böyük önəm daşıyır. İki qardaş ölkə arasında ticarət əlaqələrinin həcmi də artırılacaqdır.*

*Geniş heyətdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə ikitərəfli sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan birgə rəsmi məlumat imzaladılar.*

*Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında texniki əməkdaşlıq haqqında protokol,*

*Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında saziş,*

*Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında saziş imzalandı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*30 iyun 2005-ci il*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Rəcəb Tayyib Ərdoğan Azərbaycanda rəsmi səfərdədir. Bu bizi çox sevindirir. Hesab edirəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır və Türkiyə ilə Azərbaycan, iki dost, qardaş ölkə həmişə olduğu kimi, bundan sonra da çox sıx əməkdaşlıq edəcəkdir.

Biz ikitərəfli münasibətlərə böyük önəm veririk, bu münasibətləri çox yüksək qiymətləndiririk. Bizim aramızda olan qardaşlıq, dostluq münasibətləri hər iki ölkənin inkişafı üçün önəmlidir. Eyni zamanda, bölgədə gedən proseslərə də müsbət təsir göstərir. Bölgədə sülhün, sabitliyin bərqərar olunması, təhlükəsizlik sisteminin möhkəmlənməsi, bölgədə gedən irimiqyaslı regional layihələrin həyata keçirilməsi bizim üçün və Türkiyə üçün çox önəmlidir. Bizim birgə fəaliyyətimiz qarşıda duran bütün məsələlərin həllinə böyük dəstəkdir, böyük töhfədir.

Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində daim Azərbaycanın yanında olub və bu gün də Azərbaycanın yanındadır. Azərbaycanın haqlı mövqeyini müdafiə edir, onu dəstəkləyir və bütün beynəlxalq təşkilatlarda Azərbaycanın səsinə səs verir. Bu dəstəyə, bu qardaş-

lığa görə biz Türkiyə hökumətinə, Türkiyə dövlətinə, Türkiyə xalqına minnətdarıq. Biz ümid edirik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və bir milyondan artıq qaçqın, köçkün soydaşımız öz doğma torpağına qayıdacaqdır. Bunu etmək üçün, təbii ki, siyasi-diplomatik səylər davam etdirilməlidir. Amma eyni zamanda, Azərbaycan öz siyasi və iqtisadi potensialını daha da gücləndirməlidir.

Bu yaxınlarda istismara verdiyimiz, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərinin təzahürü, onun nəticəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurlu fəaliyyəti bölgədə sabitliyin, iqtisadi inkişafın və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayacaqdır. Bakı–Tbilisi–Ceyhan layihəsi dünyanın ən böyük enerji layihəsidir və birgə səylər nəticəsində biz bu layihəni həyata keçirdik, əfsanəni gerçəkliyə çevirdik. Bu layihə və bundan sonrakı Bakı–Tbilisi–Ərzurum qaz layihəsi Türkiyənin və Azərbaycanın bölgədəki rolunu və nüfuzunu daha da artıracaq və gələcəkdə bizim iqtisadi və siyasi mövqeyimizə xidmət edəcəkdir.

Biz çox istəyirik ki, aramızda olan ticarət əlaqələri daha da genişlənsin. Bu gün bu barədə geniş söhbət aparıldı. Ticarət dövriyyəmiz artır, 2005-ci ildə 2004-cü ilə nisbətən təxminən 50 faiz artmışdır. Bu çox gözəl göstəricidir. Amma onu da bilirik ki, bu bizim iqtisadi potensialımızı əks etdirmir. Potensial daha da böyükdür. Əminəm ki, bu gün apardığımız danışıqlar gələcəkdə iqtisadi və ticarət əlaqələrimizin inkişafına kömək göstərəcəkdir.

Biz bu gün hörmətli Baş nazirlə müxtəlif mövzular ətrafında fikir mübadiləsi apardıq. Əlbəttə ki, ikitərəfli münasibətlər, bölgədə gedən proseslər müzakirə olundu. Beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz haqqında fikir mübadiləsi edildi. Bir daha demək istəyirəm ki, danışdığımız bütün məsələlərdə bizim mövqelərimiz üst-üstə düşür, heç bir fikir ayrılığı yoxdur və bu bir daha onu göstərir ki, Türkiyə–

Azərbaycan münasibətləri çox sağlam zəmində qurulubdur. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək, möhkəmlənəcək, Türkiyə və Azərbaycan xalqları qardaş kimi birlikdə yaşayacaq, öz potensiallarını daha da gücləndirəcək və bölgədə gedən proseslərə bundan sonra da təsir göstərəcəklər.

Hörmətli Baş nazirin Azərbaycana səfəri ilə əlaqədar bir daha öz dərin məmnunluğumu bildirmək istəyirəm. Əminəm ki, bu səfər uğurlu keçəcək, gələcək əməkdaşlığımız üçün gözəl addım olacaqdır. Təşəkkür edirəm.

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli cümhur başqanın bu anlamlı açıqlamalarına görə çox təşəkkür edirəm. Dünən axşamdan etibarən gördüyümüz qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyəti adından çox-çox təşəkkür edirəm.

İstər təkbətək görüşümüzdə, istərsə də heyətlərarası görüşdə Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələri müzakirə etdik. Siyasi sahədə xüsusilə Türkiyə–Azərbaycan əlaqələri, beynəlxalq əməkdaşlıq məsələləri diqqət mərkəzində oldu.

Hörmətli cümhur başqanının da ifadə etdiyi kimi, beynəlxalq təşkilatlar və qurumlarda birgə əməkdaşlığımız qardaş və dost olan iki ölkənin istəyi şəklində davam etməkdədir və atdığımız addımlar mühümdür. Bu yöndəki əməkdaşlıq hər zaman əsas sayılmışdır və təbii ki, gələcəkdə də bu şəkildə davam edəcəkdir. Mərhum cümhur başqanı Heydər Əliyevin ifadə etdiyi «Bir millət, iki dövlət» fikri bizi gələcəyə doğru inamla aparır.

Kipr barədə aparılan siyasətimizlə bağlı məsələlərə də toxunuldu. Bu sahədə işlər davam etdiriləcəkdir. Bir çox işlərin Azərbaycan tərəfindən də görüləcəyinin müjdəsini hörmətli cümhur başqanından aldıq. Bundan məmnunluq və sevinc duyuruq. Bunlar çarter reysləri, oradakı bir çox iqtisadi-ticarət işlərinin birlikdə görülməsidir. Bu sahələrdə atılacaq addımlar doğrudan da sevindiricidir.

İstər Avropa Şurasında, istərsə də NATO-da fəaliyyətimizdə Azərbaycanı indiyə qədər necə dəstəkləmişiksə, gələcəkdə də bunu davam etdirəcəyimizi bir daha bildiririk. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu günə qədər olan siyasətimizi eyni şəkildə davam etdiririk. Ermənistanla münaqişə məsələsində Türkiyə bu günə qədər Azərbaycanı necə yalnız buraxmamışsa, bundan sonra da buraxmayacaqdır. Xüsusilə Dağlıq Qarabağ məsələsinə yanaşma tərzimiz Azərbaycanın siyasəti ilə, yanaşma tərzi ilə eynidir. Bizə gələn təklif və tələblərə bu günə qədər eyni cavabı verdik.

Bildiyimiz kimi, Avropa Şurasının Ermənistanı işğalçı elan etməsi ilə bağlı qərarı Türkiyənin də xüsusi səyləri ilə əldə olunmuş bir nəticədir. Dolayısı ilə işğalçının üzərinə düşən vəzifə işğal etdiyi yerdən çəkilməsidir. Bunun yerinə yetirilməsi vacibdir. Türkiyə olaraq biz bunun danışıqlar vasitəsilə çözümünün tərəfdarıyıq.

Amma bu çözüm Ermənistanın işğal etdiyi ərazilərdən çəkilməsi ilə mümkündür.

Digər bir məsələ aramızdakı iqtisadi-ticarət əlaqələri ilə bağlıdır. Bir az əvvəl hörmətli cümhur başqanının da ifadə etdiyi kimi, əslində hər iki ölkənin bu sahədə əməkdaşlığı lazımi səviyyədə deyildir. Ona görə bunu irəlilətməyimiz lazımdır. Ən əsası, ticarət həcmini qısa zamanda bir milyard dollara çatdırmaqdır. Hazırkı rəqəm çox kiçikdir. İnanıram ki, bu sahədə iş adamlarımızın qarşılıqlı surətdə atacağı addımlarla biz bu məqsədə də çatacağıq.

Biz artıq Bakı–Tbilisi–Ceyhan enerji dəhlizini başa çatdırırıq. Bu enerji dəhlizində başlangıc və son nöqtə iki ölkəyə aiddir və bu, Gürcüstanla birlikdə üçlüyü qovuşduracaqdır. Bundan sonra Bakı–Tbilisi–Ərzurum qaz xətti var, hazırda addımlar sürətlə atılır. Təbii, bu, enerji dəhlizi olmaqla bərabər, nə qədər önəm daşıyan bir mərhələyə daxil olduğumuzu da göstərməkdədir. Bu, gələcək üçün bir xüsusi önəmin ifadəsidir. Bu məsələdə də düşüncələrimiz eynidir və müştərək bir çox addımlar atacağıq.

İnşallah, oktyabrın 27-də Ceyhandan tankerə ilk neft yüklənəcəkdir. Bunu səbirsizliklə gözləyirik. Hörmətli cümhur başqanı dəvətimizi qəbul etdi. Düzdür, işin sahibi sizsiniz. Təbii, mən bu dəvəti formal olaraq dedim, belə bir dəvət gərəksiz idi, amma bunu etmək etikadan irəli gəlir. Bakıda boru xəttinə ilk neft vurulduğu zaman həyəcan necə yaşandısa, həmin həyəcanı bu dəfə oktyabrın 27-də ilk nefti tankerə yükləyərkən birlikdə yaşayacağıq.

Mədəniyyət sahəsindəki qarşılıqlı əlaqələrimizi daha da möhkəmləndirməli və genişləndirməliyik.

Biz hörmətli cümhur başqanına bir təkliflə də müraciət etdik. İstəyirik ki, Türkiyə–Azərbaycan Ticarət Palatası yaradılsın. Hörmətli cümhur başqanı bu təklifimizi çox müsbət qarşıladı. İnşallah, hər iki ölkənin iş adamları, Türkiyə Palatalar və Birjalar Birliyi, Türk İş Adamları və Sənayeçilər Birliyi (TÜSİAB) qarşılıqlı surətdə bir araya gələrək, belə bir palatanı gerçəkləşdirəcəklər. Necə ki, hökumətlər arasında müştərək iqtisadi komissiya quruldu, sənayeçi və iş adamları arasında, özəl sektorda da belə bir qurumun yaradılması ölkələrimiz arasında münasibətləri daha da yüksək səviyyəyə çatdıracaqdır. Belə bir fürsət qazandığımız üçün çox-çox təşəkkür edərək, bizi izləyən sevimli Azərbaycan qardaşlarımıza öz adımdan və millətim adından sevgi və salamlarımı yetirmək istəyirəm.

**S u a l: Mənim sualım hörmətli prezident İlham Əliyevədir. Kipr məsələsində Azərbaycan hansı addımlar atacaq, bu barədə fikriniz necə olacaqdır?**

**Azərbaycanın və Türkiyənin yaxın qonşusu olan İranda yeni prezident seçildi. Sizcə, bu, bölgədəki siyasətə və Azərbaycana necə təsir göstərəcəkdir?**

**İ l h a m Ə l i y e v:** Bu məsələ bu gün müzakirə olundu və Azərbaycan öz mövqeyini bir daha ifadə etdi. Biz Şimali Kiprin təcrid olunmuş vəziyyətindən çıxması üçün əlimizdən gələni etməyə hazırıq. Artıq hörmətli Baş nazir də bu məsələləri açıqladı. Mən bu gün məlumat verdim ki, Azərbaycanın

müxtəlif şirkətləri Şimali Kiprdə öz ofislərini açacaqlar, o cümlədən turizm şirkətləri bu işlərlə məşğul olacaqlar. Azərbaycandan Şimali Kiprə uçuşlar təşkil ediləcək və lazım olan başqa tədbirlər görüləcəkdir. Mən hesab edirəm ki, yaxın zamanlarda Azərbaycanın iş adamlarından ibarət heyətin Şimali Kiprə getməsi də məqsədəuyğun olar.

Biz çox təəssüflənirik ki, Kiprdə keçirilmiş referendum ümidlərimizi doğrultmadı. Ancaq buna görə Kiprdə yaşayan türk qardaşlarımızın belə vəziyyətdə yaşamasının davam etməsinə, əlbəttə, heç kim razı ola bilməz. Kipr türkləri bu təcriddən çıxmalıdır. Artıq İslam Konfransı Təşkilatında çox önəmli qərarlar qəbul edilibdir. Əminəm ki, bu, ilkin, çox vacib addımlardır. Hesab edirəm ki, gələcəkdə başqa beynəlxalq təşkilatlar da bu təşəbbüsə qoşulmalıdır. Beləliklə, orada insanların təcrid olunmuş vəziyyətdə yaşamasına son qoyulmalıdır və qoyulacaqdır. Azərbaycanın payına nə düşürsə, biz bunu etməyə hazırıq və edəcəyik. Əlbəttə ki, Türkiyə ilə məsləhətləşmələr əsasında.

İranla bizim aramızda çox yaxşı əlaqələr var. Son müddət ərzində bir neçə iqtisadi layihə həyata keçirilir, ticarət əlaqələrimiz güclənir və biz istəyirik ki, iki ölkə arasında əlaqələr bundan sonra da inkişaf etsin. Mən bu ilin əvvəlində İrana rəsmi səfər etmişdim, çox önəmli məsələlər müzakirə olundu. Təbriz şəhərində Azərbaycanın Baş konsulluğu açılmışdır. Ümid edirəm ki, biz yeni rəhbərliklə səmərəli işləyəcəyik, hər iki ölkənin maraqlarına cavab verən məsələləri həll edəcəyik.

**S u a l: Mənim sualım hörmətli Baş nazir Ərdoğanadır. Cənab Baş nazir, Türkiyənin Avropa Birliyinə qəbul edilməsi üçün qoyulan şərtlər sırasında Ermənistanla sərhədlərin açılması və qondarma «erməni soyqırımı»nın tanınması kimi müddəaların olduğu bildirilir. Sizcə, Dağlıq Qarabağ münaqişəsi həll olunmayacağı təqdirdə sərhədlərin açılması nə dərəcədə mümkündür?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Avropa Birliyinin Kopenhagen siyasi meyarları içərisində və digər meyarlar

içərisində belə bir şərt yoxdur, belə bir məsələ yoxdur və Türkiyəyə belə bir şərtlər qoyulmamışdır. Belə bir şeyi qəbul etməyimiz də mümkün deyildir. Bu, Türkiyənin öz qərarıdır. Türkiyə bu sahədə öz qərarını necə verəcəyini də çox yaxşı bilir. Biz indiyə qədər hansı mövzularda anlaşdıqsa, Kopenhagen siyasi meyarlarında nə varsa, bunları yerinə yetirdik. Hazırda şərtlər açıqlanmışdır. Bu da dekabrın 17-dəki müzakirələr zamanı hansı məsələlərlə bağlı idisə, onlara zidd olmayan, yəni paralel şəkildə gözlənilən məsələlərdir. Bu gözlənilən məsələlər istiqamətində biz oktyabrın 3-də müzakirələrə başlayacağıq.

**S u a l: Mənim sualım cənab Baş nazirədir. Siz dediniz ki, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi mövcud potensialdan qat-qat aşağıdır. Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin artmasına nə mane olur? Siz Azərbaycandakı sərmayə mühitini necə dəyərləndirirsiniz?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində, şübhəsiz, bəzi qarşılıqlı tədbirlərin görülməsi vacibdir. Yükdaşıma sahəsində, xüsusilə yük maşınlarının sayının artırılması və sair sahələrdə həll edilməli məsələlər vardır. Bunlarla bağlı hörmətli cümhur başqanı lazım olan təlimatları verdi. Bunlar artırılacaqdır. Təbii ki, əgər özəl sektorlarımızın nümayəndələri qarşılıqlı surətdə fəaliyyətlərini gücləndirərsə, bu əlaqələr çox sürətlənər. Ona görə də əgər Türkiyə–Azərbaycan Ticarət Palatası ideyasını gerçəkləşdirsək, inanıram ki, bu sahə çox sürətlə inkişaf edəcəkdir. Biz bu məsələni yaxından izləycəyik. Çünki bizə bu işləri görməyimiz və uğur qazanmağımız lazımdır.

**S u a l: Hörmətli Cümhur başqanı, bilirsiniz ki, bölgədə demokratiya sahəsində bəzi hadisələr olur. Amerikanın ortaya atdığı genişləndirilmiş Orta Şərq layihəsi, onların dediyinə görə, bu bölgəni də əhatə edir. Demokratiyanın bu bölgə üçün önəmini və Azərbaycandakı perspektivləri barədə açıqlama verə bilərsinizmi?**

**İ l h a m Ə l i y e v:** Bölgədə demokratiyanın inkişafı çox önəmlidir. Azərbaycan bu istiqamətdə çox önəmli addımları

atmaqdadır. Biz hesab edirik ki, yalnız demokratik cəmiyyətdə hər bir insan sərbəst, azad şəkildə yaşaya və öz istədiklərinə nail ola bilər. Ona görə Azərbaycanın bu məsələdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı bizim üçün çox önəmlidir. Azərbaycanda son illər ərzində demokratiyanın inkişafı istiqamətində çox önəmli addımlar atılıb və bu gün ölkəmiz demokratiya yolu ilə inamla gedir.

Azərbaycanın iqtisadi gələcəyi çox uğurludur. Apardığımız iqtisadi islahatlar Azərbaycanı güclü ölkəyə çevirəcəkdir. Deyə bilərəm ki, bu ilin beş ayında ölkəmizdə iqtisadi artım 16 faiz olubdur. Son bir il ərzində ölkədə 220 min yeni iş yeri açılıbdır. Mən əminəm ki, yalnız iqtisadi cəhətdən güclü ölkədə demokratiya tam mənada bərqərar ola bilər. Ona görə yoxsulluğun azaldılması, işsizliyin aradan götürülməsi demokratik ölkəyə çevrilmək üçün çox önəmli şərtdir. Amma onu da bilirik ki, iqtisadi potensial nə qədər güclü olursa olsun, əgər ölkədə demokratiya tam bərqərar olunmasa, o ölkə normal inkişaf edə bilməz. Ona görə Azərbaycanın bu istiqamətdə atdığı addımlar, hesab edirəm ki, çox müsbətdir. Bu, beynəlxalq təşkilatlar tərəfindən də bəyənilir. Mən şübhə etmirəm ki, Azərbaycan demokratiya yolu ilə bundan sonra da inamla gedəcəkdir.

**S u a l: Cənab Prezident, xarici işlər nazirlərinin Parisdəki görüşündə müəyyən məsələlərdə xüsusi razılıq əldə olunduğu bildirilir. Bu il avqustun sonunda liderlərin zirvə toplantısı çərçivəsində keçirəcəyiniz görüşdə mühüm anlaşmanın ola biləcəyi düşünülür. Bu məsələ ilə bağlı fikrinizi bilmək olarmı?**

**İ l h a m Ə l i y e v:** Ümumiyyətlə, mən hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında danışıqlar bu gün müsbət istiqamətdə aparılır. Azərbaycanın mövqeyi yalnız beynəlxalq hüquq normalarına, dünyada mövcud olan təcrübəyə əsaslanır və hüquqi, siyasi cəhətdən bizim mövqeyimiz üstünlük təşkil edir. Son müddət ərzində danışıqlarda müşahidə olunun canlanma ümid etməyə əsas verir. Əgər bu ümid olmasaydı, onda danışıqların davam etdirilməsinə ehtiyac olmazdı. Beynəlxalq təşkilatlarda bu məsələyə baxışlar dəyişir. Avropa Şurası bu məsələyə dair qət-

namə qəbul etdikdən sonra danışıqların aparılması üçün yeni zəmin yarandı. Ermənistan ilk dəfə olaraq beynəlxalq təşkilat tərəfindən təcavüzkar ölkə kimi tanındı. Ermənistanın Azərbaycana qarşı etdiyi etnik təmizləmə siyasəti o qətnamədə öz əksini tapdı. Beləliklə, danışıqların davam etdirilməsi üçün yeni bir şərait yaranır. Mən şübhə etmirəm ki, haqq-ədalət öz yolunu tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Çünki bunu məntiq tələb edir, zaman tələb edir və yenə də demək istəyirəm ki, beynəlxalq hüquq normaları bunu tələb edir.

Ermənistanın mövqeyi tamamilə başqa zəmində qurulur. Onların mövqeyi yalnız öz arzularına söykənir, onların xülyalarına söykənir. Beynəlxalq aləm bu mövqeyi qəbul etmir. İşğalçı siyasət heç bir dövlət tərəfindən rəğbətlə qarşılana bilməz. Ona görə danışıqlarda gedən proseslər artıq deməyə əsas verir ki, bu yanaşma, ədalətli yanaşma üstünlük əldə edir. Ermənistanın uzun illər ərzində apardığı qeyri-konstruktiv siyasət imkan vermirdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapsın. Biz ümid edirik ki, bu mərhələdə irəliləyişə nail ola bilərik. Ümid edirik ki, Azərbaycanın həm siyasi, həm diplomatik, həm də iqtisadi uğurları bizim mövqeyimizi daha da gücləndirəcəkdir.

**S u a l: Cənab Baş nazir, bu yaxınlarda Rusiya öz hərbi bazalarını Gürcüstandan çıxarıb bir hissəsini Ermənistanda yerləşdirdi və bu, region ölkələrinin çox böyük narazılığına səbəb olmuşdur. Azərbaycan buna görə öz hərbi xərclərini artırmalı oldu. Türkiyənin bu yerdəyişməyə münasibəti necədir və bununla bağlı hansısa addım atacağı gözlənilirmi?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Bu addım, hər şeydən əvvəl, Rusiya Federasiyasının öz işidir, öz qərarıdır. Bizə, sadəcə, bu qərarı izləmək düşər, bu qərara hər hansı fərqli yanaşmamız ola bilməz. Bu onun haqqıdır və bundan istifadə etmişdir. Bu, Ermənistanın qərarıdır, yəni Ermənistan bunu qəbul etmişsə, buna bizim nəsə deməyə hər hansı bir fikrimiz yoxdur. Düşünürəm ki, bunun bizimlə heç bir əlaqəsi yoxdur.

## TÜRKİYƏ SƏFİRLİYİNİN YENİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*30 iyun 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Bakıda Türkiyə səfirliyi üçün tikiləcək yeni binanın təməlqoyma mərasimində iştirak etmişlər.*

*Mərasimə toplaşanlar prezident İlham Əliyevi və Baş nazir Rəcəb Tayyib Ərdoğanı səmimiyyətlə qarşıladılar.*

*Türkiyənin Azərbaycandakı səfiri Turan Moralı mərasimi açaraq dedi ki, bu gün gözəl bir layihənin gerçəkləşdirilməsinə başlayırıq. Bizə bu imkanı verən Azərbaycan rəhbərliyinə minnətdarlığımızı bildiririk. Hamınıza «Xoş gəldiniz!» deyir və sözü hörmətli Baş nazirimizə verirəm.*

### Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli Cümhur başqanı!

Əziz qonaqlar!

Qardaş, dost Azərbaycanda bu gün biz həqiqətən mənalı və dolğun bir gün yaşadıq. İndi isə həmin günün zirvəsini yaşayırıq. Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin həm inzibati binasının, həm də yaşayış binasının təməlini qoyuruq. Burada digər xidmətləri həyata keçirməyə imkan verəcək müasir, çağdaş bir layihə gerçəkləşdiriləcəkdir.

Bu, sadəcə, bir binanın təməlini qoymaq deyil, eyni zamanda aramızdakı qardaşlığın, dostluğun müntəzəm olaraq möhkəmlənməsinin davam etməsinin əlamətidir. Cümhuriyyətimizin banisi Mustafa Kamal Atatürkün dediyi kimi, «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir». İki

qardaş, dost ölkə sevinci bərabər paylaşıb, kədəri birlikdə bölüşməklə gələcəyə doğru addımlayır. Təməlini qoyduğumuz bina ən qısa zamanda tikiləcək və inşallah, Türkiyə Cümhuriyyəti və qardaş, dost Azərbaycan əl-ələ, çiyin-çiyinə işıqlı sabahlara doğru birlikdə gedəcəkdir. Sözlərimi çox uzatmayacağam. Çünki bu gün deyiləsi bütün sözləri mətbuat konfransında və Azərbaycan parlamentində söylədim. Axşam isə hörmətli cümhur başqanımızın bizim şərəfimizə verəcəyi ziyafətdə də bir yerdə olacağıq. Mən ekran qarşısında bizi izləyən bütün Azərbaycan xalqına şəxsən öz adımdan, millətim adından ən səmimi duyğularla sevgi və sayğılarımı ərz edirəm. Hörmətli cümhur başqanımızın buraya təşrifindən duyduğumuz məmnuniyyəti də xüsusi olaraq ifadə etmək istəyirəm.

Sağ olun, var olun!

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanda çox əlamətdar bir gündür.

Qardaş Türkiyənin Baş naziri Azərbaycanda rəsmi səfərdədir. Bu səfər çox uğurludur, çox ətraflı, səmimi söhbətlərimiz olubdur. Demək olar ki, bütün məsələləri çox açıq şəkildə, dost kimi, qardaş kimi müzakirə etdik. İndi də bu gözəl mərasimdə iştirak edirik. Mən çox şadam ki, bu mərasim bu gün Türkiyənin Baş nazirinin iştirakı ilə keçirilir. Bildiyiniz kimi, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə qardaş ölkə kimi, bizi tanıdı və dərhal burada, Azərbaycanda Türkiyənin diplomatik nümayəndəliyi – səfirliyi fəaliyyətə başladı.

Əminəm ki, bu gözəl parkda səfirlik üçün tikiləcək yeni binada çalışacaq insanlar üçün bütün şərait yaradılacaq və eyni zamanda, bu bina memarlıq baxımından da çox gözəl olacaq, bizim şəhərimizə yaraşıq gətirəcəkdir.

Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayanda bizim xaricdə səfirliyimiz yox idi. Səfirliklər təsis edilirdi,

fəqət onların fəaliyyəti üçün binalar yox idi. Mən xatırlayıram, o illərdə Türkiyənin müxtəlif ölkələrdəki səfirliklərinin binaları Azərbaycanın diplomatları üçün də açıldı və diplomatlarımız ilk illərdə qardaş Türkiyənin səfirliklərində çalışırdılar. Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Bizim dostluğumuz, bizim qardaşlığımız isə günügündən güclənir, möhkəmlənir. Biz bütün zamanlarda bir yerdə olmağı düşünmüşük, istəmişik. Fəqət Azərbaycanın Sovet İttifaqı çərçivəsində yaşaması bizə belə imkan yaratmırdı. Ancaq Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayanda biz bir-birimizə qovuşduq və bu gün bir millət, iki dövlət kimi, bir-birimizə çox yaxınıq. Mən çox şadam ki, dərin tarixi köklərə əsaslanan dostluğumuz, qardaşlığımız daha da güclənir, möhkəmlənir.

Türkiyə ilə Azərbaycan arasında həm ikitərəfli müstəvidə, həm də regional çərçivədə olan əlaqələr çox böyük əhəmiyyət daşıyır. Bizim ölkələrimiz güclənir, bölgədəki potensialımız, nüfuzumuz artır və mən ümid edirəm ki, iki qardaş ölkə bundan sonra da öz məqsədlərinə nail olacaqdır.

Bu gün biz burada çox gözəl kəlamları müşahidə edirik. Ulu öndər Mustafa Kamal Atatürkün «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir» kəlamı və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin «Türkiyə–Azərbaycan bir millət, iki dövlətdir» kəlamı.

Bu sözlər, bu kəlamlar bizim üçün, hamımız üçün bir yoldur, bir işıqdır. Biz bu siyasətə, bu sözlərə sadiqik, gələcəkdə də öz fəaliyyətimizi məhz bu əsas üzərində davam etdirəcəyik.

Əziz dostlar, hörmətli dostum, qardaşım cənab Baş nazir, bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. Ümid edirəm ki, yaxın zamanlarda bu bina inşa ediləcək və biz bir daha buraya gələcək və onun açılışında iştirak edəcəyik.

Xeyirli olsun, uğurlu olsun!

Sağ olun!

* * *

*Prezident İlham Əliyevə və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğana burada inşa ediləcək kompleks haqqında məlumat verildi. Layihənin qısa vaxtda gerçəkləşəcəyi diqqətə çatdırıldı.*

*Sonra binanın təməlinin qoyulmasına başlandı. Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bünövrəyə beton tökən mexanizmi işə salan düyməni basdılar. Sonra isə Türkiyə səfirliyi üçün tikiləcək binanın qarşısında ağac əkdilər.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN HEYDƏR ƏLİYEV FONDUNDA

*30 iyun 2005-ci il*

*Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Türkiyə hökumətinin başçısını böyük səmimiyyətlə qarşıladılar.*

*Mehriban xanım Əliyeva Baş nazir Rəcəb Tayyib Ərdoğana və Türkiyə nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədi prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev hörmətli qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğan və Türkiyə nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azər-*

*baycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, bütün qitələrdən olan ölkələrin lideri ilə görüşlərdə çəkilmiş, gərgin, çoxşaxəli fəaliyyətindən xəbər verən şəkillərə böyük maraqla baxdılar. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Fondla tanış olduqdan sonra xatirə kitabına öz ürək sözlərini yazdı:*

«Qardaş Azərbaycanın ən ağır günlərində ikinci dəfə yenidən dövlətə rəhbərliyi öz üzərinə götürərək, çox qısa vaxtda ölkəsini çağdaş dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevirən böyük siyasi xadim Heydər Əliyevə öz ehtiramımı bildirirəm. Onun dövründə qoyulmuş etibarlı təməl üzərində Azərbaycanın gələcəkdə daha güclü, müstəqil dövlət olaraq tərəqqi edəcəyinə inanıram.

Heydər Əliyevin adı Azərbaycan durduqca, əbədiyyətə qədər Azərbaycanla qoşa yaşayacaqdır.

Ruhu şad olsun!»

*Sonra Türkiyənin Baş naziri Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya xatirə hədiyyəsi təqdim etdi.*

*Mehriban xanım hörmətli qonağa Fondun fəaliyyətinə həsr olunmuş kitabı, Fondun ən dəyərli layihələrindən olan «Qarabağ xanəndələri» albomunu təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Fondun binasının eyvanından Bakının, Xəzərin mənzərəsini, xalqımızın qədim və möhtəşəm tarix-mədəniyyət abidəsi olan İçərişəhəri seyr etdilər.*

*Hörmətli qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.*

*Fondun binası qarşısına toplaşmış yüzlərlə şəhər sakini prezident İlham Əliyevi və Baş nazir Rəcəb Tayyib Ərdoğanı hərarətlə salamladılar, onlara hörmət və ehtiramlarını bildirdilər.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*30 iyun 2005-ci il*

Hörmətli cənab Baş nazir!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Türkiyə Cümhuriyyətinin Baş naziri, mənim qardaşım Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri başa çatır. Deyə bilərəm ki, səfər çox uğurlu idi. Apardığımız danışıqlar, keçirdiyimiz görüşlər bizi bir daha əmin etdi ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr ən yüksək səviyyədədir, bizim dostluğumuz, qardaşlığımız xalqlarımız üçün, gələcəyimiz üçün çox önəmli bir amildir. Biz bütün zamanlarda bir yerdə olmuşuq. Bütün zamanlarda bir-birimizə dayaq, dəstək olmuşuq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra biz Türkiyənin dəstəyini, köməyini daim hiss edirik və bu dəstəyə görə qardaş kimi minnətdaram. Azərbaycanın ən ağır anlarında Türkiyə daim bizim yanımızda idi, bizi dəstəkləyirdi. Azərbaycanın haqq işinin dünya birliyində müdafiə olunmasında Türkiyə dövlətinin, hökumətinin rolu müstəsna əhəmiyyət daşıyırdı. Bizi ən çox narahat edən, Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də Türkiyənin dəstəyini, yardımını hər an hiss edirik, onu duyuruq və bu bizə çox böyük dəstəkdir.

Azərbaycan bu münaqişəni dinc yolla, danışıqlar yolu ilə həll etməyə çalışır. Ancaq onu da bilməliyik ki, bu məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Etnik təmizləmə siyasətindən əziyyət çəkən bir milyon azərbaycanlı qaçqın və köçkün öz doğma torpaqlarına qayıtmalıdır.

Artıq beynəlxalq təşkilatlar bu məsələyə daha böyük diqqətlə yanaşırlar. Yenə də xüsusilə qeyd etmək istəyirəm ki, Türkiyənin bu işdə fəaliyyəti, dünyadakı nüfuzu, beynəlxalq təşkilatlardakı rolu bu məsələnin ədalətli həlli işində çox mühüm rol oynayır.

Bizi birləşdirən müştərək tariximizdir, etnik köklərimizdir, dinimiz, dilimiz, mədəniyyətimizdir. Azərbaycan xalqı və Türkiyə xalqı əsrlər boyu milli mənliklərini qoruyub saxlamışlar və bu gün də müstəqil dövlətlər kimi, dünya birliyində öz layiqli yerlərini tutublar. Bizim gücümüz birliyimizdədir. Biz bunu hiss edirik, bunun müsbət nəticələrini görürük. Bu gün mən dünyada Türkiyə və Azərbaycan kimi ikinci müttəfiq ölkələr tanımıram. Bu müttəfiqlik tarixi köklərə əsaslanır, bizim birgə maraqlarımıza, Azərbaycan və türk xalqlarının iradəsinə, arzusuna əsaslanır. Bizim vəzifəmiz ondan ibarətdir ki, bu dostluğu, qardaşlığı daha da möhkəmləndirək, onu əbədi edək.

Böyük öndər Mustafa Kamal Atatürkün sözləri yadıma düşür: «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir». Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məşhur ifadəsi yada düşür: «Azərbaycan–Türkiyə bir millət, iki dövlətdir». Bu, həqiqətən, bizim gələcəyimizi müəyyən edəcək amillərdir. Azərbaycan və Türkiyə birliyi, qardaşlığı möhkəm zəmində qurulubdur. Mən şübhə etmirəm ki, gələcəkdə bizim birgə fəaliyyətimiz bölgədə gedən proseslərə müsbət təsir edəcək və bölgədəki çəkimizi artıracaqdır.

Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq bütün bölgə üçün, bütün region üçün bir örnəkdir. Bizim birgə səylərimiz nəticəsində bölgədə ən böyük enerji layihəsi – Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsi həyata keçirilir. Bildiyimiz kimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri

qeyd edilərək, bu kəmərə Heydər Əliyevin adı verildi. Eyni zamanda, böyük minnətdarlıq hissi ilə demək istəyirəm ki, Türkiyənin Ceyhan limanına da Heydər Əliyevin adı verilibdir. Bu qərar Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu, Heydər Əliyevin xatirəsinə olan böyük hörmətdir.

Bu fürsətdən istifadə edib bildirmək istəyirəm ki, son vaxtlar Türkiyənin müxtəlif yerlərində Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi Azərbaycan xalqında böyük minnətdarlıq hissi oyadır və mən Azərbaycan xalqının prezidenti kimi, bu diqqətə, bu qayğıya, bu məhəbbətə, bu münasibətə görə türk xalqına, Türkiyə dövlətinə, hökumətinə öz minnətdarlığımı bildirirəm.

Bizi gələcəkdə daha böyük layihələr gözləyir.

Bu gün Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi haqqında fikir mübadiləsi aparıldı. Məmnunluq hissi ilə bildirildi ki, bu layihə uğurla icra edilir və gələn ilin sonuna qədər biz Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismara verilməsini qeyd edəcəyik. Eyni zamanda, bölgədə işbirliyinin inkişafı üçün mühüm əhəmiyyət daşıyan Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu layihəsi də müzakirə olundu və ümid edirəm ki, bu istiqamətdə də lazımi addımlar atılacaqdır. Bizim beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz də çox uğurludur.

Türkiyə–Azərbaycan əlaqələri haqqında saatlarla məhəbbətlə, sevgi ilə danışmaq olar. Mən sizin vaxtınızı çox almaq istəmirəm. Bu gün çoxlu görüşlər oldu, çoxlu nitqlər söylənildi. Ancaq onu demək istəyirəm ki, biz Azərbaycanda bu ikitərəfli münasibətlərə xüsusi yer ayırırıq. Bu münasibətlər müstəsna xarakter daşıyır. Bunlar Azərbaycan və Türkiyə üçün lazımdır. Bizim ölkələrimizin inkişafı üçün lazımdır. Gələcək nəsillərin rahat, firavan yaşaması üçün lazımdır. Amma eyni zamanda, bu münasibətlər bizim ürəyimizdə yaşayır. Biz qardaşıq, bizi heç nə ayıra bilməz. Türk və Azərbaycan xalqlarının xoşbəxt gələcəyi bizim birliyimizdədir.

Hörmətli Baş nazir, mən Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Sizə və bütün türk xalqına xoşbəxtlik, səadət, firavanlıq arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ BƏZİ YERLİ POLİS ORQANLARININ RƏHBƏR HEYƏTİ İLƏ GÖRÜŞDƏ* NİTQ

*Prezident sarayı*

*1 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Azərbaycan polisinin yaradılmasının 87-ci ildönümü münasibətilə Daxili İşlər Nazirliyinin və bəzi yerli polis orqanlarının rəhbər heyətini qəbul etmişdir.*

*Daxili Işlər naziri general-polkovnik Ramil Usubov dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyevə raport verdi: «Daxili İşlər Nazirliyinin və bəzi yerli polis orqanlarının rəhbər heyəti polisin 87-ci ildönümü münasibətilə zati-alinizin göstərişi ilə toplanmışdır».*

Hörmətli zabitlər!

Sizi qarşıdan gələn Azərbaycan polisi günü münasibətilə ürəkdən təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan polisi çox mühüm funksiyanı icra edir. Hər bir müstəqil dövlət üçün onun daxili işlər orqanları xüsusi əhəmiyyətə malikdir. Azərbaycanda ictimai-siyasi sabitliyin, asayişin qorunmasında polisin rolu çox yüksəkdir. Ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra çox böyük çətinliklərlə üzləşmişdi. Daxildə gedən mənfi proseslər, ölkəmizi bürümüş xaos və anarxiya Azərbaycanı faktiki olaraq

* Görüşdə Respublika Daxili İşlər naziri Ramil Usubov görülmüş və gələcəkdə görüləcək işlər haqqında məruzə etdi.

uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz və onun acı nəticələri Azərbaycanda vəziyyəti daha da gərginləşdirirdi. Onu da xüsusilə qeyd etmək istəyirəm ki, müharibənin ilk illərində Azərbaycan polisi ilk zərbəni öz üzərinə götürmüşdü. Çünki o vaxt Azərbaycanda milli ordu yox idi və cəbhədə polis qüvvələri vuruşurdu, döyüşürdü, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlər verirdi. Minə yaxın polis işçisi şəhid, yüzlərlə əməkdaş əlil olmuşdur.

Ondan sonrakı dövrdə Azərbaycanda böhranın nəticələrini aradan qaldırmaq üçün böyük səylər göstərildi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana qayıdışı və onun rəhbərliyi altında aparılan islahatlar, sabitliyə yönəlmiş siyasət Azərbaycanı o çətin vəziyyətdən çıxartdı və ölkəmiz inamla inkişaf etməyə başladı.

Ancaq buna baxmayaraq, yenə də təhlükələr mövcud idi. Azərbaycan çox qısa müddət ərzində çox böyük problemlərlə üzləşmişdi. Hərbi çevrilişlərə cəhdlər, sui-qəsd cəhdləri, digər xoşagəlməz hadisələr baş vermişdi. Ancaq Azərbaycan dövləti öz iradəsinə əsaslanaraq, xalqın dəstəyinə əsaslanaraq bütün bu çətin vəziyyətdən şərəflə çıxdı, Azərbaycan xalqı öz lideri ətrafında birləşdi və ölkədə sabitlik, ictimai asayiş bərpa olundu. Əgər biz Azərbaycanın iqtisadi inkişafına nəzər salsaq görərik ki, məhz Azərbaycanda sabitlik bərpa olunandan sonra ölkədə bu sahədə dönüş başladı.

1996-cı ildən başlayaraq bu günə qədər ölkəmiz uğurla inkişaf edir, iqtisadi potensialını gücləndirir, bölgədə öz gücünü artırır, möhkəmləndirir. Bu gün bizim bölgədəki mövqelərimiz çox möhkəmdir. Hər bir ölkə üçün və xüsusilə keçid dövrünü yaşayan ölkələr üçün sabitlik, asayiş inkişafın başlıca şərtləridir. Bu, böyük sərvətdir, böyük nemətdir. Bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin bizə əmanət etdiyi sərvətdir. Biz bunu qorumalıyıq və qoruyacağıq.

Mən çox şadam ki, son müddət ərzində, prezident seçkilərindən keçən dövr ərzində Azərbaycanda sabitlik daha da

möhkəmlənmişdir. Azərbaycanda qayda-qanun hökm sürür və bütün qanunlar işləyir, ölkə normal inkişaf edir. Biz Azərbaycan xalqının normal yaşaması üçün əlimizdən gələni etməliyik, bütün vasitələrlə ölkəmizdə sabitliyi qorumalıyıq, onu möhkəmləndirməliyik. Mən şübhə etmirəm ki, Azərbaycan polisi bundan sonra da sabitliyin, asayişin keşiyində duracaq və Azərbaycan xalqı rahat yaşayacaq, inkişaf edəcəkdir.

Bizim böyük planlarımız, layihələrimiz var. Azərbaycan artıq inamla inkişaf edir, ölkədə islahatlar aparılır, yeni iş yerləri açılır, ölkə iqtisadiyyatı böyük sürətlə artır, vəziyyət günü-gündən yaxşılaşır. Problemlər də çoxdur – işsizlik, yoxsulluq, digər problemlər. Biz bunları da bilirik. Amma bunlar həll edilir və həll olunacaqdır. Nəzərdə tutulmuş proqramlar icra edilir və mən şübhə etmirəm ki, yaxın gələcəkdə Azərbaycan çox zəngin, qüdrətli ölkəyə çevriləcəkdir.

Polisə qayğı bütün dövrlərdə çox yüksək səviyyədə olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu sahəyə daim diqqət göstərirdi. Siz bunu yaxşı bilirsiniz. Həmin siyasət bu gün də davam etdirilir. Bir il bundan əvvəl polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün Dövlət Proqramı qəbul edilibdir və icra olunur. Maaşlar iki dəfə qaldırılıbdır və gələcəkdə də qaldırılması nəzərdə tutulur. Biz bunu edəcəyik.

Polis orqanlarının maddi-texniki bazası güclənir. Lazım olan avadanlıq, xüsusi vasitələr, avtomaşınlar alınır və proqramda nəzərdə tutulmuş bütün tədbirlər görüləcəkdir. Yəni dövlət tərəfindən bundan sonra da qayğı göstəriləcək və əminəm ki, polisin maddi-texniki bazası möhkəmlənəcək və dünya standartlarına cavab verəcəkdir.

Ümumiyyətlə, biz özümüzü MDB-nin digər ölkələri ilə müqayisə etsək görərik ki, Azərbaycanda kriminogen durum daha yaxşıdır. Azərbaycanda cinayətkarlığa qarşı mübarizə aparılır və öz nəticələrini verir. Ölkəmizdə sabitlik var, asayiş var. Azərbaycana gələn müxtəlif qonaqlar dəfələrlə bəyan edirlər ki, Bakıda, Azərbaycanda gün ərzində, istənilən

vaxtda – səhər, axşam, gecə insanlar sərbəst şəkildə küçələrə çıxır, rahat yaşayırlar. Başqa şəhərlərlə müqayisə etsək görərik ki, heç də hər yerdə belə deyildir. Bəzi böyük şəhərlər var ki, insanlar axşam saat 9-dan sonra evdən çıxmağa qorxurlar. Azərbaycandakı vəziyyət həqiqətən böyük nailiyyətdir. Bəlkə də biz buna gündəlik həyatda fikir vermirik, yaxud da artıq bu vəziyyətə öyrəşmişik. Amma həqiqətən, başqa ölkələrdə, böyük şəhərlərdə kriminogen durum çox ağırdır. Bizim xoşbəxtliyimizdir ki, Azərbaycan xalqı öz doğma Vətənində, torpağında rahat yaşayır, özünü çox rahat hiss edir. Əlbəttə ki, polis orqanlarının bu işdə əməyi çox mühümdür.

Nöqsanlar da var. Biz onları da bilirik. Bu nöqsanlarla ciddi mübarizə aparılır və aparılmalıdır. Mənə verilən məlumata görə, son beş il ərzində 2 minə yaxın polis işçisi qeyri-qanuni hərəkətlərinə görə orqanlardan xaric edilmişdir. Onların bir hissəsi intizam, digərləri cinayət məsuliyyətinə cəlb edilmişdir. Bu təmizləmə işlərinin davam etdirilməsi zəruridir. Biz daxili işlər orqanlarını cinayətkar ünsürlərdən təmizləməliyik və xalq da bunu görməlidir. Polis xalqın məhəbbətini qazanmalıdır və polisə hörmət daha da artmalıdır. Bu hörmət nəyin hesabına yaranır, biz onu da bilirik. İlk növbədə, polisin öz vəzifə borclarını şərəflə yerinə yetirməsi ilə. Bu, bütövlükdə Azərbaycanda var və biz bunu görürük. Digər tərəfdən, xalqa münasibət mədəni, mülayim olmalıdır. Kobudluğa, mədəniyyətsiz hərəkətlərə yol verilməməlidir. Əsassız yoxlamalara, yaxud hansısa başqa mənfi əməllərə yol verilməməlidir. Bu məsələyə çox diqqətlə yanaşmaq lazımdır.

Azərbaycan bu gün öz inkişaf dövrünü yaşayır. Azərbaycan dünya birliyinə inteqrasiya siyasətini davam etdirir. Biz dünyada mövcud olan müsbət təcrübəni Azərbaycanda tətbiq edirik və edəcəyik. Bu müsbət təcrübə, o cümlədən Avropa ölkələrində asayişi qoruyan qurumlarda olan müsbət təcrübə Azərbaycanda da tətbiq olunmalıdır.

Azərbaycanın coğrafi vəziyyəti, bölgədəki mövqeləri, bizim zəngin təbii ehtiyatlarımız respublikamızı çox cəlbedici ölkəyə çeviribdir. Əlbəttə, bizim dostlarımız çoxdur və dost ölkələrlə sıx əməkdaşlıq edirik, öz potensialımızı gücləndiririk. Amma onu da bilirik ki, bizi istəməyən qüvvələr də az deyil. İlk növbədə, dünyada mövcud olan erməni lobbisi bu gün Azərbaycana qarşı çox böyük və çirkin kampaniya aparır. Bu həmişə belə olubdur. Biz bunu bütün dövrlərdə hiss etmişik. Amma bu gün görürük və hiss edirik ki, bu kampaniya daha da kəskinləşibdir. Bunun da səbəbləri var. Əsas səbəblər odur ki, Ermənistanla müqayisədə Azərbaycan çox sürətlə inkişaf edir, öz iqtisadi və hərbi potensialını gücləndirir. Ölkəmizdə gedən proseslər – demokratikləşmə prosesləri, Avropa strukturlarına inteqrasiya siyasəti, Azərbaycanda həyata keçirilən nəhəng transmilli layihələr, əlbəttə ki, bizim düşmənlərimizi çox narahat edir.

Dünya erməni lobbisi bu gün Azərbaycana müharibə elan edibdir. Bütün vasitələrdən istifadə edirlər ki, Azərbaycanı ləkələsinlər, Azərbaycan haqqında dünyada mənfi imic yaratsınlar. Bunun da səbəbi aydındır. Çünki bütün başqa sahələrdə Ermənistan Azərbaycanın qarşısında çox aciz görünür. Bizim iqtisadiyyatımız sürətlə inkişaf edir, hərbi potensialımız güclənir, bölgədəki mövqelərimiz möhkəmlənir. Regional əməkdaşlıq müstəvisində Azərbaycan çox önəmli ölkəyə çevrilir. Bizim enerji layihələrimiz, nəqliyyat layihələrimiz – bütün bu amillər Ermənistanı və onun dünyadakı havadarlarını çox narahat edir. Ona görə bu gün yeni mövzular ortaya çıxır, Azərbaycana qarşı kampaniyanın yeni məqamları üzə çıxır: Azərbaycanı dünya ictimaiyyətinə çox mənfi şəkildə təqdim etmək, Azərbaycan haqqında olmazın uydurmalar yaymaq və Azərbaycanı qeyri-demokratik ölkə kimi təqdim etmək. Məqsəd də aydındır – sabah desinlər ki, Azərbaycanda demokratiya yoxdur, Azərbaycanda insan haqları pozulur və belə olan halda Dağlıq Qarabağın erməniləri Azərbaycanın tərkibində yaşaya bilməzlər.

Bu kampaniya geniş vüsət alıb, ona müxtəlif dairələr qoşulubdur. Bəzi mətbuat orqanları da bu kampaniyada iştirak edirlər. Erməni lobbisinin himayəsində olan, müxtəlif ölkələrdə fəaliyyət göstərən siyasi dairələr bu kampaniyaya qoşulublar. Biz bunların hamısını bilirik, hiss edirik və vəziyyəti təhlil edərkən görürük ki, bu çox ciddi məsələdir. Bunun qarşısını almaq üçün nəyi, hansı amilləri ortaya qoymalıyıq? Biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Azərbaycanın iqtisadi potensialını gücləndirməliyik. Azərbaycanda insanların rahat yaşamasını təmin etməliyik. Demokratik proseslərə daha da güclü təkan verməliyik. Əlbəttə ki, sabitliyin qorunmasına daha da böyük diqqət göstərməliyik.

Bu gün bizi istəməyən qüvvələr Azərbaycanda sabitliyin pozulmasına çalışırlar. Çünki başa düşürlər ki, Azərbaycanla başqa cür mübarizə aparmaq çox çətin olacaqdır. Azərbaycan öz iqtisadi potensialını işə salaraq, bir neçə ildən sonra çox güclü ölkəyə çevriləcək və bölgədə gedən proseslərə daha da fəal, ciddi təsir göstərəcəkdir. Bunu istəməyən qüvvələr Azərbaycanda xaos, anarxiya yaratmağa, sabitliyi pozmağa çalışırlar. Biz buna yol verməməliyik və yol verməyəcəyik.

Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir. 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkiləri bunu bir daha təsdiq etdi. Bu gün Heydər Əliyev siyasəti Azərbaycanda uğurla davam etdirilir. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bizim fəaliyyətimizi bəyənir. Biz buna arxalanaraq ölkədə islahatlar aparırıq, ölkəmizi inkişaf etdiririk. Əlbəttə ki, sabitliyin qorunması üçün çox ciddi addımlar atılmalıdır. Bu işdə daxili işlər orqanlarının üzərinə əlavə məsuliyyət düşür. Daxili işlər orqanları bunu dərk etməlidir, anlamalıdır və öz gündəlik fəaliyyətində bu prinsipləri rəhbər tutaraq əlindən gələni əsirgəməməlidir ki, Azərbaycanda ictimai-siyasi sabitlik, asayiş pozulmasın.

Bunu daxildə də istəməyən qüvvələr var. Amma mən onlar haqqında danışmaq istəmirəm. Ümumiyyətlə, danışmağa dəyməz. Çünki bu heç bir narahatlığa səbəb deyildir. Da-

xildə vəziyyəti pozmaq istəyən qüvvələr və onların cılız hərəkətləri, ümumiyyətlə, bizi narahat etməməlidir. Bizim əsas diqqətimiz əleyhimizə kampaniya aparan Ermənistanın, erməni lobbisinin təsiri altında olan qüvvələrin fəaliyyətidir və Azərbaycana yönəldilmiş təxribatlardır.

Mən ümidvaram və şübhə etmirəm ki, Azərbaycan polisi onun qarşısında duran bu mühüm vəzifələri anlayır, öz gündəlik fəaliyyətində bu məsələlərə böyük diqqət göstərir. Tələb edirəm ki, bundan sonra da bu məsələyə ciddi yanaşılsın. Eyni zamanda, bayaq dediyim kimi, insanlarla münasibətdə ciddi dönüş yaranmalıdır. Azərbaycan xalqı Azərbaycan polisini sevməlidir, ona hörmət etməlidir. Bu gün bu hörmət var və mən istəyirəm ki, daha da çox olsun. Bunu etmək üçün gərək siz yaxşı işləyəsiniz, öz gündəlik fəaliyyətinizdə yaxşı nəticələr göstərəsiniz, cinayətkarlara qarşı daha da amansız mübarizə aparasınız.

Mən bu sahədəki fəaliyyətdən razıyam. Demək olar ki, Azərbaycanda uzun illər ərzində nə cinayətkar dəstə problem yarada bilər, nə də ki, başqa qeyri-qanuni birləşmələr mövcud deyildir. Vaxtilə reketlə, quldurluqla məşğul olan dəstələr var idi. Bunların hamısı zərərsizləşdirildi və əlbəttə ki, bu istiqamətdə işlər daha da güclü, fəal getməlidir.

* * *

*Görüşdə bir qrup polis əməkdaşlarına mükafatların təqdim olunma mərasimi keçirildi.*

*Dövlətimizin başçısı İlham Əliyev 2005-ci il 30 iyun tarixli sərəncamı ilə təltif etdiyi polis əməkdaşlarına «Şöhrət» və «Azərbaycan bayrağı» ordenlərini təqdim etdi.*

* * *

**İlham Əliyev:** Sizi bir daha təbrik edirəm. Sabah sizin peşə bayramınızdır. Çox gözəl bayramdır. Mən sizə bir daha uğurlar, cansağlığı arzulayıram. Arzu edirəm ki, bundan sonra da doğma Vətənimizə ləyaqətlə xidmət edəsiniz.

Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi işində iştirak edəsiniz. Azərbaycanda bu gözəl vəziyyəti daha da möhkəmləndirmək üçün, bu gözəl ab-havanı əbədi etmək üçün əlinizdən gələni edəsiniz.

Mən şübhə etmirəm ki, ölkəmiz daha da güclənəcək, Azərbaycanda insanlar rahat şəraitdə, sülh şəraitində yaşayacaqlar. Asayiş qorunacaq, sabitlik möhkəm olacaq və bilirsiniz ki, bu işdə polisin üzərinə xüsusi bir vəzifə düşür. Bu vaxta qədər siz bu vəzifəni ləyaqətlə icra etmisiniz. Arzu edirəm ki, bundan sonra da doğma Vətənimizə öz xidmətlərinizi göstərəsiniz. Qarşıdan gələn bayram münasibətilə sizi bir daha təbrik edir, sizə uğurlar arzulayıram.

Sağ olun.

## «AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyul 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə «Aqo» monitorinq qrupunun nümayəndə heyətinin Azərbaycana növbəti səfərinin qarşılıqlı maraq doğuran məsələlərlə daha yaxından tanış olması üçün yaxşı imkan yaratdığını vurğuladı, ölkəmizdəki demokratik inkişaf prosesləri barədə qonaqlara ətraflı söhbət açdı.*

*Qrupun rəhbəri – Almaniyanın Avropa Şurasındakı daimi nümayəndəsi Roland Vegener əvvəlki səfərlərindən ötən dövr ərzində Azərbaycanda müxtəlif sahələrdə böyük irəliləyişlərin şahidi olduqlarını söylədi. O, prezident İlham Əliyevin imzaladığı əfv fərmanlarını, seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncamı, penitensiar sahədəki müsbət dəyişiklikləri, məhbusların hüquq və mənafelərinin müdafiəsi, qarşıdakı parlament seçkilərində namizədlərə bərabər imkanların yaradılması üçün görülən tədbirləri, iqtidarla müxalifət arasındakı dialoq təşəbbüsünü, mitinqlərin keçirilməsinə icazə verilməsini demokratik inkişafın bütün istiqamətlərindəki müsbət irəliləyişlər kimi dəyərləndirdi və bu prosesin çox yaxşı həyata keçirildiyini vurğuladı.*

*Cənab Roland Vegener prezident İlham Əliyevin CNN-Türk telekanalına müsahibəsində Azərbaycanda gedən demokratik proseslər barədə verdiyi ətraflı məlumatların «AQO» monitorinq qrupu tərəfindən maraqla izlənildiyini bildirdi. Qarşıdakı parlament seçkilərinin çox böyük əhəmiyyət daşıdığını*

*bildirən qonaq dedi ki, bu, Azərbaycanda çox mühüm siyasi hadisə olacaqdır.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## MİSİR XARİCİ İŞLƏR NAZİRLİYİNİN MDB VƏ AVROPA İSLAM ÖLKƏLƏRİ ÜZRƏ TEXNİKİ YARDIM FONDUNUN BAŞ KATİBİ ƏLİ CƏLAL BATSYUNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyul 2005-ci il*

*Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Azərbaycan prezidenti İlham Əliyev bu əlaqələrin, xüsusilə iqtisadi sahədə əlaqələrin daha da genişlənməsi üçün böyük perspektivlərin olduğunu vurğuladı.*

*Azərbaycan ilə Misir arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini söyləyən qonaq Misir prezidenti Hüsnü Mübarəkin səmimi salamlarını və dərin ehtiramını prezident İlham Əliyevə çatdırdı.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyev ilə Misir prezidenti Hüsnü Mübarək arasında vaxtilə möhkəm dostluq əlaqələrinin olduğunu xatırladan Əli Cəlal Batsyuni ölkələrimizin əməkdaşlığının inkişafında bu dostluğun xüsusi rol oynadığını vurğuladı. O, dövlətimizin başçısına müraciətlə dedi: Cənab Prezident, Sizin müdrik rəhbərliyiniz altında Azərbaycanda həyata keçirilən işlər Misirdə böyük maraqla izlənilir.*

*Səmimi salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarının və dərin ehtiramının prezident Hüsnü Mübarəkə çatdırılmasını xahiş etdi.*

## TÜRKİYƏNİN NÜFUZLU «HÖQTƏ» HƏFTƏLİK İCTİMAİ-SİYASİ JURNALININ BAŞ REDAKTORU, «STAR» QƏZETİNİN KÖŞƏ YAZARI VƏ «STAR» TELEVİZİYA KANALININ SİYASİ İCMALÇISI ARDAN ZENTÜRKƏ VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*1 iyul 2005-ci il*

**J u r n a l i s t: Gördüyümüz bu meydan haqqında çox danışmayacağam, bura Bakının məşhur Azadlıq meydanıdır. Azərbaycan türk millətinin müstəqillik alovunu ilk yandırdığı meydandır. Burada gördüyümüz bayraq əbəs yerə dalğalanmır, orada əvvəllər Leninin heykəli vardı. Amma aşağıdakı tribunada Azərbaycanın 1918-ci ildə milli cümhuriyyətin bayrağı olaraq qəbul edilmiş bugünkü milli bayrağı qaldırıldı.**

**Bunları haradan bilirəm? Mən o anlarda burada idim.**

**İndi isə Azərbaycanın paytaxtı Bakı inanılmaz bir strateji paytaxt kimi qiymətləndirilir və bütün dünyanın gözü yenə bu torpaqda, bu paytaxtdadır. 16 il əvvəl burada müstəqillik uğrunda mübarizə aparılırdı, 16 il sonra böyük bir strategiyadan danışılır. Bu, böyük bir uğurdur. Azərbaycan prezidenti İlham Əliyevlə söhbətimizə bu uğurların tarixindən başlamağı vacib bildim.**

**İ l h a m  Ə l i y e v:** Bu, Azərbaycan tarixində çox müstəsna hadisə idi. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin gələcəyi çox da aydın deyildi. Çünki əsl müstəqillik sadəcə olaraq, dövlət atributlarının mövcudluğu deyildir. Bayraq, himn – təbii ki, bunlar atributdur. Əsl

müstəqillik isə odur ki, ölkə öz siyasətini müstəqil şəkildə apara bilsin. Azərbaycanın o vaxtkı durumu çox çətin idi. Çox böyük problemlər mövcud idi. Ölkədə iqtisadi böhran var idi. Xaricdən təzyiqlər, daxildə çəkişmələr, sui-qəsdlər, çevriliş cəhdləri vardı. Biz bütün bunları yaşadıq və sizə açıq deyə bilərəm ki, mən tam əminəm, yalnız Heydər Əliyevin qətiyyəti, onun müdrikliyi, siyasəti Azərbaycanı o böyük bəlalardan qurtardı və bu gün ölkəmiz çox inamla inkişaf edir. Bölgədəki mövqelərimiz güclənir. İqtisadi potensialımız artır. Ölkədə gedən islahatlar öz nəticələrini verməkdədir və hər gün, hər an Azərbaycan daha da möhkəm olur. Bizim müstəqilliyimiz daha da güclənir və əlbəttə ki, bu bizim üçün böyük xoşbəxtlikdir, sevincdir.

**– Hörmətli Heydər Əliyev lap vaxtında hakimiyyətə qayıtdı, bundan sonra baş verənləri biz Türkiyədə yaxından izlədik. Hörmətli Heydər Əliyev hansı strategiya ilə bu müstəqilliyi möhkəmləndirdi, nəyə önəm verdi? Əsas məqamları bilmək istərdim.**

– Zənn edirəm ki, müxtəlif amillər rol oynadı. Amma ilk başlanğıcda təbii ki, sabitliyin bərpa olunması başlıca şərt idi. Çünki sabitlik olmayan yerdə inkişafdan söhbət açmaq mümkün deyildir. Burada o vaxt fəaliyyət göstərən qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Ondan sonra hakimiyyət uğrunda mübarizə aparan qüvvələr də zərərsizləşdirildi və sabitlik yarandı. Ondan sonra inkişaf başladı. Əgər biz iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, Azərbaycanda inkişaf 1996-cı ildən sonra başladı. 1996-cı ilə qədər bir tənəzzül var idi. 1996-cı ildə ən təhlükə törədən amillər ortadan götürüləndən sonra ölkə elə bil ki, nəfəs aldı və inkişaf etməyə başladı.

**– Azərbaycan xüsusilə Qafqaz bölgəsində getdikcə artan strateji əhəmiyyətə malikdir. Bunu hamı yazır, deyir və biz də bilirik. Sizcə, bu strateji əhəmiyyətin arxasında sadəcə, neftmi var?**

– Zənn etmirəm ki, sadəcə, neft olsun. Çünki neft başqa yerlərdə də var, başqa ölkələrdə də var. Azərbaycanın mövqeyi, Azərbaycanın bölgədəki artan potensialı, əlbəttə ki, onu bu bölgədə əhəmiyyətli ölkəyə çevirir. Burada həm insan potensialı çox güclüdür, həm də qonşu dövlətlərlə münasibətlərimiz, Avropa ilə, Avratlantik məkanı ilə sıx işbirliyimiz, təbii ki, bizim önəmimizi artırdı. Azərbaycan antiterror koalisiyasında çox fəal bir ölkədir. Bizim əsgərlərimiz dünyanın müxtəlif yerlərində sülhməramlı funksiyalarını yerinə yetirirlər. Əlbəttə ki, Azərbaycan ərazisindən keçən nəqliyyat, enerji dəhlizləri və digər infrastrukturun mövcudluğu bizim respublikamızı bölgədə çox önəmli ölkəyə çevirir.

**– Bu günlərdə bölgə baxımından iki mühüm ölkənin liderləri olaraq Siz və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan görüşdünüz. Azərbaycan xüsusilə Kipr türkləri baxımından çox mühüm bir mövqe açıqladı. Bu, Türkiyənin israrlı tələbi ilə oldu, yoxsa qardaş bir diyarın probleminə şərik olmaq arzusundan irəli gəldi?**

– Xeyr, xeyr. Bu, təbii duyğularımızdır. Türkiyə və Azərbaycan iki qardaş ölkədir. Hörmətli Baş nazir burada olarkən mən öz çıxışımda da söylədim ki, dünyada başqa iki ölkə yoxdur ki, bir-birinə belə sıx bağlı olsun, bir-birinə belə yaxın olsun. Ona görə Kipr məsələsində biz daim Türkiyənin yanındayıq. Mən Türkiyəyə rəsmi səfər etdiyim zaman, hələ bir il bundan öncə bu məsələ ilə bağlı açıq bəyan etdim ki, Azərbaycan ön sıralarda olacaqdır. İndi zaman yetişdi və biz gərək bu ön sıralarda duraq. Çox önəmli addımlar atılmaqdadır. Artıq bütün təlimatlar verilibdir. Bu yaxınlarda birbaşa uçuşlar başlanacaq, bizim şirkətlərin ofisləri açılacaqdır. Bu gün təlimat verdim ki, bizim işçi heyət – həm dövlət rəsmiləri, həm də özəl sektorun üzvləri bu yaxınlarda Kiprə səfər etsinlər və bütün əlaqələr mövcud olsun. Yəni Kipr türklərinin təcrid edilmiş vəziyyətdən çıxması üçün biz ön sırada olmalıyıq.

**– Ön sırada olmalısınız. Çünki xatırladığımız kimi, Azərbaycanın müstəqilliyinin tanınmasında da Türkiyə ön sırada idi.**

– Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir.

**– Mən strateji tərəfdaşlıq ifadəsindən çox istifadə etmək istəmirəm. Sizcə, bu qardaşlıq qarşıdakı illərdə bölgəyə necə təsir edəcəkdir? Türkiyə ilə Azərbaycan, demək olar ki, bütün beynəlxalq problemlərlə bağlı birgə hərəkət edirlər.**

– Bizim xalqımızın ümummilli lideri, öndərimiz Heydər Əliyevin bu məşhur kəlamı var: Biz bir millət, iki dövlətik. Bu prinsiplər bizim üçün çox əzizdir və öz siyasətimizi bunun üzərində qururuq. Əlbəttə ki, strateji maraqlar, mənafelər də önəmlidir, ancaq bunun təməlində də ürəkdən ürəyə gedən yollar durur. Bu gün bizim strateji işbirliyimiz bölgədə gedən proseslərə çox güclü təsir göstərir. Bizim birgə həyata keçirdiyimiz böyük layihələr – Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz xətti, ondan sonra gələcək Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu xətti – bütün bunlar bölgədə tamamilə yeni bir şərait yaradır.

Bu mərhələdə Türkiyənin və Azərbaycanın bölgədəki çəkisi artmaqdadır. Bizim iştirakımız olmadan burada heç bir layihə həyata keçə bilməz. Heç bir ciddi məsələ – nə iqtisadi, nə siyasi, nə də başqa məsələ bizim iştirakımız olmadan həll edilə bilməz.

**– Türkiyə və Azərbaycanın iştirakı olmadan...**

– Bəli. Türkiyə və Azərbaycanın. Ona görə bizim birliyimiz, əlbəttə ki, xalqlarımızın tələbidir. Xalqlar bunu tələb edirlər və biz, bu gün xalqlara rəhbərlik edən insanlar da eyni fikirdəyik. Amma eyni zamanda, strateji nöqteyi-nəzərdən gələcəkdə türk dünyasının möhkəmlənməsi işində bu, başlıca şərtdir.

**– Bu əməkdaşlıq, qardaşlıq, bir az əvvəl qeyd etdiyiniz mənzərə çərçivəsində, Qafqazda həlledici rol oynayacaq bu münasibətlər çərçivəsində baxdıqda Dağlıq Qarabağdakı problemin həllinin gələcəyini necə görürsünüz?**

– Mən hiss edirəm və görürəm ki, dünyada gedən proseslər, qloballaşma siyasəti, Avropanın genişlənməsi, dünyada gedən demokratikləşmə prosesləri bu məsələnin Azərbaycanın xeyrinə həll olunmasına gətirib çıxaracaqdır. Çünki bu proseslər bizim xeyrimizədir. Əlavə etsək ki, Azərbaycanın iqtisadi potensialı artır, hərbi potensial artır və Ermənistanla müqayisədə Azərbaycan daha çox inkişaf etmiş bir ölkədir, sabah bu fərq, bu uçurum daha da böyüyəcək, mən şübhə etmirəm ki, biz öz torpaqlarımızı işğaldan azad edəcəyik. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Biz məsələnin beynəlxalq hüquq əsasında həll olunmasını istəyirik və bunda təkid edirik. Haqq-ədalət bizim tərəfimizdədir. Dünyada gedən, bölgədə gedən proseslər bizə əl verir. Hərbi gücümüz möhkəmlənibdir. Ona görə mən düşünürəm ki, əgər Ermənistan rəhbərləri daha konstruktiv mövqe tutarsa və işğal olunmuş torpaqlardan qoşunları qeyd-şərtsiz çıxararsa, bu onların marağına cavab verər.

**– Burada bir az «şeytana vəkillik» etmək istəyirəm. Nədənsə, Azərbaycan ilə Türkiyə beynəlxalq səviyyədə haqlı olduqları bəzi məsələləri dünyaya tam çatdıra bilmirlər. Misal üçün, biz Kipr məsələsini illər boyu beynəlxalq ictimaiyyətə çatdıra bilmədik. Siz torpaqlarınız işğal altında ikən, gedib dərdinizi dünyaya çatdırmaq məcburiyyətində qaldınız. Cənab Prezident, nə üçün məsələ türklərə gələndə ədalət prinsipi bir az yavaş işləyir?**

– Mən sizinlə tamamilə razıyam. Amma hesab edirəm ki, bu bizim ləng hərəkətimizdən, yaxud da məsələni az anlatmağımızdan irəli gəlmir. Biz on ildən artıqdır ki, həqiqəti dünya ictimaiyyəti qarşısına qoymuşuq, fəqət bu günə qədər ikili standartlar mövcuddur. Türkiyənin Avropa Birliyinə daxil olması məsələsi ilə bağlı vəziyyət də ikili standartlar siyasətidir. Məsələ onda deyil ki, biz nəyisə isbat edə bilməmişik, kiməsə anlada bilməmişik. Məsələ ondadır ki, yanaşma fərqlidir.

**– Sanki bir riyakarlıq var...**

– Riyakarlıq var.

**– Məsələn, mən sizin əsas probleminizdən çıxış edərək soruşmaq istəyirəm. Bilirsiniz ki, Azərbaycan torpaqlarının işğalına görə Türkiyə Ermənistan ilə sərhədi bağlayıbdır. Avropa Birliyi bu işğala son qoyulması üçün ermənilərə heç bir təzyiq etmir, amma Türkiyəni təkidlə sərhədi açmağa çağırır. Siz bir prezident olaraq bunu necə şərh edə bilərsiniz?**

– Bu, ədalətsizliyin təzahürüdür, böyük bir eybəcərlikdir, haqsızlıqdır. Amma bu reallıqdır. Biz bu reallığı inkar etsək də, öz mənfi münasibətimizi bildirsək də, onu qəbul etməliyik, çünki başqa yol yoxdur. Bu, ədalətsiz bir dünyadır və belə yanaşma bunu bir daha göstərir. Ona görə bizim gücümüz birliyimizdədir. Biz gərək güclü olaq, gərək birləşək ki, öz istədiyimizə nail olaq. Baxın, on ildən artıqdır ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır və bəzi qüvvələr bizə deyir ki, gedin ermənilərlə anlaşın. Biz necə onlarla anlaşaq? Onlar torpaqlarımızdan çıxmaq istəmir, deyirlər ki, Dağlıq Qarabağa müstəqillik verin. Biz onu heç vaxt verə bilmərik. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və onun Azərbaycandan ayrılması heç vaxt mümkün ola bilməz.

Amma mən sizə misal gətirim. Gürcüstanda buna bənzər iki münaqişə var. Abxaziya və Osetiya münaqişələri. İkisində də eyni hərəkətlər baş vermişdir – separatizm, ərazi bütövlüyünün pozulması, yüz minlərlə qaçqının yaranması və nəticədə ölkənin suverenliyinin pozulması. Gürcüstanın məsələlərində beynəlxalq təşkilatların mövqeyi birmənalıdır. Moldovada Dnestryanı münaqişə var, eyni durumdur. Amma Qarabağa gəldikdə başqadır. Nəyə görə? Erməni lobbisinin fəaliyyətidir. Erməni lobbisinin və onun əlinin altında olan bəzi riyakar siyasətçilərin mövqeyidir. Bu haqsızlığı görəndə, əlbəttə ki, bizdə çox böyük etiraz hissi oyanır.

**– Türkiyədəki psixologiyanın eynidir.**

– Əlbəttə, biz nə edə bilərik ki, bu ədalətsizliyə son qoyaq? Gərək birlikdə güclənək, birlikdə möhkəmlənək.

**– Cənab Prezident, sözünüzü kəsdiyim üçün üzr istəyirəm. Bildiyimə görə, 11 ildir atəşkəs rejimi var. Bayaq bir məsələni vurğuladınız, Azərbaycanın qüvvətlənəcəyini dediniz. Sizcə, Ermənistan bu prosesdə daim problem yaradarsa, Sizin rəhbərliyiniz və Azərbaycan xalqı münaqişəni müharibə yolu ilə birdəfəlik həll etməyə cəhd göstərə bilərmi?**

– Mən ümid edirəm ki, buna ehtiyac qalmaz. Çünki müharibə heç kimə xeyir gətirməz. Müharibə böyük bir fəlakətdir, humanitar fəlakətdir. Biz müharibəni yaşamışıq, istəmirik ki, yenidən qan tökülsün, insanlar həlak olsunlar. Ona görə bizim bütün səylərimiz sülh yoluna yönəldilibdir. Biz istəyirik ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Amma o da aydındır ki, Azərbaycan xalqının səbri artıq tükənməkdədir. Nə qədər gözləməliyik, nə qədər bu danışıqları aparmalıyıq?! Bu gün danışıqların aparılmasına lüzum var, çünki ümidlər var. Yəni indi müəyyən məsələlər müzakirə olunur və ümidlər var. Əgər o ümidlər artıq mövcud olmasa, onda bölgədə yeni bir vəziyyət yaranacaqdır. O zaman Azərbaycan öz siyasətini yenidən müəyyən etməlidir və biz Azərbaycan xalqının tələbinə uyğun olaraq, istənilən yolu seçə bilərik. Hər halda, biz torpaqlarımızın itirilməsi ilə barışmaq fikrində deyilik.

**– Hörmətli Heydər Əliyevin vaxtında Azərbaycan müstəqilliyini möhkəmləndirdi. Siz cavan bir dövlət başçısısınız, qarşıdakı seçkilərə görə dünyanın gözü Sizdədir. Necə ki, atanız müstəqilliyi möhkəmləndirdi, indi hamı Sizdən Azərbaycanda demokratiyanın dərinləşməsinə yol açmanızı gözləyir. Belə bir planınız, islahatlar aparmaq fikriniz varmı?**

– Təbii ki, var və mən əminəm ki, Azərbaycanın gələcəyi yalnız demokratik inkişaf sayəsində mümkündür. Ölkədə demokratik proseslər çox müsbət istiqamətdə gedir. Demokratik cəmiyyəti səciyyələndirən bütün amillər Azərbaycanda mövcuddur və əlbəttə ki, parlament seçkiləri bu işdə çox mühüm rol oynayacaqdır. Artıq hazırlıq işləri başlanıbdır. Seçkilərin şəffaf, ədalətli keçirilməsi üçün mənim tərəfimdən müvafiq

sərəncam imzalanmışdır. Əlavə tədbirlər də görülübdür. Mən şübhə etmirəm ki, seçkilər şəffaf keçiriləcək, Azərbaycan xalqının iradəsi öz əksini tapacaqdır. Bizim gözəl potensialımız var. Siz bu məsələyə çox doğru toxundunuz. Azərbaycanın müstəqil dövlət kimi yaşamasının, inkişafının ilk illərində sabitliyin qorunması, müstəqilliyin möhkəmlənməsi və ölkənin böhrandan çıxarılması əsas məsələlər idi. Bu gün qarşımızda yeni tələblər durur: ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək, dünya birliyinə inteqrasiya etmək və demokratiyanı möhkəmləndirmək. Biz bütün bu istiqamətlərdə işləyirik.

**– Mənim həmkarlarım dünən bir az zarafatla dedilər ki, biz cəmi 8 milyonuq, siz isə 70 milyonsunuz. Əgər biz bu sürətlə gediriksə, Avropa Birliyinə sizdən əvvəl daxil olacağıq. Hesab edirəm ki, bu proses Avropa ilə birlikdə aparılacaq işləri də əhatə edir. Elədirmi?**

– Bəli, bizim Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz var. Biz müxtəlif layihələr üzərində çalışırıq. Eyni zamanda, Avropa Şurası ilə də yaxşı əməkdaşlıq edirik. Artıq dörd ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür və üzərimizə götürdüyümüz bütün öhdəliklər yerinə yetirilir. Onu da bilirik ki, demokratiyanın inkişafı və yayılması iqtisadi cəhətdən güclü, yəni inkişaf etmiş ölkələrdə daha asan olur.

**– Yəni, cənab Prezident, deyirsiniz ki, demokratiyanın dərinləşməsi Azərbaycanda sabitlik üçün təhlükə yaratmır, elədirmi?**

– Qətiyyən yaratmır.

**– Yəni kim gəlirsə gəlsin, seçilsin, hər şey normal proses çərçivəsində davam edəcəkdir.**

– Bəli. Bizdə sistem bir az başqadır. Bizdə parlament seçkiləri yalnız parlamentə seçilmiş insanların gələcəyini müəyyən edir. Yəni hökumət oradan formalaşmır. Bizdə prezident idarə üsulu var. Amma eyni zamanda bu seçkilər çox önəmlidir. Lakin onu da bilirik ki, iqtisadi cəhətdən çətinlik çəkən ölkələrdə demokratiya özünə çox yer tapa bilmir. Çün-

ki əgər ölkə kasıbdırsa, çoxlu sosial problemlər varsa, insanları demokratiyaya aparmır. Ona görə iqtisadi inkişaf bizim üçün ön plandadır.

**– Türk xalqı adından bir sual da verə bilərəmmi? Neftin bir barrelinin qiyməti 60 dolları keçdi. İstanbulda insanlarla bunun bizim iqtisadiyyatımıza təsiri haqqında danışırdıq. Qardaş Azərbaycan bizə nefti bir az ucuz verəcəkmi – deyə fikirləşirdik.**

– Əlbəttə, biz çalışacağıq ki, hər iki ölkənin maraqları təmin olunsun. Mən sizə deyə bilərəm ki, bizim anlaşmalarda – neft anlaşmasında, xüsusilə qaz anlaşmasında çoxlu özəl məqamlar var. Türkiyəyə Azərbaycan qazı çox məqbul qiymətlərlə satılacaqdır. Biz hər an bir-birimizin dəstəyinə möhtacıq. Fərqi yoxdur, bu gün neftin qiyməti 60 dollardır, vaxtilə neftin qiyməti 8 dollar da olmuşdur. Bizim aramızda olan münasibətlərə bunun heç bir dəxli yoxdur. Əsas odur ki, bu səmimi münasibətlər, səmimi hisslər həm ölkəni idarə edən insanlarda var, həm də xalqlarda, bütün təbəqələrdə var. Bu münasibətlər xalqların məhəbbəti üzərində qurulub və əbədi yaşayacaqdır.

**– Azərbaycan prezidenti İlham Əliyevin bizə söylədikləri bu qədər. Xüsusilə Baş nazir Rəcəb Tayyib Ərdoğanın gələcək yöndə çox mühüm işarələr verdiyi rəsmi səfərindən sonra bu fikirlər xeyli mühümdür. Amma əslində, hamımız gələcəyə gedən yolun bir hissəsiyik. Türkiyə və Azərbaycan – insanlıq var olunca yaşayacaq iki ölkə. Çox güman ki, 20 il sonra bəlkə bizlər olmayacağıq, amma bizim yerimizdə olan insanlar daha yaxşı şeylərdən danışmağa fürsət tapa biləcəklər.**

**Mən, Ardan Zentürk Bakıdakı Prezident sarayının qarşısından hamınıza «salamat qalın!» – deyirəm.**

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişoviç!

Sizi yubileyiniz – anadan olmağınızın 65 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Sizin müdrik və ardıcıl siyasətiniz sayəsində Qazaxıstan dövlət müstəqilliyinin və suverenliyin möhkəmlənməsində, cəmiyyətin bütün sahələrində demokratik dəyişikliklər aparılmasında, beynəlxalq aləmdə öz mövqelərinin və nüfuzunun güclənməsində böyük uğurlara nail olmuşdur.

Siz Azərbaycanla Qazaxıstan arasında ənənəvi dostluq əlaqələrinin inkişafına və möhkəmlənməsinə sanballı töhfə vermisiniz. Əminəm ki, dövlətlərarası münasibətlərin genişlənməsi sahəsində birgə səylərimiz, irimiqyaslı transmilli layihələrin həyata keçirilməsində sıx əməkdaşlıq, regional və beynəlxalq strukturlarda qarşılıqlı dəstək bundan sonra da xalqlarımızın rifahının yüksəlməsinə, regionda sülh, təhlükəsizlik və tərəqqi işinə kömək edəcəkdir.

Əziz Nursultan Abişeviç, bu əlamətdar gündə Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2005-ci il*

## AVRASİYA ÖLKƏLƏRİ SƏKKİZİNCİ İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA!

Hörmətli konfrans iştirakçıları!

Sizi – Səkkizinci iqtisadi zirvə toplantısının bütün iştirakçılarını səmimi-qəlbdən salamlayır və toplantının işinə uğurlar diləyirəm.

1998-ci ildən bəri hər il müntəzəm olaraq keçirilən Avrasiya iqtisadi zirvələri region dövlətləri və xalqları arasında iqtisadi, siyasi, mədəni əlaqələrin inkişafında mühüm hadisəyə çevrilmişdir. Zirvələrdə Avropa və Asiyanın əsas dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ona marağın böyük olduğunu, müzakirə edilən məsələlərin və qəbul edilən qərarların əhəmiyyətini göstərir.

Azərbaycanın ümummilli lideri, mərhum prezident Heydər Əliyev türkdilli dövlətlərin və digər Avrasiya ölkələrinin qarşılıqlı əlaqələrinin güclənməsinə və əməkdaşlığının inkişafına böyük önəm verir, bu istiqamətdə göstərilən bütün təşəbbüsləri dəstəkləyirdi. Onun əsasını qoyduğu bu siyasi xətti dönmədən davam etdirən hazırkı Azərbaycan rəhbərliyi ikitərəfli və çoxtərəfli regional əlaqələrin möhkəmləndirilməsi, əməkdaşlıq üçün yeni imkanların müəyyənləşdirilməsi, bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün zəruri tədbirlər görür.

Qloballaşma, demokratikləşmə və regional inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyanın reallıqları bütün dövlətlərin və xalqların sıx siyasi, iqtisadi, humanitar və mədəni əlaqələr qurmasını, hamının və hər kəsin təhlükəsizliyinin birgə səylərlə təmin edilməsini, təcavüzkar separatizmə, terrora, müharibələrə qarşı birgə fəaliyyət göstərməyi tələb edir. Bu baxımdan, toplantıdan region dövlətləri arasında iqtisadi, humanitar və siyasi əlaqələrin hazırkı vəziyyətinin ətraflı təhlil olunmasını və əməkdaşlığın gələcək

üfüqlərinin müəyyənləşdirilməsi üçün sanballı təkliflər verilməsini gözləyirik.

Bu gün Azərbaycanla Türkiyə arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini, iqtisadi-ticarət əlaqələrinin möhkəmləndiyini, strateji müttəfiqlik münasibətlərinin mövcud olduğunu məmnunluqla qeyd edirəm. Türkiyənin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycana yenicə baş tutmuş rəsmi səfəri ikitərəfli və regional əməkdaşlıqla bağlı bir çox problemlərin həllinə güclü təkan vermişdir. Azərbaycanın dövlət rəhbərliyinin mövqeyi bundan ibarətdir ki, ölkələrimizin bütün maddi və mənəvi sərvətləri region və Avrasiya ölkələri xalqlarının rifahına və təhlükəsizliyinə xidmət etməlidir.

Azərbaycan Respublikası regional, beynəlxalq inteqrasiya və əməkdaşlıq proseslərinin fəal iştirakçısıdır. Ölkəmiz region və bütün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı iqtisadi və mədəni əlaqələr qurulmasında maraqlıdır. Azərbaycan bütün dünyada terrorizmə qarşı mübarizədə, regional təhlükəsizliklə bağlı tədbirlərdə, transmilli nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsində birmənalı mövqeyi və fəaliyyəti ilə seçilir. Xüsusən beynəlxalq enerji layihələrində Azərbaycan həmişə əsas təşəbbüskarlardan və söz sahiblərindən biri olmuşdur. Bu gün biz Azərbaycanın mərhum prezidenti Heydər Əliyevin memarı olduğu Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin reallaşmasının şahidiyik. Bir ay öncə Türkiyə, Gürcüstan, Qazaxıstan prezidentlərinin, ABŞ, Böyük Britaniya və başqa ölkələrdən olan yüksək vəzifəli şəxslərin iştirakı ilə kəmərin Azərbaycan ərazisindən keçən hissəsinə neft doldurulması mərasimini böyük təntənə ilə bayram etdik. İlin sonuna qədər Xəzər neftinin Ceyhan limanından dünyaya ixracı təntənəsini səbirsizliklə gözləyirik. 2006-cı ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşası başa çatdırılacaqdır. Türkiyə, Gürcüstan və Azərbaycanın vahid dəmir yolu sistemi ilə birləşdirilməsi haqqında dövlətlərarası razılaşma əldə olunubdur. Artıq reallaşmasına heç kimin şübhə etmədiyi bu nə-

həng layihələr dövlətlərimizi və xalqlarımızı siyasi, iqtisadi və mədəni cəhətdən daha da yaxınlaşdıracaq, Avrasiyanı qloballaşan dünyanın çiçəklənən, sülh, sabitlik və inkişafın hökm sürdüyü regionallardan birinə çevirəcəkdir.

Bir daha zirvə toplantısının işinə müvəffəqiyyətlər arzu edərək, onun regionda və dünyada əməkdaşlıq və inteqrasiya proseslərinə əhəmiyyətli fayda verəcəyinə ümid edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 iyul 2005-ci il*

# AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AVROPA DEMOKRATLAR QRUPUNUN RƏHBƏRİ MİXAİL MARGELOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2005-ci il*

*Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətini məmnunluqla xatırladan Azərbaycan prezidenti İlham Əliyev bu qurumla ölkəmizin səmərəli əməkdaşlıq etdiyini, Azərbaycan və Rusiya parlamentlərinin AŞPA-dakı nümayəndə heyətləri arasında da yaxşı əlaqələrin olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Mixail Margelovu AŞ PA-nın Avropa demokratlar qrupunun rəhbəri seçilməsi münasibətilə təbrik etdi, qarşıdakı fəaliyyətində ona uğurlar arzuladı.*

*Dövlətimizin başçısı Bakıda keçirilən iki mühüm tədbirin – AŞPA-nın Miqrasiya, Qaçqınlar və Əhali Məsələləri Komitəsinin Azərbaycan parlamenti ilə birgə təşkil etdiyi «Cənubi Qafqazda köçkün düşmüş əhali» mövzusunda seminarın və AŞPA-nın Monitorinq Komitəsinin iclasının böyük əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu tədbirlər Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi sahəsində mühüm rol oynayacaqdır.*

*Cənab Mixail Margelov Azərbaycanla AŞPA arasında səmərəli əməkdaşlığın mövcud olduğunu nəzərə çatdırdı.*

*AŞPA-nın Bakıda iki mühüm təbdir keçirməsinin böyük əhəmiyyətə malik olduğunu xatırladan qonaq iştirakçıların Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini vurğuladı. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini daim yüksək tutmasının bəşəri, Avropa dəyərlərinə söykəndiyini söylədi.*

# RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN KEÇMİŞ SƏDRİ VİKTOR ÇERNOMIRDİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2005-ci il*

*Yenidən Bakıya gəlməsindən məmnun olduğunu söyləyən cənab Viktor Çernomırdin son illər Azərbaycanda yanacaq-energetika sektorunda görülən böyük işləri bu sahəyə yaxından bələd olan mütəxəssis, keçmiş Sovet İttifaqının «Qazprom» konserninin rəhbəri kimi, yüksək qiymətləndirdiyini vurğuladı. O, Bakıya hər səfəri zamanı neft-qaz sənayesində yeni uğurların şahidi olduğunu bildirdi.*

*Cənab Viktor Çernomırdinin Bakıya növbəti səfərindən məmnun qaldığını vurğulayan prezident İlham Əliyev son illər Azərbaycan iqtisadiyyatının inkişafında, o cümlədən, onun aparıcı sahəsi olan neft-qaz sektorunda əldə edilmiş uğurlardan ətraflı söhbət açdı.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ GİORGİ FRUNDA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2005-ci il*

*Dövlətimizin başçısı prezident İlham Əliyev Azərbaycanda Monitorinq Komitəsinin iclasının keçirilməsinin əhəmiyyətini vurğulayaraq bu tədbirin – avropalı deputatların ölkəmizdə gedən proseslərlə daha yaxından tanış olması üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev ölkəmizdə cəmiyyətin daha da demokratikləşməsi istiqamətində mühüm addımların atıldığını vurğuladı, eyni zamanda Ermənistanın Azərbaycana qarşı təcavüzü, erməni silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal olunması nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın hüquqlarının kütləvi surətdə pozulduğunu nəzərə çatdırdı. Dövlətimizin başçısı AŞ PA tərəfindən qəbul edilmiş sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüz törətməsi faktının tanınmasını yüksək qiymətləndirərək, digər beynəlxalq təşkilatların da bu təcavüzün və onun nəticələrinin aradan qaldırılması üçün səylərini artırmasının vacibliyini vurğuladı.*

*Cənab Frunda Monitorinq Komitəsinin Azərbaycandakı iclasının səmərəli olduğunu bildirdi, tədbir iştirakçılarının Azərbaycanın siyasi partiyaları, qeyri-hökumət təşkilatları, mətbuat nümayəndələri ilə görüşlər keçirdiyini qeyd etdi.*

*Görüş zamanı Azərbaycan–AŞ PA əməkdaşlığının müxtəlif sahələri ilə bağlı bir sıra məsələlər müzakirə olundu.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN VƏ QAÇQINLAR ÜZRƏ ALİ KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2005-ci il*

*Görüş zamanı ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, Azərbaycanda demokratikləşmə prosesinin daha da inkişaf etdirilməsi, Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın vəziyyəti və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilmişdir.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

Hörmətli cənab Prezident!

Əziz dost!

Ölkənizin milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və Sizin simanızda dost Fransa xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Fransa münasibətlərinin hərtərəfli inkişafı bizim üçün çox əhəmiyyətlidir. Ötən illər ərzində ikitərəfli əlaqələrimiz dostluq zəminində böyük təkamül yolu keçərək qarşılıqlı faydalı əməkdaşlıq və strateji xarakter daşıyan tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Biz beynəlxalq aləmdə, siyasi məsələlərdə Fransanın Azərbaycana layiqli dəstəyini həmişə hiss edir və bunu yüksək qiymətləndiririk.

Azərbaycanın həyata keçirdiyi irimiqyaslı transmilli layihələri əhatə edən enerji sektorunda, eləcə də iqtisadiyyatın digər sahələrində uğurlu işgüzar əməkdaşlığımız bu gün real nəticələr verməkdədir.

ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə aradan qaldırılması prosesində fəal iştirak edir.

Ümidvaram ki, Sizin başçılığınız ilə Fransa bundan sonra da nizamasalma prosesində əzmkarlığını davam etdirərək, məsələnin ədalətli həlli, tezliklə sülh əldə edilməsi üçün səylərini daha da artıracaqdır.

Cənab Prezident, bu əlamətdar bayram münasibətilə Sizə ən xoş arzularımı yetirir, dost Fransa xalqına xoşbəxtlik və firavanlıq diləyirəm.

*Ən səmimi hisslərlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyul 2005-ci il*

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NAMBARİN ENXBAYARA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizi və dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan – Monqolustan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Monqolustan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyul 2005-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyul 2005-ci il*

*Görüşdə cənab Talvitiye Azərbaycanda həyata keçirilən müsbət proseslərin şahidi olduğunu söylədi və bu proseslərin bir sıra ölkələr üçün nümunə olduğunu bildirdi. O, Azərbaycanda demokratikləşmə prosesinin daha da inkişaf etdirilməsinin Avropa İttifaqı tərəfindən dəstəkləndiyini və bundan sonra da dəstəklənəcəyini vurğuladı. Qonaq bu istiqamətdə konkret addımların atılması işində Avropa İttifaqının Azərbaycana kömək göstərməyə hazır olduğunu söylədi.*

*Prezident İlham Əliyev Azərbaycanda müxtəlif sahələrdə – siyasi, iqtisadi və digər sahələrdə əldə edilmiş uğurlardan, ölkənin daha da demokratikləşməsi istiqamətində atılan addımlardan danışdı. Prezident İlham Əliyev Azərbaycanın Avropaya inteqrasiya siyasətinə sadiq olduğunu nəzərə çatdırdı, ölkəmizin beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı və Avropa Şurası kimi təşkilatlarla uğurlu əməkdaşlıq etdiyini bildirdi.*

*Dövlətimizin başçısı Avropa İttifaqının yeni qonşuluq siyasətində Azərbaycanın fəal iştirak etdiyini vurğuladı. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

London şəhərində dəhşətli terror aktlarının törədilməsi xəbəri bizi son dərəcə hiddətləndirdi. Azərbaycan xalqı adından və eləcə də şəxsən öz adımdan həlak olanların ailələrinə, doğmalarına və yaxınlarına, bütün Böyük Britaniya xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Biz Sizin dərdinizi bölüşür və Sizinlə birlikdə olduğumuzu bildiririk.

Azərbaycan terrorizmin bütün formalarını qətiyyətlə pisləyərək, bu dəhşətli bəlaya qarşı birlikdə mübarizə aparmağı zəruri hesab edir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 iyul 2005-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

Paytaxt Londonda baş vermiş dəhşətli terror aktları məni dərindən sarsıtdı. Faciə nəticəsində həlak olan günahsız insanların ailələrinə, yaxınlarına, Birləşmiş Krallığın bütün xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Mən bu ağır saatlarda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xalqı ilə birlikdə olduğumuzu bəyan edir, dərdinizə şərik çıxıram.

Azərbaycan Respublikası terrorizmin bütün formalarını qətiyyətlə pisləyir və ittiham edir. Biz terrorizmə qarşı mübarizəni bundan sonra da var qüvvəmizlə dəstəkləyəcəyik.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 iyul 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAŞ RAYONUNA SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 7-də Ağdaş rayonunda olmuşdur.*

*Vertolyotun endiyi Ağdaş şəhər stadionunda prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və qızı Leylanı minlərlə insan böyük səmimiyyətlə, hörmət və ehtiramla qarşıladı. Ağdaşlılar görüşə əllərində ümummilli liderimiz Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, dövlətimizin başçısını salamlayan şüarlarla gəlmişdilər.*

### «BAYVA-Qərb Enerji»nin Ağdaş yardımçı stansiyası ilə tanışlıq

*Dövlətimizin başçısı əvvəlcə «Bayva-Qərb Enerji» Məhdud Məsuliyyətli Cəmiyyətin yardımçı stansiyasına gəldi. Yol boyu prezidentin pişvazına çıxmış rayon sakinləri dövlətimizin başçısını «İlham!», «İlham!» sədaları ilə salamlayırdılar. «Azərenerji» Səhmdar Cəmiyyətinin sədri Etibar Pirverdiyev prezident İlham Əliyevə yardımçı stansiya haqqında ətraflı məlumat verdi. Bildirildi ki, bu ilin martında işə salınmış yardımçı stansiya rayonun elektrik enerjisinə olan tələbatını tam ödəməyə imkan verir. Rayonun qış aylarında elektrik enerjisinə olan tələbatı 38–40 meqavat, yay aylarında isə 28–30 meqavat təşkil edir.*

*Yardımçı stansiyada 16 meqavatlıq iki ədəd transformator quraşdırılmışdır. Yardımçı stansiyanın layihəsi Türkiyənin «BAYVA» elektrik şirkətinin sifarişi ilə «Azərenerji» tərəfindən hazırlanmış, «BAYVA» tikintiyə 5 milyard manata yaxın sərmayə qoymuşdur.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi. Respublikamızda bu cür yardımçı stansiyaların tikilməsinin vacibliyini, bunun üçün xüsusi qərarlar qəbul olunduğunu xatır-*

*latdı və bildirdi ki, indidən belə Ağdaş rayonunun elektrik enerjisinə tələbatı tam ödəniləcəkdir. Dövlətimizin başçısı bu işlərin respublikamızın digər şəhər və rayonlarında da davam etdirilməsi barədə müvafiq göstərişlər və tapşırıqlar verdi.*

## «Orelay» qənnadı fabrikində

*Prezident İlham Əliyev sonra «Orelay» qənnadı fabrikinə gəldi. Fabrikin işçiləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar. Fabrikin direktoru, yerli iş adamı Namiq Ədilov prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, müasir standartlara cavab verən müəssisədəki əsas avadanlıq Türkiyə və Rusiyadan gətirilmişdir. Hazırda fabrikdə 40 çeşiddə qənnadı məmulatı istehsal olunur, 100-dən çox işçi çalışır. Direktor sahibkarlara yaradılan şəraitdən razılığını vurğulayaraq, onlara göstərilən diqqətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev müəssisədə quraşdırılmış avadanlıqla, iş prosesi ilə tanış oldu və istehsal edilən məhsullardan daddı. Fabrikin işini və məhsulun keyfiyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı digər bölgələrdə də belə müəssisələrin açılmasının vacibliyini vurğuladı.*

## «Ərəş» ticarət mərkəzində

*Prezident İlham Əliyevə məlumat verildi ki, İsveçrənin «Jekot» firmasının rəhbəri Vahid Cemaynın sərmayəsi hesabına tikilən bu mərkəzdə 130-dan çox dükan və mağaza, habelə «Yaşıl bazar» fəaliyyət göstərir. Hazırda 350 nəfər işlə təmin olunmuşdur. «Yaşıl bazar»da 500-dən çox kəndlinin öz məhsulunu satması üçün imkanı vardır. Gələcəkdə mərkəzin genişləndirilməsi və yeni iş yerlərinin açılması üçün digər layihələr də nəzərdə tutulmuşdur. 2,5 hektar ərazisi olan ticarət mərkəzinin inşasına 1,2 milyon ABŞ dolları sərf edilmişdir. Hər cür kom-*

*munal xidmətlərlə təmin olunmuş bu mərkəz tam gücü ilə fəaliyyət göstərəndə burada 1500 nəfər işləyəcəkdir.*

*Dövlətimizin başçısı ticarət mərkəzinin satış sahələri ilə yaxından tanış oldu, satışdakı malların və məhsulların keyfiyyəti ilə maraqlandı, «Yaşıl bazar»da öz məhsullarını satan kəndlilərlə görüşüb səmimi söhbət etdi.*

*Təqaüdçü Yaqub Əhmədov prezident İlham Əliyevi ehtiramla salamlayaraq dedi ki, biz ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərini heç vaxt unutmuruq. Azərbaycanı hamı onun timsalında tanıyır. Arzu edirik ki, onun işinin möhkəm davamedicisi olasınız. Biz həmişə Sizə arxa-dayaq olacağıq.*

*Rayon ağsaqqalı Qulam Rüstəmov dövlətimizin başçısını salamlayaraq dedi ki, möhtərəm Prezident, müqəddəs Ağdaş torpağına səfa gətirmisiniz. Ağdaş torpağı ona görə müqəddəsdir ki, Veyis baba kimi məşhur övliyanın məzarı Ağdaşdadır. Ağdaşda daha dörd övliyanın məzarı vardır. Allahdan arzu edirəm, o övliyalar xatirinə, Sizin işiniz həmişə avand, başınız uca olsun. Sizin atanız 1981-ci ildə Ağdaşa gəlmişdi. İndi Siz gəlmisiniz. Allah qoysa, sonra oğlunuz Heydər Əliyev gələcəkdir.*

**Sevda Kərimova** (*«Ağzıbir» fermer təsərrüfatının rəhbəri)*: Cənab Prezident, mən həm də Azərbaycanın Dövlət mükafatı laureatıyam. Allahın və Sizin sayənizdə, göstərdiyiniz köməyin nəticəsində böyük bir təsərrüfat yaratmışam. Orada 100 ailə kartof, soğan, pambıq, pomidor əkib becərir. Allah Sizi salamat eləsin, xanımınız da, qızınız da xoş gəliblər. Ağdaşa gələnlər yol sarıdan əziyyət çəkirlər. Yolun təmirinə kömək etsəniz çox yaxşı olardı. Allah atanıza da min-min rəhmət eləsin ki, Sizin kimi şəxsiyyəti Azərbaycana bəxş edibdir. Bütün analar, bacılar, qardaşlar Sizi sevir, Sizə inanır və Sizə arxalanır. İnşallah, Azərbaycanda hər şey yaxşı olacaqdır.

**İlham Əliyev:** Səmimi sözlərə görə təşəkkür edəirəm, çox sağ olun. Mən bu inkişafı, abadlıq, quruculuq işlərini, yeni müəssisələri görəndə çox sevinirəm. Azərbaycanın hər bir yerində inkişaf gedir, irəliləyiş var. İnsanlar işlə məşğuldurlar,

sahibkarlıq, özəl sektor inkişaf edir. Görün burada nə gözəl ticarət mərkəzi yaranıbdır. Ən yüksək səviyyədə tikilibdir. Burada işləyirlər, siz də məhsullarınızın satışı ilə məşğulsunuz. Bu inkişaf davam edəcəkdir.

**Sevda Kərimova:** Cənab Prezident, əvvəllər becərirdik, satış yeri tapmırdıq. İndi şükür Allaha, hər yerdə imkan var, satış məntəqəsi yaranıbdır. Biz Mehriban xanımla da fəxr edirik. Bütün qadınlar onunla fəxr edir.

**İlham Əliyev:** Mən bilirəm ki, burada işlər yaxşı gedir, icra hakimiyyətinin başçısı da yaxşı işləyir, rayonda da vəziyyət yaxşıdır. Bilirsiniz ki, harada icra hakimiyyətinin başçısı yaxşı işləmirsə, mən onu vəzifədən azad edirəm. 40-dan yuxarı icra hakimiyyətinin başçısını dəyişdim. Mən sizin icra hakimiyyətinin başçısını çoxdan tanıyıram.

Amma çox vacibdir ki, burada qiymətlər çox bahalaşmasın. Təxminən bir neçə ay bundan əvvəl Azərbaycanda bahalaşma baş verdi. Ona görə ciddi tədbirlər görüldü. Sərəncam imzaladım və digər tədbirlər görüldü ki, qiymətlər bahalaşmasın. Çünki indi inkişaf var, əmək haqqı artır, insanların həyat səviyyəsi yaxşılaşır. Amma eyni zamanda, bazarda qiymətlər qalxmağa başlamışdı. Biz buna yol verməməliyik. Ona görə yarmarkalar təşkil olunmalı, digər tədbirlər görülməlidir. Antiinflyasiya tədbirləri həyata keçirildi və qiymətlər sabitləşdi, hətta enməyə başladı. Biz gərək elə edək ki, qiymətlər qalxmasın.

**Sevda Kərimova:** Bu dövranı bəyənməyənin gözləri kor olsun.

**Qulam Rüstəmov** (*rayon ağsaqqalı*)**:** Cənab Prezident, buradakı adamların hamısı şahiddir. 1992-ci ildə bir tay un almaq üçün müəyyən vasitəçi axtarılırdı. İndi Ağdaşda 50–100 ton un almaq olar. Dünyada insan üçün bütün nemətlər lazımdır, amma Süleyman Rüstəm demişkən, «bütün nemətlərin başı çörəkdir». İndi heç kim çörək problemini düşünmür. Bu, köklü həll olunubdur.

**İlham Əliyev:** Amma 1990-cı illərin əvvəllərini yadınıza salın, çörək tapılmırdı, yox idi.

**Y a q u b Ə h m ə d o v** *(rayon sakini)*: Allah Sizin işinizi həmişə avand etsin. Rayon yerlərində əsas problemlərdən biri qazla təminatdır. Bu olsa, meşələr kütləvi şəkildə qırılmaz. Bilirik ki, bu işlər gecə-gündüz Sizin fikrinizdən çıxmır. Bütün xalq bunu bilir. Çörəyimiz, suyumuz – hər şeyimiz var. Allah Sizə uzun ömür, cansağlığı, atanızın torpağı sanı Sizə ömür versin.

**İ l h a m Ə l i y e v:** Bununla məşğuluq. Biz bunu həll etmək əzmindəyik. Mən bu gün yardımçı stansiya ilə tanış oldum. Mənə söz verdilər ki, daha burada işıq problemi olmayacaqdır. 24 saat işıq olmalıdır. Qışda da problem olmamalıdır. Bunu etmək üçün Ağdaşda yardımçı stansiya istismara verilibdir. Eyni zamanda, kiçik həcmli elektrik stansiyaları alınacaq. Azərbaycanın müxtəlif yerlərində quraşdırılacaqdır ki, biz işıq problemini birdəfəlik aradan götürək. Qaz problemi bundan bir az çətindir. Çünki qaz çatışmır. Biz hələlik 4 milyard kubmetr qaz hasil edirik, 5 milyard kubmetr də Rusiyadan alırıq, amma yenə də çatışmır. Rayon mərkəzlərinə qaz verilməlidir. Sizdə necədir?

**R a f i q N i f t ə l i y e v** *(Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı)*: Cənab Prezident, verilir, qazla təminat yaxşıdır.

**İ l h a m Ə l i y e v:** Amma kəndlərə verilmir.

**R a f i q N i f t ə l i y e v:** Bəli, bir neçə kəndə verilmir.

**İ l h a m Ə l i y e v:** Sizə təxminən nə qədər qaz verilir?

**R a f i q N i f t ə l i y e v:** Gündəlik tələbatımız 100 min kubmetrdir.

**İ l h a m Ə l i y e v:** Nə qədər verilir?

**R a f i q N i f t ə l i y e v:** Təqribən 60 min kubmetr verilir. Gecələr bir az azalır. Amma gündüzlər yaxşıdır. Yeddi kəndimiz qazlaşdırılıbdır.

**İ l h a m Ə l i y e v:** İndi qazın hasilatı da artacaqdır. Gələn il «Şahdəniz» qaz yatağından hasilat gözlənilir. Ondan sonra həcm artacaq və Azərbaycanda qaz problemi olmamalıdır.

İşıq, qaz, su – biz bütün bu problemlərlə məşğuluq. Azərbaycanda, xüsusilə Bakıda istilik təchizatı da çox ciddi prob-

lemdir. Uzun illərdir evlərə istilik verilmir. Ona görə insanlar məcbur olub qızdırıcı cihazlar alırlar. Onlar da çox elektrik enerjisi işlədir və tələbat artır. Ona görə istilik təchizatı məsələlərini həll etmək üçün yeni bir qurum – «Azəristiliktəchizat» Açıq Səhmdar Cəmiyyəti yaratdım. O, bütün istilik sistemini yenidən quracaqdır. «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti yaradılıbdır, texnika alıb fermerlərə icarəyə verməlidir. Bu il 100 milyard manat dəyərində texnika almaq nəzərdə tutulubdur. Yəqin ki, bir neçə aydan sonra Ağdaş rayonuna da bu texnika gətiriləcəkdir. Yəni biz bütün məsələlərə diqqət yetiririk, həll etməyə çalışırıq. Əsas məqsəd odur ki, xalq daha da yaxşı yaşasın, sabitlik, əmin-amanlıq, mehribanlıq və inkişaf olsun, əmək haqları artsın.

**Q u l a m R ü s t ə m o v:** Cənab Prezident, birincisi, heç nəyə ehtiyacımız yoxdur. Mən rayonun ağsaqqalı kimi, Allahdan arzu edirəm ki, Siz hansı ölkəyə, hansı regiona səfər etsəniz, yolunuzda daim yaşıl işıq yansın. İkincisi, mən ucqar bir kənddə yaşayıram. Orada Heydər Əliyevin xatirə dəftərinə belə bir cümlə yazmışam: Tarix ayrı-aryı şəxsləri yetişdirir, ayrı-ayrı şəxslər tarixə təkan verir. XX əsrdə tarixin yetişdirdiyi, tarixə təkan verən şəxsiyyətlərdən biri Heydər Əliyevdir. Allah Sizə o qədər ömür versin, işinizi avand etsin ki, XXI əsrdə tarixin yetişdirdiyi, tarixə təkan verən şəxsiyyətlərdən biri Siz olasınız. Üçüncüsü, Siz andiçmə mərasimində belə bir söz dediniz ki, mən Azərbaycan Respublikasının, Azərbaycan xalqının, hər bir vətəndaşın prezidentiyəm. Vətəndaşlardan biri də mənəm, mənim də söz deməyə haqqım var. Siz prezident seçkiləri ərəfəsində rayonlara səfər edərkən görüşlərdə xalqımız Sizi «İlham, İlham!» deyə salamlayırdı. Arzu edirəm, işimiz həmişə avand olsun, Sizə gələcəkdə «İlham baba, İlham baba!» desinlər.

Dördüncüsü, diləyimiz odur ki, balaca Heydəriniz Sizin davamçınız olsun. Beşincisi, Sizin babanız Əlirza kişi dəmiryolçu olubdur. Dəmir yolu Sizin ömür yolunuzdur. Belə bir deyim var: Parovoz ixtira olunarkən onu nümayiş etdirir və deyirlər ki, bu, xalqa xidmət edəcəkdir. Hamı əl çalır, amma

müsəlman deyir ki, o, hərəkət etməz, çünki onu çəkib aparan bir qüvvə yoxdur. Elə ki, parovozu işə salırlar, yenə hamı əl çalır, amma müsəlman əl çalmır. Soruşurlar ki, sən niyə əl çalmırsan? Cavab verir ki, əgər o belə gedirsə, bir daha dayanmaz.

Allahdan arzumuz budur ki, Heydər Əliyevin, Sizin qatarınız dayanmasın.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçilərkən, salonda bir nəfər durub dedi ki, Azərbaycanda bir alim, mütəxəssis yoxdurmu, bizə rəhbər seçəsiniz. Əgər o adam indi sağdırsa, özü, yaxud övladları mötəbər yığıncaqlarda durub etiraf etsin ki, həqiqətən səhv etmişdir. Alim, mütəxəssis olmaq mümkündür, amma yaxşı rəhbər olmaq hamıya qismət olmur. Heydər Əliyev Azərbaycana neçə illər rəhbərlik etdi. Onun dəfn mərasimində mən də iştirak etmişəm. Azərbaycan xalqının axıtdığı göz yaşlarını bir yerə yığmaq mümkün olsaydı, ümman yaranardı. El arasında belə bir məsəl var: qəlb yanmasa, gözdən yaş çıxmaz. Deməli, Azərbaycan xalqının ümummilli liderinə qəlbi, ürəyi yanırdı ki, onu elə yola saldı.

Sözüm çoxdur, qismət olsa, bir gün mənə sarayda vaxt verərsiniz. Sizin ailəniz haqqında istənilən qədər danışaram.

**Yaqub Əhmədov:** Bu gün xalqımız ulu öndərdən qalan sərvətin hesabına dolanır. Bu həqiqətdir. Heydər Əliyev dünya sərmayədarlarını ölkəyə çağıranda onlarda inam olmasaydı, heç kim pulunu qoymazdı. Hamısı ona inandı, sərmayəni ona olan inam gətirdi. Bakı–Tbilisi–Ceyhan kəmərini çəkmək asan iş deyildi. Onun həmin təşəbbüsü bu gün Azərbaycan xalqına gəlir gətirir. Ömrümüz boyu onun ruhuna dua edəcəyik. Arzu edirik ki, atanızın yolu ilə inamla irəliləyəsiniz.

**İlham Əliyev:** Sağ olun. Mən onun yolu ilə gedirəm. Başqa yol yoxdur. Bu yolda möhkəm dayanmışam. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir. Heydər Əliyevin təməlini qoyduğu bütün məsələlər, layihələr öz həllini tapacaqdır. Bakı–Tbilisi–Ceyhan onun əsəridir. Əgər onun qətiyyəti, cəsa-

rəti, müdrikliyi, siyasi iradəsi olmasaydı, heç kim Azərbaycana pul qoymazdı. 1990-cı illərin əvvəllərində Azərbaycanda xaos, anarxiya, böhran hökm sürürdü. Xarici şirkətləri ölkəyə gətirmək asan iş deyildi. İndiyədək Azərbaycana 24 milyard dollar xarici sərmayə qoyulubdur və bu gün onun bəhrəsini görürük. Bakı–Tbilisi–Ceyhan kəməri işə düşür. Azərbaycan zənginləşir, inkişaf edir. Neftdən əldə olunacaq gəlirlər ölkəmizi hərtərəfli inkişaf etdirəcəkdir. Azərbaycan xalqı yaxşı yaşamalıdır, buna layiqdir. Mən də prezident kimi, əlimdən gələni edəcəyəm ki, buna nail olaq. İnşallah, birlikdə buna nail olacağıq. Sağ olun.

## Heydər Əliyev parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev rayon mərkəzindəki istirahət guşəsinə – ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəldi. Yol boyu və pakrda minlərlə sakin dövlətimizin başçısını böyük hörmət və ehtiramla salamladı.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstələri qoydular. Bu əzəmətli abidə, parkdakı səliqə-sahman, istirahət üçün yaradılmış şərait yüksək qiymətləndirildi.*

*Prezident İlham Əliyev parka toplaşanlarla səmimiyyətlə görüşdü, ona göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Sakinlər dövlətimizin başçısına və ailə üzvlərinə ən xoş arzularını çatdırdılar, onun rəhbərliyi altında aparılan işlərin xalqımız tərəfindən böyük rəğbətlə qarşılandığını, ümummilli liderimizin siyasətinin inamla davam etdirilməsindən məmnunluqlarını vurğuladılar.*

*Dövlətimizin başçısı və ailə üzvləri rayon özfəaliyyət kollektivinin çıxışına qulaq asdılar, balaca rəssamların əl işlərindən ibarət sərgiyə baxdılar. Rəssam Məlahət İsmayılqızı respublika və rayon üzrə keçirilən müsabiqələrdə uşaqların uğur qazandıqlarını, mükafata layiq görüldüklərini söylədi, istedadlı uşaqların inkişafına göstərdiyi diqqətə və qayğıya görə*

*dövlətimizin başçısına və onun xanımına təşəkkürünü bildirdi, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya rəsm əsəri hədiyyə etdi.*

## Heydər Əliyev adına İdeoloji Mərkəzdə

*Azərbaycan prezidenti İlham Əliyev sərgi ilə tanışlıqdan sonra parkda yerləşən Heydər Əliyev adına İdeoloji Mərkəzə gəldi.*

*Müasir səviyyədə tikilmiş mərkəzin direktoru Tariyel Günəşov dövlətimizin başçısına məlumat verərək dedi ki, ümummilli liderimizin həyatı və fəaliyyəti ilə bağlı materialların toplanılması və əhali arasında təbliğ olunması məqsədi ilə yaradılmış İdeoloji Mərkəz 2004-cü il iyunun 15-də, Milli Qurtuluş günündə açılmışdır. 40 bölmədən ibarət mərkəzdə Heydər Əliyevin respublika partiya təşkilatına rəhbərlik etdiyi illərdə həyata keçirdiyi tədbirləri, Ağdaşa beş dəfə səfərini, müstəqil respublikamızın prezidenti kimi, xarici siyasətini əks etdirən fotoşəkillər, ümummilli liderimizin Azərbaycanda apardığı iqtisadi islahatlarla, neft strategiyası ilə bağlı materiallar və eksponatlar saxlanılır. Bildirildi ki, mərkəzin yerləşdiyi bu park da vaxtilə Heydər Əliyev Ağdaşda olarkən onun şəxsi göstərişi ilə salınmışdır.*

*Mərkəzin direktoru vaxt ayırıb buraya gəldiyi üçün prezidentə təşəkkürünü bildirdi, onun 1981-ci ildə ulu öndərlə birlikdə Ağdaşda olarkən çəkdirdiyi fotoşəkli Heydər Əliyev Fondunda saxlanılmaq üçün Mehriban xanım Əliyevaya xatirə olaraq təqdim etdi. Prezident İlham Əliyevə isə Ağdaşla bağlı xüsusi albom hədiyyə edildi.*

*Mərkəzdə toplanmış eksponatların və materialların çox dəyərli olduğunu vurğulayan və Heydər Əliyev irsinin yaşadılması, təbliği sahəsində görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev adına İdeoloji Mərkəzin ekspozisiyası ilə tanış oldum. Xalqımızın ümummilli lideri Heydər Əliyevin

həyat və fəaliyyətini əks etdirən materiallar, nümayiş etdirilən fotoşəkillər gözəl təəssürat bağışlayır. Heydər Əliyevin bütün həyatı Azərbaycan xalqına həsr olunmuşdur. Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

7 iyul 2005-ci il».

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Ağdaşda internat məktəbində

*Azərbaycan prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva iyulun 7-də, dövlətimizin başçısının Ağdaş rayonuna səfəri çərçivəsində Ağdaş şəhərindəki Maqsud Şeyxzadə adına internat məktəbində olmuşdur.*

*Məktəblə tanışlıq zamanı Mehriban xanıma məlumat verildi ki, bu təhsil ocağında 399 şagirdin təlim-tərbiyəsi ilə 73 müəllim məşğul olur. Hazırda burada cari təmir işləri gedir.*

*Mehriban Əliyeva vurğuladı ki, məktəbin binasında cari yox, əsaslı təmirin aparılmasına böyük ehtiyac vardır. Heydər Əliyev Fondu təmir işlərinə hər cür kömək göstərəcəkdir.*

*Bildirildi ki, Fond tərəfindən bu il respublikada tikiləcək 132 məktəbdən biri Ağdaşın Pirkəkə kəndində inşa olunacaqdır. Mehriban Əliyeva bu ilin sentyabrında onun açılışında iştirak edəcəyini və məktəblə yaxından tanış olacağını bildirdi.*

## RAYON ZİYALILARI, AĞSAQQALLARI VƏ MÜHARİBƏ VETERANLARI İLƏ GÖRÜŞ

*7 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev daha sonra Heydər Əliyev parkında Ağdaş rayonunun bir qrup ziyalısı, ağsaqqalı və müharibə veteranı ilə çay süfrəsi arxasında görüşdü.*

**R a f i q   N ə b i y e v** (*ağsaqqallar adından*): Cənab Prezident, Sizin Ağdaşa səfərinizi yüksək qiymətləndiririk. Müstəqil Azərbaycanın memarı Heydər Əliyevin tarixi xidmətləri çoxdur. Ulu öndər bizim üçün əbədiyaşar dövlət qurubdur. Təskinlik tapırıq ki, onun qurduğu dövlət Sizin kimi oğul tərəfdən daha da möhkəmlənir, güclənir və qüdrətlənir. Siz bizim fəxrimizsiniz. Siz xarici səfərlərinizdə bizə demokratiya dərsi keçənlərin, mədəniyyət öyrədənlərin hamısının dərsini verirsiniz. Biz bunu ürəkdən deyirik. Allah Sizi saxlasın, işinizi avand eləsin.

**İ l h a m   Ə l i y e v:** Heydər Əliyevin davamçısı kimi, prezident kimi, bu, mənim borcumdur.

**Ş a h   S ə l i m o v** (*ziyalılar adından*): Cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk, 100 mindən çox əhalisi olan Ağdaş rayonunda son illər görülən quruculuq işlərində Sizin böyük rolunuzu yüksək dəyərləndiririk. Ümummilli lider Heydər Əliyevin rayonumuza dəfələrlə etdiyi səfərləri ilə bağlı xatirələrimiz çoxdur. Biz ulu öndəri ürəyimizdə və əməlimizdə yaşadırıq. Heydər Əliyev ağdaşlıların ən yaxın, sədaqətli dostu idi. Onun bizə verdyi tövsiyələr yaxşı yadımızdadır. İndi rayonda geniş quruculuq işləri gedir və bu hamıya xoş təsir bağışlayır. Bunun bünövrəsini qoyan məhz Heydər Əliyev olmuşdur. Onun məktəbinin yetirməsi Sizsiniz. Sizə bu çətin, şərəfli işdə uğurlar arzulayırıq, qədəmləriniz uğurlu olsun. Biz

həmişə Heydər Əliyevi dəstəkləmişik, Sizi də dəstəkləyirik. Hər zaman Sizə arxayıq.

**İlham Əliyev:** Xoş sözlərinizə görə çox sağ olun!

Mənim vəzifəm, borcum Azərbaycan xalqına xidmət etməkdir. Prezident seçkilərinə də bu məramla qatılaraq iştirak edirdim. Çünki mənim başqa amalım yoxdur. Regionların inkişafı, iqtisadiyyatın yüksəlişi, insanlarımızın daha da yaxşı yaşaması – bunlar prioritet məsələlərdir. Gündəlik fəaliyyətimdə bu məsələlər daim diqqət mərkəzindədir.

İlk növbədə, əlbəttə, gərək iqtisadiyyat daha da güclü inkişaf etsin. Heydər Əliyevin böyük əsəri olan neft kəmərinin tikintisi təkcə neft məsələsi deyil, bu, Azərbaycana böyük həcmdə vəsait, pul gətirəcəkdir. Biz gərək ondan səmərəli istifadə edək ki, ölkəmizin hər bir yeni rayonu inkişaf etsin. İndi regionların inkişaf proqramı həyata keçirilir. İlk addımlardan biri bu idi. Çünki hamımız yaxşı bilirik ki, Bakı paytaxtdır. Bütün ölkələrdə paytaxta ən böyük diqqət göstərilir və demək olar ki, paytaxt hər bir ölkənin təcəssümüdür. Amma paytaxtla bölgələr arasında bu qədər fərq ola bilməz. Bu fəlsəfə Heydər Əliyevin fəlsəfəsidir. Bizim Azərbaycan xalqının tam əksəriyyəti bölgələrdə, rayonlarda yaşayır.

Mən xatırlayıram, bu gün mənə şəkil də verildi. 1981-ci ildə onunla bərabər Ağdaşa gəlmişdim. Onun həyatını görürdüm, Azərbaycan haqqında, gələcək haqqında fikirlərini görürdüm. O, bölgələrə, rayon camaatına bağlı idi. Mən şəhərdə doğulmuşam, böyümüşəm, məktəbə getmişəm və sonra Moskvada oxumuşam. Amma mənim də ürəyim buradadır. Regionların inkişafı sadəcə olaraq, abadlıq işlərinin görülməsi demək deyildir. Regionların inkişafı Azərbaycan xalqının tərəqqisidir, ölkəmizin güclənməsidir. İndi fərz etsək ki, biz buna diqqət yetirmirik, onda nə olacaq?! Bakı tərəqqi edəcək. Bəs bölgələr nə olacaq?! Buna imkan vermək olmaz. Mən bütün diqqətimi buna yönəldirəm.

Bakıda işlər gedir, orada da problemlər var. Onları da həll edirik. Amma bütün rayonları gəzirəm ki, özüm görüm, proqram necə icra olunur, hansı rayonda işlər necə gedir. Harada

ki, görürəm işlər yaxşı getmir, rəhbər işçiləri dərhal işdən götürürəm. Əgər işin öhdəsindən gələ bilmirsə, deməli, orada işləyə bilməz.

Mən bu gün Rafiq Niftəliyev barədə dedim. Xaçmazda da özünü yaxşı doğrultdu. Heydər Əliyev də onu Ağdaşa təyin etdi. Buradan da yaxşı sədalar, məlumatlar gəlir. Eşitmişdim ki, yaxşı işləyir. Buraya gəldim və görürəm ki, həqiqətən belədir. Əlbəttə, problemlər var. Bunlar hər bir ölkədə var, o cümlədən Azərbaycanda da. Başlıcası odur ki, problemlərə necə yanaşılır. İnsanlara necə münasibət göstərirsən. Diqqət göstərirsənmi, yoxsa yox. Elə rəhbər var ki, hesab edir, bütün dünya ona borcludur. Belə adamlar bizə lazım deyildir. Məni rayonlarda təmsil edən icra hakimiyyətinin başçılarıdır, yəni mənim birbaşa nümayəndələrimdir. Əgər icra hakimiyyətinin başçısı yaxşı işləmirsə, xalqın etimadını qazana bilməyibsə, deməli, istər-istəməz xalqın iqtidara münasibəti yaxşı ola bilməz.

Ona görə əgər biz Bakıda proqramlar həyata keçiririksə, gərək yerlərdə eyni həvəslə, bacarıqla bu məsələləri həll edək. İlk növbədə yoxsulluğun, işsizliyin azaldılması, enerji ilə, su ilə, qazla, istiliklə təminat və yeni iş yerlərinin açılması sahəsində tədbirlər görürük.

Əlbəttə, bu təməl 1990-cı illərin ortalarında qoyulmuşdur. Ondan əvvəl isə 1970-ci illərdə qoyulmuşdur. Siz də bunu yaxşı bilirsiniz. Məhz o illərdə rayonlar inkişaf elədi. Sonra çətin bir dövr oldu, tənəzzül başladı. Səriştəsiz, bacarıqsız rəhbərlərin yarıtmaz siyasəti Azərbaycanı məhvə aparırdı, ölkə dağılmaq ərəfəsində idi, iqtisadiyyat çökürdü, hərc-mərclik, xaos var idi. Mən bunların aradan qaldırılması üçün Heydər Əliyev tərəfindən necə böyük səylər göstərildiyini çox yaxından görmüşəm. Təxminən 1990-cı illərin ortalarında artıq sabitləşmə yarandı və yavaş-yavaş inkişaf başlandı. Bu gün inkişaf sürətlə gedir. Eyni zamanda, maaşların, minimum əmək haqlarının, pensiyaların qaldırılması vacibdir. Bunlar da iqtisadiyyatla bağlıdır. Çünki güclü iqtisadiyyat olmasa, heç nə olmaz.

Əfsuslar olsun ki, Azərbaycan uzun illər ərzində və elə indi də dünya birliyi tərəfindən o qədər də böyük diqqətlə əhatə olunmur. Biz görürük ki, başqa ölkələrə yardımlar da, kömək də göstərirlər. Bizə gəldikdə isə, bunu görmürük. Ona görə gərək iqtisadiyyatımızı özümüz gücləndirək, özümüzə güvənək, heç kimdən yardım gözləməyək. Halbuki müstəqilliyimizin ilk illərində vəziyyət çox ağır idi.

Mən bu yaxınlarda qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı müşavirə keçirdim. Bu sahədə də irəliləyiş var. böyük bir dərddir – bir milyon insan evsiz-eşiksizdir, çadırda, yataqxanada, yararsız binalarda yaşayır. Bunları yerləşdirmək, normal şəraitlə təmin etmək üçün nə qədər vaxt və vəsait lazımdır. İlk illərdə bu vəsait yox idi. Haradan olsun ki, ölkə dağılırdı.

İndi biz neft strategiyasından söbhət açırıq. Əgər o vaxt müqavilə imzalanmasaydı, bugünkü uğurların biri də olmazdı. Ona görə də ardıcıl siyasət lazımdır. Düzdür, bu, vaxt aparır, vaxt da gedir. Amma bu siyasət öz bəhrəsini verir. Mənim başqa amalım yoxdur. Mənim əsas məqsədim xalqa xidmət etmək və əlimdən gələni etməkdir ki, daha da yaxşı olsun. Hər bir vətənpərvər insanın məqsədi olmalıdır. Vətənə bağlılıq, sevgi, məhəbbət hər birimizdə, xüsusilə gənc nəsildə olmalıdır. Gənc nəsil yeni şəraitdə, müstəqillik şəraitində formalaşır. Onlarda vətənpərvərlik ruhu güclü olmalıdır. Siz, müharibə veteranları onlar üçün nümunəsiniz, örnəksiniz.

**Ş a h  S ə l i m o v:** Cənab Prezident, bizdən nə asılıdırsa, onu etməyə hazırıq.

Bir məsələ yadıma düşdü. Bilirsiniz ki, Xəzər İsayev bizim yerlimizdir. O hər dəfə buraya gələndə yeni təkliflə çıxış edir. Əgər mümkünsə, Ağdaşda olimpiya kompleksinin tikilməsini nəzərdə tutmağınızı gənclər adından xahiş edirəm.

**İ l h a m  Ə l i y e v:** Yaxşı. Ağdaşda olmalıdır. Bilirsiniz ki, prezidentin müavinləri yoxdur. Amma Xəzər İsayev Milli Olimpiya Komitəsində mənim müavinimdir.

**R a f i q  N ə b i y e v:** Cənab Prezident, ağdaşlılar həmişə Xəzər İsayevi töhmətləndirir, ondan nəsə umurlar. Belə olsa, onun canını bu töhmətdən qurtararsınız.

**İ l h a m  Ə l i y e v:** O çox təvazökar adamdır. Mən ondan çox razıyam. Sizin rayona bundan sonra da gələcəyəm. Hər dəfə bu abadlıq, quruculuq işlərini görəndə ürəyim açılır. Sevinirəm ki, burada inkişaf gedir.

**Ş a h  S ə l i m o v:** Cənab Prezident, inanın ki, bu quruculuq işləri ailələrə mədəni şəkildə daxil olmağa başlayıbdır. Bunu alqışlamaq lazımdır.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, salamat olun.

## AĞDAŞ ŞƏHƏR STADİONUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*7 iyul 2005-ci il*

Əziz dostlar!
Əziz ağdaşlılar!
Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Ağdaşdayam, çox sevinirəm, çox şadam ki, burada işlər yaxşı gedir. Yeni müəssisələr açılır, infrastruktur layihələri həyata keçirilir. Bu gün səhər yeni tikilmiş yardımçı stansiya ilə tanış oldum. Mənə söz verdilər ki, daha burada işıq problemi olmayacaqdır. Əminəm ki, biz buna nail olacağıq. Yeni müəssisələrin yaranması, yeni iş yerlərinin açılması, ümumiyyətlə, regionların inkişafı bizim ən əsas məsələlərimizdir. Son il yarım ərzində bu istiqamətdə böyük işlər görülübdür. Azərbaycanda 220 mindən artıq yeni iş yeri açılıbdır. Yoxsulluğun səviyyəsi aşağı düşübdür. İşsizliklə mübarizə sürətlə gedir. Ümumiyyətlə, iqtisadi inkişaf sürətlə gedir və bu baxımdan Azərbaycan indi dünyada lider dövlətdir.

Bütün bunun əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1990-cı illərdə, o ağır, çətin günlərdə Azərbaycan xalqı öz lideri Heydər Əliyev ətrafında sıx birləşərək öz siyasətini cəsarətlə, uğurla həyata keçirməyə başladı. İqtisadi islahatlar, yeni müəssisələrin açılması və xüsusilə Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi Azərbaycanda iqtisadi inkişafa güclü təkan verir. Bu gün bunun bəhrələrini görürük. Bizim vəzifəmiz ölkəmizi daha da gücləndirmək, iqtisadi potensialı möhkəmləndirmək, Azərbaycanda sabitliyi, əmin-amanlığı qorumaq və Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün şərait yaratmaqdır.

Bütün bu məsələlər ardıcıl şəkildə öz həllini tapır. Prezident seçkilərində ağdaşlıların məni dəstəklədiklərini bilirəm, mən buna arxalanıram və görürsünüz ki, prezident seçkilərindən keçən dövr ərzində nəzərdə tutulmuş bütün layihələr, proqramlar öz həllini tapmaqdadır. Hazırda mənim diqqətimi ən çox çəkən regionların inkişafıdır. Biz bütün gücümüzü bu istiqamətə verməliyik ki, Azərbaycanın bölgələri inkişaf etsin, canlanma daha da sürətlənsin və bölgələrdə yaşayan insanların yaşayış səviyyəsi, həyat səviyyəsi yaxşılaşsın.

Bakı bizim paytaxtımızdır, əziz, doğma şəhərimizdir. Ancaq Azərbaycanın gələcəyini bölgələr müəyyən edəcəkdir. Bölgələrdə güclü insan potensilll var. Biz gərək burada güclü iqtisadi potensial da yaradaq və əminəm ki, buna nail olacağıq.

Ağdaşda işlər yaxşı gedir. Bu gün vəziyyətlə tanış olarkən bunu bir daha gördüm. Düzdür, yerlərdə olan vəziyyət barədə kifayət qədər məlumatlarım vardır. Amma istəyirəm hər şeyi öz gözümlə görüm. Ona görə də bu gün burada quruculuq işlərini görəndə çox sevinirəm. Çox istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin. Çox istəyirəm ki, Azərbaycanın bölgələri – bütün rayonları, rayon mərkəzləri, kəndlər abadlaşsın, quruculuq işləri daha da sürətlə getsin, Azərbaycan güclü dövlətə çevrilsin.

Biz indi regionda çox önəmli mövqelərə malikik. Azərbaycan regionda aparıcı ölkəyə çevrilməkdədir. Bizim məqsədimiz öz möqelərimizi daha da möhkəmləndirmək, regionda gedən proseslərə daha da güclü təsir göstərmək və Azərbaycanı, Azərbaycan xalqını ən çox narahat edən, ən ağır problemimiz olan Dağlıq Qarabağ məsələsini həll etməkdir. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Azərbaycan bu gün öz siyasi və diplomatik gedişləri ilə danışıqlar prosesində müəyyən irəliləyişə nail olubdur. Ümid edirəm ki, danışıqlarda irəliləyiş daha da sürətlə gedəcək və haqq-ədalət bərpa olunacaqdır. Azərbaycan öz torpaqlarını azad edəcək, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq və qaçqın-köçkün soydaşlarımız öz yerlərinə qayıdacaqlar. Bunu etmək üçün, əlbəttə ki, siyasi tədbirlərlə yanaşı, iqtisadi tədbirlər də görülməlidir. Gücümüz olmalıdır, güclü dövlət yaratmalıyıq, güclü

ordu yaratmalıyıq və biz bunu edirik. Büdcəmiz ildən-ilə artır, hərbi gücümüz artır. Yaxın zamanlarda Azərbaycan iqtisadi potensialına görə çox güclü dövlətə çevriləcəkdir.

Yenə deyirəm, Ağdaşda gedən quruculuq, abadlıq işləri məni çox sevindirir və hesab edirəm ki, biz buraya daha da böyük diqqət, kömək göstərməliyik. Mən Bakıya qayıdanda lazımi tədbirlər görəcəyəm. Hesab edirəm ki, burada yolların təmirinə də ehtiyac var. Əlbəttə ki, yerli orqanlar bunu etmək iqtidarında deyillər. Çünki bu iş vəsait tələb edir. Mən Bakıya qayıdan kimi, lazımi göstərişlər verəcəyəm ki, Ağdaşın yolları abadlaşdırılsın, yeni asfalt salınsın. Eyni zamanda, bu gün Heydər Əliyev adına parkda ağsaqqallarla görüşdə müraciət olundu ki, Ağdaşda olimpiya kompleksi tikilsin. Bu stadion gözəldir, görürəm ki, idmançılar da çox hazırlıqlıdırlar. Amma bəlkə də çoxdan vaxt çatıb ki, Ağdaşda müasir olimpiya kompleksi yaradılsın. Onun böyük salonları, üzgüçülük hovuzu olsun və müxtəlif idman növləri ilə məşğul olmaq üçün şərait yaradılsın. Biz bunu da edəcəyik və burada o kompleksı tikəcəyik. Gələcəkdə bütün başqa məsələləri həll etmək üçün də imkanımız var.

Ölkəmizin iqtisadi potensialı güclənir. Bizim maliyyə durumumuz yaxşılaşır, büdcəmiz artır. 2005-ci ilin büdcəsi 2004-cü illə müqayisədə təxminən 40 faiz artmışdır. 2006-cı ilin büdcəsində – bu yaxınlarda ona baxılmasına başlanacaq – çox kəskin artım nəzərdə tutulmalıdır. Mən hökumət qarşısında belə vəzifə qoymuşam. Beləliklə, maddi imkanlarımız artdıqca, biz gərək bundan istifadə edək ki, bütün bölgələrdə inkişaf olsun. Abadlıq, quruculuq işləri aparılsın, elektrik enerjisi ilə təminat yaxşılaşsın. Sizə dedim, məni əmin etdilər ki, burada işıq problemi olmayacaqdır. Su təchizatı, qaz təchizatı ilə bağlı olan problemlər və digər infrastruktur layihələr həllini tapmalıdır. Bunların hamısını həll edəcəyik, bizim proqramımız, regionların inkişafı proqramı var və uğurla icra olunur. Bu proqram 2004-cü ilin fevral ayında qəbul edilib və indiyə qədər nəzərdə tutulmuş bütün məsələlər həyatda öz əksini tapıbdır. Bizim sözümüz həmişə həyatda öz əksini tapır.

Əsas məsələ odur ki, sözlə əməl arasında vəhdət olsun. Bu da bizdə var. Verilmiş vədlərə sadiqik, qarşıya qoyduğumuz bütün məsələləri həll edirik.

2005-ci il Azərbaycan üçün çox önəmli ildir. Bu il Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi başa çatacaqdır. Eyni zamanda, Azərbaycanda bu il parlament seçkiləri keçiriləcəkdir. Mən əminəm ki, parlament seçkiləri ədalətli, şəffaf keçiriləcək, Azərbaycan xalqının iradəsi, arzusu, istəyi seçkilərin nəticələrində öz əksini tapacaqdır. Biz hamımız hazırlaşmalıyıq ki, seçkilər ədalətli, şəffaf keçsin. Həm Bakıda, həm də ki, bölgələrdə bütün namizədlərə eyni şərait yaradılmalıdır. Azərbaycan xalqı müdrik xalqdır, yaxşını pisdən yaxşı ayıra bilir. Azərbaycan xalqına xəyanət etmiş, vaxtilə ölkəni uçuruma aparan qüvvələrə artıq Azərbaycanın siyasi səhnəsində yer yoxdur. Bu, artıq tarixin arxividir. Azərbaycanın gələcəyi tam başqa istiqamətdə inkişaf edəcəkdir. Yenilik olmalıdır. Gənc nəsil daha da fəal olmalıdır. İnkişaf, quruculuq olmalıdır, real iş olmalıdır. Seçkilərdən seçkilərə xalqa müraciət edən, ondan səs istəyən siyasətçilərə Azərbaycan xalqı öz münasibətini çoxdan bildiribdir. Əgər kimsə indiyədək daşı daş üstünə qoymayıbsa, xalqına heç bir xidmət etməyibsə, əməlləri ilə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində töhfə verməyibsə, o siyasətçilərdən heç nə gözləmək lazım deyildir. Azərbaycan xalqı real işə, əmələ öz dəstəyini verir. Siyasətçinin xalqa olan məhəbbətinə, bağlılığına səs verir. Bunu biz hiss edirik. Bir daha demək istəyirəm ki, prezident seçkilərində mən bu dəstəyi hiss eləmişəm və ona bu gün də arxalanıram. Azərbaycanın haqq sözünü dünyada cəsarətlə demək üçün, siyasi və iqtisadi islahatları davam etdirmək üçün, ölkəmizin mövqelərini möhkəmləndirmək üçün, Azərbaycanın əleyhinə işləyən bəzi qüvvələrə sərt cavabların verilməsi üçün xalqın dəstəyi lazımdır. Bu dəstək olmasa, bunların heç birini etmək mümkün deyildir. Bu dəstək var və o mənə də qol-qanad verir. Mənə imkan verir ki, heç kimdən çəkinmədən, heç kimə fikir vermədən dünyanın ən mötəbər kürsülərindən sözümü deyim və deyəcəyəm də. Çünki bizim işimiz haqq işidir, ədalət bizim tərəfimizdədir.

Bizə təzyiq etmək istəyən qüvvələrə bu gün bir daha deyirəm ki, bu cəhdlərin heç bir nəticəsi olmayacaq, Azər-

baycan xalqının iradəsi, Azərbaycan xalqının dəstəyi bizim üçün bayraqdır, bizim üçün bir işıqdır.

Bu amilə əsaslanaraq biz ölkəmizi irəliyə, xoşbəxt gələcəyə aparacağıq.

Burada mən gəncləri görürəm. Gənclər bizim gələcəyimizdir. Bilirsiniz ki, mən gənclərə həmişə böyük diqqətlə yanaşmışam. Bir müddət əvvəl özüm də gənc idim və idmanla da məşğul olurdum, bu gün də məşğulam. Həm də ki, idmana rəhbərlik edirəm. Gəncləri belə möhkəm görəndə, onların vətənpərvərlik ruhunu görəndə çox sevinirəm. Azərbaycanın gələcəyi bax, budur, bu gənclərdir, idmançılardır, gənc nəsildir. O nəsil ki, daha da yaxşı şəraitdə yaşayacaqdır.

Biz gənclərin qayğıları ilə yaşayırıq. İndi məktəblərin tikintisi sürətlə gedir, geniş vüsət alıbdır. Bütün məktəblərdə kompüter sinifləri yaradılacaqdır ki, gənclərimiz, şagirdlərimiz dünyada gedən bütün proseslərdən xəbər tuta bilsinlər. Bir sözlə, gənclər bu gün Azərbaycanın çox fəal təbəqəsidir və gələcəkdə Azərbaycanı onlar idarə edəcəklər. Biz Azərbaycanı onlara təhvil verəcəyik, iqtidarı onlara təhvil verəcəyik. Bir neçə ildən sonra indiki gənclər Azərbaycanda rəhbərliyə gələcəklər. Onlar gərək elə təhsil alsınlar, elə tərbiyə alsınlar, elə olsunlar ki, Azərbaycanı ləyaqətlə idarə etsinlər, Azərbaycanın qarşısında duran bütün məsələləri həll etsinlər.

Bu gün mən gənclərə müraciət edirəm: Mən sizinləyəm, sizə həmişə dəstək olmuşam. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəm.

Əziz dostlar, əziz ağdaşlılar!

Sizi bir daha ürəkdən salamlayıram, sizi öpürəm, bağrıma basıram. Mən səhərdən burdayam. Siz məni çox səmimi, hərarətlə qarşılamısınız. Bunu hiss edirəm, duyuram və bu mənə güc verir. Mən xalqın mənə olan münasibətindən güc alıram. Prezident kimi fəaliyyətimin əsas mənbəyi də xalqın iradəsidir. Mən bu amalla yaşayıram və bundan sonra da belə yaşayacağam.

Bir daha sizin hamınızı salamlayıram, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÖYÇAY RAYONUNA SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 7-də Göyçay rayonunda olmuşdur.*

*Prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və qızı Leylanı qarşılamaq üçün küçə və meydanlara çıxan göyçaylılar onlara böyük sevgi-məhəbbətlərini, istəklərini gül-çiçəklə, səmimi sözlərlə bildirirdilər. Yol boyu minlərlə sakinin əllərində ümummilli liderimiz Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, dövlətimizin başçısını salamlayan şüarlar var idi.*

## «Göyçay-Konserv» Açıq Səhmdar Cəmiyyətinin istehsal müəssisəsində

*Prezident İlham Əliyev və ailə üzvləri binanın qarşısında böyük hörmət və ehtiramla qarşılandı, onlara gül dəstələri təqdim olundu.*

*Cəmiyyətin rəhbərləri prezidentə məlumat verdilər ki, xalqımızın ümummilli lideri Heydər Əliyev hələ 1982-ci ildə Göyçayda olarkən rayon sakinləri həyətyanı sahələrdə yetişdirdikləri narın dövlət tərəfindən emal üçün tədarükünün yaxşılaşdırılmasını, əhalinin yeni iş yerləri ilə təmin olunmasını xahiş etmişdilər. Onun göstərişi ilə elə həmin ildə Göyçayda zavodun tikintisinə başlanmış və o, 1983-cü ildə istifadəyə verilmişdir. 1998-ci ilin martında müəssisənin bazasında «Göyçay-Konserv» Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Lakin müəssisə uzun müddət fəaliyyətsiz qalmışdır. 2004-cü ilin aprelində «Göyçay-Konserv» Açıq Səhmdar Cəmiyyətinin səhmlərinin 51 faizi iş adamı Ramiz Xəlilov tərəfindən alınmışdır. Qısa müddət ərzində zavodun yenidən qurulmasına, təmir və abadlıq işlərinə 2,9 milyard manat vəsait qoyulmuşdur. Bundan əlavə, keçən mövsümdə zavoda nar*

*tədarükü üçün 2,2 milyard manat vəsait ayrılmışdır. Həmin vəsait hesabına əhalidən 5000 ton nar tədarük edilmişdir. Hazırda müəssisənin illik istehsal gücü 25 min dekalitrdir. Burada İtaliyanın «Bertuzi» firmasının axın xətti quraşdırılmışdır.*

*Göyçay rayonunun 2000 nəfərdən çox kənd sakini ilə kənd təsərrüfatı məhsullarının alınması üçün müqavilələr bağlanmışdır. Zavodun işə düşməsi nəticəsində 2004-cü ildə 80 nəfər daimi, 120 nəfər isə mövsümi işlə təmin olunmuşdur. Orta aylıq əməkhaqqı 300–350 min manatdır. İstehsal olunmuş məhsulun satılması üçün Ukrayna və ABŞ şirkətləri ilə birillik müqavilələr bağlanmışdır. 2005-ci ilin mart ayından müqavilə öhdəliklərinin yerinə yetirilməsinə başlanmışdır.*

*Prezident İlham Əliyev zavodun müasir vəziyyəti, iş şəraiti, xammalın qəbulu, təmizlənməsi, emalı, məhsulun keyfiyyəti ilə yaxından tanış oldu, istehsal proseslərini izlədi, hazır məhsul anbarına baxdı. Dövlətimizin başçısı nar şirələrindən daddı, belə müasir müəssisələrin olmasına sevindiyini bildirdi, onların hesabına ölkəmizin inkişaf edəcəyini vurğuladı və kollektivə uğurlar arzuladı.*

## Göyçay «Kərpic-San LTD»-nin istehsal müəssisəsində

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 7-də «Kərpic-San LTD» Məhdud Məsuliyyətli Cəmiyyətin Göyçay rayonunun Cəyirli kəndinin ərazisində yerləşən və müasir standartlara cavab verən istehsal sahəsində olmuşdur.*

*Müəssisənin kollektivi tərəfindən hərarətlə qarşılanan respublikamızın rəhbərinə məlumat verildi ki, 13 il əvvəl işə salınmış, o vaxt illik istehsal gücü 6–8 milyon ədəd kərpic olan bu müəssisənin bütün səhmlərini 1998-ci ildə Türkiyənin iş adamları almışdır və onun bazasında «Kərpic-San LTD» Məhdud Məsuliyyətli Cəmiyyət yaradılmışdır. 2004-cü ildə müəssisədə yenidənqurma işləri aparılmış, yeni kürələr və talvar istifadəyə verilmiş, əraziyə asfalt-beton döşənmişdir. Zavodda aparılan yenidənqurma işlərinə keçən il 800 min dollardan artıq vəsait xərclənmiş, istehsal gücü təxminən 50*

*faiz artırılmışdır. Hazırda zavodun illik istehsal gücü 8–12 milyon ədəddir.*

*Burada divar və arakəsmələr üçün müxtəlif ölçülü kərpic istehsal olunur və onlardan əsasən Bakı şəhərində çoxmərtəbəli binaların tikintisində istifadə edilir. Eləcə də Gəncə, Sumqayıt və Mingəçevir inşaatçılarının da tələbatı ödənilir. Hazırda zavodda 200 nəfər fəhlə və qulluqçu çalışır. Orta aylıq əməkhaqqı 400–600 min manatdan 700–800 min manata çatdırılmışdır. Bundan əlavə, 70 ədəd texnika və s. nəqliyyat vasitələri cəlb olunmuşdur.*

*Dövlətimizin başçısı müəssisədə görülən işlərdən, istehsal sahələrinin genişləndirilməsindən razılığını bildirdi, fəhlələrlə görüşüb hal-əhval tutdu, iş şəraiti ilə maraqlandı. Fəhlələr qəbul olunmuş dövlət proqramlarının icrası sayəsində yeni müəssisələrin, iş yerlərinin yaradılmasından razılıqlarını söylədilər, görülən bütün işlərə görə prezidentə minnətdarlıqlarını bildirdilər.*

*Müəssisənin rəhbəri Nuri Alim yeni yaradılacaq istehsal sahələri barədə danışdı, yeni obyektlərin, iş yerlərinin açılması üçün bundan sonra da çalışacaqlarını bildirdi.*

*Prezident İlham Əliyevə «Kərpic-San LTD» MMC adından xatirə hədiyyələri təqdim edildi.*

## «Göyçay-Süd» Açıq Səhmdar Cəmiyyətinin istehsal müəssisəsində

*Azərbaycan prezidenti İlham Əliyevin rayonun ən böyük istehsal obyekti olan «Göyçay-Süd» Açıq Səhmdar Cəmiyyətinin müəssisəsi ilə tanışlığı da yüksək təəssürat bağışladı.*

*1998-ci ilin avqustunda Göyçay süd zavodunun bazasında yaradılmış bu müəssisə tam özəlləşdirilmişdir. 1999-cu ildə İsveçin «Tetra Laval Kredit AB» şirkətinin mütəxəssisləri respublikamızda olmuş, yerlərdə vəziyyəti təhlil edərək «Azərbaycanda ağartı məhsulları və meyvə şirələrinin istehsalı» layihəsini hazırlamışlar. Bu layihəni həyata keçirmək üçün «Göyçay-Süd» Açıq Səhmdar Cəmiyyətinin bazasında bütöv*

*bir kompleks yaratmaq və onu ən müasir texnoloji avadanlıqla təchiz etmək nəzərdə tutulmuşdu.*

*Bu məqsədlə 2000-ci ilin noyabr ayında İsveçin Kral Fondunun dəstəyi ilə «Göyçay-Süd» Açıq Səhmdar Cəmiyyəti və həmin ölkənin «Tetra Laval Kredit AB» şirkəti arasında avadanlıq alınması barədə lizinq müqaviləsi bağlanmışdır. Müqaviləyə əsasən, müəssisənin istehsal sexlərində və inzibati binasında səhmdarların şəxsi vəsaiti hesabına təmir-tikinti və yenidənqurma işlərinə başlanmışdır. İndiyədək həmin işlərin yerinə yetirilməsi üçün 1,5 milyard manat vəsait xərclənmişdir. Hazırda təmir-tikinti işləri davam etdirilir. 2002-ci ilin yanvar ayından başlayaraq dəyəri 3 milyon ABŞ dolları olan texnoloji avadanlıq müəssisəyə gətirilərək quraşdırılmış və istismara verilmişdir. Həmin ilin iyun ayından süd məhsullarının və oktyabr ayından isə meyvə şirələrinin istehsalına başlanılmışdır.*

*Hazırda burada ən müasir tələblərə cavab verən 30-dan çox çeşiddə süd məhsulları və meyvə şirələri istehsal olunur və əsasən respublikamızda satılır. Bundan əlavə, Gürcüstanın «Georgian Produkts» şirkətilə bağlanmış müqaviləyə əsasən, bu ölkəyə də süd məhsulları göndərilir. Beləliklə, müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq süd məhsullarının ixracına başlanmışdır.*

*Zavodla tanışlıq zamanı cəmiyyətin idarə heyətinin sədri Mustafa Bədəlov dövlətimizin başçısına məlumat verdi ki, meyvə şirələri əsasən xarici ölkələrə ixrac olunur. İndiyədək Rusiya, Ukrayna, Estoniya, Moldova, Belarus və İsrailə məhsul göndərilmişdir. Müəssisədə 68 nəfər daimi işlə, 15–20 nəfər isə müvəqqəti işlə təmin olunmuşdur. Bütün mütəxəssislər yerli kadrlardır. Orta əməkhaqqı 500 min manatdır, işçilərə gündə bir dəfə pulsuz yemək verilir. Müəssisənin əsas xammalı təbii inək südü və ölkəmizdə yetişdirilən meyvələrdir. Ayrı-ayrı bölgələrdə süd tədarükü üçün yerlərdə qəbul məntəqələri yaradılmış və hazırda hər gün təxminən 6500 nəfər kəndlidən 25–30 ton süd qəbul olunur. Ən müasir avadanlıqla təchiz edilmiş belə məntəqələr Masallı, Yevlax, Bərdə, Ağdaş, Göranboy*

*və İmişli rayonlarının ərazisində yaradılmışdır. 2004-cü ildə müəssisədə 2 ədəd meyvə qəbulu xətti və 1000 kvadratmetr sahəsi olan hazır məhsul anbarı istifadəyə verilmişdir. Yaxın günlərdə yeni pendir sexinin tikintisinə başlanacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev çanaq pendiri istehsalı üçün nəzərdə tutulan sahəyə də baxdı, görülən işləri yüksək qiymətləndirdi.*

## Heydər Əliyev seyrəngahı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 7-də Göyçaya səfəri çərçivəsində rayon mərkəzindəki istirahət güşəsinə – ümummilli lider Heydər Əliyevin adını daşıyan seyrəngaha gəldi. Küçələrə çıxmış və istirahət guşəsinə toplaşmış minlərlə sakin dövlətimizin başçısını hərarətlə salamlayır, ona hörmət və ehtiramlarını ən səmimi sözlərlə ifadə edirdilər. Bəziləri isə respublikamızın rəhbərinə yaxınlaşaraq problemlərindən söz açırdılar.*

*Prezident İlham Əliyev sakinlərlə səmimiyyətlə görüşərək göstərdikləri münasibətə görə təşəkkürünü bildirdi, onları narahat edən problemlərin araşdırılıb həll ediləcəyini söylədi.*

*Göyçay sakinləri ümummilli lider, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin ölkəmiz və xalqımız qarşısındakı tarixi xidmətlərini məmnunluqla xatırlayır, ulu öndərin siyasi xəttinin layiqli davamçısı prezident İlham Əliyevin ətrafında sıx birləşərək onun daxili və xarici siyasətini bundan sonra da dəstəkləyəcəklərini vurğulayırdılar.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla ulu öndər Heydər Əliyevin burada ucaldılmış əzəmətli abidəsi önünə gül dəstələri qoydular, seyrəngahdakı səliqə-səhmanı, istirahət üçün yaradılmış şəraiti yüksək qiymətləndirdilər.*

*Dövlətimizin başçısı və ailə üzvləri Heydər Əliyev seyrəngahındakı uşaq əyləncə mərkəzi ilə də tanış oldular, musiqi ansamblının çıxışına qulaq asdılar, onlara uğurlar arzuladılar.*

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Göyçayda internat məktəbində

*Azərbaycan prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva iyulun 7-də, dövlətimizin başçısının Göyçay rayonuna səfəri çərçivəsində Göyçay şəhərindəki internat məktəbində olmuşdur.*

*Ehtiramla, xüsusi hörmətlə qarşılanan Mehriban Əliyevaya rəhbərlik etdiyi fondun uşaq evlərinə, internatlara göstərdiyi qayğıya görə ürəkdən gələn xoş sözlər deyildi.*

*Heydər Əliyev Fondunun prezidenti məktəblə tanış oldu. Mehriban xanım otaqlarda döşəmələrin təzələnməsinə, istilik sisteminin yaradılmasına, avadanlıqla təchiz olunmasına yaxından kömək göstəriləcəyini bildirdi.*

*İnternat məktəbində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin üzvləri ilə görüşən YUNESKO-nun Xoşməramlı səfiri onların problemləri ilə də yaxından maraqlandı.*

# GÖYÇAY RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*7 iyul 2005-ci il*

Əziz bacılar və qardaşlar!

Əziz göyçaylılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi öpürəm, bağrıma basıram.

Mən çox şadam ki, Göyçay çox sürətlə inkişaf edir. Bu gün burada tanış olduğum müəssisələrin fəaliyyəti mənə çox gözəl təsir bağışladı. Yeni iş yerlərinin açılması, yeni, müasir müəssisələrin istismara verilməsi bizim əsas prioritet məsələlərimizdir. Mən çox sevinirəm ki, Göyçayda geniş quruculuq, abadlıq işləri gedir, yeni iş yerləri açılır, yeni müəssisələr istismara verilir. Şəhər abadlaşır, gözəlləşir, yeni parklar salınır, insanlara diqqət artır.

Burada deyildi, mən icra hakimiyyəti başçısının fəaliyyətini qeyd etmək istəyirəm. Doğrudan da bu fəaliyyətin nəticəsində böyük işlər görülür və bu onu göstərir ki, yerlərdə iş görmək mümkündür. Hər şey mərkəzdə həll edilmir. Mərkəzdə, Bakıda qlobal, prinsipial məsələlər həll olunur. Bizim siyasətimizin əsas istiqamətləri – proqramlar, sosial-iqtisadi, regional inkişaf proqramları, digər proqramlar tərtib olunur, təsdiq edilir. Ancaq onların icrası həm də yerli icra orqanlarının fəaliyyətindən asılıdır. Harada iş var, iş gedir, orada nəticə də var.

Mən son müddət ərzində Azərbaycanın müxtəlif rayonlarının icra hakimiyyəti başçılarını vəzifədən azad etdim. Yeni insanları vəzifəyə təyin elədim və gördüm ki, inkişaf başladı. Geniş quruculuq, abadlıq işlərinə təkan verildi.

Amma Göyçayda icra hakimiyyətinin başçısı artıq bir neçə ildir işləyir və mən bilirəm ki, yaxşı işləyir. Ona görə onu dəstəkləyirəm. Bu gün də buraya gəlmişəm və görürəm ki, həqiqətən böyük işlər görülür. Gələcəkdə daha böyük işlər görülməlidir. Bizim planlarımızda bunların hamısı var. Amma bunları etmək üçün ilk növbədə iqtisadiyyat güclənməlidir. Ona görə bizim əsas diqqətimiz bu sahəyə yönəlibdir: iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, iqtisadi potensialın güclənməsi. Bütün bunlar biri-birilə bağlı olan məsələlərdir. İnkişaf olan yerdə iş yeri də açılır. İş yeri olan yerdə yüksək maaş da verilir. İnsanlar daha da yaxşı yaşayır. Vergilər ödənir, Azərbaycanın büdcəsi artır. Yəni bu, zəncirvari bir prosesdir.

Əgər Azərbaycanın son müddət ərzindəki inkişafına nəzər salsaq görərik ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməl üzərində bütün istiqamətlərdə inkişaf göz qabağındadır. Yeni müəssisələr açılır, Azərbaycan iqtisadiyyatı ən yüksək sürətlə inkişaf edir. Bu il Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada birinci ölkə olacaqdır. Son il yarım ərzində Azərbaycanda 220 mindən artıq iş yeri açılıbdır. Bunların tam əksəriyyəti bölgələrdədir. Minimum əməkhaqqı 3 dəfə qaldırılıb, digər sosial müavinətlər artırılır və bu proses davam etdirilir. Biz hər gün, hər ay, hər il bu müsbət dəyişiklikləri görməliyik və əminəm ki, görəcəyik.

Regionların sosial-iqtisadi inkişaf proqramı icra edilir. Mən bu proqramı hələ prezident seçkiləri ərəfəsində bəyan etdim, onun əsas istiqamətlərini xalqa çatdırdım və bu gün o, icra olunur. Bu bir daha göstərir ki, bizim sözümüzün arxasında real əməllər var, real işlər var. Heç vaxt söz naminə, populist bir vəd naminə iş görmürük. Yalnız real siyasət, yalnız həqiqi işlər, əməli-praktiki işlər var ki, Azərbaycanın bütün bölgələrində yaşayan hər bir insan bunu hiss etsin. Bu istiqamətdə işləri davam etdirəcəyik.

Mən şübhə etmirəm ki, Heydər Əliyevin əsəri olan və bu gün onun adını daşıyan, tikilib istismara verilməkdə olan Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra ölkə daha da zənginləşəcəkdir. Ölkəmizə daha böyük həcmdə vəsait gələcək və biz bu vəsaitdən səmərəli istifadə edəcəyik. Bu il və gələn il Azərbaycanın müxtəlif bölgələrində 52 kiçik elektrik stansiyası quraşdırılacaqdır. Məqsəd qoyulub ki, Azərbaycanda işıq problemi aradan götürülməlidir. İstənilən vaxtda, istənilən yerdə hər bir vətəndaş düyməni basıb işığı yandırmalıdır.

Qaz təchizatı yaxşılaşmalıdır. Digər məsələlər – abadlıq, quruculuq işləri genişlənəcəkdir. Bu gün qeyd olundu, Azərbaycanın Göyçay kimi gözəl, qədim şəhərində olimpiya kompleksinin tikilməsi, hesab edirəm ki, çox vacibdir və biz buna nail olacağıq.

İqtisadi inkişaf, sosial sahəyə diqqət, pensiyaların, maaşların, sosial müavinətlərin artırılması, iqtisadi potensialın güclənməsi, ordunun güclənməsi, xarici siyasətdə qəti mövqeyimiz, Azərbaycanın bölgədəki mövqelərinin möhkəmlənməsi, Azərbaycanın dünya birliyində daha möhkəm yer tutması üçün biz çalışırıq. Mən prezident kimi, öz vəzifəmi bunda görürəm. Xalqa xidmət etməkdə görürəm. Bütün məmurlardan, vəzifəli şəxslərdən, o cümlədən icra hakimiyyətinin başçılarından da tələbim bundan ibarətdir. Biz xalqın xidmətçiləriyik. Xalq bizi ona görə seçib və etimad göstərir ki, ona ləyaqətlə qulluq edək, xidmət edək.

Mən bütün bölgələri gəzirəm. Çoxdan istəyirdim ki, Göyçaya da gəlim, sizinlə görüşüm və çox şadam ki, bu gün mənim arzum gerçəkləşir. Sizi görəndə, sizinlə ünsiyyətdə olanda, buradakı əhval-ruhiyyəni, abadlıq işlərini görəndə mənim ürəyim açılır, sevinir. Problemlər də var və az deyildir. Yoxsulluğun aradan qaldırılması bir nömrəli problemdir. İl yarım bundan əvvəl Azərbaycanda yoxsulluğun səviyyəsi 50 faiz idi. İndi 40 faizdir. Amma yenə də çoxdur. Nə üçün belə olmalıdır? Nəyə görə Azərbaycan xalqının 40

faizi yoxsulluq şəraitində yaşamalıdır? Biz bununla barışa bilmərik. Amma bunun obyektiv səbəbləri var. 1990-cı illərin əvvəllərindəki iqtisadi böhran, tənəzzül Azərbaycanın iqtisadiyyatını çökdürdü, müəssisələr dayandı, təsərrüfat əlaqələri pozuldu. Faktiki olaraq, ölkə iflic vəziyyətində idi. Bir yandan da sabitlik pozulmuşdu. Qanunsuz silahlı dəstələr meydan oxuyurdu. Digər tərəfdən, ermənilər torpaqlarımızı işğal edirdilər. Vətəndaş müharibəsi, qarşıdurma başlanmışdı. Bütün bu ağır şəraitdə xalqın tələbi ilə, sözün əsl mənasında, xalqın lideri hakimiyyətə gəldi və Azərbaycanı bu bəladan qurtardı.

Bu gün Azərbaycanın gələcək inkişafı üçün gözəl şərait var. Ona görə yoxsulluğun azaldılması, işsizliyin aradan götürülməsi prioritet məsələdir. Mən prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, 5 il ərzində Azərbaycanda 600 min iş yeri açılacaqdır. Buna bəziləri ciddi yanaşmaq istəmirdi, bəziləri inanmırdı, hesab edirdi ki, bu, bir vəddir. Çünki onların özlərinin verdiyi vədlərin hamısı sonra boşa çıxır. Amma bizim verdiyimiz vədlər bu gün artıq reallıqdır. 600 min iş yerindən indiyədək 220 mini açılıbdır. Bu hələ başlanğıcdır. Biz iqtisadi inkişaf proqramının, regional inkişaf proqramının əvvəlindəyik. Görün, Azərbaycana Bakı–Tbilisi–Ceyhan neft kəmərindən gələcək vəsait daxil olandan sonra bizi nələr gözləyir.

2006-cı il Azərbaycan üçün həlledici il olacaqdır. İqtisadiyyata çox güclü təkan veriləcəkdir. Bizim büdcəmiz artacaqdır. 2005-ci ildə büdcə 2004-cü ilə nisbətən 40 faiz artıbdır. 2006-cı ildə daha çox artmalıdır. Bizim büdcəmiz 3 milyard, sonra 4 milyard, 5 milyard dollar olmalıdır. Bizim görüləsi çoxlu işlərimiz var. Yeniləşmə aparılmalıdır, abadlıq işləri görülməlidir, infrastruktur yaranmalıdır, əmək haqları qaldırılmalıdır, iqtisadiyyat daha da inkişaf etməlidir. Bunu etmək üçün vəsait lazımdır. Onu da biz əldə edirik. Nə ilə? Siyasətlə, iqtisadi, siyasi islahatlarla, bizim neft strategiyamızın icrası ilə və digər önəmli tədbirlərlə. Bütün bunların

mərkəzində bir amal, bir məqsəd dayanır: Azərbaycanın güclənməsi, qüdrətli dövlətə çevrilməsi, Azərbaycan xalqının rahat, firavan yaşaması.

Bu gün Azərbaycanda əmin-amanlıq, sabitlik, milli həmrəylik, milli birlik var, iqtidarla xalq arasında vəhdət var, inam var. Bu reallıqdır. Lakin bunu həm ölkə daxilində, həm də xaricdə istəməyən qüvvələr də vardır. Amma onların fəaliyyəti bizim siyasətimizə heç vaxt təsir etməmişdir və etməyəcəkdir. Xalq özü bilir ki, kim kimdir. Kim vədlə, sözlə, hansısa reallığı əks etdirməyən proqramla çıxış edir, kim real işlə. Real iş olmalıdır. Daş daş üstünə qoyulmalıdır, abadlıq aparılmalıdır, bir ağac əkilməlidir. Heydər Əliyevin siyasətinin əsası bundadır. 1970-ci illərdə də belə idi.

1970-ci illərdə Göyçay abadlaşdı. Mən keçmişdə bir neçə dəfə Göyçayda olmuşam. Amma prezident kimi ilk dəfə buradayam. Göyçayın inkişafı məhz o illərdə başlamışdı.

Bu gün gördüyüm konserv zavodu, yaxud da süd zavodu – hansılar ki, indi yeniləşib, dünya standartlarına uyğun müasir avadanlığı var – onlar o illərdə tikilibdir. Heydər Əliyevin təşəbbüsü ilə o illərdə tikilən müəssisələr sonralar, 1990-cı illərdə səriştəsiz rəhbərlərin yarıtmaz fəaliyyəti nəticəsində dayanmışdı, işləmirdi. İndi onlar yenidən işə salınır. Yəni bu nəyi göstərir? Bu, bir meyldir, bir ənənədir və gərək biz bunu gücləndirək. Hərə öz yerində – prezident, onun yerlərdəki nümayəndələri, icra hakimiyyətinin başçıları, məmurlar, vəzifəli şəxslər, cəmiyyətimiz, bir sözlə, biz hamımız. Azərbaycan bizim Vətənimizdir, əziz, doğma torpağımızdır, onun müstəqilliyi ən böyük sərvətimizdir. Biz fəxr edirik ki, müstəqil dövlətik. Sözün əsl mənasında, müstəqil dövlət kimi siyasət aparırıq. Bizim qonşuluğumuzda başqa ölkələr var. Hansı ki, adı müstəqildir, özü müstəqil deyil, başqa qüvvələrin, dairələrin, ölkələrin iradəsi ilə oturubdurur. Bizdə əsl müstəqillik var, öz siyasətimizi yalnız və yalnız xalqın iradəsinə, istəyinə əsaslanaraq həyata keçiririk. Heç kim bizə təsir edə bilməz. Bizim heç kimdən

asılacağımız yoxdur. Ona görə gərək daha da güclənək. Güclənək ki, güclü ordu yaradaq. Güclü ordu yaradaq ki, torpaqlarımızı azad edək.

Sülh danışıqları gedəcəkdir. Mən hələ ümidliyəm ki, danışıqların müsbət nəticəsi mümkündür. Çünki son zamanlar Ermənistanla Azərbaycan arasında aparılan danışıqlarda müəyyən irəliləyiş var. Ümid edirəm ki, bu daha da qabağa gedəcəkdir. Amma eyni zamanda, düşmən bizim gücümüzü bilməlidir, gücümüzü hiss etməlidir və ondan qorxmalıdır. Bunun üçün güclü ordu yaranmalıdır. Bunu da edirik. Bu il orduya xərclər təxminən 2 dəfə də artıbdır. Gələn il, lazım olarsa, yenə də 2 dəfə artırarıq ki, bütün məsələləri öz istədiyimiz kimi həll edək.

Bizim istədiyimiz haqq-ədalətdir, başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpaqlarımızı da heç kimə verən deyilik. Ərazi bütövlüyümüzü bərpa etməliyik. Qaçqınlar, köçkünlər doğma torpaqlarına qayıtmalıdırlar. Əminəm ki, biz buna nail olacağıq.

Əziz bacılar və qardaşlar!

Bizim gücümüz birliyimizdədir, birgə fəaliyyətimizdədir. Bu gün bu birlik var. Azərbaycan xalqı həmrəylik nümayiş etdirir. Azərbaycan xalqı öz prezidentinə etimad göstərir. Mən bunu hiss edirəm və buna arxalanıram. Mənim gücüm bundadır. Mən bunu hiss etdikcə, islahatları daha da inamla aparıram. Xarici siyasətimizi Azərbaycan xalqının maraqlarına uyğun şəkildə aparıram. Kiminsə maraqlarına uyğun yox, məhz Azərbaycan xalqının maraqlarına uyğun aparıram. Çünki bu bizim torpağımızdır, Vətənimizdir. Azərbaycan xalqı bu torpaqda yaşayır və müstəqil Azərbaycan ən böyük sərvətimizdir.

Göyçayda görülmüş işlər məni razı salır, baxmayaraq ki, problemlər də var və onlar aradan götürülməlidir. İcra hakimiyyətinin başçısı mənə məruzə edəcək – əgər əlavə kömək lazımdırsa, abadlıq, quruculuq işlərinə, hansısa müəssisələrin yaranmasına, yolların salınmasına, elektrik xətlərinin

çəkilməsinə əlavə vəsait lazımdırsa, mən bunu ayıracağam. Bu gün belə imkanlar var. Mən görəndə ki, iş var, necə deyərlər, daha da inamla kömək edirəm. Görəndə ki, iş yoxdur, bilirsən ki, ona nə qədər kömək etsən, vəsait ayırsan da havaya sovrulacaqdır. Burada isə iş gedir. Ona görə mən bunu bəyənirəm və dəstəkləyirəm.

Göyçaylılar həmişə, bütün zamanlarda Azərbaycanın müstəqil dövlət kimi yaşamasına böyük töhfələr vermişlər, bizim müstəqilliyimizin möhkəmlənməsi işində çox böyük işlər görmüşlər. Bu gün də göyçaylılar Azərbaycanın müstəqilliyinin, iqtisadi potensialının möhkəmlənməsi üçün böyük işlər görürlər. Mən buna görə sizə minnətdaram. Sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN BAKIDAKI SƏFİRLİYİNDƏ

*8 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Böyük Britaniyanın paytaxtı Londonda törədilmiş faciəli terror aktları ilə əlaqədar iyulun 8-də bu ölkənin Bakıdakı səfirliyinə gedərək başsağlığı vermişdir.*

*Azərbaycan dövlətinin başçısını səfirliyin binası önündə Böyük Britaniyanın respublikamızdakı səfiri Lorens Bristoun qarşıladı.*

*Prezident İlham Əliyev səfirliyin əməkdaşları ilə görüşüb onlara başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdı:*

«İyulun 7-də Londonda baş verən dəhşətli terror aktı məni sarsıtdı. Mən bu faciənin günahsız qurbanı olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Ümid edirəm ki, yaralanan yüzlərlə insan tezliklə sağalacaqdır.

Azərbaycan Respublikası terrorizmin hər növünü qətiyyətlə pisləyir və bu cür bəd əməllərə qarşı mübarizəyə dəstəyi daim davam etdirəcəkdir.

Mən eyni zamanda Böyük Britaniya hökumətinə və xalqına da başsağlığı verirəm. Böyük Britaniya xalqı bu faciəli, ağır günlərdə tək deyildir. Bu dəhşətli həmlə, hücum bütün xalqlara qarşı yönəldilmişdir və Azərbaycan xalqı Böyük Britaniya xalqı ilə möhkəm həmrəyliyini bildirir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

8 iyul 2005-ci il».

*Sonra prezident İlham Əliyev səfir Lorens Bristoun ilə söhbət etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin, münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyini və möhkəmlənəcəyini vurğuladı.*

*Səfir Lorens Bristoun Böyük Britaniya xalqına üz vermiş kədərlə əlaqədar onların dərdlərinə şərik olduğuna, səfirliyə gələrək başsağlığı verdiyinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyul 2005-ci il*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## BAKININ MAŞTAĞA QƏSƏBƏSİNDƏ MÜASİR TİPLİ RABİTƏ EVİNİN AÇILIŞ MƏRASİMİ

*12 iyul 2005-ci il*

*Bakının Maştağa qəsəbəsində müasir standartlara cavab verən Rabitə Evinin açılışı olmuşdur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısı əvvəlcə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və «Azərpoçt» Dövlət Müəssisəsi tərəfindən yaradılmış Rabitə Evində fəaliyyət göstərən 4 nömrəli poçt filialı və 39 nömrəli poçt şöbəsi ilə tanış oldu.*

*Rabitə və Informasiya Texnologiyaları naziri Əli Abbasov məlumat verdi ki, 4 nömrəli filialda Maştağa, Bilgəh, Nardaran qəsəbələrinin sakinlərinə hər cür poçt xidməti göstəriləcəkdir. Burada bütün rabitə, kommunal ödəmələr aparmaq üçün şərait vardır, beynəlxalq danışıq məntəqələri fəaliyyət göstərir, abunəçilərin rahatlığı üçün xidmətlər üzrə qiymət cədvəli asılmış, «Kapital Bank» tərəfindən bankomatlar quraşdırılmışdır.*

*Prezident İlham Əliyev Bakı Telefon Rabitəsi İstehsalat Birliyi Sabunçu Telefon Qovşağının Rabitə Evində yerləşən elektron tipli yeni stansiya (EATS-455) ilə tanış oldu.*

*Nazir məlumat verdi ki, yeni EATS üç hissədən ibarətdir. Bu elektron ATS vasitəsilə kənd camaatına Avropa standartları səviyyəsində xidmət göstəriləcəkdir. Ölkəmizin bütün regionlarında olduğu kimi, Bakıda və onun ətrafındakı kənd və qəsəbələrdə də rabitənin, müasir informasiya texnologiyalarının inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bakıətrafı kənd və qəsəbələrin hamısı telefon rabitəsi ilə*

*təmin olunmuş, sakinlərin müasir informasiya texnologiyalarından geniş istifadə etmələri üçün hər cür şərait yaradılmışdır.*

*Maştağa qəsəbəsində istifadəyə verilən yeni Rabitə Evi ölkəmizdə oxşarı olmayan rabitə müəssisəsidir. Burada 5500 nömrə tutumuna malik elektron ATS, bütün növ poçt xidmətləri göstərən şöbə, iş adamları üçün informasiya xidmətləri, internet-klub, linqofon kabineti, bufet fəaliyyət göstərir. Bundan başqa, genişzolaqlı rabitə xidmətindən, yəni bir telefon xətti vasitəsilə eyni vaxtda telefon danışığı aparmaq, televiziya kanalını izləmək və yüksək sürətli internet xidmətindən istifadə etmək mümkündür.*

*Ən müasir tələblər səviyyəsində yaradılmış Maştağa Rabitə Evi yerli əhalinin və qonaqların bu sahəyə olan ehtiyacını maksimum ödəmək imkanlarına malikdir. Yeni elektron ATS Rabitə Evi ilə ölkənin digər rabitə müəssisələri arasında videokonfranslar təşkil etməyə imkan verəcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Rabitə Evində quraşdırılmış dünya standartlarına cavab verən avadanlıq və texnologiyalarla, kompüter şəbəkəsinin, elektrik sisteminin, habelə telefon stansiyasının fəaliyyəti, iş prosesi, işçilər üçün yaradılmış şəraitlə yaxından tanış oldu, kənd və qəsəbələrə telefon çəkilişi ilə maraqlandı.*

*Prezidentə məlumat verildi ki, Azərbaycan kəndlərində bu sahədə müəyyən gerilik vardır. Hər 100 nəfərə cəmi 6 telefon düşür. Bakı kəndlərində isə bu rəqəm 18-dir. Paytaxtətrafı kəndlərdə hər kəs 400 min manat ödəməklə qısa müddətdə evinə telefon çəkdirə bilər. Ölkəmiz sosial-iqtisadi cəhətdən inkişaf etdikcə, telefonla bağlı müraciətlər get-gedə çoxalır. Ümumiyyətlə, Bakı şəhərində rabitəyə qoyulan xərci iki il ərzində çıxarmaq mümkün olduğu üçün beynəlxalq şirkətlər bu sahəyə böyük maraq göstərirlər.*

*Dövlətimizin başçısı İlham Əliyev Mingəçevir şəhərində istehsal olunmuş və EATS-də quraşdırılmış kompüterin fəaliyyəti ilə maraqlandı.*

*Nazir Əli Abbasov vurğuladı ki, respublika üzrə bütün poçt şöbələrində belə kompüterlər qoyulacaqdır. Çünki buna böyük ehtiyac vardır. Dünya Bankı ilə əldə olunmuş razılığa əsasən, bütün poçt şöbələrində yeni informasiya texnologiyalarının tətbiqi, əhaliyə maliyyə və bank xidmətləri göstərilməsi, ətraflı informasiya verilməsi işi genişləndiriləcəkdir. Bu, zamanın tələbidir. Məhz bu kompüter vasitəsilə abonentlərin özləri sərbəst şəkildə rabitəyə, eləcə də kommunal xidmətlərə görə borclarının məbləğini pulsuz öyrənə biləcəklər.*

*Bildirildi ki, indi Azərbaycanda Şərqi Avropa, Orta Asiya və Yaxın Şərqdə oxşarı olmayan yeni bir şəbəkə də qurulur. Bunun vasitəsilə servis xidmətləri, ucuz qiymətlərlə sürətli internetdən istifadə etmək üçün ADSL avadanlığına qoşulma, telefonun beynəlxalq, şəhərlərarası və yerli rabitəyə çıxışının abonent tərəfindən ixtiyari dördrəqəmli kodla açılıb-bağlanması, konfrans-rabitə yaradılması, giriş çağırışının başqa telefon nömrəsinə istiqamətləndirilməsi, rabitə, televiziya, internet sisteminə yüksək sürətlə qoşulma və sair mümkündür. Bu, bütün inkişaf etmiş ölkələrdə vardır. Maştağa qəsəbəsi də məhz bu şəbəkənin, magistral xəttin üzərindədir və yaxın vaxtlarda həmin şəbəkəyə qoşulacaqdır. Bununla bağlı keçirilmiş tenderi yerli SİNOM şirkəti udmuşdur.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, yeni EATS vasitəsilə Gəncə və Şəki telekommunikasiya qovşaqlarında keçirilən mərasimləri Rabitə Evindən böyük ekranda izlədi və rabitə müəssisələri arasında təşkil olunmuş videokonfransa qoşuldu.*

*Gəncə rabitəçiləri dövlətimizin başçısını salamlayaraq bildirdilər ki, bu gün rabitəçilər üçün əlamətdar bayramdır. İdarəmizdə yeni müasir elektron telefon qovşağının açılış mərasiminə yığışmışıq. İcazə verin, Sizə gəncəlilər adından gələcək işlərinizdə uğurlar diləyək. Görülmüş bütün bu işlər Sizin rabitəçilərə göstərdiyiniz xüsusi diqqət və qayğının, eləcə də regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun həyata keçirilən tədbirlərin bəhrəsidir. Son bir ildə Gəncə*

*Telekommunikasiya İdarəsində 50-dən artıq yeni iş yeri açılmışdır. Biz çalışacağıq ki, qarşımızda qoyduğunuz vəzifələri layiqincə yerinə yetirək və əhaliyə yüksək keyfiyyətli rabitə xidməti göstərək. Biz həmişə Sizin siyasətinizi dəstəkləyəcəyik.*

**İ l h a m Ə l i y e v:** Mən sizi salamlayıram. Görün Azərbaycanda nə gözəl imkanlar yaranıbdır. Biz burada Bakı ilə Gəncə arasında telekörpü yaratmışıq. Burada, Bakının Maştağa qəsəbəsində yeni müasir rabitə, poçt binası açılıbdır. Sizi də təbrik edirəm. Bilirəm ki, Gəncədə də gözəl işlər gedir, siz də açılışda iştirak edirsiniz. Xahiş edirəm, mənim salamlarımı bütün gəncəlilərə çatdırasınız.

Mən çox sevinirəm ki, Gəncə gözəlləşir, abadlaşır, çox gözəl işlər görülür. Bilirsiniz ki, mən də mütəmadi qaydada sizin gözəl şəhərinizə gəlirəm, bundan sonra da gələcəyəm. İstəyirəm ki, işlər daha da yaxşı getsin. Sizə uğurlar arzulayıram.

*Sonra Şəki Telekommunikasiya Qovşağının çoxsaylı işçiləri prezident İlham Əliyevi ekran vasitəsilə səmimi-qəlbdən salamladılar və dedilər ki, möhtərəm Prezident, Sizin 2004-cü ilin fevralında imzaladığınız regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramından irəli gələn vəzifələr digər sahələrdə olduğu kimi, rabitə və informasiya texnologiyaları sahəsində də uğurla həyata keçirilir. Məhz bunun nəticəsidir ki, regionlarda yeni rabitə obyektləri, telefon stansiyaları yaradılır. Biz şəkililər ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı kimi, Sizin rəhbərliyiniz altında ölkəmizin firavan gələcəyinə doğru inamla addımlayacağıq.*

**İ l h a m Ə l i y e v:** Mən sizi salamlayıram. Xahiş edirəm, mənim salamlarımı bütün şəkililərə çatdırasınız. Bu yaxınlarda Şəkiyə də gələcəyəm, orada vəziyyətlə tanış olacağam. Bildiyiniz kimi, mən Şəkidə dəfələrlə olmuşam. Orada keçmişdə böyük işlər görülmüşdür. İndi də regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı Şəkidə uğurla icra edilir,

yeni məktəblər, körpülər, sənaye müəssisələri tikilir. Bilirəm ki, abadlıq işləri də gedir. Ona görə, bu yaxınlarda gəlib vəziyyətlə tanış olacağam. Amma indi Bakıdayam, xahiş edirəm, bütün şəkililərə mənim səmimi salamlarımı çatdırasınız. Sağ olun.

* * *

*Respublikamızın rəhbəri İlham Əliyev Rabitə Evinin ayrı-ayrı şöbələrini, internet-klubu, linqofon kabinetini gəzdi.*

**İ l h a m  Ə l i y e v:** Internetdən istifadə və xarici dil bilməк vacibdir. Bu il və gələn il respublikanın bütün məktəbləri də kompüterləşdiriləcəkdir. Məktəblərin kompüter şəbəkələri pulsuz olaraq internetə qoşulacaqdır. Mən istəyirəm ki, Azərbaycanın hər bir yerində – Bakıda, Bakının kəndlərində, digər yerlərdə belə gözəl şərait olsun. Bu inkişafdır, müasirlikdir. Azərbaycan gəncləri gərək bütün bu imkanlardan səmərəli istifadə etsinlər. Uşaqlar gərək xarici dilləri bilsinlər. Bu, müasir dünyada çox vacibdir.

Sağ olun, sizə uğurlar arzulayıram.

*İnternet-klubdan və linqofon kabinetindən istifadə edən gənclər prezidenti səmimi salamlayaraq, onlara yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dərin təşəkkürlərini bildirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev Rabitə Evinin xidmətlərindən istifadə edən gənclər və uşaqlarla xatirə şəkli çəkdirdi, fransız dilini bilən istedadlı uşaqların Fransaya oxumaq üçün göndəriləcəyini bildirdi, bufetin şəraiti ilə tanış oldu, xidmətindən istifadə etdi, Rabitə Evinin xarici görünüşünə baxdı, elektrik təminatı ilə maraqlandı.*

*Milli Məclisin deputatı Əsmətxanım Məmmədova dövlətimizin başçısının Maştağaya diqqət və qayğısının sakinlər tərəfindən yüksək qiymətləndirildiyini söylədi, görülən işlərdən razılığını ifadə etdi, qəsəbənin bəzi problemlərindən söhbət açdı.*

*Prezident İlham Əliyev Rabitə Evinin qarşısına toplaşan sakinlərə yaxınlaşaraq, onlarla səmimi görüşdü, problemləri ilə maraqlandı.*

*Dövlətimizin başçısının şərəfinə qurban kəsildi.*

*Sakinlər ümumi və şəxsi problemləri barədə danışdılar, məktub təqdim etdilər. Respublikamızın rəhbəri İlham Əliyev toxunulan bütün məsələlərə diqqətlə yanaşılacağını, mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər görüləcəyini, ərizə və şikayətlərə baxılacağını və mütləq cavab veriləcəyini bildirdi.*

## MAŞTAĞA QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*12 iyul 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 12-də Maştağa qəsəbəsində sakinlərlə görüşdü. Qəsəbənin mərkəzinə toplaşmış minlərlə sakin dövlətimizin başçısını hərarətlə salamladılar, ona hörmət və ehtiramlarını ən səmimi sözlərlə ifadə etdilər.*

*Rayon ağsaqqalı, qəsəbənin qazısı Hacı Əsədulla dövlətimizin başçısının gəlişini yüksək qiymətləndirərək, ona Allahtəaladan uzun ömür, cansağlığı arzuladı və prezidentə Qurani-Kərim bağışladı.*

*Prezident İlham Əliyev ağsaqqallarla, sakinlərlə səmimiyyətlə görüşərək, göstərdikləri münasibətə görə təşəkkürünü bildirdi.*

*Maştağalılar ümummilli liderimiz, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin ölkəmiz və xalqımız qarşısındakı tarixi xidmətlərini məmnunluqla xatırlayaraq dedilər ki, ulu öndərimiz həmişə Maştağaya xüsusi diqqət və qayğı göstərmişdir. Siz də onun siyasi xəttini layiqincə davam etdirir, qəsəbəmizə böyük diqqət göstərirsiniz. Yollarımız, məktəblərimiz təmir olunur. Hamımız Sizə minnətdarlığımızı bildiririk. İstəyirik xanımınızla birlikdə bizim məktəblərə gələsiniz. Biz prezident İlham Əliyevin ətrafında sıx birləşərək, onun daxili və xarici siyasətini bundan sonra da dəstəkləyəcəyik.*

*Bəzi sakinlər respublikamızın rəhbərinə yaxınlaşaraq problemlərindən söz açdılar.*

**İlham Əliyev:** Siz narahat olmayın, bütün məktublara baxılır, bütün ərizə və şikayətlərə baxılır və bütün tədbirlər görülür. Mən olduğum bütün yerlərdə – rayonlarda, qəsəbələrdə, kəndlərdə məktubları yığıram, şikayətlərə baxı-

ram və bu məsələlər operativ qaydada həll olunur. O cümlədən, burada yığılan məktubların hər birinə cavab veriləcəkdir, bu məsələlər imkan daxilində öz həllini tapacaqdır. Ona görə, siz narahat olmayın.

Mən gəlmişəm ki, soruşum, sizi hansı əsas problemlər narahat edir. İşıqdır, sudur, qazdır, yoldur, məktəbdir – belə hansı ciddi problem var ki, mən bununla məşğul olum və kömək edim. Məni əsas maraqlandıran budur.

O ki qaldı şəxsi ərizələrə, onlara fərdi qaydada baxılacaq və lazımi tədbirlər görüləcəkdir. Kimə yardım lazımdırsa, o da göstəriləcək, başqa məsələlər də öz həllini tapacaqdır. Ona görə, mənə sizi narahat edən əsas məsələləri deyin.

**Məhərrəm Həsənzadə** (*Maştağadakı 108 nömrəli orta məktəbin direktoru*): Cənab Prezident, bu Sizin qəsəbəmizə ikinci gəlişinizdir. Xoş gəlmisiniz! Bütün maştağalılar adından Sizi hər bir evə dəvət edirəm, hər bir evin qonağı ola bilərsiniz. Siz də, ailəniz də bizim üçün çox əzizsiniz.

Maştağaya neçə illərdir asfalt salınmırdı. Asfalt salınan vaxt gəlmişdiniz.

**İlham Əliyev:** Yox, yox, siz səhv edirsiniz. Mən keçmişdə Maştağaya çox gəlmişəm. 1970-ci illərdə də gəlmişəm.

**Məhərrəm Həsənzadə:** Prezident kimi.

**İlham Əliyev:** Bəli, prezident kimi ola bilər.

**Məhərrəm Həsənzadə:** Prezident kimi ikinci dəfədir gəlirsiniz. Ancaq mənim yaxşı yadımdadır ki, həftədə bir neçə dəfə bura gələrdiniz. Rəhmətlik Heydər Əliyevin tapşırığı ilə Maştağada Olimpiya İdman Kompleksi tikildi. Bu, Sabunçu və ətraf rayonlarda yeganə kompleksdir. Bunun özü təkcə Maştağanın yox, ətraf kənd və qəsəbə şagirdlərinin təlim-tərbiyəsində böyük rol oynayır. Biz cavanlığımızda belə bir yer tapa bilmirdik. Amma indi balalarımız, nəvələrimiz gedib orada idmanla məşğul olurlar.

Bu gün açılan Rabitə Evi də çox gözəldir. Mən o vaxt qəsəbə sovetinin sədri işləyirdim. Nömrə olmadığı üçün evə telefon çəkmirdilər. İndi Allaha şükür, hamımızın evində telefon var.

Uşaqlarımız neçə gündür Rabitə Evində kompüterlərdən pulsuz istifadə edir, ingilis, fransız dillərini öyrənirlər. Bütün bunlara görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Son zamanlar qəsəbədə işıq problemi həll olunmuşdur. İşıqdan əziyyət çəkmirik. Bütün respublikada olduğu kimi, Abşeronda da qaz məsələsi sarıdan çətinlik var. Bu bir az yaxşı olsa, qış aylarında camaatın qazdan heç bir narazılığı olmaz. Məktəblərimiz yaxşı təmir olunur. Ümumiyyətlə, biz Sizin daxili və xarici siyasətinizi dəstəkləyirik. Növbəti seçkilərdə xalqın qayğısına qalan ən layiqli insanlara səs verməyə hazırıq. Zəhmət çəkib qəsəbəmizə gəldiyinizə görə bir daha çox sağ olun.

**İlham Əliyev:** Sağ olun. Mən də sizi ürəkdən bir daha salamlayıram. Mən çox şadam ki, yenə də birlikdəyik. Maştağada dəfələrlə olmuşam. Burada qeyd olundu, ilk idman komplekslərindən biri də məhz Maştağada tikildi. Mən bəzən bu yolla gedəndə görürəm ki, o kompleksdə canlanma var, uşaqlar gedib məşğul olurlar, sağlamlıqlarını möhkəmləndirirlər. Eyni zamanda, yollar da çəkildi. Bu gün mənə deyildi ki, burada bəzi yollar yaxşı vəziyyətdə deyil. Mən tapşırıq vermişəm ki, həmin yollara bu yaxınlarda gözəl asfalt salınsın.

Demək olar ki, işıq problemi həll olundu. İndi əsas məsələ odur ki, gərək elə edək, qışda bu problem yaranmasın. Bunu etmək üçün də tədbirlər görürük, yeni stansiyalar tikilir, yeni avadanlıq alınır. Qaz məsələsində bir az qıtlıq var. O da təbiidir. Çünki istehsal etdiyimiz qaz bizə çatmır. Rusiyadan almağa məcburuq. Bəzi hallarda oradan verilir, bəzi hallarda verilmir. Yəni bizdən asılı olmayan səbəblərə görə bu məsələ bir az bizi narahat edir. Amma bu il əlavə qazın çıxarılması nəzərdə tutulubdur. Gələn il «Şahdəniz» yatağından qaz çıxarılacaq və beləliklə, ümid edirəm ki, il yarım, iki ildən sonra bu məsələ tamamilə aradan götürülməlidir. İldən-ilə yaxşılaşacaqdır, amma tamamilə aradan qaldırılması üçün haradasa iki il vaxt lazımdır.

Başqa məsələlər də var. Gərək məktəblər tikilsin, müəssisələr işə salınsın. İndi regionların inkişaf proqramı da icra edilir. Mən istərdim ki, bu bölgələrdə də yeni müəssisələr, fabriklər, zavodlar, iş yerləri açılsın. Bunu etmək üçün gərək siz də, biz də birgə çalışaq. Proqramlar icra olunmalıdır, rayon icra hakimiyyətinin başçısı yaxşı işləməlidir. Gərək şəhər icra hakimiyyətinin başçısı diqqət göstərsin. Yəni mənim mövqeyim belədir. Əsas vəzifə insanlara diqqət göstərmək, problemlərlə maraqlanmaq, harada çatışmayan cəhət var, onu aradan qaldırmaqdır. Bunu etmək üçün, necə deyərlər, gərək mənim də məlumatım olsun. Mən məlumatı ancaq kabinetdə oturub hansısa arayışı oxumaqla əldə etmirəm. Gərək gəlim, görüm, sizinlə əlaqə saxlayım, sizdən soruşum, sizi nələr narahat edir, biz gərək nələri düzəldək. Mənim məqsədim budur.

Bir də gəlmişəm ki, sizi görüm. Bu gün gözəl bir poçt binası açılıbdır. Təkcə poçt binası deyil, orada həm internet var, həm canlı videokonfranslar keçirmək mümkündür, həm də çox mədəni, müasir xidmət göstərilir. İndi ölkəmiz müasirləşir, ölkəmizin hər bir yerində tikilən yeni obyektlər yüksək standartlara cavab verir. Bu da inkişafdır. Yəni bu inkişaf ildən-ilə daha da sürətlə gedəcəkdir. Əminəm ki, bizim bütün problemlərimiz öz həllini tapacaqdır.

Sizə bir daha öz salamlarımı, hörmətimi çatdırıram. Arzu edirəm ki, hər şey yaxşı olsun, sabitlik, əmin-amanlıq olsun, insanlar daha da yaxşı yaşasın. Mən də bunun üçün əlimdən gələni edəcəyəm. Sağ olun.

* * *

*Azərbaycan prezidenti sakinlərlə bir daha səmimiyyətlə görüşdü, ona göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Maştağalılar dövlətimizin başçısına ən xoş diləklərini çatdırdılar, ümummilli lider Heydər Əliyevin siyasətinin davam etdirilməsinə bundan sonra da yardımçı olacaqlarını vurğuladılar.*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Qırğızıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə, regionda sülhün, təhlükəsizliyin və tərəqqinin mənafeləri naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Qırğızıstanın tərəqqisi naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2005-ci il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LASLO ŞOYOMA**

Hörməli cənab Prezident!

Macarıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Biz Azərbaycan ilə Macarıstan arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, dostluq və əməkdaşlığımız, ikitərəfli əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək Sizinlə görüşmək, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün münasib bildiyiniz vaxtda Sizi ölkəmizə səfərə dəvət edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2005-ci il*

## İRAN İSLAM RESPUBLİKASI PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyul 2005-ci il*

*İran prezidentinin salamlarını və ehtiramını dövlətimizin başçısına çatdıran qonaq prezident İlham Əliyev ilə prezident Məhəmməd Xatəminin imzaladığı sənədlərdə əksini tapmış enerji və digər sahələr üzrə iqtisadi layihələrin, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə bağlı layihələrin uğurla həyata keçirildiyini söylədi.*

*O, İranın yeni seçilmiş prezidentinə göndərdiyi təbrik məktubuna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və cənab Mahmud Əhmədinejadın cavab məktubunu prezident İlham Əliyevə təqdim etdi. Cənab Mehdi Səfəri yeni seçilmiş prezident Mahmud Əhmədinejadın salamlarını və dərin ehtiramını dövlətimizin başçısına çatdırdı.*

*Qonaq dedi ki, İranın yeni seçilmiş prezidenti Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq əlaqələrini bundan sonra da inkişaf etdirmək əzmindədir.*

*Salamlara və dərin ehtiramlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarını və dərin ehtiramını İİR-in yeni seçilmiş prezidenti Mahmud Əhmədinejada çatdırmağı xahiş etdi.*

*Ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu vurğulayan, Azərbaycan ilə İran arasında imzalanmış iqtisadi müqavilələrin müvəffəqiyyətlə yerinə yetirildiyini nəzərə çatdıran prezident İlham*

*Əliyev enerji, yol tikintisi, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə bağlı layihələrin həyata keçirilməsindən məmnun qaldığını bildirdi.*

*Dövlətimizin başçısı İlham Əliyev cənab Məhəmməd Xatəmiyə də salamlarına və ehtiramına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ehtiramını İran prezidentinə çatdırmağı xahiş etdi. Cənab Məhəmməd Xatəmi ilə keçirdiyi bir sıra görüşləri məmnunluqla vurğulayan prezident İlham Əliyev özünün İrana, o cümlədən cənab Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfərlərinin çox uğurla keçdiyini xatırlatdı.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə İran arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.*

## YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU, XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ MÜŞAVİRİ, SƏFİR TOŞİYUKİ FUCİVARA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyul 2005-ci il*

*Qonaq Yaponiya Baş nazirinin xüsusi tapşırığına əsasən Azərbaycan prezidenti İlham Əliyevi bu ölkəyə rəsmi səfərə dəvət etmək üçün Bakıya gəldiyini söylədi. O, Baş nazir Dzünitiro Koidzuminin rəsmi səfərə dəvət məktubunu dövlətimizin başçısı İlham Əliyevə təqdim etdi.*

*Cənab Toşiyuki Fucivara qeyd etdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya rəsmi səfərindən sonra ölkələrimiz arasında əlaqələr sürətlə inkişaf etməyə başlamış, müasir dövrdə isə bu əlaqələr yeni mərhələyə qədəm qoymuşdur. Qonaq əmin olduğunu bildirdi ki, Azərbaycan prezidentinin Yaponiyaya qarşıdakı rəsmi səfəri bu əlaqələrin daha da inkişaf etdirilməsi işində böyük rol oynayacaqdır.*

*Dövlətimizin başçısı onun salamlarını Yaponiyanın Baş naziri cənab Dzünitiro Koidzumiyə çatdırmağı xahiş etdi, məktuba və rəsmi səfərlə bağlı dəvətə görə təşəkkürünü bildirdi.*

*Ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin yüksək səviyyədə olduğunu nəzərə çatdırdı. Azərbaycan–Yaponiya əlaqələrinin inkişafında cənab*

*Toşiyuki Fucivaranın xidmətlərini yüksək qiymətləndirən prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, o, gələcək fəaliyyətində də həmişə Azərbaycanla bağlı olacaqdır.*

*Dövlətimizin başçısı əminliklə bildirdi ki, Azərbaycan–Yaponiya əlaqələri bundan sonra da inkişaf edəcəkdir.*

## ABŞ-ın MİLLİ DEMOKRATİYA İNSTİTUTU İDARƏ HEYƏTİNİN SƏDRİ, SABİQ DÖVLƏT KATİBİ XANIM MADLEN OLBRAYT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyul 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev xanım Madlen Olbrayt ilə 2002-ci ilin oktyabrında Vaşinqtonda keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Həmin vaxtdan keçən dövr ərzində Azərbaycanla ABŞ arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bildirdi ki, biz ölkələrimizin əməkdaşlığının indiki səviyyəsindən çox razıyıq.*

*Təhlükəsizilk, enerji və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin qarşılıqlı anlaşmaya, tərəfdaşlıq və əməkdaşlığa əsaslandığını nəzərə çatdırdı.*

*ABŞ-ın yüksək səviyyəli müxtəlif rəsmi nümayəndə heyətlərinin Azərbaycana səfərlərinin böyük əhəmiyyət daşıdığını bildirən prezident İlham Əliyev bu səfərlərin ikitərəfli, regional əməkdaşlıq məsələlərinin müzakirəsi, eyni zamanda ölkəmizin problemlərinin dərindən öyrənilməsi üçün yaxşı şərait yaratdığını vurğuladı. Dövlətimizin başçısı bu baxımdan xanım Madlen Olbraytın ölkəmizə səfərinin və Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri ilə keçirdiyi görüşlərin çox mühüm olduğunu nəzərə çatdırdı.*

*İlk dəfə 1994-cü ildə Bakıda səfərdə olduğu vaxtdan keçən dövr ərzində paytaxtımızın çox gözəl şəhərə çevrildiyini söyləyən xanım Madlen Olbrayt burada çox müsbət dəyişikliklərin şahidi olduğunu vurğuladı.*

*Xanım Madlen Olbrayt dedi ki, mən prezident Heydər Əliyev ilə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşdum, aramızda çox yaxşı dostluq əlaqələri var idi. O, dövlətimizin başçısı İlham Əliyev ilə Vaşinqtonda keçirdiyi görüşü və həmin görüş zamanı aparılan müzakirələri də məmnunluqla xatırlatdı. Xanım Olbrayt ABŞ-ın Azərbaycanla təhlükəsizlik, beynəlxalq terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığının inkişafına böyük əhəmiyyət verdiyini söylədi.*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBE VELESƏ**

Hörmətli cənab Prezident!

Kolumbiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış münasibətlərin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Kolumbiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2005-ci il*

**BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ**

Əlahəzrət!

Belçika Krallığının milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Belçika münasibətləri xalqlarımızın rifahı naminə daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2005-ci il*

**BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Gİ VERHOFSTADTA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2005-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Sind əyalətində dəmir yolu qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu ağır faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə, bütün Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2005-ci il*

## ABŞ-in NYU-HETRŞİR ŞTATININ KEÇMİŞ QUBERNATORU, ATA CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ AĞ EV ADMİNİSTRASİYASININ RƏHBƏRİ OLMUŞ CON SUNUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Prezident sarayında ABŞ-ın Nyu-Hetrşir ştatının keçmiş qubernatoru, Corc Buşun prezidentliyi dövründə Ağ ev administrasiyasının rəhbəri olmuş Con Sununu qəbul etmişdir.*

*Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə daim möhkəmləndiyini vurğulayan dövlətimizin başçısı ölkələrimizin enerji, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi.*

*Azərbaycan prezidenti ilə bundan əvvəl keçirdiyi görüşü məmnunluqla xatırladan qonaq ölkəmizdə böyük, müsbət dəyişikliklərin həyata keçirildiyini vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın BRUKİNQS İNSTİTUTUNUN ANALİTİKİ XANIM FİONA HİLL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 14-də Prezident sarayında ABŞ-ın Brukinqs İnstitutunun analitiki xanım Fiona Hilli qəbul etmişdir.*

*Görüş zamanı bir sıra beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Qədim ənənələri olan Azərbaycan–Misir münasibətləri bizim üçün çox əhəmiyyətlidir. Əmin olduğumu bildirmək istərdim ki, xalqlarımızın iradəsinə əsaslanan dostluğumuz, geniş əlaqələrimiz və əməkdaşlığımız bundan sonra da qarşılıqlı maraqlarımıza xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Misir xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2005-ci il*

## GÜLƏŞ FEDERASİYASININ RƏHBƏRLƏRİ, AVROPA ÇEMPİONATLARINDA CÜDO, YUNAN–ROMA GÜLƏŞİ VƏ SƏRBƏST GÜLƏŞ ÜZRƏ MEDAL QAZANAN İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsi*

*15 iyul 2005-ci il*

**İlham Əliyev:** Azərbaycan idmançılarını və məşqçilərini qazandıqları uğurlara görə təbrik edirəm. Idmançılarımız beynəlxalq yarışlarda yaxşı çıxış edirlər, gözəl nəticələr göstərirlər və Azərbaycan idmanı güclənir. Çox şadam ki, Olimpiya oyunlarından sonra qələbə silsiləsi davam edir. Bu onu göstərir ki, artıq idmanın inkişafı öz yüksək zirvəsini tapıbdır. Bizim idmançılarımız təkcə Olimpiya oyunlarında deyil, müxtəlif yarışlarda da yüksək nəticə göstərirlər.

Yunan–Roma güləşi üzrə 2005-ci ildə keçirilmiş Avropa çempionatında Vitali Rəhimov çempion olmuş, birinci yeri tutmuşdur. Elman Əsgərov sərbəst güləş üzrə ikinci yeri tutmuş, gümüş mükafatçı olmuşdur. Vitali Afina olimpiadasinda iştirak etmişdir. Elman da həmin yarışların iştirakçısı olmuşdur. Elman 2002-ci ildə Avropa çempionatında ikinci yeri tutmuşdur. Çox yaxşı nəticələrdir. Avropa çempionu olmaq böyük nailiyyətdir.

Ümumiyyətlə, Yunan-Roma güləşində uğurlar göz qabağındadır. Əlbəttə, burada Federasiyanın da, məşqçilərin də rolu çox yüksəkdir. Çünki bizdə hər dəfə olimpiya çempionu olur. Vitali də Avropa çempionu oldu.

Sərbəst güləş üzrə Avropa çempionatında ikinci yeri tutmaq böyük nailiyyətdir. Ona görə mən bu münasibətlə sizi –

Federasiyanın rəhbərliyini, idmançıları, məşqçiləri təbrik edirəm. Düzdür, sərbəst güləş üzrə idmançılarımız, güləşçilərimiz Olimpiya oyunlarinda ümidlərimizi doğrultmadılar. Bu idmandır, olur. Əsas odur ki, gənc nəsil yetişsin. Artıq Azərbaycan idmanı dünyada özünə yüksək yer tapıbdır. Bizim idmançılarımızı indi tanıyırlar, hesablaşırlar. Həm idmançılar güclüdür, həm də, ümumiyyətlə, idman infrastrukturu yaranır, ölkəmizdə beynəlxalq yarışlar keçirilir.

2007-ci ildə Bakıda bütün güləş növləri üzrə dünya çempionatı keçiriləcəkdir. Bu göstərir ki, artıq bizim imkanlarımızı beynəlxalq qurumlar da bilir. Burada nə qədər çempionatlar keçirilibdir. Avropa çempionatı, başqa idman növləri üzrə yarışlar keçirilmişdir. Azərbaycan bölgədə idmanın mərkəzinə çevrilibdir. Olimpiya oyunlarına hazırlıq mərhələsində təsnifat turnirləri burada keçirilmişdir. Biz bilirik ki, dövlətlər dünya çempionatlarını ölkələrində keçirmək üçün nə qədər səylər göstərmişlər. Bilirəm, çox güclü rəqiblər var idi. Amma Abbas Abbasovun inadkarlığı imkan vermədi ki, bu çempionat başqa yerdə keçirilsin.

**Abbas Abbasov** (*Güləş Federasiyasının prezidenti*): Cənab Prezident, vaxt ayırıb bizi qəbul etdiyinizə, idmançıların, məşqçilərin əməyinə verdiyiniz yüksək qiymətə görə Sizə təşəkkür edirik. Albaniyanın paytaxtı Tiranada Azərbaycan güləşçilərinin Avropa üzrə komanda yarışlarında 3-cü yerə çıxaraq 4 gümüş, 1 bürünc medal qazandıqlarını, Litvanın paytaxtı Vilnüsdə keçirilmiş dünya birinciliyində isə iki güləşçimizin gənclər arasında bürünc medallara layiq görüldüyünü diqqətinizə çatdırıram. Bütün idman federasiyalarına göstərilən qayğıdan razılığımı bildirirəm. Azərbaycan idman sahəsində dünyada inkişaf etmiş ölkələr sırasındadır. Cənab Prezident, dünyada Azərbaycana göstərilən hörmət Sizin idmançılara göstərdiyiniz yüksək diqqət və qayğının nəticəsidir. İdmançılar özlərini ürəkli və məsuliyyətli hiss edirlər.

İyulun 22–24-də Azərbaycanda sərbəst güləş üzrə respublika birinciliyi keçiriləcək və bu yarışda ölkəmizin dünyada tanınmış idmançıları da iştirak edəcəklər. Biz Sizi əmin edirik ki, göstərdiyiniz yüksək qayğıya qələbələrlə cavab verəcəyik.

2007-ci ildə Azərbaycanda bütün güləş növləri üzrə keçiriləcək dünya birinciliyinə hazırlıq işləri barədə Sizə məlumat verərək bildirirəm ki, bu il avqustun əvvəllərində Ümumdünya Güləş Federasiyasının prezidenti Rafael Martinetti Azərbaycana gəlmək istəyir və biz bu məsələləri müzakirə edəcəyik.

**İlham Əliyev:** Mən əminliklə bildirirəm ki, idmançılarımız gələcəkdə yeni yüksək nəticə göstərəcəklər. Bunun üçün bütün şərait, imkanlar var. Ölkədə hər bir sahə, o cümlədən idman inkişaf edir. İdmana bundan sonra da diqqət göstəriləcəkdir. Bu, artıq Azərbaycanda ənənədir. Bu həm idmançıların fəaliyyəti, çıxışları üçün, eyni zamanda ölkəmizi dünyada daha yüksək səviyyədə təmsil etmək üçün çox vacibdir. Hər dəfə qələbə qazanılanda iftixar hissi keçiririk. Çünki bu, Azərbaycanın qələbəsidir, idmançının qələbəsidir, eyni zamanda ölkənin şərəfidir. Biz gərək bu liderliyi əldən verməyək. Bu gün Azərbaycan bütün idman növləri üzrə yüksək səviyyədədir.

Komanda idman növləri Azərbaycanda 5-6 il bundan əvvəl, demək olar ki, yox idi. Amma indi baxın, voleybol, basketbol, otüstü xokkey komandalarımız böyük uğurlar qazanırlar. Düzdür, futbolda hələ ki, biz istədiyimizə nail ola bilməmişik. Amma ona vaxt lazımdır. Gərək bu sahədə uşaqlar, yeniyetmələr yetişsin. Biz futbola da diqqət göstərəcəyik. Düzdür, mənim indi o qədər də vaxtım olmur ki, bu məsələlərlə gündəlik məşğul olum. Amma yenə də diqqətdə saxlayıram, Milli Olimpiya Komitəsi, nazirlik tərəfindən mənə məlumat verilir. İdmançılar mənim dəstəyimə həmişə arxalana bilərlər. Sizi bir daha təbrik edirəm.

*Azərbaycan prezidenti İlham Əliyev idmançılarla səmimi görüşdü, uğurlar arzuladı. Dövlətimizin başçısının adından idmançılara və məşqçilərə hədiyyələr təqdim olundu.*

## İSLAM ÖLKƏLƏRİNİN BİRİNCİ HƏMRƏYLİK OLİMPİADASINDA MEDAL QAZANMIŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsi*

*15 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin (MOK) prezidenti İlham Əliyev MOK-un binasında karate, taekvondo, ağır atletika, qılıncoynatma üzrə federasiyaların rəhbərlərini, İslam Ölkələrinin Birinci Həmrəylik Olimpiadasında bu idman növlərində medal qazanmış idmançıları və onların məşqçilərini qəbul etmişdir.*

**İlham Əliyev:** Mən sizi səmimi-qəlbdən salamlayıram, idmançılarımız ölkəmizi müxtəlif yarışlarda çox ləyaqətlə təmsil edirlər. Azərbaycan idmançıları Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, müxtəlif beynəlxalq yarışlarda və nəhayət, İslam Ölkələrinin Birinci Həmrəylik Olimpiadasında da çox gözəl nəticələr göstərmişlər. İlk dəfə keçirilən bu olimpiadada 60-a yaxın ölkə təmsil olunurdu və ümumi hesabda Azərbaycan 9-cu yeri tuta bildi. Bu, böyük nəticədir, böyük nailiyyətdir.

Çox sevindirici hal ondan ibarətdir ki, idmanın müxtəlif növlərində medallar qazanıldı. Ceyhun Ağasıyev karate üzrə çempion oldu, qızıl medal qazandı. Rəşad Hüseynov, Yusif Cəfərov gümüş medal, Babək İsgəndərov taekvondo üzrə bürünc, Rəfael Ağayev karate üzrə bürünc, Əlibəy Səmədov və Nizami Paşayev ağır atletika üzrə bürünc medal qazandılar. Qılıncoynatma üzrə isə Azərbaycan komanda hesabında üçüncü yeri tutmuşdur. Bu çox gözəl nəticədir və onu gös-

tərir ki, Azərbaycanda idman hərtərəfli inkişaf edir. Əvvəllər bizdə ənənəvi olaraq bir, ya iki idman növü məşhur idisə, indi idmanın digər növləri də çox geniş yayılıbdır.

Mən bu gün basketbolçularla da görüşəcəyəm. Onların komandası birinci yeri tutmuşdur.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm. Çox mötəbər yarışda Azərbaycanı ləyaqətlə təmsil etmisiniz və gözəl nəticələr göstərmisiniz. Bu, islam ölkələri arasında bir növ olimpiya oyunları sayılan bir tədbirdir, dörd ildən bir keçiriləcəkdir. Yaxşı ki, bizim idmançılarımız ölkəmizi gözəl təmsil ediblər.

Gənc nəsil yetişir. Bu çox müsbət haldır. Bu onu göstərir ki, idmanda inkişaf var. Əgər gənclər olmasa, gənc nəsil, yeniyetmələr, uşaqlar məşğul olmasa, idmançı haradan yetişə bilər. Bizim kifayət qədər yerli potensialımız var. Bu məsələyə xüsusi diqqət yetirilməlidir. Elə ölkələr var ki, kənardan idmançı gətirirlər, bəzi hallarda onların adını dəyişir, yaxud onlara vətəndaşlıq verirlər. Bəlkə də bu hansısa ölkə üçün müəyyən mərhələdə lazımdır. Misal üçün, indi komanda idman növlərində bizim klublar xarici idmançıları cəlb edirlər. Bu, müsbət haldır, o mənada ki, yaxşı idmançılar həm də komandaya kömək edirlər. Amma, eyni zamanda, yerli gənc idmançı nəsli yetişməsə, ölkə idmanının inkişafı çətinliklə üzləşəcəkdir. Odur ki, mən bu məsələlərə daim diqqət göstərirəm. Baxmayaraq ki, indi mənim işlərim çoxdur, amma çalışıram ki, bütün problemlər, məsələlər öz həllini tapsın. Mən həmişə idmançılarla birlikdəyəm, sizə dəstəyəm və bundan sonra da sizi dəstəkləyəcəyəm.

Bir neçə dövlətdə ölkənin prezidenti eyni zamanda Olimpiya Komitəsinin prezidentidir. Belə hallar var. Amma fərq bundadır ki, onlar ölkə prezidenti seçiləndən sonra Olimpiya Komitəsinin rəhbəri olublar. Mən isə dövlət başçısı seçilməzdən əvvəl bu sahəyə rəhbərlik etmişəm. Ona görə bu iş mənim üçün çox əzizdir, doğmadır. Bütün idmançıların çıxışlarını, beynəlxalq yarışları imkan daxilində izləyirəm.

Azərbaycanda da çoxlu tədbirlər keçirilir. Mən güləşçilərlə görüşdüm. Bakıda güləş üzrə dünya çempionatı keçiriləcəkdir.

Bu da mühümdür ki, indi burada iştirak edən idmançılar həm olimpiya, həm də qeyri-olimpiya növlərini təmsil edirlər. Bu bir daha onu göstərir ki, idmanın bütün növlərinin inkişafına qayğı bizim başlıca məqsədimizdir. Düzdür, Olimpiya Komitəsi olimpiya idman növlərinin inkişafı ilə daha çox məşğul olmalıdır. Amma biz heç bir fərq qoymuruq. Misal üçün, karate qeyri-olimpiya idman növüdür. Bu bizdən asılı deyil, Beynəlxalq Olimpiya Komitəsinin məsələsidir. Amma bu bizim üçün əsas olmamalıdır ki, karateyə daha az diqqət göstərək, ağır atletika, yaxud taekvondoya daha çox diqqət göstərək. Bütün idman növlərinə eyni diqqət göstərilir və göstəriləcəkdir.

Sizi bir daha təbrik edirəm. Siz Azərbaycanı yaxşı təmsil etmisiniz. Ümid edirəm ki, gələcəkdə də yaxşı nəticələr göstərəcək, dövlətimizin bayrağını daha ucalara qaldıracaqsınız.

*Qılıncoynatma Federasiyasının vitse-prezidenti, yığma komandanın Baş məşqçisi Yaşar Məmmədov iyulun 20–27-də Tehranda qadın qılıncoynadanların çempionatında idmançılarımızın qızıl medal qazanacağına söz verdi və dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdi.*

*Karate Federasiyasının prezidenti, məşqçi Yaşar Bəşirov dünyada yeganə 10-cu dan «qara kəmər» sahibi Hirokazu Kanazava tərəfindən Azərbaycan prezidentinin fəaliyyətinə verilən yüksək qiymətin, son illər qazanılan nailiyyətlərə görə idmançılara göstərilən qayğının təsdiqi olaraq onun xüsusi hədiyyəsini dövlətimizin başçısına təqdim etdi.*

*Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərov, federasiyanın vitse-prezidenti, məşqçi Füzuli Musayev, karate-do üzrə Baş məşqçi Hidayət Şabanov idmançılara göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək dedilər ki, cənab Prezident, Siz ölkəmizdə idmanın əsasını möhkəm təməl üzərində qurmusunuz. Çox ölkələrin prezidentləri Afina Olim-*

*piya oyunlarini bilavasitə yerində izləmədilər. Amma Siz bütün hadisələri idmançılarımızla birlikdə yaşadınız, onların qələbələrinə sevindiniz. Siz ölkəmizə prezident seçiləndən sonra Taekvondo Federasiyasında, digər idman təşkilatlarında gənc idmançıların sayı sürətlə artır.*

**İ l h a m  Ə l i y e v:** Azərbaycan Taekvondo Federasiyasının fəaliyyəti çox güclənib, bu idman növünün yayılmasında çox böyük işlər görür. Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çu Azərbaycana gəlmişdi. Biz onunla Afinada da görüşmüşdük. Bizim federasiyanın prezidenti Kəmaləddin Heydərov Dünya Taekvondo Federasiyasının vitse-prezidentidir. Bu həm böyük şərəfdir, həm də görülən işlərə verilən qiymətdir. 2003-cü ildə Azərbaycanda gözəl bir mərkəz açdıq. Başqa idman növlərində – ağır atletikada da belədir. Çox sevindirici haldır ki, həm idmançılar öz potensialını gücləndirirlər, onlara şərait yaradılır, həm də beynəlxalq idman aləmi də bunu görür, dəstəkləyir və bəyənir.

*Azərbaycan prezidenti İlham Əliyev idmançılarla səmimi görüşdü. İdmançılara və məşqçilərə dövlətimizin başçısının adından hədiyyələr təqdim olundu.*

# OTÜSTÜ XOKKEY FEDERASİYASININ RƏHBƏRLƏRİ, AVROPA ÇEMPİONLARI KUBOKU YARIŞLARINDA İKİNCİ YERİ TUTMUŞ QADINLARDAN İBARƏT «ATASPORT» XOKKEY KOMANDASININ ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsi*

*15 iyul 2005-ci il*

**İ l h a m  Ə l i y e v:** Mən sizin hamınızı salamlayıram. Azərbaycanda idman hərtərəfli inkişaf edir. Çox şadam ki, idmanın komanda növləri də ölkəmizdə inkişaf edir. Azərbaycanda otüstü xokkey keçmişdə çox məşhur idi, amma sonra bu  bir növ unuduldu. Federasiyaya yeni rəhbərlik gələndən sonra dönüş yarandı və otüstü xokkey çox sürətlə inkişaf edir və komandamız çempionlar liqasının klubları arasında ikinci yeri tutdu. Bu, böyük nailiyyətdir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Nəzərə alsaq ki, komandanın tərkibində başqa ölkələrin nümayəndələri var və onların bəziləri, bəlkə də hamısı Azərbaycan dilini bilmir. Ona görə mən söhbətimi rus dilində davam edirəm. Bilirəm, Azərbaycan dilini hələlik heç də hamı başa düşmür. Amma ümidvaram ki, öyrənəcəklər.

Sizi böyük nailiyyətlə, böyük qələbə münasibətilə təbrik etmək istəyirəm. Çempionlar liqasında ikinci yeri tutmaq böyük nailiyyətdir. Komanda çox yaxşı oynayır, böyük uğurlar qazanır, klub da yüksək səviyyədə çıxış edir. Yaxşı şərait yaradılır, yaxşı stadion var, məşqlər keçirilir. Bir sözlə, idmanla məşğul olmaq və idmanın bu növünü inkişaf etdirmək üçün hər cür şərait mövcuddur. Azərbaycanda otüstü

xokkeyin böyük ənənələri var. Hələ 20 il, azı 30 il əvvəl komandamızın SSRİ çempionatında necə çıxış etdiyini xatırlayıram. O vaxt mən idmanla məşğul olur, hər şeylə maraqlanır, yarışlara gedirdim. Düzdür, futbol komandasına azarkeşlik etdiyim kimi azarkeşlik etmirdim. Çünki otüstü xokkeyin qaydalarını çox da dəqiq bilmirdim. Buna baxmayaraq, yadımdadır ki, komandamız pis oynamırdı. Bu, xoş idi, çünki idmanın bu növü bizdə ənənəvi növlərdən deyildi. Lakin sonra iş elə gətirdi ki, idmanın bu növü də, komandalar da əslində olmadı. Olsa da az idi. Lakin federasiya möhkəmləndikdən, yeni rəhbərlik gəldikdən sonra vəziyyət dəyişdi. Xatirimdədir, iki-üç il əvvəl Beynəlxalq Otüstü Xokkey Federasiyasının prezidenti buraya gəlmişdi. Biz onunla görüşdük. Dedi ki, Azərbaycanı xaricdə necə yaxşı komanda, necə gözəl qızlar təmsil edirlər, qələbələr qazanırlar. Mən sizi təbrik edirəm, sizə yeni-yeni uğurlar arzulayıram.

**Fazil Məmmədov** (*Otüstü Xokkey Federasiyasının prezidenti)*: Cənab prezident, vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirik. Qadınlardan ibarət yığma komandanın 2002-ci ildən bəri qazandığı nailiyyətlər barədə məlumat verərək bildirim ki, cənab Prezident, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş idmana dövlət qayğısının Sizin Milli Olimpiya Komitəsinə prezident seçilməyinizdən sonra ciddi şəkildə davam etdirilməsi Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən otüstü xokkeyin inkişafına güclü təsir göstərmişdir. «Atasport» klubu 2005-ci ilin mayında Hollandiyada qitənin 8 ən güclü klubu ilə qarşılaşdı və ikinci yeri tutdu. Komandamız təkcə bu ölkənin «Dembors» klubuna uduzmuşdur. Həmin klub 24 dəfə çempion olmuşdur.

Bu ilin sentyabrında Bakıda qadınlar arasında Avropa milli komandalarının növbəti çempionatı keçiriləcəkdir. Burada dünya çempionatına və Olimpiya oyunlarına vəsiqə qazanılacaqdır. Komandamız bu yarışa ciddi hazırlaşır. Ça-

lışacağıq ki, bütün ümidləri doğruldaq. Biz bu idman növünün bazasını da yaradırıq. 21 yaşlı qızlarımız Sloveniyada keçirilən qitə birinciliyində gümüş medal qazanmışlar. Azərbaycanda 13 qadın, 6 kişi komandası var və bunlar bütün regionları əhatə edir. 9 idman məktəbi açılıbdır.

Bakıda keçiriləcək yarışa hazırlıq barədə də məlumat verim ki, Amerika şirkəti tərəfindən stadionun süni örtüyü dəyişdiriləcəкдир. Bizə göstərdiyiniz qayğıya cavab olaraq, qarşıda duran bütün vəzifələrin öhdəsindən gəlməyə çalışacağıq.

**İlham Əliyev:** Otüstü xokkeyin geniş yayılması onu göstərir ki, Azərbaycanda istənilən idman növü inkişaf edə bilər. Yenə deyirəm, Azərbaycanda son illərə qədər otüstü xokkey faktiki olaraq yox idi. Amma qısa müddət ərzində görün hansı səviyyəyə gəlib çıxıblar, çempionlar liqasında 2-ci olublar. Yığma komanda da yaxşı nəticə göstərir. Azərbaycanın müxtəlif yerlərində də bu növə maraq var. Əvvəllər, yəni Sovet İttifaqı vaxtında kişilər oynamırdı, komanda yox idi. Sumqayıtda bir komanda var idi. Amma indi çoxalıbdır. Komanda idman növlərində qadınlar kişilərdən bir az güclüdürlər.

*«Atasport» komandasının kapitanı Zeynəb Nuriyeva prezident İlham Əliyevə otüstü xokkey ağacı, top və xatirə hədiyyəsi təqdim etdi.*

*Dövlətimizin başçısının adından komandanın üzvlərinə və məşqçilərə hədiyyələr təqdim olundu.*

# BASKETBOL FEDERASİYASININ RƏHBƏRLƏRİ, İSLAM ÖLKƏLƏRININ BİRİNCİ HƏMRƏYLIK OLİMPİADASINDA QIZIL MEDAL QAZANMIŞ MİLLİ BASKETBOL KOMANDASININ ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsi*

*15 iyul 2005-ci il*

**İ l h a m Ə l i y e v:** Çox şadam ki, bütün idman növləri sürətlə inkişaf edir və Azərbaycan üçün o qədər də ənənəvi olmayan növlər indi ölkəmizdə həm çox populyardır, həm də idmançılar gözəl nəticələr göstərirlər. Basketbol Azərbaycanda keçmişdə, Sovet İttifaqı zamanında o qədər də geniş yayılan idman növü olmamışdır. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra basketbol, demək olar ki, sıfır səviyyəsində idi. Ancaq son beş ildir ki, federasiyaya yeni prezident seçiləndən sonra gözəl nəticələr əldə olunur. Həm federasiya möhkəmlənib, məşhur olimpiya çempionu məşqçi gətirilib, məşqlər üçün şərait var və nəticələr də özünü göstərir.

İlk dəfə keçirilən İslam Ölkələrinin Birinci Həmrəylik Olimpiadasında Azərbaycan basketbolçuları birinci yeri tutublar, çempion olublar. 60-a yaxın ölkənin iştirak etdiyi yarışlarda birinci yeri tutmaq böyük nailiyyətdir. Mən bu münasibətlə sizi təbrik edirəm və arzu edirəm ki, həmişə Azərbaycanın idman şöhrətini belə yüksək saxlayasınız.

Bilirəm ki, artıq Azərbaycanda klublar da öz səviyyələrini qaldırırlar. Xaricdən idmançılar gətirilir. Bu da çox vacibdir. Çünki həmin idman növünü inkişaf etdirmək üçün indiki

mərhələdə bu lazımdır. Amma çox sevinirəm ki, bizim milli komandamız birinci yeri tuta bilibdir. Ona görə, sizin hamınızı – federasiyanı, məşqçiləri, idmançıları təbrik edirəm. Arzu edirəm ki, bundan sonra da bütün yarışlarda gözəl nəticə göstərəsiniz.

**N a d i r   N ə s i b o v** (*Basketbol Federasiyasının prezidenti*): Cənab prezident, Sizə idmançılar adından minnətdarlığımı bildirirəm. 60 komandadan 32-nin islam dünyasının zəngin neft ölkələrinin milli komandaları olduğunu nəzərə alsaq, qazandığımız yer daha üstündür. Bu qələbə idmanın şəxsən Sizin qayğınız sayəsində möhkəm təməl üzərində inkişafının nəticəsidir.

1997-ci ildən bəri idmanda baş vermiş yüksəliş, Milli Olimpiya Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin, Basketbol Federasiyasının birgə fəaliyyətinin nəticəsidir. Sizin Baş məşqçi Rimas Kurtinaytislə ilk görüşünüzü xatırladaraq demək istəyirəm ki, o məhz Sizin sayənizdə Azərbaycana gəlmişdir. Biz bundan sonra da çalışacaq, yeni qələbələr qazanacaq, ölkəmizin idman şərəfini daim ucaldacağıq.

İcazə verin basketbolçular adından Sizə qızıl medal təqdim edim.

**I l h a m   Ə l i y e v:** Böyük qələbə münasibətilə sizləri bir daha təbrik edirəm. Ilk dəfə keçirilən bu yarışlar islam ölkələrinin olimpiya oyunlarıdır. Gələcəkdə dörd ildə bir dəfə keçiriləcəkdir. Sizin qələbəniz tarixi qələbədir. Artıq İslam Ölkələrinin Birinci Həmrəylik Olimpiadasının tarixinə yazılıbdır ki, basketbol yarışlarında ilk çempion Azərbaycan komandası oldu.

Dediniz ki, islam ölkələri arasında Azərbaycandan maddi cəhətdən qat-qat zəngin ölkələr var. Bilirəm ki, o ölkələrin bəzilərində xarici idmançılar da var, onları cəlb edirlər, bəzi hallarda onların adlarını da dəyişirlər, vətəndaşlıq verirlər, yəni komandaları gücləndirirlər. Ona görə bu qələbə bizim üçün daha önəmlidir, əzizdir. Bilirəm, mübarizə də çox

gərgin idi. Çox şadam ki, basketbolçularımız belə gözəl nəticələr göstərirlər.

Mən xatırlayıram, Rimas Kurtinaytis buraya gələndə biz hamımız çox istəyirdik ki, basketbolda bir yenilik, dönüş yaransın, bu idman növü inkişaf etməyə başlasın. O vaxt artıq voleybolçu qızlarımız ilk uğurlarını göstərməyə başlamışdılar. Ona görə çox istəyirdik ki, bu, digər idman növlərində də müşahidə olunsun. İndi Azərbaycanda basketbol yüksək səviyyəyə qalxıbdır. Mən bu gün voleybolçu qızlarla da görüşəcəyəm. Bundan əvvəl «Atasport» otüstü xokkey komandası ilə də görüşdüm. Onlar çempionlar liqasında 2-ci yer tutublar. Bu da böyük nailiyyətdir.

Bir də deyirəm, bu onu göstərir ki, əgər istənilən növdə təşkilatçılıq məsələləri öz həllini tapırsa, idmana, idmançılara qayğı lazımi səviyyədədirsə, təlim-məşq toplanışları vaxtlı-vaxtında keçirilirsə, yaxşı məşqçi varsa, federasiya yaxşı işləyirsə, idmana rəhbərlik edən bütün qurumlar birgə işləyirsə, nəticə də olacaqdır. Bu nəticəni əldə etmək üçün vaxt lazımdır. Haradasa, bəlkə 3-4 il lazımdır. Mən 1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidentiyəm və bütün idman növlərində baş vermiş hadisələri çox yaxşı bilirəm, bütün güclü idmançıları şəxsən tanıyıram və görürəm ki, 3, 4, hətta 5 il lazımdır ki, bir irəliləyiş olsun. Bu, basketbolda da var. Artıq bu meyl yaranıbdır. Əminəm ki, bundan sonra inkişaf daha sürətlə gedəcək, gənclər basketbol bölmələrinə daha da həvəslə gedəcəklər və bizim ölkəmiz daha da yaxşı tanınacaqdır.

Basketbol dünyada ən populyar idman növlərindən biridir. Şəxsən özüm idmanla məşğul olan bir adam kimi və idman həvəskarı olduğum üçün mən idman yarışlarını izləyirəm. Əlbəttə, maraq baxımından futbol ilk yerdədir. Amma ondan sonra maraqla izlədiyimiz idman növü həqiqətən basketboldur.

Bir daha bildirmək istəyirəm ki, artıq bu tarixdir. Təkcə islam dünyası deyil, bütün dünya bunu bilir ki, Azərbaycan

İslam Ölkələrinin Birinci Həmrəylik Olimpiadasının qalibidir. Mən çox razıyam. Bu nəticəni görəndə adamın ürəyi açılır. Sizi bir daha təbrik edirəm, yaxşı idmançılarsınız, gəncsiniz, yaxşı gələcəyiniz var. Artıq belə gənc yaşlarınızda çempion tituluna malik olmusunuz. Əminəm ki, gələcəkdə də yaxşı çıxış edəcəksiniz.

*Azərbaycan prezidenti İlham Əliyev basketbolçularla səmimi görüşdü, onları bir daha təbrik etdi. Prezidentin adından komandanın üzvlərinə və məşqçilərə hədiyyələr təqdim olundu.*

## VOLEYBOL FEDERASİYASININ RƏHBƏRLƏRİ, QADINLARDAN İBARƏT YIĞMA VOLEYBOL KOMANDASININ ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Milli Olimpiya Komitəsi*

*15 iyul 2005-ci il*

**I l h a m  Ə l i y e v:** Mən sizi, voleybolçu qızları salamlayıram. Komandanın çıxışlarını həmişə izləyirəm və böyük, yüksək səviyyədə uğurlarınıza sevinirəm. Əlbəttə, son hadisələr bizi çox sevindirir. Çox gərgin mübarizə şəraitində dünya çempionatının finalına çıxmaq sizin üçün, ümumən, Azərbaycan idmanı üçün olduqca böyük nailiyyətdir. Əhsən! Hamı – azarkeşlər də, zənnimcə, bütün Azərbaycan vətəndaşları da buna şaddırlar. İndi dünya çempionatında çıxışlarınızı gözləyəcəyik.

Qarşıda daha bir turnir durur. Bu da xoşdur ki, həmin turnir Qubada keçiriləcəkdir. Belə yarışları qəbul etmək üçün rayonlarda infrastruktur yaradılmışdır. Sizə azarkeşlik edəcəyik. Siz yaxşılaşmısınız, sizi çoxdandır görməmişəm. Görüşümüzə çox şadam.

**Z i y a  M ə m m ə d o v** (*Voleybol Federasiyasının prezidenti*): Azərbaycanda digər sahələr kimi, idmanın da inkişafının ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayaraq demək istəyirəm ki, ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə idmanın yüksəlişi üçün çox möhtəşəm işlərin təməli qoyulmuşdur. Bu gün bu siyasət Sizin tərəfinizdən böyük uğurla davam etdirilir, Azərbaycan idmanı dünya idman ailəsinə inteqrasiya yolunda mühüm addımlar atır. Sizin diqqət və qayğınızı

hiss edərək, federasiyamız işini ümumi prinsiplər əsasında qurur.

Dünyanın 16 komandasından biri kimi, Azərbaycan komandasının gələn il Yaponiyada keçiriləcək dünya çempionatında iştirak edəcəyini xatırlatmaq istəyirəm. Iyulun 26-da Quba Olimpiya Idman Kompleksində Avropanın 8 ölkəsinin yığma komandaları arasında keçiriləcək «Qran-pri» yarışına hazırlıqla bağlı bütün işlər görülüb qurtarmışdır..

**I l h a m   Ə l i y e v:** Doğrudan da bu çox əlamətdar hadisədir. Yarışda 8 ölkədən 250-yə yaxın ən güclü idmançı iştirak edəcəkdir. Bilirsiniz ki, vaxt var idi belə yarışlar Bakıda keçirilirdi. İlk dəfə Bakıda keçiriləndə sevinirdik. Amma indi görün, Azərbaycanın müxtəlif yerlərində keçirilir. Biz 2003-cü ildə Quba Olimpiya Idman Kompleksini istismara verəndə bunu o məqsədlə edirdik ki, orada nə vaxtsa mötəbər beynəlxalq yarış keçiriləcəkdir. Artıq indi bu reallıqdır. Orada həm iqlim, təbiət çox gözəldir, həm də kompleksdə hər cür şərait var. Əlbəttə, əlavə oturacaqların qoyulması, kotteclərin tikilməsi bu infrastrukturun inkişafına da xidmət göstərir.

Yəqin orada yarış iştirakçıları üçün mədəni proqramlar da təşkil olunacaq ki, onlar darıxmasınlar. Voleybol Azərbaycanda son müddət ərzində ilk komanda idman növüdür ki, uğurlar əldə edibdir. Sizin qoyduğunuz ənənə başqa idman növlərində də özünü büruzə verir. Mən bu gün basketbol, otüstü xokkey komandaları ilə görüşdüm. Onların hamısının güclənməsi, möhkəmlənməsi sizdən sonra başlanmışdır. Azərbaycanda ilk dəfə voleybol komandası formalaşdı. Faiq Qarayev Vətənə qayıtdı, komandanı yığdı, federasiya möhkəmləndi, yeni prezident seçildi və işlər başladı. Qısa müddət ərzində görün nə qədər böyük uğurlar qazanılıbdır. İndi biz onların hamısını yada salsaq, çox vaxt lazım olar.

Məsələn, basketbolçular Səudiyyə Ərəbistanında İslam Ölkələrinin Birinci Həmrəylik Olimpiadasında 1-ci yeri tu-

tublar. Otüstü xokkeyçilərimiz çempionlar liqasında klublar arasında 2-ci yeri tutublar. Bütün bunlar sizdən sonra başlayıb, bu ənənəni siz qoymusunuz. İndi bu, bütün başqa komanda idman növlərində öz əksini tapacaqdır. Bilirəm ki, bu yaxınlarda keçirilmiş turnirdə Rusiya komandası üzərində ilk dəfə qələbə qazandınız. Başqa komandaları da uddunuz. Bu bizim komandanın səviyyəsini göstərir və o ən yüksək qiymətə layiqdir. Bu uğurları əldə etmək üçün bütün amillər olmalıdır. Federasiya işi təşkil etməlidir. Məşqçilər yaxşı işləyirlər, qızlarımız həm gözəldirlər, həm də yaxşı oynayırlar.

**F a i q  Q a r a y e v** (*voleybol üzrə yığma komandanın Baş məşqçisi*): Son dörd il ərzində beynəlxalq səviyyədə keçirilən yarışlarda yetirmələrimin çıxışları, cənab Prezident, Sizin göstərdiyiniz diqqət və qayğının, məşq prosesinin, federasiyanın, Milli Olimpiya Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin birgə səmərəli fəaliyyətinin nəticələridir. Yaponiyada keçiriləcək dünya çempionatında voleybolçu qızlarımızın ölkəmizin idman şərəfini uca tutacağına əminliyimi bildirirəm.

Cənab Prezident, Sizdən yeni ailə qurmağa hazırlaşan qızların mənzillə təmin olunmasına kömək göstərilməsini xahiş edirəm.

**İ l h a m  Ə l i y e v:** Mən Faiq Qarayevin yenidən Azərbaycana qayıtmasından sonrakı ilk görüşümüzü xatırlayıram. Onda yəqin, nə sən, nə də mən inanmazdıq ki, belə olacaqdır. Sadəcə, işə başladıq. Sonra federasiyanın prezidenti Ziya Məmmədov, Gənclər, İdman və Turizm Nazirliyi və Milli Olimpiya Komitəsi də qoşuldular, işlər yoluna düşdü. Yadımdadır, birinci qələbə Bolqarıstan komandası üzərində oldu. İndi isə hamı sizin qələbələrinizə adət edibdir. Oyununuzun səviyyəsini elə qaldırmısınız ki, sizdən ancaq qələbələr gözləyirlər. Bu, sevindirici haldır. Bunu siz özünüz də duyursunuz, yarışda hiss edirsiniz. Qələbə hissi heç nə ilə müqayisə olunmazdır. Biz hamımız sizin azarkeşinizik, sizi sevirik.

Qızlar vətənpərvər, gözəl, xoş təsir bağışlayan qızlardır, yaxşı oynayırlar.

Bütün problemlər əvvəllər necə həll edilirdisə, eləcə də həll olunacaqdır. İndi sadəcə olaraq, vaxtım azdır. Prinsipcə heç nə dəyişməyib, vaxtımın azlığına baxmayaraq, baş verən hadisələrdən hali olmağa çalışıram. Bəzən gəlib oyunlara baxmağa imkan tapa bilmirəm. Amma çalışacağam ki, Qubaya gəlib oyunları izləyim.

Mən Faiqə deyirdim ki, bəli, gərginlik var, lakin oynamaq lazımdır, qələbə qazanmaq lazımdır. Bu idmandır, heç də hər şey səndən asılı deyildir. Bu ona görə də idmandır. Burada məğlubiyyət də olur, qələbə də. Başlıcası odur ki, gərək qələbə əzmi olsun, məğlubiyyətə görə ruhdan düşməyəsən.

*Komandanın kapitanı Alla Həsənova prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Azərbaycan prezidenti idmançılarla və məşqçilərlə səmimi görüşdü, bir daha təbrik etdi. Dövlətimizin başçısının adından onlara hədiyyələr təqdim olundu.*

# QƏTƏR DÖVLƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ GENERAL-POLKOVNİK HƏMƏD BİN ƏLİ ƏL-ATİYYƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev nümayəndə heyətinin respublikamıza səfərinin uğurlu və səmərəli olacağına, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsinə töhfə verəcəyinə əminliyini vurğuladı.*

*Qətər dövlətinə səfərini, orada Əmir şeyx Həməd bin Xəlifə Ət-Tani ilə və digər rəsmi şəxslərlə keçirdiyi görüşləri məmnuniyyətlə xatırladan prezident İlham Əliyev həmin görüşlər və aparılmış danışıqlar zamanı Azərbaycan ilə Qətər dövləti arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq məsələlərinin qarşılıqlı anlaşma şəraitində müzakirə edildiyini bildirdi. Rəsmi səfər zamanı Qətərdə respublikamızın səfirliyinin açılması barədə müzakirələr aparıldığını nəzərə çatdıran dövlətimizin başçısı Doha şəhərində səfirliyin açılması barədə Azərbaycan rəhbərliyinin qərar qəbul etdiyini söylədi.*

*Cənab Atiyyə Qətər dövlətinin Əmiri əlahəzrət şeyx Həməd bin Xəlifə Ət-Taninin və vəliəhd şahzadə şeyx Təmim bin Həməd Ət-Taninin salamlarını və dərin ehtiramlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyevin Qətərə səfərindən sonra ölkələrimiz arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu vurğulayan qonaq dedi ki, əlahəzrət Əmir və vəliəhd şahzadə*

*Azərbaycan ilə Qətər arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirirlər və mən onların tapşırığı ilə səfərə gəlmişəm. O, Azərbaycan Müdafiə Nazirliyi ilə uğurlu əməkdaşlığın və qarşılıqlı səfərlərin həyata keçirildiyini bildirdi.*

*Salamlara və dərin ehtirama görə təşəkkürünü bildirən prezident İlham Əliyev onun da salamlarını, dərin ehtiramını Əmir əlahəzrət şeyx Həməd bin Xəlifə Ət-Taniyə və vəliəhd şahzadə şeyx Təmim bin Həməd Ət-Taniyə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 19-da Prezident sarayında ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir. Dövlətimizin başçısı İlham Əliyev qonağı salamlayaraq, iqtisadi əməkdaşlıq üzrə Azərbaycan–Gürcüstan hökumətlərarası komissiyasının Gəncədə keçirilən iclasının yekunlarından, Azərbaycan–Gürcüstan iqtisadi əlaqələrinin inkişafından, ölkələrimiz arasında əmtəə dövriyyəsinin getdikcə artmasından razı qaldığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Gürcüstanın mötəbər nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimiz arasında istər ikitərəfli, istərsə də regional əsasda səmərəli qarşılıqlı fəaliyyətin inkişafında daha bir mərhələ olacaqdır.*

*Gürcüstanın Baş naziri Zurab Noğaideli qəbula görə prezident İlham Əliyevə təşəkkür edərək, Azərbaycanın ikinci sənaye şəhəri olan Gəncənin, habelə paytaxtımızın müasir simasında baş vermiş müsbət dəyişiklikləri, geniş tikinti işlərini, sənaye əhəmiyyətli yeni obyektlərin və yaşayış binalarının inşasını yüksək qiymətləndirdi.*

*Azərbaycan prezidenti dedi ki, regionların inkişaf etdirilməsi dövlətimizin siyasətinin öncül istiqamətidir, bununla əlaqədar müvafiq proqram qəbul olunmuşdur və uğurla həyata keçirilir.*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan ilə Maldiv arasında təşəkkül tapan münasibətlər əməkdaşlıq imkanlarımızın genişlənməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2005-ci il*

**MƏRAKEŞİN KRALI**
**ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Mərakeş Krallığının milli bayramı – Taxt-tac günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar diləməkdən məmnunluq duyur, dost Mərakeş xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2005-ci il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALEXANDRO TOLEDO MANRİKEYƏ**

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq zəminində yaranan münasibətlər daim inkişafda olacaqdır.

Sizə ən xoş arzularımı yetirir, dost Peru xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ MAŞTAĞA QƏSƏBƏSİNDƏ

*20 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bir həftə əvvəl Bakının Maştağa qəsəbəsinin sakinləri ilə görüşü zamanı verdiyi tapşırıqların icrasının vəziyyəti ilə tanış olmaq üçün iyulun 20-də yenidən bu qəsəbəyə gəlmişdir.*

*Qəsəbə sakinləri dövlətimizin başçısını hərarətli alqışlarla, böyük mehribanlıqla qarşıladılar. Əhali prezident İlham Əliyevin sadə insanlarla keçirdiyi hər bir görüşü yüksək qiymətləndirir. Bir həftə əvvəl Maştağada Rabitə Evinin açılışı zamanı dövlətimizin başçısının qəsəbə sakinləri ilə görüşü, səmimi söhbətləri də yaddaqalan olubdur. O vaxt Maştağa sakinləri qəsəbəyə 2,5 kilometrlik yolun çəkilməsi barədə xahişlə müraciət etmiş, prezident İlham Əliyev bu məsələnin tezliklə həll olunması barədə müvafiq tapşırıq vermişdi.*

*Ötən həftə Maştağa qəsəbəsinin sakinləri ilə görüşünün onda xoş təəssürat doğurduğunu vurğulayan prezident İlham Əliyev bildirdi ki, həmin yolun qısa müddətdə çəkilməsi barədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısına verdiyi tapşırığın icrasını şəxsən yoxlamaq üçün bu gün buraya gəlmişdir.*

*Sakinlər yolun tez bir zamanda çəkilməsinə görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını ifadə etdilər, onların xahişinə belə həssaslıqla yanaşmasını yüksək qiymətləndirdilər. Xüsusi vurğuladılar ki, camaatı narahat edən problemlərin tədricən aradan qaldırılması insanların sosial rifahına, əhval-ruhiyyəsinə müsbət təsir göstərir. Maştağa sakinləri kənd təsərrüfatı məhsulları yetişdirən adamların üzləşdikləri bəzi problemlərin həlli, qəsəbə xəstəxanasının müasir tibb*

*avadanlığı ilə təchiz olunması, uşaq bağçaları və məktəblərin təmiri, məscidlərin bərpası ilə bağlı xahiş və təkliflərini də söylədilər. Prezident İlham Əliyev onların bütün xahişlərinin yerinə yetiriləcəyini bildirdi.*

*Sakinlər xeyirxah işlərinə görə dövlətimizin başçısına qəsəbənin bütün əhalisi adından minnətdarlıq edərək dedilər ki, cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin işinin layiqli davamçısı kimi, Sizin daxili və xarici siyasətinizi bəyənirik. Prezident seçkiləri zamanı qəsəbədə hamı Sizə səs vermişdir.*

*Onların bütün müraciətlərinə qayğı ilə yanaşılmasından, ümumiyyətlə, əhalinin sosial problemlərinin həlli sahəsində görülən işlərdən razılıqlarını vurğulayan sakinlər bütün bunlara görə bir daha təşəkkürlərini bildirdilər. Qeyd olundu ki, Bakıda, şəhərətrafı qəsəbələrdə, respublikamızın bütün bölgələrində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi, yeni müəssisələrin istifadəyə verilməsi və bunun nəticəsində çoxlu sayda insanların işlə təmin edilməsi təqdirəlayiq haldır. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının uğurla yerinə yetirilməsi, ölkə iqtisadiyyatının dinamik inkişafı prezident İlham Əliyevin daxili siyasətinin uğurlu nəticəsi, onun verdiyi bütün vədlərə əməl etməsinin bariz nümunəsidir. Ümummilli liderimiz Heydər Əliyevin də Azərbaycanın bütün bölgələrində olmasını, Bakıətrafı qəsəbələrə tez-tez baş çəkməsini xatırladan Maştağa sakinləri ulu öndərin layiqli davamçısı İlham Əliyevin də bu xəttə sadiq qalmasını razılıqla vurğuladılar. Görüşdə paytaxtın ətraf qəsəbələrində yeni istehsal sahələrinin yaradılması, iş adamlarının bu məsələyə diqqət göstərmələri barədə arzular da səsləndi.*

*Dövlətimizin başçısının verdiyi tapşırıqların icrasını şəxsən yerində yoxlaması, insanlarla bilavasitə ünsiyyətdə olması bir daha göstərdi ki, iqtidar xalqa xidmət edir, xalq öz prezidentini ürəkdən sevir, əhali hakimiyyətə etimad bəsləyir və bu birlik daha da möhkəmlənəcəkdir.*

## TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ VƏCDİ KÖNÜL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2005-ci il*

*Türkiyə nazirinin ölkəmizə gəlməsindən məmnunluğunu vurğulayan prezident İlham Əliyev qonağın səfər proqramı, keçirəcəyi mühüm görüşlər barədə məlumatı olduğunu bildirərək dedi ki, ölkələrimiz çox sıx əməkdaşlıq edir. Baş nazir cənab Ərdoğanın bu yaxınlarda Azərbaycana səfəri bir daha göstərdi ki, bizim əlaqələrimiz ən yüksək səviyyədədir. Siyasi, iqtisadi, mədəni sahələrdə olduğu kimi, hərbi sahədə də çox sıx əməkdaşlıq vardır. Türkiyə həmişə Azərbaycana böyük kömək, yardımlar etmişdir.*

*Azərbaycanın müstəqilliyinin ilk illərində ölkəmizdə ordunun əslində olmadığını və buna görə də hərbi quruculuq işlərinin çətin getdiyini xatırladan dövlətimizin başçısı vurğuladı ki, indi bizim çox güclü və nizami ordumuz vardır, onun maddi-texniki bazası möhkəmlənir, hərbi sahəyə ayrılan xərclər ildən-ilə artır. Ən başlıcası isə, hərbi hazırlıq çox yüksək səviyyədədir. Bu işdə Türkiyə mütəxəssislərinin, hərbçilərinin əməyi çox böyükdür. Ölkəmizə göstərilən köməyə görə minnətdarlıq edən prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu sahədə əməkdaşlıq davam edəcək, Azərbaycan və Türkiyə həmişə bir-birinin yanında olacaqdır.*

*Qəbula görə minnətdarlıq edən cənab Vəcdi Könül ümummilli liderimiz Heydər Əliyevin dəfn mərasiminə gələrkən dövlətimizin başçısı ilə görüşünü xatırladaraq dedi ki, yenidən Azərbaycana səfər etməyi səbirsizliklə gözləyirdim. Türkiyə*

*və Azərbaycan mərhum Heydər Əliyevin «bir millət, iki dövlət» prinsipini əsas tutaraq, öz münasibətlərini yüksələn xətlə davam etdirirlər. Bu mənada hərbi sahə də istisna deyil, bizim ordumuz sizin ordunuz, sizin ordunuz da bizim ordumuzdur. Ona görə də biz Azərbaycanla hərbi sahədə daha sıx əməkdaşlıq etməyə çalışırıq. İndiyədək görülən işləri yüksək qiymətləndirdiyinizə görə Sizə təşəkkür edirəm. Türkiyə Azərbaycana hər baxımdan böyük əhəmiyyət verir, Avropa strukturlarına inteqrasiya sahəsində də Azərbaycana hər cür kömək göstərir. Xüsusilə NATO ilə əlaqələrdə çox sıx əməkdaşlıq edirik.*

*Cənab Vəcdi Könül Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri zamanı prezident İlham Əliyevin Şimali Kiprlə bağlı verdiyi bəyanata görə minnətdarlığını bildirərək dedi: Cənab Prezident, Siz bu məsələdə Türkiyənin mövqeyini müdafiə edərək ölkəmizə böyük dəstək verdiniz. Bu dəstək təkcə sözdə olmadı və əməli şəkildə də özünü göstərdi. Mən buraya gəlməzdən əvvəl Türkiyənin prezidenti və Baş naziri ilə görüşmüşdüm. Hər ikisi Sizə və qardaş Azərbaycan xalqına səmimi salamlarını və ən xoş arzularını yetirməyi xahiş etdi.*

*Dövlətimizin başçısı onun da salamlarını, hörmət və ehtiramını prezident Əhməd Necdət Sezərə və Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edərək dedi ki, bizim aramızda səmimi dostluq, qardaşlıq münasibətləri var. Son iki ayda onlar Bakıya gəlmişdilər. Biz hər iki fürsətdən çox səmərəli istifadə etdik, ikitərəfli, regional məsələləri, Avratlantik strukturlarına inteqrasiya məsələlərini müzakirə etdik. Bütün məsələlərdə qarşılıqlı anlaşma var, mövqeyimiz birdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin «bir millət, iki dövlət» kəlamı bizim üçün əsas prinsipdir. Ölkələrimiz arasında bütün sahələrdə səmimi dostluq, qardaşlıq münasibətləri var və bu, günbəgün möhkəmlənir. Biz Şimali Kiprin təcrid vəziyyətindən çıxması üçün də önəmli addımlar atacağıq. Azərbaycan bu işdə ön sırada olmalıdır.*

# MDB ÖLKƏLƏRİ HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİNİN SƏDRİ RUSLAN AUŞEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev MDB ölkələri Hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsinin sədri Ruslan Auşevi qəbul etmişdir.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini söyləyən cənab Ruslan Auşev vurğuladı ki, Azərbaycanda çox böyük quruculuq işləri gedir, Bakı şəhərində çox müsbət dəyişikliklər baş verib, hər yerdə böyük tikinti işləri görülür, bütün bunlar isə ölkədə sabitliyin, əmin-amanlığın mövcud olmasının ən yaxşı göstəricisidir.*

*Azərbaycanda böyük quruculuq işləri aparıldığını, regionların sosial-iqtisadi inkişaf proqramının uğurla həyata keçirildiyini, sabitliyin, əmin-amanlığın bərqərar olduğunu nəzərə çatdıran dövlətimizin başçısı İlham Əliyev ölkəmizin daha da inkişaf etdirilməsi, qüdrətli dövlətə çevrilməsi istiqamətində işlərin gələcəkdə də davam etdiriləcəyini bildirdi.*

# MALAKANÇILIQ TƏRİQƏTİNİN 200 İLLİYİ İLƏ ƏLAQƏDAR ÖLKƏMİZDƏKİ MALAKAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*20 iyul 2005-ci il*

**İ l h a m Ə l i y e v:** Ölkəmizdə bütün digər millətlərə və xalqlara, dinlərə həmişə dözümlü münasibət göstərilmişdir. Əlamətdar hadisə münasibətilə Azərbaycanın malakan icmasının nümayəndələrinə təbriklərimi və xoş arzularımı bildirirəm.

Təxminən iki əsr bundan əvvəl sizin əcdadlarınız Azərbaycana köçürülmüşlər. O vaxtdan, bütün bu illər ərzində biz mehribanlıq şəraitində, bir ailə kimi yaşayırıq. Xüsusən ötən dövrdə hökumətlərin də, ictimai-siyasi quruluşların da dəyişdiyini nəzərə alsaq, bu çox mühümdür. Çar hökuməti dövründə də, sosializm dövründə də, Azərbaycanın müstəqil dövlət kimi yaşadığı indiki dövrdə də bu baxımdan heç nə dəyişməmişdir. Bizim cəmiyyətimizdə əmin-amanlıq, sıx qarşılıqlı anlaşma mövcuddur, heç bir problem, hansısa ikili münasibət olmamışdır və əminəm ki, bundan sonra da olmayacaqdır. Bu, ölkəmizin ən böyük nailiyyətlərindən biridir. Azərbaycanda həm dini, həm də milli baxımdan dözümlülük vardır. Dinindən və milliyyətindən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı bütün hüquqlardan istifadə edir və gələcəkdə də istifadə edəcəkdir. Ümummilli liderimiz Heydər Əliyev bu siyasəti həmişə, 1970-ci illərdə respublikaya rəhbərlik etdiyi illərdə də və Azərbaycanın prezidenti olanda da həyata keçirmişdir. Bu siyasət indi də davam edir.

Bir çox ölkələrdə milli azlıqlara ögey münasibət bəslənildiyi halda, respublikamızda yaşayan xalqlar arasında dostluq, qardaşlıq münasibətləri heç vaxt səngiməmişdir. Bu yaxınlarda növbəti qurultayını keçirən Azərbaycanın rus icması da ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edir. Mən bu gün sizinlə, malakan icmasının nümayəndələri ilə görüşümdən məmnunluğumu bildirir və sizin arzu və istəklərinizi dinləməyə hazıram.

*Dünyasını dəyişmiş malakanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

**Mariya Kojevnikova** (*Şamaxı Rayonu Icra Hakimiyyəti başçısının Çuxuryurd kəndi üzrə nümayəndəsi, Prezident təqaüdçüsü*): Cənab Prezident, rayonda yaşayan malakanların ən xoş arzularını Sizə çatdırıram.

Ata-babalarımızdan, ana və nənələrimizdən bizə qalan vəsiyyət, Tanrının böyük tövsiyəsi budur – ətrafdakıları, yaxınlarını özünü sevdiyin kimi sev. Biz həmişə bu ilahi tövsiyəyə əməl edərək yaşamışıq, xüsusilə də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə. Bu keyfiyyətlər – ətrafdakıları və yaxınlarını özünü sevdiyin kimi sevmək ona xas idi.

Respublikamızda yaşayan bütün xalqlar bərabər şəraitdə inkişaf edirdilər, ona görə də Heydər Əliyevin ümummilli lider olması heç də təsadüfi deyildir. Çünki o, bütün millətlərin xoşbəxtliyi uğrunda çalışırdı. Mən Heydər Əliyevin kolxozumuza gəldiyi vaxtları heç zaman unutmayacağam. O, kəndimizdə təxminən altı dəfə olmuşdu, zarafat edər və həmişə deyərdi ki, mənim malakanlarıma salam söyləyin. Bunu eşitmək bizim üçün son dərəcə xoş idi.

Mən bu şeirimi Heydər Əliyeviçin anasına, o dövrdə yaşamış bütün analara həsr edirəm. (*Şeiri oxuyur*).

Hesab edirəm ki, onların ruhları bizim bütün günahlarımızı bağışlayacaq və gələcək işlərimizə xeyir-dua verəcəkdir.

Cənab Prezident, icazənizlə malakan dindarlarının müraciətini Sizə yetirim.

«Çox hörmətli cənab prezident İlham Heydər oğlu!

Uzaq keçmişdə dini əqidələrinə görə çar hökuməti tərəfindən təqib olunan əcdadlarımız pərən-pərən düşmüşdülər. Taleyin hökmü ilə onlar burada, gözəl Şirvan diyarında özlərinə ikinci vətən tapdılar. Onlar çox ağır sınaqlarla üzləşmiş, lakin dini əqidələrinə sadiq qalaraq, İsa Məsih vasitəsilə bir olan Allaha etiqadlarında qalmışlar. Bütpərəstliyə uymamışlar. 1830-cu ildə xeyirxah, gözəl Azərbaycan xalqının torpağında ilk malakan məskənləri yaranmağa başlamışdır.

Bizim xalqlarımız arasında heç vaxt milli ixtilaflar olmamışdır. Bizim genlərimizdə nəsildən-nəslə İlahinin ən başlıca tövsiyəsi kök salmışdır – ətrafdakıları, yaxınlarını özünü sevdiyin kimi sev. Bu tövsiyə ümummilli liderimizin fəaliyyətində özünün parlaq təcəssümünü tapmışdır. O hamımızın, çoxmillətli respublikamızın bütün sakinlərinin rifahına və tərəqqisinə böyük diqqət yetirirdi. Heydər Əliyeviç bizim xalqımızın nümayəndələri ilə hər bir görüşündə deyirdi: mən sizin möhkəm, etibarlı təminatçınızam. Çox hörmətli cənab prezident İlham Heydər oğlu, biz bunu həmişə hiss etmişik və indi də hiss edirik. Tarixi yubiley – Malakançılığın 200 illiyi ərəfəsində də biz Sizin qayğınızı hiss edir və deyirik: ataya inanmışıq, oğula da inanırıq, ataya etibar etmişik, oğula da etibar edirik. Ona görə də öz taleyimizi, burada qalan malakanların taleyini dərin ümidlə Sizə tapşırırıq. Şərəfli, xeyirxah və çox məsuliyyətli işinizdə Allah Sizə yar olsun! Sizə dərin hörmət və ehtiram bəsləyən dindar xristian malakanlar!»

Cənab Prezident, onlar bu hörmət və ehtiramlarını qadınlarımızın toxuduqları süfrəyə bükülmüş bu müqəddəs kitabla təsdiq edirlər.

Tanrının mərhəməti həmişə üstünüzdə olsun. Onların tapşırığı ilə müqəddəs kitabı Sizə təqdim edirəm.

**Aleksey Kozlovtsev** (*İsmayıllı rayonunun İvanovka kəndindəki Nikitin adına təsərrüfatın rəhbəri* ): Cənab Prezident, mən Sizə həmkəndlilərimin xoş arzularını çatdırı-

ram. Vaxtilə burada, əsasən Rusiyanın Tambov və Saratov vilayətlərindən köçürülmüş malakanlar məskunlaşmışdılar. Əcdadlarımız deyirdilər ki, «malakançiliq» sözü «süd kimi pak sözlər» deməkdir.

Bizim kəndimiz bu gün də mərhum Heydər Əliyeviçin ideyalarına sadiqdir. O Sizin ananızla birlikdə iki dəfə kəndimizin qonağı olmuşdur. İvanovkalılar bunu xatırlayır və yad edirlər. İndi kəndimizin həmin guşəsində muzey yaradılmışdır. Doğrudur, kinoarxivlə bağlı problemlərimiz vardır. Biz istəyirik ki, hər şeyi bu muzeydə toplayaq.

Sizin icazənizlə, biz 200 illik yubileyi məhz İvanovkada bayram etmək, hazırda yaşayan bütün ahılları bir yerə yığmaq istəyirik.

Heydər Əliyeviç indi təsərrüfatımızın adını daşıdığı mərhum sədrimiz Nikolay Vasilyeviç ilə yaxından dost idi. İndi bizim məhz bu təsərrüfatla bağlı problemimiz yaranmışdır. Biz kolxoz kimi, qeydiyyatdan keçə bilmirik. Sizin atanız bizim kolxozçuların, ivanovkalıların yaxın dostu idi. Həmin vaxt o demişdi ki, qoy ivanovkalılar necə istəyirlərsə, eləcə də yaşasınlar. Mən bilirəm ki, bu ideyanı Siz də dəstəklədiniz. Kənd camaatı kolxoz adını fermer təsərrüfatı və ya hansısa səhmdar cəmiyyəti ilə əvəz etmək istəmir. Biz kolxoz olmuşuq və beləcə də qalmaq istəyirik.

Bizim daha bir məsələmiz var: hamımızın sevimlisi olan Mehriban xanıma müraciət etmişik ki, kəndimizdəki məktəb binası çox köhnədir və qəza vəziyyətindədir. Xahiş etmişik ki, imkan varsa, məktəb tikintisi üçün Heydər Əliyev Fondundan vəsait ayrılsın. İndi bizim məktəbin rus və Azərbaycan bölmələrində 600-dək şagird var. Son üç ildə kənddə əhalinin artımı müşahidə olunur. Ona görə də yeni məktəb binası azı 750 şagird üçün nəzərdə tutulmalıdır.

Biz malakanlara göstərilən diqqət və qayğıya görə Sizə minnətdarlığımı bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Malakanlara indiyədək olan münasibətim bundan sonra daha da yaxşı olacaqdır. Hesab edi-

rəm, Azərbaycanda hamımızın bir ailə kimi yaşaması bizim çox böyük nailiyyətimizdir. Bilirsiniz ki, Heydər Əliyevin sizə münasibəti çox səmimi olmuşdur. Dediyiniz kimi, o sizin təminatçınız olub, bu gün isə mən sizin təminatçınızam.

Bilirsiniz ki, Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, regionların inkişaf etdirilməsi sahəsində böyük işlər görülür. Malakanların məskunlaşdıqları ərazilərdəki problemlər, o cümlədən görüşdə qaldırdıqları məsələlər mütləq həll ediləcəkdir.

Kolxoz forması qalmalıdır və mən bunu dəstəkləyirəm. Bunu təsbit etmək üçün hansısa bir hüquqi mexanizm tapılması barədə tapşırıq verəcəyəm. Çünki bunun özü də tarixdir. Prinsip etibarilə mahiyyət dəyişə bilər, lakin tarixi saxlamaq lazımdır. Kolxoz, elə kolxoz olaraq da qalmalıdır.

*Prezident İlham Əliyev malakan icmasının sosial-iqtisadi inkişafı ilə bağlı görüş iştirakçılarının istək və təkliflərini dinlədi, Azərbaycan malakanlarına ən xoş arzularını yetirdi.*

*Görüş iştirakçıları Azərbaycanın hərtərəfli inkişafı, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, əhalinin firavan yaşayışı naminə ardıcıl və məqsədyönlü fəaliyyətində prezident İlham Əliyevə uğurlar dilədilər. Dövlətimizin başçısı onlarla xatirə şəkli çəkdirdi.*

## 2005-ci İLİN BİRİNCİ YARISINDA RESPUBLİKAMIZIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*21 iyul 2005-ci il*

Bugünkü iclas, Nazirlər Kabinetinin toplantısı ilin ötən altı ayının yekunlarına həsr olunmuşdur. Altı ay ərzində görülən işlər haqqında fikir mübadiləsi aparılacaq, məruzələr ediləcək və ümumiyyətlə, görülən işlər haqqında biz məlumatları dinləyəcəyik.

Bütövlükdə 2005-ci ilin birinci yarısı Azərbaycan üçün uğurlu olubdur. Bizim daxili və xarici siyasətimiz bir-birini tamamlayaraq, Azərbaycanın milli maraqlarının maksimum dərəcədə təmin olunmasına xidmət etmişdir. Ötən altı ay ərzində regionda və Azərbaycanda çox mühüm hadisələr baş vermişdir. Həm ölkə daxilində gedən proseslər, həm də Azərbaycanın dünyadakı mövqeyi deməyə əsas verir ki, indiyədək aparılmış və bu gün də aparılan siyasət düzgün istiqamətdədir. Bu müddət ərzində Azərbaycan öz xarici siyasətini davam etdirib, qonşu dövlətlərlə bizim münasibətlərimiz daha da möhkəmlənibdir. Qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim çoxsaylı görüşlərim olub və demək olar ki, bu münasibətlər Azərbaycanın maraqlarını təmin edir. Biz qonşu dövlətlərlə həmişə çox yaxşı münasibətlərin olmasına çalışmışıq, buna nail olmuşuq. Bu gün qonşularımızla bizim heç bir problemimiz yoxdur, əksinə, bu münasibətlər həm ikitərəfli müstəvidə, həm də regional əməkdaşlıq çərçivəsində inkişaf edir. Azərbaycanın beynəlxalq təşkilatlarla işbirliyi, əməkdaş-

lığı daha da möhkəmlənibdir. Bildiyiniz kimi, uzun illər Azərbaycanın üzv olduğu GUAM təşkilatı indi özünün yeni dövrünü yaşayır və bu bizi çox sevindirir. GUAM çərçivəsində Azərbaycan çox fəal rola malikdir. Ümid edirəm ki, gələcəkdə təşkilatın sanbalı və nüfuzu artacaqdır və bu bizim maraqlarımıza cavab verir.

Avropa İttifaqı ilə əməkdaşlığımız daha da sürətlənibdir. Yeni qonşuluq siyasəti artıq Azərbaycana da tətbiq olunur. O siyasətin ilk cizgilərini biz artıq görürük. Avropa Şurası ilə əməkdaşlığımız çox yüksək səviyyədədir. Avropa Şurasının bu ilin yanvar ayında qəbul etdiyi qətnamə, Ermənistan–Azərbaycan münaqişəsinə dair qətnamə ölkəmizdə çox böyük maraqla qarşılanıbdır. Həmin qətnamədə reallıqlar, obyektiv faktlar öz əksini tapıbdır. Ən önəmlisi odur ki, bu, danışıqlar prosesinə təkan verə biləcək bir qətnamədir.

Azərbaycan İslam Konfransı Təşkilatında çox fəal iştirak edir. Bir müddət əvvəl İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşü keçirilmişdir. Azərbaycanın mövqeyi İslam Konfransı Təşkilatında daim müdafiə olunur. Beləliklə, bütün sahələrdə xarici siyasətimiz bizə imkan verir ki, öz mövqeyimizi daha da möhkəmləndirək. Əlbəttə ki, bizim xarici siyasətdə ən başlıca vəzifəmiz və problemimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir.

Bu istiqamətdə də son altı ay ərzində müəyyən irəliləyiş görünməkdədir. O mənada ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti daha da güclənibdir. Həmsədrlər bölgəyə səfərlər edirlər, yeni məsələlər müzakirə olunur və deyə bilərəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi daha da möhkəmlənir. Bayaq dediyim kimi, bu istiqamətdə çox vacib və önəmli addımlardan biri Avropa Şurasının bu ilin yanvar ayında qəbul etdiyi qətnamə və onda sadalanan məsələlərdir. Ermənistan Azərbaycana qarşı təcavüz edibdir. Demək olar ki, ilk dəfə beynəlxalq təşkilatlarda bu məsələ çox açıq şəkildə qoyulub və göstərilibdir ki, Avropa Şurasının üzvü olan bir ölkə digər üzv ölkəyə qarşı təcavüz edib və işğal-

çılıq siyasəti aparır. Eyni zamanda, qətnamədə Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti də pislənilibdir. Orada bir milyondan artıq qaçqın, köçkünün vəziyyəti haqqında da məlumatlar var. Bütövlükdə bu qətnamə həm çox obyektivdir, həm də, bir də qeyd etmək istəyirəm ki, danışıqlar prosesinə təsir göstərəcək və artıq göstərir. Digər tərəfdən, ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlarda bizim dəvətimizlə monitorinq keçirmişdir. Biz çox təkid etmişik ki, bu missiya Azərbaycana gəlsin. Baxmayaraq ki, Ermənistan tərəfi buna etiraz edirdi. Biz buna nail olduq və artıq hesabatda beynəlxalq ictimaiyyətə çatdırdığımız məlumatlar öz əksini tapıbdır. İşğal olunmuş torpaqlarda ermənilərin qeyri-qanuni məskunlaşması faktları üzə çıxıb və əlbəttə ki, bu, dünyada böyük rezonans yaradıbdır.

Birləşmiş Millətlər Təşkilatı çərçivəsində bizim səylərimiz davam edir və ermənilərin işğal olunmuş torpaqlarımızda qeyri-qanuni məskunlaşması məsələləri BMT-nin gündəliyindədir. Biz danışıqlarda öz mövqeyimizi möhkəmləndirmişik. Artıq danışıqlar Praqa prosesi çərçivəsində aparılır və əgər sadə sözlərlə desək, Praqa prosesi mərhələli həll deməkdir. Yəni Azərbaycanın hər zaman israr etdiyi yanaşma – məsələnin mərhələli şəkildə həll olunması artıq Minsk qrupu tərəfindən qəbul edilir və danışıqları aparan tərəflər – Ermənistan və Azərbaycan artıq bu prosesin iştirakçılarıdır. Baxmayaraq ki, Ermənistanı bu prosesə cəlb etmək üçün çox böyük səylər göstərilmiş, çox böyük diplomatik gedişlər edilmişdir. Biz buna nail olduq və onu da bilirik ki, «Praqa prosesi» ifadəsi, sadəcə olaraq, mərhələli həll sözünün əvəzinə işlənilmiş bir ifadədir ki, erməniləri və Ermənistanı çox qıcıqlandırmasın. Ancaq həqiqət budur ki, münaqişə yalnız və yalnız aşağıdakı prinsiplər əsasında öz həllini tapa bilər: işğal edilmiş torpaqlar işğalçı qüvvələrdən azad olunmalı, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına – Dağlıq Qarabağın ətrafındakı bölgələrə və Dağlıq Qarabağın özünə qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu müəyyən oluna, Azərbaycanın tərkibində Dağlıq Qarabağ ermənilərinə

dünyada mövcud olan ən yüksək muxtariyyət verilə bilər. Bizim mövqeyimiz dəyişməz olaraq qalır və bu mövqe bütün beynəlxalq hüquq normalarına əsaslanır.

Dağlıq Qarabağ Azərbaycan torpağıdır, vaxtilə ermənilər bu torpağa qonaq kimi gəlmişdilər. Ondan sonra məlum olan hadisələr nəticəsində, etnik təmizləmə siyasəti nəticəsində, bəzi xarici qüvvələrin dəstəyi ilə o torpaqların işğalına nail ola bilmişlər. Amma bu işğal əbədi deyildir. Bunun sonu olacaq və biz istəyirik ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Amma eyni zamanda, öz iqtisadi və hərbi potensialımızı gücləndiririk.

Son zamanlar erməni mətbuatında və bir sıra başqa mətbuat orqanlarında danışıqlar prosesi haqqında təxribat xarakterli müxtəlif məlumatlar dərc olunur ki, nə vaxtsa Dağlıq Qarabağ Azərbaycandan ayrılacaq, nə vaxtsa müstəqil olacaq, yaxud da ki, Ermənistana birləşdiriləcəkdir. Biz buna heç vaxt imkan verməyəcəyik. Bizim mövqelərimiz dəyişməz olaraq qalır. Mövqeyimizdə heç bir dəyişiklik yoxdur və olmayacaqdır. Heç vaxt – nə bu gün, nə sabah, nə on ildən, nə də yüz ildən sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi müzakirə obyektinə çevrilə bilməz. Biz buna imkan verə bilmərik. Sadəcə olaraq, çalışmalıyıq ki, bütün vasitələrdən istifadə edib bu məsələni tezliklə həll edək və dediyim kimi, burada siyasi, diplomatik və başqa amillər öz rolunu oynamalıdır. Sözsüz ki, buna nail olmaq üçün, ümumiyyətlə, ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün iqtisadi potensialımızı da gücləndirməliyik. Bu istiqamətdə işlər görülür və bugünkü müzakirənin mövzusu ilk növbədə bizim iqtisadi və sosial məsələlərimiz olacaqdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatlar bu gün davam etdirilir. Azərbaycan bu islahatları çox inamla və cəsarətlə aparır, nəticələr və iqtisadi inkişaf sürəti deməyə əsas verir ki, Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Bu ilin altı ayında ümumi daxili məhsul 16,5 faiz artıb və ilin sonunda bu göstərici təxminən 18 faizə çatacaqdır. Bu da dünyada ən

yüksək göstəricidir. Altı ayda sənaye istehsalının artımı 20 faiz təşkil edibdir. Bu da çox böyük rəqəmdir və onu göstərir ki, bizim sənayemiz çox sürətlə inkişaf edir. Bir önəmli göstərici də ondan ibarətdir ki, bu il biz iqtisadi inkişaf baxımından 1990-cı ilin səviyyəsinə çatmışıq. Bir tərəfdən, buna heyfsilənirik ki, görün, 1990-cı illərin əvvəllərində Azərbaycana nə qədər böyük zərbələr vurulmuşdur ki, yalnız indi 1990-cı ilin səviyyəsinə gəlib çatmışıq. O illərdə – 1990, 1991, 1992-ci illərdə və 1993-cü ilin əvvəlində Azərbaycandakı səriştəsiz, bacarıqsız iqtidarın yarıtmaz fəaliyyəti nəticəsində elə böyük zərbə vurulmuşdur ki, ölkə uzun illər ərzində özünə gələ bilməmişdir. Yalnız 1996-cı ildə sabitləşmə yarandı, tənəzzülün qarşısı alındı və inkişaf başladı. Yalnız 2005-ci ildə biz 1990-cı ilin səviyyəsinə gəlib çatmışıq. Amma müqayisə üçün demək istəyirəm ki, bizim qonşumuz və çox güclü sənaye və iqtisadi potensialı olan Rusiya 1990-cı ilin səviyyəsinə yalnız 2007-ci ildə çatacaqdır.

Azərbaycana investisiyaların cəlb olunması, sərmayə qoyulması prosesi davam edir. Baxmayaraq ki, bizim ən böyük investisiya layihələrimiz başa çatır, neft-qaz sektoruna 2,7 milyard dollar investisiya qoyulmuşdur. Büdcə xərcləri və büdcə gəlirləri artıbdır. Bu barədə bu gün məlumat veriləcəkdir. Sosial sahəyə ayrılan xərclər bütövlükdə təxminən 30 faiz artıbdır. Müdafiə xərcləri 76 faiz artıb və bu da təbiidir. Biz müharibə şəraitində yaşayırıq və ordumuzu gücləndirməliyik, elə etməliyik ki, ən müasir standartlara cavab versin.

Dövlət Neft Fondu da daxil olmaqla, bizim valyuta ehtiyatlarımız təxminən 2,1 milyard dollar təşkil edir. Bu da çox böyük rəqəmdir və bizə imkan verir ki, iqtisadi islahatlarımızı rahat davam etdirək.

Sosial məsələlərə diqqət daim yüksək olmuşdur. Minimum əməkhaqqının artımı ilə bağlı məsələlər həll edilir. İndi minimum əməkhaqqı 125 min manatdır və oktyabrın 1-dən 150 min manat olacaqdır. Onu da xatırlatmaq istəyirəm ki, mən prezident vəzifəsinə seçiləndə Azərbaycanda minimum

əməkhaqqı 60 min manat idi. Qısa müddət ərzində minimum əməkhaqqının qaldırılması, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan insanlara olan diqqətin təzahürüdür. Bildiyiniz kimi, bizim əsas prioritet məsələlərimizdən biri budur ki, Azərbaycanda yoxsulluq aradan götürülsün. Son il yarım ərzində yoxsulluğun səviyyəsi təxminən 10 faiz aşağı düşübdür. 49-50 faizdən 40 faizə enibdir. Düzdür, bu da çox böyük rəqəmdir. Amma dinamika göstərir ki, azalma çox yüksək sürətlə gedir. Əməkhaqqı bütövlükdə 26 faiz artıbdır. İndi Azərbaycanda orta əmək haqqı 560 min manat və ya təxminən 120 dollardır. Bu, MDB ölkələri ilə müqayisədə yaxşı göstəricidir. Amma təbii ki, bu bizi qane etmir və gələcəkdə orta əməkhaqqının da, minimum əməkhaqqının da qaldırılması istiqamətində daha ciddi işlər görülməlidir.

Gələn ilin büdcəsi yəqin ki, bu yaxınlarda müzakirə olunmağa başlayacaqdır. Əlbəttə ki, büdcədə böyük artımlar nəzərdə tutulmalıdır. Bu barədə Nazirlər Kabineti bir müddətdən sonra məruzə edəcəkdir. Mən bu yaxınlarda bir hədəf kimi, bir rəqəm çəkdim ki, gələn il bizim büdcəmiz 3 milyard dollar olmalıdır. İndi gərək buna hərtərəfli yanaşaq, baxaq ki, bu rəqəm nə dərəcədə öz əksini tapa bilər. Bəlkə bundan da çox ola bilər. Bizi narahat edən məsələlər var, dediyim kimi, ilk növbədə bu, yoxsulluğun yüksək səviyyədə olmasıdır. Biz bu sahədə çox önəmli addımlar atırıq. Eyni zamanda, bizim hamımızı narahat edən istehlak mallarının bahalaşması, yəni inflyasiyanın qalxmasıdır. İnflyasiya indi təxminən 13 faiz təşkil edir. Ancaq bu yaxınlarda imzalanmış sərəncamdan və görülən antiinflyasiya tədbirlərindən sonra, may ayı ilə müqayisədə iyun ayında qiymətlər təxminən 2 faiz aşağı düşmüşdür. Bizim qarşıya qoyduğumuz məsələ təkcə inflyasiyanın dayandırılması deyildir. Məsələ ondadır ki, inflyasiya aşağı düşməlidir. Artıq bu proses başlanıbdır. Buna çox ciddi nəzarət etməliyik və gündəlik fəaliyyətlərində aidiyyəti orqanlar da nəzarət etməlidirlər.

Regional inkişaf proqramı uğurla icra edilir. Mənim həm bölgələrdə, həm də Bakıda keçirdiyim görüşlər bir daha onu

göstərir ki, bizim siyasətimiz çox yüksək səviyyədə qiymətləndirilir, bəyənilir və dəstəklənir. Mənə verilmiş son məlumata görə il yarım ərzində 250 min yeni iş yeri açılıbdır. Onlardan 130 mini daimi iş yeridir. Əgər biz qonşu ölkələrə, orada gedən proseslərə, ümumiyyətlə, başqa ölkələrdə bu istiqamətdə görülmüş işlərə nəzər salsaq görərik ki, Azərbaycan yeni iş yerlərinin açılması istiqamətində ən önəmli addımlar atmışdır. Bu reallıqdır, həqiqətdir. Bu rəqəmlər reallığı əks etdirir. Hansı ölkədə bu gün ümumi daxili məhsul istehsalı 16 faiz artır, hansı ölkədə sənaye istehsalının artımı 20 faiz təşkil edir, əmək haqları ildə iki dəfə qaldırılır? İl yarım ərzində bizdə əməkhaqqı üç dəfədən çox qaldırılıbdır. 8 milyon əhalisi olan hansı ölkədə il yarım ərzində 250 min adam işlə təmin olunubdur? Biz bunu dünyada görə bilmərik. Bütün bunlar uğurlardır və biz çox sevinirik və bəlkə də, deyə bilərik ki, fəxr edirik ki, buna nail olmuşuq. Bütün bunların arxasında düşünülmüş siyasət, məqsədyönlü şəkildə aparılmış islahatlar dayanır. Biz bunu davam etdirəcəyik.

Əlbəttə ki, problemlər də var – yoxsulluq, işsizlik, enerji, qaz təchizatı, su təchizatı – biz bunu bilirik və bunlar aradan götürüləcəkdir. Bu gün burada məlumat veriləcək, yeni-yeni elektrik stansiyalarının tikintisi nəzərdə tutulubdur. Bu il və gələn il Bakıda, Sumqayıtda və bütün bölgələrdə modul tipli kiçikhəcmli elektrik stansiyaları quraşdırılacaqdır ki, bu da enerji probleminin aradan qaldırılmasına çox ciddi təsir göstərəcəkdir. Qaz xətləri çəkilir, Azərbaycanda qaz hasilatı artır və ümid edirəm ki, «Şahdəniz» qaz yatağı istismara veriləndən sonra bu problem də aradan götürüləcəkdir. Bu yaxınlarda yeni bir açıq səhmdar cəmiyyəti yaradıldı – «Azəristiliktəchizat». Onun qarşısında vəzifə qoyuldu ki, qısa müddət ərzində çox müfəssəl bir iş planı işlənilib hazırlansın və 2005-2006-cı illərdə Bakıda və böyük şəhərlərdə çoxmərtəbəli evlərin istilik təchizatı təmin edilsin. Çünki biz imkan verə bilmərik ki, qışda insanlar üşüsünlər, gərək elə edək ki, istilik daim olsun. Bunu etmək mümkündür. Texniki cəhətdən etmək mümkündür. Maliyyə imkanlarımız da var və buna

vəsait ayıracağıq. Belə olan halda, elektrik enerjisinə də qənaət ediləcəkdir. Çünki qışda və yayda elektrik enerjisinin sərfində çox böyük fərqlər var. Qışda bəlkə də iki dəfə çox elektrik enerjisi sərf olunur. Səbəbi də odur ki, insanlar mənzilləri elektrik cihazları ilə qızdırırlar. Bütün bu məsələlər diqqət mərkəzindədir. Ümid edirəm ki, 2005-ci ilin ikinci yarısı da uğurlu olacaq və 2006-cı ildə Azərbaycanda böyük layihələr həyata keçiriləcəkdir.

## YEKUN NİTQİ

Müzakirəmizi yekunlaşdıraq. Hesab edirəm ki, çox səmərəli müzakirə aparıldı. Həm görülən işlər haqqında, həm də mövcud problemlər haqqında geniş danışdıq və ümid edirəm ki, bu toplantının yaxşı nəticəsi olacaqdır.

Əlbəttə ki, qarşıdan gələn aylarda daha da səmərəli işləməli, bütün vəzifələri yerinə yetirməliyik və çalışmalıyıq ki, bizi narahat edən əsas problemləri maksimum dərəcədə aradan qaldıraq. Burada həm, ümumiyyətlə, iqtisadi inkişafdan söhbət açıldı, müxtəlif layihələrimiz, həm də bütövlükdə iqtisadi inkişaf templəri təhlil olundu. Əminəm ki, ilin sonuna qədər bu daha da güclənəcək, eyni zamanda, sahibkarlıq, özəl sektor daha da inkişaf edəcəkdir. Sahibkarların fəaliyyəti çox müsbətdir. Sahibkarlığın inkişafı üçün dövlət tərəfindən bu il 200 milyard manat ayrılmışsa, gələn il biz bunu ən azı 2 dəfə qaldırıb 400 milyard manat səviyyəsinə çatdırmalıyıq. Bu isə bir neçə ildən sonra öz nəticəsini göstərəcəkdir. Bu gün görülən işlər, haradasa, iki-üç ildən sonra öz bəhrəsini verəcəkdir. Əgər bu gün kiməsə kredit verilibsə, o kreditin nəticəsi iki-üç ildən sonra özünü göstərəcəkdir.

Bu yaxınlarda qaçqınların və məcburi köçkünlərin problemlərinə dair geniş müşavirə keçirildi. Ona görə mən hesab elədim ki, bu gün bu məsələnin müzakirə edilməsinə ehtiyac yoxdur. Həmin müşavirədə çox geniş məsələlər müzakirə olundu, görülən və görüləcək işlər haqqında göstərişlər verildi.

Artıq işlərin görülməsinə başlanmışdır. Yeni şəhərciklərin tikintisi davam edir, vəsait ayrılıb, yataqxanaların təmirinə başlanılır.

**Əli Həsənov:** Möhtərəm cənab Prezident, vəsait köçürülüb, müqavilə imzalanıbdır. Mətbuatın iştirakı ilə keçiriləcək tədbirdə planlar təsdiq olunacaqdır. Kanallarla bağlı Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinə vəsait köçürülübdür. Layihəçilər həmin yerlərə yenidən baxırlar. Yuxarı Füzuli kanalında bütün işlər 3-4 ay müddətinə başa çatdırılacaqdır. Yuxarı Qarabağ kanalında 2001-ci ildə…

**İlham Əliyev:** Mənə dedilər, artıq vəsait ayırdıq.

**Əli Həsənov:** Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi ilə birgə işlər görülür. Kür suyundan da istifadə etmək olar. Bununla bağlı məsələləri üç-dörd günə dəqiqləşdirəcəyik və çox qısa müddətdə bu işin icrasına başlanacaqdır.

Yataqxanaların sifarişçisi artıq təyin olunmuşdur. Bunun razılığını almışıq. Bir həftə ərzində onun da icrasına başlanacaqdır.

**İlham Əliyev:** Çox yaxşı. Məsələləri belə operativ şəkildə həll etməliyik. Harada problem varsa, gərək dərhal onu araşdıraq, baxaq və həll edək. Elə problem var ki, onun həlli illər apara bilər, elə problem də var ki, bir gündə, bir həftədə həll oluna bilər. Sadəcə, bir balaca diqqətli olmalıyıq və əhalini narahat edən məsələləri həmişə diqqət mərkəzində saxlamalıyıq.

2006-cı ilin büdcəsi yəqin ki, bir müddətdən sonra müzakirə olunmağa başlanacaq və dediyim kimi, büdcə təxminən 3 milyard səviyyəsində olmalıdır. Bu büdcə investisiya yönümlü büdcə olmalıdır ki, bizim qarşımızda duran əsas məsələlər tezliklə həll edilsin. Hesab edirəm ki, yeni elektrik stansiyalarının alınması, su təchizatının yaxşılaşması məsələləri büdcədə öz əksini tapmalıdır. Ümumiyyətlə, su təsərrüfatında mövcud olan problemlərə dair geniş müşavirə keçirəcəyik və Bakını içməli su ilə təmin etmək üçün görüləcək işlər haqqında geniş müzakirələr aparacağıq.

Yeni yolların tikilməsi gələn ilin büdcəsində öz əksini tapmalıdır. Xəstəxanaların, məktəblərin, mədəniyyət ocaqlarının, digər sosial infrastrukturun bərpası və tikilməsi də gərək nəzərdə tutulsun. Bizim iqtisadiyyatımız inkişaf edir, vəsaitimiz artır, maliyyə potensialımız güclənir. Gərək elə edək ki, bütün bu imkanlar Azərbaycan xalqına maksimum xidmət etsin. Əlbəttə ki, müdafiə xərclərinin artımı məsələləri də öz həllini tapmalıdır. Mən burada dedim ki, bu il müdafiə xərclərini 76 faiz artırdıq. Bizim hərbi büdcəmiz 300 milyon dollar təşkil edir və bizə qarşı işğalçılıq siyasəti aparan qonşu Ermənistan bundan çox narahat olubdur. Bu yaxınlarda mənə məlumat verildi, onların hansısa rəsmisi deyib ki, Azərbaycan 300 milyon dollarlıq hərbi büdcəyə malik olub və bu bizi qorxutmur. Əgər doğrudan da qorxutmursa, onda bu barədə niyə danışırsınız? Əgər adamı heç nə qorxutmursa, bu barədə heç danışmaz. Əgər deyirlərsə ki, qorxutmur, deməli, biz düz yoldayıq. Şübhə etmirəm ki, bütün vasitələrdən – həm siyasi, həm diplomatik, həm iqtisadi, həm də hərbi – istifadə edərək istədiyimizə nail olacağıq. Gələn ilin müdafiə büdcəsi gərək ciddi şəkildə artırılsın. Mən indidən hökumət qarşısında bu vəzifəni qoyuram, siz baxın, hesablayın. Bizim hərbi potensialımız daha da güclənməlidir.

Bu qədər. Sağ olun. Sizə uğurlar arzulayıram.

## AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 130 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*«Gülüstan» sarayı*

*21 iyul 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Əziz jurnalistlər!

Sizin hamınızı milli mətbuatımızın 130-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

1875-ci ildə Həsən bəy Zərdabinin redaktorluğu ilə Azərbaycanda ilk qəzet çapdan çıxmışdır. «Əkinçi» qəzetinin çapdan çıxması milli mətbuatımızın təməlini qoydu. Ondan sonra mətbuatda müxtəlif dövrlər yaşandı, 1906-cı ildə ilk dəfə Azərbaycan dilində «Həyat» qəzeti çapdan çıxdı. Azərbaycan Xalq Cümhuriyyəti yaranandan sonra Azərbaycan və rus dillərində «Azərbaycan» qəzetinin nəşri böyük hadisəyə çevrilmişdir.

Azərbaycan Sovet İttifaqı tərkibində yaşamağa başlayanda mətbuat, demək olar ki, çox aşağı səviyyədə idi. Təbii ki, o dövrün ideoloji çərçivələri icazə vermirdi ki, Sovet Azərbaycanında söz azadlığı tam bərqərar olunsun. İdeoloji çərçivələr imkan vermirdi ki, mətbuat hərtərəfli inkişaf etsin. Totalitar dövlətin əlamətlərindən biri də söz azadlığının mövcud olmamasıdır. Amma buna baxmayaraq, o illər ərzində bizim jurnalistikamız və jurnalistlərimiz çox səmərəli işləmişlər. Bilirsiniz, hər bir ideoloji çərçivəni tətbiq etmək olar, ancaq əgər istedad varsa, o özünü göstərəcəkdir. O illər ərzində Azərbaycanda yüzlərlə qəzet, jurnal çıxırdı və onların Azərbaycanın, xalqımızın təbliğ olunmasında çox mühüm rolu var idi. O illərdə Azər-

baycan Sovet İttifaqı çərçivəsində o qədər də tanınmırdı. Ona görə bizim haqqımızda gedən hər bir məlumat, hər bir yazı, hər bir məqalə Azərbaycan xalqını, Azərbaycanda yaşayan insanları daha da tanıdırdı.

Azərbaycanın tanınmasında xalqımızın lideri Heydər Əliyevin çox mühüm rolu olmuşdur. 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycanda gedən geniş quruculuq işləri, iqtisadi inkişaf, yeni müəssisələrin, fabriklərin, zavodların, mədəniyyət ocaqlarının tikilməsi, Azərbaycanda müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi sovet mətbuatının, eyni zamanda dünya mətbuatının diqqətini Azərbaycana yönəltmişdir.

1970-ci illərdə Azərbaycan mətbuatında çox cəsarətli yazılar, məqalələr dərc edilirdi. Bəzi hallarda bu yazılar Sovet İttifaqının rəhbərliyi tərəfindən çox böyük tənqidlə qarşılanırdı. İndi biz hamımız yaxşı bilirik ki, başqa müttəfiq respublikalarla müqayisədə Azərbaycanda heç vaxt dissident hərəkatı olmamışdır. Ona görə olmamışdır ki, burada ayrı fikirdə olan insanlara, milli ruhun tərbiyə olunmasında mühüm işlər görmüş insanlara rəhbərlik tərəfindən həmişə böyük qayğı və diqqət göstərilmişdir. Ona görə də Azərbaycanda belə insanlardan heç biri nə həbs edilmiş, nə də təqib olunmuşdur. Belə meyllər var idi, cəmiyyətdə bu əhval-ruhiyyə var idi. Şübhəsiz ki, sadəcə olaraq, Heydər Əliyevin milli dəyərlərə olan bağlılığı, münasibəti ideoloji dəyərlərə olan münasibətindən qat-qat yüksək idi.

Azərbaycanın müstəqil mətbutı, demək olar ki, müstəqilliyimiz bərpa olunandan sonra, yaxud da ondan bir qədər əvvəl yaranmağa başladı. Bu da çox maraqlı və əhəmiyyətli bir proses idi. Həmin proses bu gün də davam edir. Sovet İttifaqının dağılması və ondan əvvəlki dövr, milli hərəkatın güclənməsi, Azərbaycan xalqının birləşməsi və milli həmrəyliyin nümayişi, əlbəttə, bizim mətbuatımıza da güclü təsir göstərirdi. Bəzi hallarda bizim yeni yaranan mətbuat bu işdə aparıcı rol oynayırdı. Milli hərəkatın yaranmasında Azərbaycanın mətbuatının, azad mətbuatının rolu çox yüksək olub və biz bunu həmişə yadda saxlamalıyıq.

O dövr üçün söz azadlığı bir yenilik idi. Şübhəsiz ki, insanlar o söz azadlığına hələ öyrəşməmişdilər. Hər bir tənqidi yazı, məqalə böyük maraq doğururdu. Biz hamımız xatırlayırıq ki, o illərdə, 1990-cı illərin əvvəllərində qəzet köşklərində böyük növbələr yaranırdı, hamı istəyirdi ki, qəzetləri alsın, oxusun. Bu, ümumi bir ənənə idi. Təbii ki, vaxt keçdikcə bu maraq da azalır və bu da təbiidir. Ancaq bu gün Azərbaycan jurnalistikası, hesab edirəm ki, öz yeni dövrünü yaşayır.

Bu gün Azərbaycanda, sözün əsl mənasında, müstəqil mətbuata böyük ehtiyac var. Azərbaycanda mətuatın müstəqilliyi cəmiyyətin sifarişidir. Mən hesab edirəm ki, mətbu orqanlar bəzi siyasi dairələrin təsirindən çıxmalıdır və sözün əsl mənasında müstəqil olmalıdır. Biz çox şeyi Avropadan öyrənirik, Avropaya inteqrasiya edirik və bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Hesab edirəm ki, bu sahədə də öyrənməyə ehtiyac var.

Bu gün Azərbaycanda mətbuat azadlığı, söz azadlığı var. Azərbaycanda senzura 1998-ci ildə aradan götürülmüşdür. 1992-ci ildə tətbiq olunan senzura 1998-ci ildə Heydər Əliyev tərəfindən ləvğ edildi. 1990-cı illərin əvvəllərində mətbuata qarşı dözümsüzlük halları kifayət qədər çox idi. Bəzi vəzifəli şəxslərin əsəbləri dözmürdü. Yəqin ki, bu, bütün dövrlərə aid olan məsələdir.

Ona görə mətbuata diqqət, qayğı göstərmək hər bir vəzifəli şəxsin borcudur və vəzifəsidir. Hər bir vəzifəli şəxs, xüsusilə böyük səlahiyyətlərə malik olan şəxs gərək dözümlü olsun, tənqidə dözümlü olsun. Bəzi hallarda təhqirə də dözümlü olmalıdır. Bu da dövrün əlamətidir. Bu da ötüb keçəcəkdir. Mən şübhə etmirəm ki, bu gün Azərbaycanda formalaşan güclü mətbuat bir neçə ildən sonra keyfiyyətcə daha da yüksək səviyyəyə çatacaqdır. Prezident kimi, mən öz fəaliyyətimdə bu prinsipləri rəhbər tuturam. Bilirsiniz ki, məmurlara, vəzifəli şəxslərə dəfələrlə tövsiyə etmişəm ki, mətbuatı məhkəməyə verməsinlər, çalışsınlar ki, mətbuatla sıx əlaqədə olsunlar.

Azərbaycanda bu gün böyük işlər görülür. Həm xarici siyasətdə uğurlar var, həm də daxildə iqtisadi inkişaf çox yük-

sək sürətlə gedir. Əlbəttə, biz çalışmalıyıq ki, görülən bütün işlər haqqında cəmiyyətimizə dolğun məlumat çatdıraq. Eyni zamanda, mövcud olan problemləri də tam şəkildə diqqətə çatdıraq. Mətbuatda gedən tənqidi materiallar mənim fəaliyyətimə də köməkdir. Mən bəzi şeyləri belə verilişlərdən, məqalələrdən götürürəm. Bu çox önəmlidir. İqtidarla mətbuat arasında daim əlaqə, ünsiyyət olmalıdır. Mən bununla demək istəmirəm ki, bu əlaqə daim çox xoş olmalıdır, yaxud da müsbət olmalıdır. Yox. Amma bu olmalıdır.

Biz hamımız, Azərbaycan vətəndaşları çalışmalıyıq ki, ölkəmiz daha da güclənsin, daha da müasirləşsin. Azərbaycanda dünyada mövcud olan ən yüksək texnologiyalar tətbiq olunsun, o cümlədən ictimai həyatda da. Ona görə bəzi tənqidi yazılar gərək o yazıların personajlarını qıcıqlandırmasın və biz bu dözümlülüyü gərək nümayiş etdirək. «Monitor» jurnalının Baş redaktoru Elmar Hüseynovun qətli bizim hamımızı çox sarsıtdı. Bu, Azərbaycanın demokratik inkişafına vurulmuş zərbə idi. Biz hamımız çalışmalıyıq ki, bu cinayət tezliklə açılsın və cinayəti törətmiş insanlar məsuliyyətə cəlb olunsunlar. Ən önəmlisi budur ki, bu cinayəti sifariş edən qüvvələr ifşa olunsun. Bu istiqamətdə hüquq-mühafizə orqanları çox gərgin işləyirlər. Artıq ilkin məlumatlar var və ictimaiyyət bu barədə məlumatlandırılır. Ümid edirəm ki, bu cinayətin üstü açılacaqdır. Bu bizim hamımız üçün lazımdır. Təkcə Elmar Hüseynovun ailə üzvlərinə, yaxud da onun qohumlarına, dostlarına, həmkarlarına yox, bizim cəmiyyətimizə lazımdır. Bu ləkə Azərbaycanın üzərindən götürülməlidir və biz çalışacağıq ki, bu cinayət tezliklə açılsın.

Bu gün mətbuat, eyni zamanda, təbliğat funksiyasını daşıyır. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan uzun müddət informasiya blokadasında idi və bizim əleyhimizə dünyanın ən güclü lobbilərindən biri – erməni lobbisi mütəmadi qaydada işləyir və bizim gördüyümüz bütün işlərə ləkə vurmaq istəyir, onda mətbuatın təbliğat funksiyası daha da güclənməlidir.

Bu gün Ermənistan Azərbaycana bütün sahələrdə uduzur. Bizim siyasi, diplomatik səylərimiz nəticə verir. Danışıqlar

prosesində bizi qane edən meyllər görünməkdədir. İqtisadi inkişaf baxımından, ümumiyyətlə, müqayisə ediləsi deyil. Həmçinin gələcək perspektivlər baxımından müqayisə ediləsi deyil. Belə olan halda, erməni təbliğatının gündəliyinə yeni bir mövzu düşübdür: Azərbaycanı qeyri-demokratik ölkə kimi dünyaya təqdim etmək, Azərbaycanı ləkələmək və nəticə etibarilə dünya birliyinə, dünya ictimaiyyətinə sübut etmək ki, ermənilər belə «antidemokratik», «avtoritar» dövlətdə yaşaya bilməzlər. Bu tamamilə yalnış bir tezisdir və bunun səbəbi də aydındır. Biz gərək buna qarşı mübarizə aparaq. Biz Ermənistanın təbliğatı ilə daim mübarizə aparırıq. Beynəlxalq təşkilatlarda, bütün beynəlxalq forumlarda öz sözümüzü deyirik və artıq bunun nəticələri də göz qabağındadır. Beynəlxalq təşkilatların qərarları artıq reallığı əks etdirir. Amma mətbuatın gücü tamamilə başqadır. Ona görə bizim mətbuatımızın internet vasitəsilə dünya birliyinə ingilis dilində, başqa dillərdə həqiqəti çatdırması çox önəmlidir. Onu da bilirik ki, Azərbaycanda dərc olunan məqalələr Ermənistanda böyük diqqətlə izlənilir və biz düşmənə imkan verməməliyik ki, orada Azərbaycan haqqında yanlış təsəvvür yaransın.

Mən ümid edirəm ki, gələcəkdə milli mətbuatımız daha da inkişaf edəcək, dövlət, hökumət tərəfindən lazımi tədbirlər görüləcəkdir. Siz bilirsiniz ki, öndərimiz Heydər Əliyev mətbuata daim böyük diqqətlə yanaşırdı. Mətbuatın maddi-texniki bazasının möhkəmlənməsinə, ümumiyyətlə, mətbuata qayğısı həmişə hiss olunurdu. Mən çalışıram ki, öz tərəfimdən bunu davam etdirim. İndi nə dərəcədə müvəffəq olmuşam, bunu demək mənim üçün çətindir. Amma istəyirəm biləsiniz ki, heç bir fərq qoymadan, mənim mətbuata münasibətim çox müsbətdir. İstər iqtidar mətbuatı olsun, istər müxalifət mətbuatı olsun, istərsə də müstəqil mətbuat olsun – bu bizim mətbuatımızdır. Bu, Azərbaycanın demokratik inkişafına çox böyük töhfədir.

Yenə də deyirəm, bəzi məqalələr kimisə narazı sala bilər, kiminsə şərəf və ləyaqətini alçalda bilər. Əlbəttə, hər bir insanın qəlbi var, ürəyi var, duyğuları var. Amma biz bilməliyik ki,

əgər demokratik cəmiyyət, ölkə yaratmaq istəyiriksə, bu mərhələdən də keçməliyik. Ümid edirəm ki, bu mərhələ çox çəkməyəcək və mətbuatımız dünya standartlarına cavab verəcəkdir.

Əziz dostlar, bu bayram münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uğurlar diləyirəm. Sağ olun.

* * *

*Sonra Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov Azərbaycan prezidenti İlham Əliyevin bir sıra kütləvi informasiya vasitələrinin və onların əməkdaşlarının mükafatlandırılması ilə bağlı imzaladığı sərəncamları oxudu.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev jurnalistlərlə səmimi görüşdü, onların bayramlarını təbrik etdi, problemləri və qayğıları ilə maraqlandı.*

*Təltif olunan, mükafat alan kütləvi informasiya vasitələrinin nümayəndələri, jurnalistlər milli mətbuatımızın inkişafına göstərilən dövlət qayğısına görə respublikamızın rəhbərinə dərin təşəkkür və minnətdarlıqlarını bildirdilər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafındakı xidmətlərini xatırlatdılar, ulu öndərin rəhbərliyi dövründə mətbu orqanlara yetirilən diqqətin unudulmadığını, bu siyasətin uğurla davam etdirildiyini vurğuladılar, bəzi problemlərdən söhbət açdılar, dövlətimizin başçısına – xarici ölkələrdə nəşr olunan qəzet və jurnalların nüsxələrini təqdim etdilər.*

*Prezident İlham Əliyev mətbuatın, o cümlədən rayon qəzetlərinin inkişafı istiqamətində, onların problemlərinin həlli ilə bağlı bundan sonra da mühüm işlər görüləcəyini diqqətə çatdırdı. O dedi ki, hər şeyi etmək mümkündür. Sadəcə olaraq, gərək yerlərdə insanlar canla-başla işləsinlər. Biz də öz tərəfimizdən kömək edəcəyik. Sizin hamınızı bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm.*

*Prezident İlham Əliyev mərasimin sonunda jurnalistlərlə xatirə şəkli çəkdirdi.*

## HEYDƏR ƏLİYEV FONDUNUN YENİ LAYİHƏSİ OLAN «AZƏRBAYCAN» İNTERNET PORTALININ TƏQDİMAT MƏRASİMİNDƏ* ÇIXIŞ

*Azərbaycan Dövlət Filarmoniyası*

*22 iyul 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün «Azərbaycan» portalının nümayişi bizim hamımızı çox sevindirir. Çox gözəl portaldır və burada Azərbaycan haqqında çox dəqiq və müfəssəl məlumat öz əksini tapıbdır. Azərbaycan haqqında məlumatlar internetdə, müxtəlif saytlarda mövcuddur, amma ilk dəfədir ki, bütün məlumat bir portalda cəmləşibdir.

Bu gün bu barədə kifayət qədər məlumat verildi, film də nümayiş etdirildi. Əminəm ki, dünyanın istənilən yerində Azərbaycanla maraqlanan insanlar portaldan səmərəli istifadə edəcəklər. Bizim reallıqlarımız, Azərbaycanda gedən proseslər, Azərbaycan həqiqətləri mütləq dünya birliyinə qərəzsiz, olduğu kimi çatdırılmalıdır. Hamımız yaxşı bilirik ki, Azərbaycana qarşı dünyada çox güclü erməni lobbisi fəaliyyət göstərir. Demək olar ki, Azərbaycana qarşı informasiya müharibəsi aparılır və əlbəttə ki, biz buna adekvat, çox layiqli cavabımızı verməliyik. «Azərbaycan» portalının yaranması bu işdə bizə çox gözəl kömək edəcəkdir. Biz Azərbaycan haqqında məlumatları dünya birliyinə çatdıracağıq, eyni zamanda, öz təbliğat işimizi daha da səmərəli qurmalıyıq.

---

* Mərasimi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva açdı.

Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş bu layihə çox önəmlidir və əminəm ki, gələcəkdə bu portal daim yeniləşərək, diqqət mərkəzində qalacaqdır.

Fondun fəaliyyəti çoxşaxəlidir. Keçən ilin mayın 10-da Heydər Əliyev Fondunun açılış mərasimi keçirilmiş, Fond fəaliyyətə başlamışdır. Qısa müddət ərzində Fond ictimai həyatımızın müxtəlif sahələrində çox mühüm işlər görür. Fondun xeyriyyəçilik fəaliyyəti çox genişdir. Ağır şəraitdə yaşayan insanlara kömək göstərilir, kimsəsiz uşaqlara daim diqqət göstərilir, Heydər Əliyevin tarixi irsinin öyrənilməsinə böyük diqqət yetirilir. Qısa müddətdə müxtəlif istiqamətlərdə görülən işlər çox təqdirəlayiqdir. Fond bu müddət ərzində bizim ictimai həyatımızın çox vacib amilinə çevrilib və əminəm ki, bundan sonra da çox səmərəli işləyəcək və öz funksiyasını ləyaqətlə davam etdirəcəkdir.

Bu gün mən sizi bir daha salamlamaq istəyirəm. Sizin hər birinizə uğurlar diləyir və arzu edirəm ki, hamımız çalışaq, hərə öz yerimizdə öz əməyimiz, işimiz və fəaliyyətimizlə doğma Vətənimizi, dövlətimizi möhkəmləndirək, Azərbaycanı müasirləşdirək, zəngin, qüdrətli dövlətə çevirək. Bu işdə sizin hamınıza uğurlar diləyirəm.

Sağ olun!

## BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORUNUN MÜAVİNİ AQUSTİN KARSTENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 iyul 2005-ci il*

*Ölkəmizin Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığının səviyyəsindən məmnunluğunu vurğulayan Azərbaycan prezidenti İlham Əliyev Fondun respublikamıza göstərdiyi köməyə, yardıma görə minnətdarlığını bildirdi. Hazırda Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nəzərə çatdıran prezident İlham Əliyev ölkəmizin gəlirlərinin xeyli dərəcədə artdığı bir dövrdə makroiqtisadi sabitliyin davam etdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*İyulun 21-də keçirilmiş və 2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədən bəhs edən dövlətimizin başçısı inflasiyanın qarşısının alınması məsələsinin də müzakirə edildiyini bildirdi. Növbəti ildə Azərbaycanda böyük artım gözlənildiyini nəzərə çatdıran prezident İlham Əliyev belə bir şəraitdə ölkəmizin beynəlxalq maliyyə qurumları, o cümlədən Beynəlxalq Valyuta Fondu ilə məsləhətləşmələrinin genişləndirilməsinin vacib olduğunu vurğuladı. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı bundan sonra da uğurla davam etdiriləcəkdir.*

*Başçılıq etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Aqustin Karstens dedi:*

*Cənab Prezident, Azərbaycanda ötən illərdə iqtisadi inkişaf sahəsində əldə olunan çox böyük artıma görə Sizi təbrik edirəm. Çox məmnunuq ki, Azərbaycanda yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması istiqamətində böyük işlər görülür. Bakıda böyük dinamik inkişaf müşahidə olunur. Əməkdaşlığımız uğurla inkişaf edir. Biz Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın ötən dövr üçün proqramının yerinə yetirilməsi vəziyyətini nəzərdən keçirmişik. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi inkişafı alqışlayırıq.*

*Respublikamızda bir sıra görüşlər keçirdiyini qeyd edən qonaq Azərbaycanda gəlirlərin artımı, maliyyə vəsaitlərinin çoxalması ilə əlaqədar qarşıya çıxan məsələlərin çox yaxşı həll edildiyini bildirdi.*

## TAİLAND KRALLIĞININ BAŞ PROKURORU KAMPRİ KAOÇARERN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 iyul 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Baş prokurorun ölkəmizə gəlməsinin Tailand Krallığı rəsmilərinin Azərbaycana ilk səfərlərindən biri olduğunu vurğuladı və ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.*

*Azərbaycanla Tailand arasında əlaqələrin hazırda yüksək səviyyədə olmamasından təəssüfləndiyini bildirən prezident İlham Əliyev dedi ki, ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının inkişafı üçün yaxşı imkanlar, xüsusilə iqtisadi sahədə ümumi maraqlarımız vardır və buna əsaslanaraq əlaqələrimizi inkişaf etdirə bilərik.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Tailand Krallığı Baş prokurorunun Azərbaycana səfəri səmərəli və uğurlu keçəcəkdir.*

*Prezident İlham Əliyev ilə görüşdən böyük şərəf duyduğunu bildirən cənab Kampri Kaoçarern ölkələrimizin əlaqələrinin genişlənməsi üçün yaxşı imkanlar olduğunu söylədi. O, Azərbaycanın və Tailandın prokurorluqları arasında həm beynəlxalq forumlar çərçivəsində, həm də ikitərəfli qaydada yaxşı əməkdaşlıq yarandığını bildirdi. Qonaq iki ölkə arasında qarşılıqlı hüquqi yardım sahəsində sənədin imzalanmasından məmnunluğunu vurğuladı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAMUEL ŞMİDƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə Sizi və dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, bütün İsveçrə xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2005-ci il*

## MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

Hörmətli cənab Prezident!

Şərm-əş-Şeyx şəhərində çoxsaylı insan tələfatına səbəb olmuş terror aktlarının törədilməsi xəbəri məni son dərəcə hiddətləndirdi. Biz terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni dəstəkləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına şəxsən öz adımdan, bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUBAYA SƏFƏRİ

*25 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 25-də Quba şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı ilk olaraq şəhərin girəcəyində salınmış Heydər Əliyev parkına gəldi. Burada prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək dəstələri təqdim olundu. Parka toplaşan minlərlə qubalı ölkəmizin rəhbərini və onun xanımını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar. Qubalılar prezident İlham Əliyevin rayona hər gəlişinin böyük bayram olduğunu vurğuladılar və ümummilli lider Heydər Əliyevin siyasətinin layiqli davamçısının ətrafında sıx birləşdiklərini, onun daxili və xarici siyasətini dəstəklədiklərini bildirdilər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda açılmış Abbasqulu ağa Bakıxanov adına Quba Tarix Muzeyinin eksponatlarına baxdılar. Muzeyin direktoru Məryəm Hacıyeva prezidentə məlumat verdi ki, muzeydə XII əsrdən müasir dövrədək tariximizə dair eksponatlar nümayiş etdirilir. Onların arasında Fətəli xanın hakimiyyəti dövrünə aid əşyalar da vardır.*

*Sonra prezident İlham Əliyev «Aygün» şirkətinin məhsulları ilə tanış oldu. Şirkətin direktoru Fatimə Ağamirzəyeva bildirdi ki, qədim el sənətlərinin bərpası və təkmilləşdirilməsi ilə məşğul olan şirkət «Nağıl», «Nəbati», «Yaz çiçəkləri», «Avanqard» adlı xalçalar, habelə Təbriz, Quba xalçaçılıq məktəblərinə aid xalçalar toxuyur. O, fərəhlə bildirdi ki, dünyanın 55 ölkəsi arasında ilin ən yaxşı qadın sahibkarı adına*

*layiq görülmüşdür. Dövlətimizin başçısının köməyi ilə verilən kreditə görə minnətdarlıq edən şirkətin direktoru dedi ki, bu kreditlər ölkədə sahibkarlığın inkişafına çox böyük köməkdir.*

*Prezident İlham Əliyev Quba uşaq yaradıcılıq mərkəzində məşğul olan uşaqların əl işlərindən ibarət sərgiyə də baxdı. Mərkəzin direktoru Elmira Asəfi bildirdi ki, 70 ildir fəaliyyət göstərən mərkəzin binasının müasir səviyyədə bərpa olunması üçün hazırda rayon rəhbərliyi tərəfindən tədbirlər görülür. Dövlətimizin başçısı Quba texniki yaradıcılıq mərkəzi yetirmələrinin hazırladıqları müxtəlif maketlərlə də tanış oldu.*

*Prezident İlham Əliyev dedi ki, bu yaradıcılıq işləri Azərbaycanın zəngin mədəniyyətə sahib olduğunu, eyni zamanda, uşaqların, yeniyetmələrin böyük istedadını bir daha göstərir.*

*Sonra prezident İlham Əliyev parkda ucalan ümummilli lider Heydər Əliyevin abidəsinin açılışında iştirak etdi. Dövlətimizin başçısı ulu öndərin abidəsinin üzərindən ağ örtüyü götürdü. Azərbaycan prezidenti və xanımı abidənin önünə gül-çiçək dəstələri qoydular. Prezident İlham Əliyev ulu öndərin adını daşıyan parkda görülmüş işləri, buradakı səliqə-sahmanı yüksək dəyərləndirdi.*

## Heydər Əliyev muzeyinin açılışı

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 25-də Qubada ümummilli lider Heydər Əliyev muzeyinin açılışında iştirak etmişdir.*

*7 hektar ərazini əhatə edən Heydər Əliyev parkında yaradılmış muzeydə ulu öndərin 1970–80-ci illərdə və 1998-ci ildə Qubaya səfərlərini əks etdirən, o cümlədən ümummilli liderimizin özünün təşəbbüsü ilə salınmış palmet meyvə bağları ilə tanışlıq zamanı, habelə ailəvi çəkilmiş fotoşəkillər nümayiş olunur.*

*Muzeyin direktoru Elza Orucova bildirdi ki, prezident İlham Əliyevin 2003-cü ildə Quba Olimpiya İdman Kompleksinin açılışında iştirakı qubalıların xatirəsində əbədi qalmışdır.*

*Dövlətimizin başçısı muzeyin «Sülhə aparan yollar», «Məkkəni ziyarət», «Avropa Şurası və Azərbaycan», «Dostluq sərhədləri aşır» guşələri ilə maraqla tanış oldu.*

*Prezident İlham Əliyevə muzeylə tanışlıqdan xatirə olaraq albom təqdim edildi.*

*Dövlətimizin başçısı muzeyin xatirə kitabına öz ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyinin ekspozisiyası ilə tanış oldum. Xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti burada nümayiş etdirilən şəkillərdə əks olunur.

Heydər Əliyev müxtəlif dövrlərdə Qubada dəfələrlə olmuş və çoxsaylı görüşlər keçirmişdir. Azərbaycanın qədim şəhəri olan Qubaya və qubalılara həmişə böyük diqqət göstərirdi.

Heydər Əliyevin siyasəti bu gün də yaşayır və əbədi yaşayacaqdır.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

25 iyul 2005-ci il».

## «Qədim Quba» Özəl Xalçaçılıq Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni sexi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 25-də Quba şəhərində «Qədim Quba» Özəl Xalçaçılıq Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni istehsal sexi ilə tanış olmuşdur. Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada böyük hörmətlə, gül-çiçəklə qarşıladılar.*

*Cəmiyyətin sədri Humay Məmmədova dövlətimizin başçısını və xanımını səmimiyyətlə salamlayaraq dedi ki, cənab Prezident, bizim müəssisəmizi ikinci dəfə ziyarət etdiyiniz üçün Sizə təşəkkür edirik. Məhz Sizin tapşırığınızla keçən il*

*bizə 150 min dollar məbləğində kredit ayrılmışdı. Həmin vəsaitin bir hissəsinin hesabına bu yeni sex yaradılmışdır. Burada hazırda 18 nəfər işçi çalışır. Kreditdən maksimum səmərəli istifadə olunması üçün başqa yeni sahələrin də açılması nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev sexdə quraşdırılmış müasir avadanlıqla tanış oldu, istehsal prosesini izlədi və görülən işləri yüksək qiymətləndirdi.*

*Sonra dövlətimizin başçısı cəmiyyətin satış-sərgi mərkəzi ilə də tanış oldu. Cəmiyyətin sədri dedi ki, əsasən xarici qonaqlar, turistlər, habelə camaat bizim xalçalarımıza böyük maraq göstərirlər. Məhsulumuza xaricdə də böyük tələbat vardır. Lakin xarici bazarda böyük tələbat olsa da, dünya bazarına məhsul çıxara bilmirik. Gömrüklə bağlı problemlər mövcuddur. Əgər bunlar həll olunarsa, işçilərin sayını maksimum səviyyədə artırmaq və müəssisənin fəaliyyətini genişləndirmək mümkündür. Əvvəllər «Azərxalça»nın tərkibində fəaliyyət göstərəndə belə problemlər olmurdu. Amma indi bu problemlər mövcuddur və bunun həlli üçün Sizin köməyinizə ehtiyac vardır.*

*Sonra Humay Məmmədova rayonda çətin xalçaçı peşəsi sahiblərinə göstərilən qayğını xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev xalçaçılığın genişləndirilməsinin vacibliyini bildirərək dedi ki, bir halda ki, sizin işlərinizin nəticəsi var, bundan sonra da hər cür kömək göstəriləcəkdir. Mən çox sevinirəm ki, verilən kredit bir il ərzində öz nəticəsini göstərir. Yeni iş yerlərinin açılması, müəssisənin genişlənməsi buna sübutdur. Əlavə kömək də edilməlidir ki, fəaliyyətiniz daha da genişlənsin. Məhsullarınız xaricdə də bəyənilir. Qaldırılan problem də aradan götürüləcəkdir.*

*Prezident İlham Əliyevə xatirə olaraq müəssisədə toxunmuş xalça hədiyyə edildi.*

## Azərbaycan Vergilər Nazirliyinin 3 sayli Ərazi Vergilər İdarəsi binasının açılışı

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 25-də Qubada Vergilər Nazirliyinin 3 saylı Ərazi Vergilər İdarəsi binasının açılışında iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar. Prezident İlham Əliyev müasir tələblərə cavab verən binanı seyr etdi, iş otaqları və konfrans salonu ilə tanış oldu.*

*Vergilər Nazirliyinin idarə rəisi Natiq Əmirov məlumat verərək dedi ki, burada avtomatlaşdırılmış vergi-informasiya sistemi (AVİS) quraşdırılmış, respublikanı əhatə edən korporativ şəbəkə yaradılmışdır. Naxçıvan Muxtar Respublikası ilə isə peyk vasitəsilə birbaşa əlaqə saxlanılır.*

*Bildirildi ki, ümummilli liderimiz Heydər Əliyev hələ 2000-ci ildə Vergilər Nazirliyinin yaradılması barədə fərman imzalayarkən qarşıya belə bir məqsəd qoymuşdu ki, Azərbaycanın vergi xidməti qısa zamanda beynəlxalq standartlar əsasında işləyən çevik quruma çevrilməlidir. Bu tövsiyələri rəhbər tutaraq və vergi orqanlarının işlərinin avtomatlaşdırılması, digər dövlət qurumları ilə inteqrasiyanın təmin edilməsi, müxtəlif iqtisadi təhlil və proqnozlaşdırma aparılması məqsədi ilə Vergilər Nazirliyi «Avtomatlaşdırılmış vergi-informasiya sistemi»nin yaradılması üçün müsabiqə elan edilmişdir. Müsabiqənin qalibi Türkiyənin vergi sistemi üçün analoji işləri yerinə yetirmiş «CYBERSSOFT» şirkəti olmuşdur. Bu layihə çərçivəsində informasiya təhlükəsizliyi tam təmin olunub, AVİS daxilində elektron şəbəkə sistemi qurulmuş, bütün vergi əməkdaşları üçün elektron şəbəkəyə qoşulma imkanları təşkil edilmişdir. AVİS vahid informasiya məkanında məlumatların real vaxt rejimində mərkəzləşdirilmiş qaydada yığılması, saxlanılması və istifadəsinə imkan verir. AVİS-in*

*tətbiqi nəticəsində vergi orqanlarında sənəd dövriyyəsi tamamilə elektron formada aparılır. Bu isə nazirliyə ildə kağıza sərf olunan 300 min dollar vəsaitə qənaət etmək imkanı verəcəkdir.*

*Yeni binada beynəlxalq seminarların və veb-konfransların təşkili üçün də lazımi şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev şəbəkəyə qoşulan yeni sistemlə, internet saytı ilə tanış oldu. Bəyannamələrin tətbiqi ilə bağlı internet vasitəsilə aparılan əməliyyatı izlədi, yeni proqramların icrası vəziyyəti ilə maraqlandı. Dövlətimizin başçısı kompüter vasitəsilə məktubların, arayışların doldurulması və göndərilməsi prosesini həyata keçirdi.*

*Sonra Azərbaycan prezidenti idman salonuna gələrək, Qubada təsnifat turnirində iştirak edəcək Niderlandın voleybolçularının məşqinə baxdı. Komandanın kapitanı dövlətimizin başçısına təşəkkürünü bildirərək dedi ki, Azərbaycan prezidentinin onları yad etməsi voleybolçularımızda böyük ruh yüksəkliyi yaradacaqdır.*

*Daha sonra prezident İlham Əliyev vergilər idarəsinin əməkdaşları ilə görüşüb, binanın açılışı münasibətilə onları bir daha təbrik etdi. Dövlətimizin başçısı dedi ki, bu bina gözəl memarlıq kompleksidir, yaxşı işləmək üçün hər cür şərait var. Vergilər Nazirliyinin üzərinə böyük məsuliyyət düşür. Gələn il büdcəmiz artmalıdır. Yəqin ki, mənim tapşırığımı eşitmisiniz. Əminəm ki, bunu gələn il yerinə yetirəcəksiniz. Ölkəmiz inkişaf edir, iqtisadi potensial möhkəmlənir. Gərək çoxlu işlər görək, çoxlu investisiya layihələri həyata keçirək. Bunların hamısını büdcə hesabına etməliyik. Bizim büdcəmiz sürətlə artır. Keçən ilə nisbətən bu il 40 faiz artıbdır. Gələn il də minimum bu səviyyədə artmalıdır. Bu da son hədd deyildir. Ölkədə inkişaf sürətlə getdikcə imkanlar daha da artacaqdır. Sizə uğurlar arzulayıram, işinizdən də razıyam. Ümumiyyətlə, Vergilər Nazirliyi çox yaxşı işləyir, işlərini çox yaxşı qurubdur. Keçmişdə olan mənfi halların aradan qaldırılması istiqamətində böyük işlər görülübdür. Həm vətəndaşlar, həm*

*də sahibkarlar tərəfindən əvvəlki iradlar daha eşidilmir. Bu da onu göstərir ki, təmizləmə işləri aparılıb, yeni yanaşmalar mövcuddur. Biz gərək Azərbaycanın hər bir sahəsində bunu davam etdirək.*

*Sizə uğurlar arzulayıram. Bir daha demək istəyirəm ki, Azərbaycanın hərtərəfli inkişafında vergilər orqanlarının çox mühüm rolu var. Siz bu vəzifəni icra edirsiniz. Mən işinizdən razıyam, ancaq gərək daha da yaxşı işləyəsiniz. Sağ olun.*

*Vergi əməkdaşları prezident İlham Əliyevin göstəriş və tapşırıqlarının icrası üçün səylə işləyəcəklərini və verilən vədlərin yerinə yetiriləcəyini vurğuladılar.*

## QUBA ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*25 iyul 2005-ci il*

Əziz qubalılar, əziz dostlar!

Bu gün çox gözəl hadisə baş verir. Qubanın gözəl guşəsində Heydər Əliyev parkı açılır və Heydər Əliyev muzeyi açılır. Bu, böyük hadisədir, bizim ümummilli liderimiz Heydər Əliyevə olan böyük hörmətin, məhəbbətin əlamətidir. Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Bütün dövrlərdə – 1970-ci illərdə də, Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayandan sonra da onun əsas məqsədi, amalı Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmaq, ölkədə abadlıq, quruculuq işləri aparmaq və Azərbaycanı hərtərəfli inkişaf etdirmək olmuşdur.

Muzeydə nümayiş etdirilən fotoşəkillər 1970-ci illərin xatirələrini əks etdirir. O illərdə Heydər Əliyev dəfələrlə Qubada olmuşdur, vəziyyətlə maraqlanırdı. Qubada o illərdə gedən çox güclü inkişafın səbəbkarı da məhz Heydər Əliyev idi. Burada salınan alma bağları, infrastruktur layihələri Qubanın inkişafına böyük töhfə idi.

1990-cı illərin əvvəllərində ölkəmiz düşdüyü böhrandan çox şərəflə çıxdı. Böhran o qədər güclü idi, Azərbaycan iqtisadiyyatına o qədər mənfi təsir göstərmişdi ki, uzun illər ərzində ölkəmiz özünə gələ bilmirdi. Bu günlərdə keçirdiyim Nazirlər Kabinetinin toplantısında bir fakt səsləndirildi: yalnız bu il Azərbaycan öz iqtisadi potensialına görə 1990-cı ilin səviyyəsinə gəlib çatmışdır. Görün 1990-cı illərin əvvəllərində Azərbaycanda rəhbərliyə gəlmiş təsadüfi adamlar, bacarıqsız, səriştəsiz rəhbərlər ölkəmizə nə qədər ziyan vur-

muşdular, onu necə məhvə aparırdılar. İqtisadi böhran, tənəzzül, bütün zavodların, fabriklərin dayanması Azərbaycanı tamamilə iflic vəziyyətinə salmışdı. 10 ildən çox, hətta 15 il vaxt lazım oldu ki, biz 1990-cı ilin səviyyəsinə gəlib çataq. İndi həmin səviyyəyə çatmışıq və bundan sonra bizim inkişafımız çox sürətlə gedəcəkdir. Bu inkişaf artıq özünü büruzə verir. Bu gün həyat göstərir ki, ölkənin inkişafında böyük uğurlar əldə edilir. Bunu həm rəsmi statistika məlumatları göstərir, həm də bizim gündəlik həyatımız. Qubada gedən quruculuq, abadlıq işlərinə baxın. Çox qısa müddət ərzində burada böyük işlər görülübdür. Mən Qubaya mütəmadi qaydada gəlirəm. 2003-cü ilin oktyabr ayında gəlmişdim. O vaxt biz Qubada böyük – demək olar ki, Azərbaycanda ən böyük Olimpiya İdman Kompleksinin açılışını qeyd etdik. İndi həmin kompleks çox səmərəli işləyir və bu gün Qubada beynəlxalq turnirin açılışı nəzərdə tutulubdur.

Qubada səkkiz ölkəni təmsil edən komandalar yarışacaqlar. Bu bizim xahişimiz idi. Biz Beynəlxalq Voleybol Federasiyasına müraciət etmişdik ki, istəyirik bu turnir Qubada keçirilsin. İstəyirik ki, Azərbaycanın regionlarında inkişaf olsun, beynəlxalq tədbirlər, yarışlar keçirilsin. 2003-cü ildə buraya gələrkən, vəziyyətlə tanış olarkən çoxlu iradlarım olmuşdu. İnsanlara diqqət lazımi səviyyədə deyildi. Ümumiyyətlə, abadlıq işləri, demək olar ki, aparılmırdı. Düz bir il bundan əvvəl, 2004-cü ildə gələndə artıq inkişafın ilkin əlamətlərini gördüm və insanlarla ünsiyyətdə hiss elədim ki, yeni rəhbərlik, təyin etdiyim icra hakimiyyəti başçısı işlərə yaxşı başladı. Bu gün isə – bir ildən sonra görürəm ki, burada inkişaf daha da sürətlə gedir. Bu gözəl parkın yaranması, yolların salınması, digər məsələlərin həlli, yeni iş yerlərinin açılması. Quba inkişaf edir və bu inkişaf, demək olar ki, ümumiyyətlə, Azərbaycanın bütün rayonlarında özünü göstərir. Bizim başladığımız regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Ötən il Qubada kredit yarmarkası keçirilmişdi. Məhz bizim tikdiyimiz olimpiya

kompleksində keçirilmiş yarmarkada müxtəlif kreditlər verilmişdi və indi bu kreditlərin hesabına yeni iş yerləri açılır. Qubada keçən il olarkən xalça sexinə baş çəkdim, vəziyyətlə tanış oldum. Müraciət olundu ki, kredit ayrılsın ki, istehsalat daha da böyüsün. Kredit ayrıldı və bu gün mənə dedilər ki, artıq yeni sex də istismara verilib, indi gedib tanış olacağam. Kredit yarmarkaları bundan sonra da mütəmadi qaydada keçiriləcəkdir. Ayrılan kreditlərin hesabına yeni müəssisələr, iş yerləri açılmalı, beləliklə, Azərbaycanın bütün bölgələri sürətlə inkişaf etməlidir.

Bilirsiniz ki, mənim fəaliyyətimdə regional proqramlar çox önəmli yer tutur. Bizim Bakımız çox gözəl şəhərdir, daha da gözəlləşir və əsas iqtisadi və sənaye potensialımız paytaxtdadır. Hesab edirəm ki, bu o qədər də təqdirəlayiq hal deyildir. Məhz buna görə regionların inkişafı, regional proqramlar bizim siyasətimizin əsas prioritet məsələləridir. Son ilyarım ərzində Azərbaycanda apardığımız siyasət nəticəsində 250 min yeni iş yeri açılıbdır. Onların təxminən 95 faizi bölgələrdədir. Bu il sahibkarlığın inkişafına 200 milyard manat vəsait ayrılması nəzərdə tutulubdur. Gələn il 400 milyard manat ayrılacaqdır. Yəni 400 milyard manat gələn il veriləcək ki, Azərbaycanın müxtəlif yerlərində yeni iş yerləri açılsın. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Biz bu günə qədər qarşımıza qoyduğumuz bütün məsələləri həll edirik. Prezident seçkiləri ərəfəsində verdiyim bütün vədlər həyatda öz əksini tapıbdır. Xatırlayıram ki, 2003-cü ildə prezident seçkiləri kampaniyasında mənim son səfərim məhz Qubaya olmuşdu və yeni tikdiyimiz stadionda böyük bir görüş keçirdik. Bütün verilmiş vədlər öz əksini tapır. Proqram üzrə, cədvəl üzrə biz öz siyasətimizi aparırıq. Gələn illərdə bu inkişaf daha da sürətlə gedəcəkdir. Çünki Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda uzun illər aparılan neft strategiyası bizə imkan verir ki, ölkəmizdə daha böyük inkişaf olsun, daha böyük imkanlar yaransın.

Bu ilin büdcəsi təxminən 2 milyard 200 milyon dollardır. Gələn ilin büdcəsi minimum 3 milyard dollar olmalıdır. Bu o deməkdir ki, təxminən 1 milyard dollar əlavə vəsait olacaq ki, biz bunu Azərbaycanın inkişafına sərf edəcəyik. İnvestisiya layihələrinə, yolların çəkilməsinə, elektrik stansiyalarının tikilməsinə, müəssisələrin yaranmasına, kreditlərin verilməsinə xərclənəcəkdir. Bu yaxınlarda Bakı–Quba–Rusiya sərhədi avtomobil yolunun layihəsinə birgə baxırdıq, Nəqliyyat Nazirliyinə bütün göstərişlər verilibdir. Artıq kreditlər alınıbdır və bu il yolun tikintisinə başlanacaqdır. Bakını Quba ilə birləşdirən yeni, müasir avtomobil yolu tikiləcək və insanlar rahat gedib-gələcəklər.

Kənd təsərrüfatında böyük potensial var. Bu istiqamət də diqqət mərkəzindədir. «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 250 kombayn, 200-dən çox traktor, digər texnika alınıbdır. Bütün bunlar kəndlilərə veriləcəkdir. Kəndlilər bundan istifadə edib məhsuldarlığı artıracaqdır. Yəni demək istəyirəm ki, Azərbaycanın iqtisadiyyatının hər bir sahəsi inkişafdadır və gələcəkdə daha da sürətlə inkişaf edəcək. Mənim də məqsədim odur ki, ölkəmiz hərtərəfli inkişaf etsin, bizim iqtisadiyyatımız təkcə neft amilinə bağlı olmasın. Qeyri-neft sektoru inkişaf etsin. İnsanlar öz həyat səviyyəsini yaxşılaşdırsınlar. Maaşlar qalxsın, təqaüdlər qalxsın. Bunu da edirik. Minimum əməkhaqqı son ilyarım ərzində təxminən 3 dəfə artıbdır. Sentyabr ayından tələbələrin təqaüdləri təxminən 3 dəfə qaldırılacaqdır. Pensiyalar da artır. Bəli, biz bütün bunları edirik və gələcəkdə də edəcəyik. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan daha da inkişaf edəcəkdir. Bizi ən çox narahat edən problem – yoxsulluq, onun səviyyəsi daha da aşağı düşəcək. İşsizlik tamamilə aradan qaldırılacaqdır. Mən buna inanıram. Çünki əgər il yarım ərzində 250 min iş yeri açılıbsa, deməli, gələcəkdə, iqtisadi imkanlarımız artdıqca, yeni iş yerlərinin açılması daha sürətlə gedəcəkdir. Əvvəllər və indi verilən kreditlər daha səmərə ilə işləyəcəkdir. Çünki kreditlər keçən il verilib, bir il ərzində, yaxud iki il ərzində bunlar gərək öz

bəhrəsini versin. Bütün bunlar olacaqdır. Ən əsası da odur ki, Azərbaycandakı bu gözəl əhval-ruhiyyə, əmin-amanlıq, sabitlik möhkəm qorunacaqdır. Ətraf ölkələrə baxın, görün nələr baş verir. Hər gün televiziya xəbərlərində biz dəhşətli hadisələri görürük, çox ağır hadisələri görürük. Azərbaycan sabitlik məkanıdır, əmin-amanlıq məkanıdır. Biz bunu qoruyuruq və qoruyacağıq. Azərbaycan Respublikasının Prezidenti kimi, mən Azərbaycanda sabitliyin təminatçısıyam və heç kimə imkan verməyəcəyəm ki, bu sabitliyi pozsun. Heç kim də buna nail ola bilməz. Çünki Azərbaycan xalqı Azərbaycanın iqtidarını dəstəkləyir, ona inanır. Bu inamı mən hiss edirəm və ona arxalanıram. Ona görə mən öz siyasətimi cəsarətlə aparıram.

Bu il Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Parlament seçkilərinə böyük maraq var. Bu da təbiidir, hər bir seçkilər böyük maraq doğurur. Bilirsiniz ki, namizədlər artıq öz namizədliklərini irəli sürürlər. Bu da normal prosesdir. Açıq, ədalətli mübarizədə Azərbaycan xalqı istədiyi namizədə səs verəcəkdir. Mən şübhə etmirəm ki, parlament seçkiləri tam şəffaf, ədalətli keçiriləcək və Azərbaycan xalqı 2003-cü ildə olduğu kimi, öz iradəsini ortaya qoyacaqdır.

Bir sözlə, əziz dostlar, mən ümid edirəm və sizi əmin edirəm ki, Azərbaycanı bundan da yaxşı gələcək gözləyir. Azərbaycanı firavan gələcək gözləyir. Mənim məqsədim budur ki, ölkədə kasıb, çətin şəraitdə yaşayan adam olmasın. İnsanları narahat edən problemlər aradan qaldırılsın. İlk növbədə elektrik enerjisi, qazla təminat daha da yaxşı olsun. Yerlərdə insanlara yerli icra orqanları tərəfindən diqqət yüksək səviyyədə olsun. Bizim cəmiyyətimizi sarsıdan rüşvətxorluğa, korrupsiyaya son qoyulsun. Azad cəmiyyət yaransın. Budur mənim məqsədim, budur mənim siyasətim. Bu siyasət xalq tərəfindən bəyənilib və bundan sonra da onu xalqın iradəsi ilə davam etdirəcəyik.

Əziz dostlar, bir daha sizi salamlayıram, bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Sizə cansağlığı və uğurlar arzulayıram.

## QIRMIZI QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*25 iyul 2005-ci il*

Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi öpürəm, bağrıma basıram.

Bir il bundan əvvəl sizinlə bu yerdə görüşmüşdük. Çox səmimi görüş olmuşdu, onu bu günə qədər xatırlayıram. Bu dəfə buraya gələndə dedim ki, mütləq yenə öz qardaşlarımın yanına gedəcək, dağ yahudiləri ilə görüşəcəyəm. Çünki sizi görmək mənim üçün həmişə çox xoşdur. Burada olan əhval-ruhiyyə, Azərbaycan dövlətinə bağlılıq, məhəbbət çox güclüdür. Bu bir daha onu göstərir ki, Azərbaycan bütün xalqların böyük, gözəl ailəsidir. Biz böyük ailə kimi yaşayırıq. Azərbaycanda heç vaxt dini, milli, etnik zəmində ayrı-seçkilik olmamışdır və olmayacaqdır. Bu, Azərbaycan dövlətinin siyasətidir. Bu siyasəti bizim millətimizin, xalqımızın ümummilli lideri Heydər Əliyev bizə miras qoyubdur. Həmin siyasət Azərbaycanda bu gün də davam etdirilir. Dini dözümlülük, milli dözümlülük, tolerantlıq bizim ən böyük sərvətlərimizdən biridir. Azərbaycan bu baxımdan dünyada çox böyük bir örnəkdir, nümunədir. Bütün xarici səfərlər zamanı görüşdüyüm insanlarla, siyasətçilərlə söhbətlərdə istər-istəməz bu məsələyə də toxunulur və mən çox şadam ki, bu məsələ artıq dünyada tanınır və bəyənilir. Amma bu bizim normal həyat tərzimizdir. Biz Azərbaycanı başqa cür təsəvvür edə bilmərik. Azərbaycanın hər bir vətəndaşı mənim üçün əzizdir, hər bir sakini mənim üçün doğmadır. Mən bu mehribanlığı, bu səmimiliyi, bu qardaşlığı görəndə daha da sevinirəm, daha da fərəhlənirəm. Məndə inam daha da artır

ki, Azərbaycanın qarşısında duran bütün vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

Qarşımızda isə çoxlu vəzifələr durur. Bir il bundan əvvəl buraya gələrkən, vəziyyətlə tanış olarkən, ümumiyyətlə, Qubada gedən abadlıq işləri ilə tanış olarkən görürdüm ki, artıq canlanma başlayıb, irəliləyiş var. İndi isə bu özünü daha da qabarıq şəkildə göstərir. Regionların inkişaf proqramı, onun icrası, yüz minlərlə yeni iş yerlərinin açılması, insanların həyat səviyyəsinin yaxşılaşması, minimum əməkhaqqının artırılması, sənaye obyektlərinin işə salınması, sürətli iqtisadi inkişaf – bütün bunlar Azərbaycanın reallıqlarıdır. Bütün istiqamətlərdə bizim siyasətimiz düşünülmüş şəkildə aparılır, proqram şəklində aparılır. Bu meyllər gələcəkdə daha da sürətlənəcəkdir. Çünki bizim iqtisadi potensialımız daha da artacaqdır.

Mən buraya bax, o binadan gəlirəm, Ərazi vergilər idarəsənin yeni tikilmiş binasından gəlirəm. Orada vəziyyətlə tanış oldum və bir daha Vergilər Nazirliyinin qarşısında vəzifə qoydum ki, Azərbaycanın gələn il büdcəsi 3 milyard dollar olsun. Bu nə deməkdir?! O deməkdir ki, təxminən 1 milyard dollar əlavə vəsaitimiz olacaq və biz gərək bundan səmərəli istifadə edək, insanlarımızın həyat səviyyəsinin yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına, iqtisadi potensialın güclənməsinə, ordumuzun güclənməsinə yönəldək və bunu edəcəyik. Çünki ölkəmizin ehtiyacları çoxdur, problemlər də çoxdur. Onların ən böyüyü bizi ən çox incidən, narahat edən yoxsulluq problemidir. Düzdür, il yarım ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 40 faizə düşübdür. Amma 40 faiz də çoxdur.

Bu bizə yaraşmır. Azərbaycanda yoxsulluq olmamalıdır və olmayacaqdır.

Yoxsulluğun da səbəbləri məlumdur. 1990-cı illərin əvvəllərində ölkəmizə vurulmuş ziyan Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətdən çox güclü, çox möhkəm sarsıtmışdı. Biz hələ indi özümüzə gəlirik. Belə olan halda ölkədə olan yoxsullar təbəqəsi, əlbəttə ki, bizi çox narahat edir. Mövcud

meyllər göstərir ki, yoxsulluq azalır, bu il 40 faizdirsə, gələn il daha aşağı səviyyədə olacaqdır. Çünki maaşlar artır, imkanlar yaranır, iş yerləri açılır, işsizlik aradan qaldırılacaqdır.

İki il bundan əvvəl oktyabr ayında, prezident seçkiləri ərəfəsində Qubada olarkən demişdim ki, prezident seçilərəmsə, Azərbaycanda 5 il ərzində 600 min yeni iş yeri yaradılacaqdır. Bizi istəməyən qüvvələr buna mənfi münasibət göstərdilər, dedilər ki, İlham Əliyev seçkiqabağı vədlər verir. Çünki onlar özləri boş vədlər verirlər. Amma bizim verdiyimiz vədlər həyatda öz əksini tapır. Əsas məsələ odur ki, sözlə əməl bir olsun. Baxın, il yarım keçib, Azərbaycanda 250 min iş yeri yaranıbdır. Bu proses daha da güclənəcək, sürətlə gedəcəkdir. Qarşımızda duran bütün məsələlər öz həllini tapmalıdır. Bütün sahələrdə irəliləyiş var, bizi narahat edən problemlər də yavaş-yavaş aradan qaldırılacaqdır. Bunu etmək üçün hər bir şərait var. Azərbaycan dövlətinin iradəsi var, düşünülmüş siyasəti, strategiyası var. Azərbaycan xalqının Azərbaycan rəhbərliyinə inamı var, dəstəyi var. Bu inam mənə imkan verir ki, islahatları daha da sürətlə aparım.

Azərbaycanın böyük təbii sərvətləri də var. Xalqımızın lideri Heydər Əliyevin təşəbbüsü ilə, uzaqgörənliyi ilə hazırlanmış neft strategiyamız bu gün Azərbaycana böyük uğurlar gətirir. Bakı–Tbilisi–Ceyhan neft kəməri reallıqdır. Qaz kəməri tikiləcək, ölkəmizə milyardlarla dollar pul gələcəkdir. Bu pul da şəffaf şəkildə Dövlət Neft Fondunda yığılır və yığılacaqdır. Hər bir vətəndaş bilir ki, dövlətdə nə qədər pul var. Bu da çox vacibdir ki, hamı bilməlidir, nəyimiz var və bunlar necə xərclənməlidir. Bir sözlə, gələcək illər Azərbaycanın inkişafına çox güclü təkan verəcəkdir. Gələcək illərdə həm imkanlarımız artacaq, həm də yeni iş yerləri açılacaq, iqtisadiyyatımız daha da inkişaf edəcəkdir.

Əlbəttə, bütün bunlara nail olmaq üçün sülh lazımdır, əmin-amanlıq lazımdır, sabitlik lazımdır. Sabitliyi pozmaq istəyən qüvvələr öz layiqli cavablarını aldılar, əgər bir də belə cəhdlər göstərilərsə, Azərbaycan xalqı onlara öz layiqli cavabını verəcəkdir.

Bizi ən çox narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Uzun illərdir ki, bu məsələ həll olunmamış qalır. Əfsuslar olsun ki, beynəlxalq təşkilatların vasitəçilik missiyası heç bir nəticəyə gətirib çıxarmadı. Son zamanlar o vasitəçilər daha da fəallaşıblar, müxtəlif ideyalar meydana çıxır və danışıqlar prosesində Azərbaycanı qane edən məqamlar çoxalmaqdadır. İlk növbədə, problemin mərhələləri həlli yolu ilə aradan qaldırılması artıq dünya birliyində qəbul edilən bir yanaşmadır. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanın suverenliyi bərpa olunsun. Bizim başqa dövlətin torpağında gözümüz yoxdur, amma öz torpağımızı da heç kimə verən deyilik. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycan torpağı olaraq qalacaqdır. Çünki əsrlər boyu Azərbaycanın torpağı olubdur. Bundan sonra da biz nail olmalıyıq və nail olacağıq ki, Dağlıq Qarabağın Azərbaycana qaytarılması mümkün olsun. Diplomatik, siyasi, iqtisadi səylər çox önəmlidir və biz bunu edirik.

Eyni zamanda, düşmən bilməlidir ki, bizim gücümüz var, güclü ordumuz var. Ona görə ordu quruculuğuna göstərilən diqqət məhz bu məqsədi daşıyır.

Bizim büdcəmiz bu il 2004-cü illə müqayisədə təxminən 40 faiz artıbdır. Hərbi xərclərimiz 76 faiz artıb və bundan sonra da artacaqdır. Biz qüdrətli ordu yaradacağıq və istənilən vaxtda, istənilən yolla öz doğma torpaqlarımızı azad edəcəyik.

Əziz bacılar və qardaşlar!

Mən bu gün çox xoşbəxtəm ki, yenidən sizinlə birlikdəyəm. Keçən dəfə burada olarkən mən sual verdim ki, probleminiz nədir, sizə necə kömək eləyim. Dedilər ki, Sizin sağlığınız, hər şey yaxşıdır, əgər problemlər varsa, rayon icra hakimiyyəti ilə birlikdə biz özümüz bunları həll edirik. Mən istəyirəm ki, problemlər, ümumiyyətlə, aradan qaldırılsın. Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün insanlar, bütün xalqlar daha da yaxşı həyata layiqdirlər. Biz bunu təmin edəcəyik. Biz Azərbaycanı qüdrətli ölkəyə çevirəcəyik

ki, hər bir vətəndaş azad yaşasın, rahat yaşasın, işlə təmin olunsun, yaxşı maaş alsın, övladları yaxşı oxusunlar, mehribançılıq olsun. Azərbaycanda biz bunu istəyirik. Bu meyllər var, amma istəyirəm ki, bu müsbət meyllər daha da geniş vüsət alsın.

Yəhudilər mənim qardaşlarımdır, mən bu duyğularla, bu hisslərlə yaşayıram. Siz qeyd elədiniz, mənim yadımdan çıxdı. Kolumbiya Universitetində mənə bu barədə sual verdilər. Mən ürəkdən gələn sözlərimi deyirəm. Orada da nə təbliğat naminə, yaxud da ki, hansısa bir siyasi xal qazanmaq üçün demədim. Çünki onu bir dəfə demək olar və ondan sonra unudula bilər. Bu bizim siyasətimizdir, bizim əməlimizdir, bizim işimizdir. Azərbaycanda bir neçə adam var, adını siyasətçi qoyub, amma nə ilə məşğul olur? Boşboğazlıqla, boş-boş şeylər danışır, adama yaraşmayan ifadələr səsləndirirlər. Amma bunların arxasında heç nə yoxdur. Nə iş var, nə əməl var, nə hansısa bir xəstəyə əl uzadıb, nə qaçqına kömək edib, nə daşı daş üstünə qoyub, nə cəmiyyət üçün hansısa bir faydalı iş görübdür. Yox, ancaq söz danışmaq, boş-boş vədlər vermək, həqiqətə uyğun olmayan sözlər danışmaq – budur onların işi. Bizim siyasətimiz bizim işimizdir. Bu iş bütün sahələrdə özünü göstərir: xarici siyasətdə real nəticə var, daxildə də var, iqtisadiyyatımız dünyada ən yüksək sürətlə artır. Bu, bizim sözümüz deyil, Beynəlxalq Valyuta Fondunun sözüdür. 2005-ci ildə Azərbaycan iqtisadiyyatı artım sürətinə görə dünyada lider ölkə olacaqdır. Azərbaycanda yaşayan bütün xalqlara diqqət, qayğı artıbdır. Mən bunun tərəfdarıyam, bu mənim siyasətimdir. Azərbaycanda heç vaxt ayrı-seçkilik olmamalıdır və heç vaxt da olmayacaqdır. 1990-cı ilin əvvəllərindəki yanlış, cinayətkar siyasətin nəticəsində Azərbaycanda milli zəmində problemlər əmələ gəlməyə başlamışdı. Amma Azərbaycan xalqı buna dözmədi. O iqtidar hakimiyyətdə cəmi bir il qaldı. Nəyə görə? Xalq dözmədi buna, imtina elədi onlardan, rədd elədi o siyasəti. Azərbaycanda heç vaxt ayrı-seçkiliyə yol verilməyəcəkdir. Heç vaxt dini, milli

zəmində fərq qoyulmayacaqdır. Bu bizim siyasətimizdir. Azərbaycan xalqının siyasətidir və biz birlikdə bunu davam etdirəcəyik.

Mən sizi ürəkdən salamlayıram, sizə ən xoş arzularımı, ən xoş duyğularımı çatdırıram. Həmişə belə xoş əhval-ruhiyyədə olasınız. Həmişə üzünüz gülsün, həmişə bir yerdə olaq, yığışaq, danışaq, söhbətləşək, ölkəmizin bütün problemlərini bir yerdə həll edək.

Sizə cansağlığı, yeni-yeni uğurlar arzulayıram!

Sağ olun!

* * *

*İyulun 25-də Azərbaycanın gözəl guşələrindən birində yerləşən Quba Olimpiya İdman Kompleksində 2006-cı ildə Beynəlxalq Voleybol Federasiyasının dünya «Qran-pri» turnirinin Avropa təsnifat mərhələsi yarışlarının təntənəli açılış mərasimi olmuşdur.*

*Yarışlarda Avropanın 8 ən güclü komandası – Azərbaycan, Rusiya, Türkiyə, Almaniya, Rumıniya, Bolqarıstan, Niderland və Polşanın qadın voleybolçuları öz güclərini sınayacaqlar. İyulun 31-nə qədər davam edəcək yarışda ilk üç yeri tutan komandalar finala vəsiqə qazanacaqdır.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmək üçün olimpiya kompleksinin stadionuna gəldi. Stadiona toplaşan çoxsaylı tamaşaçılar dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətli alqışlarla qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdən sonra Avropa Voleybol Konfederasiyasının vitse-prezidenti xanım Rita Oomsla səmimiyyətlə görüşdü.*

* * *

*İyulun 28-də qrup oyunları çərçivəsində Azərbaycan və Türkiyə yığma komandalarının görüşünü izləmək üçün Azərbaycan prezidenti İlham Əliyev olimpiya kompleksinə gəlmişdir. Salona toplaşan çoxsaylı tamaşaçılar dövlətimizin başçısını hərarətlə qarşılamışlar.*

*Prezident İlham Əliyev burada Avropa Voleybol Konfederasiyasının prezidenti Andre Meyer ilə səmimiyyətlə görüşüb, söhbət etmişdir.*

*Sonra dövlətimizin başçısı və Avropa Voleybol Konfederasiyasının rəhbəri, digər rəsmi şəxslər oyunun gedişini izləmişlər.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin Qubaya səfəri çərçivəsində prezidentin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva rayonun bir sıra məktəblərində olmuşdur.*

*O əvvəlcə Zərdabi qəsəbəsindəki Quba xüsusi ümumtəhsil internat məktəbinə gəldi. Mehriban xanım Əliyeva məktəbin problemləri ilə maraqlandı, buradakı şəraitlə yaxından tanış oldu, təmir-bərpa işləri ilə bağlı tövsiyələrini verdi.*

*Heydər Əliyev Fondunun prezidenti sonra İqriğ kəndində yeni məktəb binasının tikinti işləri ilə tanış olmaq üçün buraya gəldi. Kənd camaatı Mehriban xanımı böyük hörmət və ehtiramla qaşıladı. Fondun prezidentinə tikinti işlərinin gedişi barədə məlumat verildi.*

*Daha sonra Mehriban xanım rəhbərlik etdiyi Fondun «Yeniləşmiş Azərbaycana yeni məktəb» proqramı çərçivəsində rayonun Püstəqasım kəndində 210 yerlik məktəb binasının tikintisi ilə ətraflı tanış oldu, eyni zamanda, məktəblilərin dərs ləvazimatı ilə təminatının vəziyyəti ilə də maraqlandı.*

*Fondun prezidenti bu ildə yeni məktəbdə dərs keçəcək şagirdlərlə xatirə şəkli çəkdirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XAÇMAZA SƏFƏRİ

*26 iyul 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 26-da Xaçmaz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısının pişvazına minlərlə xacmazlı çıxmışdı. Onların əllərində Azərbaycanın dövlət bayraqları, ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, respublikamızın rəhbərini salamlayan şüarlar yazılmış transparantlar var idi.*

*Prezident İlham Əliyev əvvəlcə Xaçmaz Uşaq-gənclər idman məktəbinin yeni binasına gəldi. Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı burada gül-çiçəklə qarşıladılar. Azərbaycan prezidenti rəmzi açılışı bildirən lenti kəsdi, balaca idmançıların nümunəvi çıxışlarına baxdı, məktəblə tanış oldu.*

*Məktəbin direktoru Nəriman Babayev bildirdi ki, Xaçmaz rayonunda idman məktəbi 1960-cı ildə yaradılmışdır. İndi yaxşı şərait yaradılmış məktəbdə sərbəst güləş, cüdo, futbol və atletika üzrə 635 uşaq məşğul olacaq, 30 müəllim-məşqçi çalışacaqdır.*

*Sonra dövlətimizin başçısı məktəbin qarşısına toplaşan insanlarla səmimi görüşüb söhbət etdi, onların problemləri ilə maraqlandı.*

### Heydər Əliyev parki ilə tanişliq

*Azərbaycan prezidenti İlham Əliyev Uşaq-Gənclər idman məktəbi ilə tanışlıqdan sonra Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkına gəldi. Dövlətimizin başçısını və onun xanımını böyük hörmət və ehtiramla qarşılayan sakinlər*

*prezidentlə görüşüb səmimi söhbət etdilər. Prezident İlham Əliyev onların problemləri ilə maraqlandı, şikayətlərini dinlədi, ərizə və məktublarına baxılacağını bildirdi.*

*Sonra dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu, burada yaradılmış səliqə-sahmanı, görülmüş abadlıq və yaşıllaşdırma işlərini yüksək qiymətləndirdi. İnsanların asudə vaxtının səmərəli keçməsi üçün yaradılmış şəraitdən razı qaldığını vurğuladı.*

## Heydər Əliyev muzeyi ilə tanişliq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 26-da Xaçmazda ümummilli lider Heydər Əliyevin xatirəsinə yaradılmış muzeylə tanış olmuşdur.*

*Heydər Əliyev parkında müasir tələblərə uyğun yaradılmış və bu il mayın 10-da istifadəyə verilmiş muzey altı guşədən ibarətdir. Burada ulu öndərin ailəvi şəkilləri, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən respublikada kənd təsərrüfatının, sənayenin inkişafı üçün gördüyü işlərə dair fotoşəkillər, habelə Xaçmaz rayonuna səfərini, Xudat konserv zavodunun əməkçiləri ilə görüşünü, Nabran–Yalama zonasını ümumittifaq kurort zonasına çevirmək məqsədi ilə 1982-ci ildə rayona növbəti səfərini, müstəqil Azərbaycanın prezidenti kimi, 1998-ci ildə Xaçmazda olmasını, dünyanın aparıcı dövlətlərinin başçıları ilə görüşlərini əks etdirən fotoşəkillər nümayiş etdirilir. Ulu öndərimizin həyat və fəaliyyətinə həsr olunmuş kitablardan, dövlətimizin başçısı İlham Əliyevin 2003–2004-cü illərdə rayona səfərləri zamanı çəkilmiş fotoşəkillərdən ibarət guşələr də diqqəti cəlb edir.*

*Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə maraqla tanış oldu, xatirə kitabına öz ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyinin ekspozisiyası ilə tanış oldum. Muzeydə Heydər Əliyevin həyat və fəaliyyəti fotoşəkillərdə və başqa eksponatlarda əks olunur. Xalqımızın ümummilli

lideri Heydər Əliyevin tarixi irsinin öyrənilməsi və tədqiqi gələcək nəsillərin tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Xalqa sədaqətlə xidmət etmək, onun qayğıları ilə yaşamaq, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək Heydər Əliyevin fəaliyyətinin əsas prinsipləri idi. Bu gün bu siyasət Azərbaycanda davam etdirilir və bundan sonra da əbədi yaşayacaqdır.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 iyul 2005-ci il*».

*Muzeydən xatirə olaraq Heydər Əliyev Fonduna muzeyin maketi və rəsm əsəri təqdim edildi.*

*Sonra prezident İlham Əliyev muzeyin həyətində yerli rəssamların əsərlərindən ibarət sərgiyə baxdı. Beynəlxalq və respublika səviyyəli müsabiqələrdə mükafatlara layiq görülmüş müxtəlif janrlarda çəkilmiş bu əl işləri böyük maraq doğurdu.*

## XAÇMAZ ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*26 iyul 2005-ci il*

Əziz dostlar!

Əziz xaçmazlılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür. Bu gün Heydər Əliyevin abidəsinin önündə növbəti dəfə görüşürük və bu dəqiqələrdə mənə təqdim olunan Yeni Azərbaycan Partiyasının üzvü biletinin surəti də çox böyük məna daşıyır. 85 yaşlı bir insan Yeni Azərbaycan Partiyasına üzv olubdur. Bu, ən böyük göstəricidir. Bizim gördüyümüz işlərin ən gözəl nümunəsidir. Bu o deməkdir ki, Yeni Azərbaycan Partiyasının, onun qurucusu Heydər Əliyevin ideyaları yaşayır və əhalinin bütün təbəqələrinə xidmət edir, bu siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir və dəstəklənir.

Bir məsələyə də toxunmaq istərdim. Buraya gələrkən mənə məktublar, ərizələr verildi. Mən buraya gələnə qədər də bilirəm ki, ərizələr verilmişdi, mənim nümayəndələrim bunları yığmışdılar. Bir də demək istəyirəm ki, bütün ərizələrə baxılacaq və tədbirlər görüləcəkdir. Əgər kimsə bu ərizəni hələ verə bilməyibsə, mən buradan gedəndən sonra mənim nümayəndələrim burada qalacaq, o ərizə və şikayətləri qəbul edəcəklər. İnsanlarla təmasda olmaq, onların problemlərini dinləmək, həll etmək mənim fəaliyyətimdə çox önəmli yer tutur. Çünki istər ölkə prezidenti olsun, istər icra hakimiyyətinin başçısı olsun, hansısa başqa sahəyə rəhbərlik etsin, hər bir rəhbərin vəzifəsi ondan ibarətdir ki, mövcud olan problemləri aradan qaldırsın və insanları narahat edən

məsələləri həll etsin. Heç olmasa, çalışsın ki, buna kömək etsin. Əgər hərə öz yerimizdə bu prinsiplərlə yaşasaq, Azərbaycanda mövcud olan problemlər çox tezliklə aradan qaldırılar.

Mən bölgələrə tez-tez gedirəm, vəziyyətlə tanış oluram. Ölkənin nəbzini tuturam. Hiss edirəm ki, ölkəmiz inkişaf edir və bu, hər bir bölgədə özünü göstərir. O cümlədən Xaçmazda da. Mən Xaçmazda dəfələrlə olmuşam. Prezident seçkiləri ərəfəsində, bir il bundan əvvəl də olmuşam və bu gün də buradayam. Burada yeni yaranan obyektlərlə hələ tanış olacağam. Ancaq ilk təəssürat belədir ki, Xaçmaz çox dəyişilib, abadlaşıbdır. Küçələr salınıb, binalar bərpa olunub, abadlıq, inkişaf hiss olunur. Deməli, bunu etmək mümkündür. Sadəcə, istək olmalı, adamın ürəyi yanmalıdır və görülən işlər proqram üzrə getməlidir. Bu gün burada gördüyüm mənzərə məni çox sevindirir. Əlbəttə ki, problemlər çoxdur və biz bunları həll edəcəyik. Mən həmişə deyirəm, əgər insanları heç nə narahat etmirsə, qışda, soyuqda, yaxud da yayda, günün altında prezidenti gözləyib öz məktublarını verməzlər.

Yəqin ki, ölkəmizin müxtəlif yerlərindən mən olduğum yerə gələnlər var. Məktublarla saatlarla gözləyirlər. Deməli, o adamı nə isə narahat edir, onu nəsə incidir. Ya hansısa ədalətsizlik olub, yaxud hansısa şəxsi problemi var, xəstəsi var, çətin vəziyyətdə yaşayanı var. Biz gərək bunları həll edək. Bu bizim ölkəmizdir, bizim doğma Vətənimizdir və ölkənin hər bir vətəndaşı mənim üçün əzizdir və doğmadır. Bu mənim həyat prinsipimdir. Seçkilərdən əvvəl dediyim və artıq məşhur olan «mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam» kəlamı sadəcə şüar, yaxud da ki, təbliğat naminə deyilən söz deyildir. Bu mənim əqidəmdir, həyat prinsipimdir və mənim tabeliyimdə işləyənlərdən, yerlərdəki nümayəndələrimdən də tələbim budur: bu prinsiplərlə yaşamaq, insanların qayğıları ilə yaşamaq. Əgər bu ol-

masa, biz ölkəmizi istədiyimiz şəkildə inkişaf etdirə bilmərik. Bu var və olmalıdır.

Ölkəmiz çox sürətlə inkişaf edir. Mən sizi statistik rəqəmlərlə yormaq istəmirəm. Bunların hamısını biz bilirik. Amma əsas məsələ odur ki, insan öz gündəlik həyatında müsbət dəyişikliyi hiss etsin, onun maaşı artsın, yaşayış səviyyəsi yüksəlsin. Onu narahat edən problemlər aradan qaldırılsın. Bu istiqamətdə də işlər görülür. Amma bunu etmək üçün güclü iqtisadiyyat yaranmalıdır. Güclü iqtisadiyyat bizə imkan verəcək ki, mövcud problemlər aradan qaldırılsın.

Gələn il Xaçmazda elektrik stansiyalarının quraşdırılması nəzərdə tutulubdur. Kiçik həcmli stansiyalar Xaçmazın elektrik enerjisinə olan tələbatını tam ödəməlidir. Təxminən 90 meqavat gücündə olan o stansiyalar burada elektrik enerjisi qıtlığının aradan qaldırılmasında çox mühüm rol oynayacaqdır. Təkcə Xaçmazda deyil, Azərbaycanın müxtəlif yerlərində – Astarada, Şəkidə, Bakıda, Naxçıvanda belə stansiyalar quraşdırılacaqdır. Azərbaycanda elektrik enerjisi qıtlığı olmamalıdır. Biz bu istiqamətdə işlər görürük. Amma bunu etmək üçün gərək vəsait olsun. Pul olmalıdır ki, o stansiyaları alıb quraşdırasan. Ona görə sahibkarlığın inkişafı, büdcə intizamının gücləndirilməsi, özəl sektorun, dövlət layihələrinin həyata keçirilməsi iqtisadi potensialın gücləndirilməsinə yönəldilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında çox xidmətləri olubdur. 1970-ci illərdə Azərbaycanı çox inkişaf etdiribdir. Müstəqil Azərbaycanın prezidenti kimi, onun vaxtında xüsusi əhəmiyyətə malik olan məsələ Azərbaycanın neft strategiyasını həyata keçirmək idi. Bu strategiya 1994-cü ildən həyata keçirilməyə başlanmışdır. Əgər o zaman, çox ağır, çətin vəziyyətdə, xaricdən və daxildən olan bütün təzyiqlərə baxmayaraq, cəsarətli addım atılmasaydı, indi Azərbaycan belə sürətlə inkişaf edə bilməzdi.

Bəzilərinin gözünün götürmədiyi Bakı–Tbilisi–Ceyhan neft kəməri bu gün artıq reallıqdır, gerçəklikdir. Gələn ildən başlayaraq kəmərin istifadəsindən Azərbaycanın xəzinəsinə

milyardlarla dollar vəsait gələcəkdir. Bu nə deməkdir? O deməkdir ki, bizim problemlərimiz həll olunacaq, məktəblər, xəstəxanalar tikiləcək, yollar çəkiləcək, elektrik, qaz təchizatı yaxşılaşacaqdır. İnsanlar daha yaxşı əmək haqqı alacaqlar. Əməkhaqqının qaldırılması istiqamətində indi də işlər görürük. Son il yarım ərzində minimum əməkhaqqı, demək olar ki, üç dəfə qalxıbdır.

Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanların sayı çoxdur. Bizim əhalimizin, demək olar ki, yarısı kəndlərdə yaşayır. Onlara kömək etmək üçün addımlar atırıq. «Aqrolizinq» səhmdar cəmiyyətinin yaradılması da bu məqsədi daşıyır. Bu yaxınlarda xaricdən alınan traktorlar, kombaynlar, başqa texnika gətiriləcək, Azərbaycanın bütün bölgələrində kəndlilərə veriləcəkdir. Bu məqsədlər üçün ayrılan vəsait ildən-ilə artacaqdır.

Özəl sektorun inkişafı çox böyük əhəmiyyət kəsb edir. Bir il bundan əvvəl Quba şəhərində kredit yarmarkası keçirdik, mən də o yarmarkada iştirak etdim. Onda paylanan kreditlər artıq bu gün öz bəhrəsini verir. Bu dəfə qərar qəbul etdim ki, kredit yarmarkasını Xaçmazda keçirək. İndi bir azdan sonra oraya gedəcəyəm, yeni kreditlər veriləcəkdir. Əgər kredit verilməsə, texnika verilməsə kəndli necə işləsin? Gərək ona kömək edilsin. Kömək etmək üçün də gərək dövlətin, hökumətin imkanı olsun. Biz bu imkanı yaradırıq. Azərbaycanda bu gün yaşanan gözəl əhval-ruhiyyə, inkişaf meylləri, daxili sabitlik bizə imkan verir ki, islahatları daha inamla aparaq.

Parlament seçkiləri çox mühüm hadisədir və biz ona çox ciddi hazırlaşırıq. Elə etməliyik ki, hər bir yerdə Azərbaycan xalqı tam sərbəst şəkildə öz iradəsini ifadə etsin. Bütün namizədlərə eyni şərait yaradılmalıdır ki, hərə öz məramını, öz proqramını xalqa çatdıra bilsin.  Azərbaycan xalqı müdrik xalqdır, özü bilir kimi dəstəkləmək lazımdır, kimi yox.

Mən prezident seçkilərində bu dəstəyi hiss elədim və indi buna arxalanaraq fəaliyyət göstərirəm. Bu gün də bu dəstəyi

hiss edirəm. Şübhə etmirəm ki, biz hamımız birləşərək doğma ölkəmizi, Azərbaycanı hərtərəfli inkişaf etdirəcək, zəngin dövlətə çevirəcəyik. Bu işlərdə sizin hamınıza uğurlar arzulayıram.

Əziz xaçmazlılar, mən bir daha sizi ürəkdən salamlayıram. Sizə cansağlığı, uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

## XAÇMAZDA KEÇİRİLMİŞ BİZNES-FORUM VƏ KREDİT YARMARKASINDA NİTQ

*26 iyul 2005-ci il*

Əziz dostlar!

Biz növbəti dəfə görüşürük. Mən çox şadam ki, hər dəfə görüşəndə yeni müəssisələrin açılışı, yeni infrastrukturun yaranması haqqında məlumatlar səslənir. Bir il bundan əvvəl Quba şəhərində kredit yarmarkası keçirmişdik, bu dəfə isə qərara aldıq ki, bunu Xaçmazda edək. Dünən Qubada idim, bu gün buradayam, vəziyyətlə tanış oluram. Çox sevinirəm ki, bir il ərzində həm Qubada, həm də Xaçmazda çox böyük dəyişikliklər var. Abadlıq, quruculuq işləri gedir, yeni parklar salınır, binalar tikilir. İnkişaf göz qabağındadır.

Əlbəttə, sahibkarların bu inkişafda rolu ildən-ilə artır. Azərbaycan neçə illərdir ki, öz iqtisadi siyasətini azad iqtisadiyyat prinsipi üzərində qurubdur. Bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin çox cəsarətli siyasəti idi və təxminən 10 il bundan əvvəl aparılmağa başlanmışdı. O illərdə ümumiyyətlə sahibkarlıq haqqında, bazar iqtisadiyyatı haqqında Azərbaycanda o qədər də geniş məlumat yox idi və cəmiyyətdə özəl fəaliyyətlə məşğul olan insanlara münasibət bir az fərqli idi. Yəqin ki, o illərdə sahibkarlıqla məşğul olanlar bunu yaxşı bilirlər. Ardıcıl, məqsədyönlü siyasət, bazar iqtisadiyyatının təklif olunması, Azərbaycanın beynəlxalq aləmə, Avropa strukturlarına inteqrasiya prosesi indi ölkəmizdə güclü sahibkarlar sinfinin yaranmasına gətirib çıxarıbdır. Bu işdə həm hökumətin fəaliyyəti çox mühüm rol oynadı, həm də sahibkarların özlərinin fəaliyyəti çox böyükdür.

Son illər ərzində bu sahəyə daha da çox diqqət göstərilir. Biz inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik

ki, onlarda iqtisadiyyatın əsas hissəsini kiçik və orta sahibkarlar formalaşdırır. Azərbaycanda hələ belə deyildir. Bu da təbiidir. Çünki biz hələ ki, keçid dövrünü yaşayırıq. Sosialist sistemindən bazar iqtisadiyyatı sisteminə keçid dövrünü yaşayırıq. Ona görə sosialist sisteminin əlamətləri, iri müəssisələrin mövcudluğu var. Buna da mənfi yanaşmaq lazım deyildir. Bu gün Azərbaycanın iqtisadiyyatını xeyli dərəcədə müəyyən edən neft sektoru dövlət inhisarındadır. Bizə qonşu olan ölkələrdə bu, özəl sektordadır. Orada vəziyyət bir az başqadır, Azərbaycanda başqadır. Ancaq özəl sektorun, kiçik, orta sahibkarlığın inkişafı hər bir ölkənin gələcək inkişafına çox mühüm töhfə verir və verəcəkdir.

Azərbaycanda son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilir. Təkcə sözdə deyil, həm də əməli işdə. Bu da ondan ibarətdir ki, kreditlərin həcmi ildən-ilə artırılır. Bu il 200 milyard manat kredit veriləcək, keçən il daha az idi. Gələn il isə özəl sektora 400 milyard manat kredit vermək nəzərdə tutulubdur. Ölkəmiz inkişaf etdikcə, iqtisadi potensialımız möhkəmləndikcə bu məbləğ artacaqdır. Gələn il Azərbaycanın büdcəsi 3 milyard dollar olacaqdır. Ondan sonrakı illərdə bu daha da artacaqdır. Bizim iqtisadi potensialımız, gücümüz artır, Azərbaycanda iqtisadi inkişaf çox yüksək sürətlə gedir. Təxminən 16–18 faiz səviyyəsindədir ki, bu da dünyada ən yüksək göstəricidir. Mən ümid edirəm ki, sahibkarlar bundan sonra da onlara ayrılan kreditlərdən çox səmərəli istifadə edəcəklər. Eyni zamanda, özləri də şəxsi vəsaitləri hesabına, artıq fəaliyyətdə olan müəssisələrin gəliri hesabına istehsal sahələrini genişləndirəcəklər. Beləliklə, Azərbaycanın büdcəsinə əlavə vəsait daxil olacaq, yeni iş yerləri açılacaq və sahibkarlar daha da zəngin olacaqlar.

Azərbaycanın inkişafının ilk illərində biz əsas diqqəti xarici sərmayələrə yönəltmişdik. Bu da təbii idi. Çünki ölkədə iqtisadi durum çox acınacaqlı idi, demək olar ki, müəssisələrin böyük əksəriyyəti fəaliyyət göstərmirdi, sahibkarlıq sıfır səviyyəsində idi. Olan sahibkarlığa da sahibkarlıq deyə

bilməzdik. Çünki o daha çox iqtisadiyyatının təzahürü idi. Ona görə 1994–1997-ci illərdə biz daha çox xarici sərmayəyə ümid edirdik. Bu, təbii proses idi.

Xarici sərmayə Azərbaycana imkan verdi ki, neft sektoru inkişaf etsin. Çünki xarici sərmayənin əsas ünvanı neft sektoru idi. Ancaq neft sektoruna qoyulan hər bir dollar qeyri-neft sektoruna da minimum bir dollar gətirir. İndi isə Azərbaycanda formalaşan sahibkarlıq sinfi özü sərmayə qoyur və bu məni çox sevindirir. Çünki xarici investisiyalar hər bir ölkə üçün çox önəmlidir. Amma bizim daxildə də imkanlarımız var. Ona görə gərək sahibkarlar bu gözəl işgüzar mühitdən səmərəli istifadə etsinlər. İndi Azərbaycanda sahibkarların fəaliyyətinə heç kim müdaxilə etmir. Mən bütün aidiyyəti orqanlara ciddi göstəriş vermişəm ki, sahibkarlara maksimum dərəcədə şərait yaradılsın, heç kim onlara maneçilik törətməsin. Əksinə, vəzifəli şəxslər, dövlət məmurları sahibkarlığın inkişafına kömək göstərməlidirlər. Bu mənim prinsipial mövqeyimdir və ümid edirəm ki, gələn illərdə sahibkarlıq daha da sürətlə inkişaf edəcəkdir.

Bir il bundan əvvəl ayrılmış kreditlər artıq bu gün öz bəhrəsini verir. Onların hesabına təzə müəssisələr yaranır, yeni iş yerləri açılır və beləliklə, ölkə inkişaf edir. Mən əminəm ki, bu gün bu binada alınan kreditlər də bir ildən sonra öz bəhrəsini verəcəkdir. Sahibkarlığın inkişafı, özəl sektorun güclənməsi, qeyri-neft sektorunun güclənməsi bizim fəaliyyətimizin əsas istiqamətləridir.

Azərbaycanın iqtisadiyyatı inkişaf edir, neft strategiyası uğurla həyata keçirilir. Artıq Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilir. Digər nəhəng, dünya miqyaslı layihələr gerçəkləşir.

Azərbaycanda çox gözəl ictimai-siyasi durum mövcuddur. Sabitlik hər bir sahibkar üçün, özəl sektorda fəaliyyət göstərən iş adamı üçün ən önəmli məsələdir. Sabitlik olmayan ölkələrdə, adətən, heç kim vəsait, sərmayə qoymur və

nəticədə inkişaf çox ləng gedir. Sabitlik olan yerlərdə isə inkişaf özünü çox qabarıq şəkildə göstərir.

Bu ilin ilk altı ayında Azərbaycanda ümumi daxili məhsulun həcmi 16,5 faiz, sənaye istehsalı 20 faiz artıbdır. Son il yarım ərzində minimum əməkhaqqı 3 dəfə artıbdır, digər məsələlər öz həllini tapıbdır. Əlbəttə, problem də çoxdur. Onu heç kim inkar etmir. İşsizlik, yoxsulluq – bunlara qarşı necə mübarizə etməliyik? İşsizliyi aradan qaldırmaq üçün yeni iş yerləri açılmalıdır. Biz bunu sahibkarlara kreditlər verilməsi vasitəsilə həll edirik. Yoxsulluğun aradan qaldırılması üçün minimum əməkhaqqının qaldırılması, digər sosial ödənişlərin, təqaüdlərin qaldırılması və infrastruktur layihələrinin həyata keçirilməsi lazımdır.

Gələn il Xaçmazda yeni elektrik stansiyaları qurulacaqdır. Ümid edirəm ki, elektrik enerjisi qıtlığı aradan qaldırılacaqdır. Elektrik enerjisi istehsal deməkdir, müəssisənin fəaliyyəti, iş yerinin yaranması deməkdir. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Əlbəttə, bütün məsələlərə vahid kontektsdə baxılır. Çünki təkcə sahibkarlıq sektorunu ayırıb ona fərdi yanaşmanı tətbiq etmək olmaz. Bu məsələlərə ölkənin ümumi inkişafı çərçivəsində baxılır. İnfrastruktur yaranmalıdır, yollar salınmalıdır.

Bizim 10–15 dəqiqə bundan əvvəl tanış olduğumuz sərgidə nümayiş etdirilən yeni istirahət zonasının şəkilləri mənə təqdim olundu. Deyirlər ki, istəyirik bunu yeni salınmış yolun kənarında tikək. Təzə salınan o yol olmasaydı, heç kim orada heç nə tikməzdi. Lap orada imarət tik, yaxud beşulduzlu hotel tik, əgər yol yoxdursa, heç kim oraya getməyəcəkdir. Ona görə sahibkarlıq ümumi kontekst çərçivəsində inkişaf etməlidir. Dövlət öz tərəfindən üzərinə düşən vəzifələri yerinə yetirməlidir: infrastrukturun yaranması, yolların salınması, elektrik stansiyasının tikintisi, qaz xətlərinin çəkilməsi, su, istilik təchizatı. Ondan əlavə, sahibkarlara nağd şəkildə uzunmüddətli kreditlərin verilməsi, özü də bu, az miqdarda deyildir, gələn il 400 milyard manat olacaqdır.

Sahibkarın da üzərinə vəzifələr düşür. Bunlar yeni iş yerlərinin açılması, vergilərin vaxtlı-vaxtında ödənilməsi, alınan kreditin vaxtında qaytarılması və bu gözəl mühitdən istifadə edərək yaşadığı rayonu, bölgəni, kəndi, qəsəbəni abadlaşdırmaqdır. Qarşılıqlı əlaqələr bax, budur. Mən əminəm ki, əgər iqtisadiyyatımızın bütün seqmentləri çox əlaqəli şəkildə inkişaf edərsə, biz qısa müddət ərzində istədiyimizə nail olacağıq.

Mən sizin vaxtınızı çox almaq istəmirəm. Bu gün hava da çox isti keçir. Salonda da hava bir az çatmır. Amma buna baxmayaraq, mən demək istəyirəm ki, sizi görməyimə çox şadam. Çox şadam ki, Azərbaycanda gözəl sahibkarlar sinfi yaranıbdır. Artıq bu reallıqdır və daha da inkişaf etməlidir. İndi iqtisadiyyatımızın təxminən 75 faizi özəl sektor hesabına formalaşır və bu, gələcəkdə daha da artacaqdır.

Nəhayət, bir daha demək istəyirəm ki, mən sahibkarlara həmişə kömək göstərəcək, onları dəstəkləyəcəyəm. Bu, bir tərəfdən, dövlət siyasətidir, digər tərəfdən də, mənim şəxsi təcrübəmdən gəlir. Mən bilirəm ki, sahibkarlıq inkişaf etmədən sənin nə qədər istəsən neftin, qazın, kəmərin olsun – faydası olmayacaqdır. Çünki sahibkarlıq, bir tərəfdən, inkişaf deməkdir, digər tərəfdən, insanların azadlığı deməkdir. İnsanlar azad olmalıdır, heç kimdən, o cümlədən dövlət məmurlarından asılı olmamalıdırlar. Özəlləşdirmənin, sahibkarlığın iqtisadiyyatımıza təsiri böyükdür desək, səhv etmərik. Amma təkcə ondan ibarət deyildir. Bunun cəmiyyətimizin inkişafına, Azərbaycanda demokratiyanın bərqərar olunmasına çox böyük töhfəsi olacaqdır.

Sizi çox yormaq istəmirəm, işləriniz çoxdur. Gedin, işlərinizlə məşğul olun, möhkəm iqtisadiyyatı qurun, yeni müəssisələri yaradın, iş yerləri açın, insanlara yaxşı iş şəraiti yaradın, yaxşı maaşlar verin ki, biz ölkəmizi daha da inkişaf etdirək, gücləndirək. Bu işdə sizin hamınıza uğurlar arzulayıram. Sağ olun.

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə kredit müqavilələrinin imzalanması mərasimi oldu.*

* * *

*İyulun 26-da Xaçmazda istifadəyə verilmiş «N-Kay M Klinik» özəl klinikada keçirilən tədbirdə Azərbaycan prezidenti İlham Əliyev iştirak etmişdir. Dövlətimizin başçısı bu özəl tibb müəssisəsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Klinikanın direktoru Natiq Mütəllimov məlumat verdi ki, tikintisinə 7 il əvvəl başlanmış ikimərtəbəli bina ən müasir tələblərə cavab verən səviyyədə inşa olunmuş, Avropa ölkələrindən gətirilmiş avadanlıq və ləvazimatla təchiz edilmişdir. Burada quraşdırılmış aparatlar vasitəsilə bir çox xəstəlikləri müalicə və müayinə etmək mümkündür. Klinikada onlarca yeni iş yeri yaradılmışdır.*

*Prezident İlham Əliyev klinikanın rentgen, stomotoloji, kardioloji, cərrahiyyə, ginekologiya, sarğı, intensiv terapiya otaqları, qan laboratoriyası, palataları və apteki ilə yaxından tanış oldu. Dövlətimizin başçısı bu cür özəl səhiyyə müəssisələrinin yaradılmasının əhalinin sağlamlığının qorunması və yüksək tibbi xidmət göstərilməsi baxımından əhəmiyyətini vurğuladı, yaradılmış şəraiti yüksək qiymətləndirdi və kollektivə uğurlar arzuladı.*

*Prezident İlham Əliyev klinika ilə tanışlıqdan sonra binanın qarşısına toplaşan sakinlərlə səmimi söhbət etdi, onların problemləri ilə maraqlandı, şikayətlərini dinlədi.*

*Xaçmazlılar respublikamızın rəhbərinin fəaliyyətini yüksək dəyərləndirərək, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirdiyinə və regionların sosial-iqtisadi inkişafına, əhalinin güzəranının yaxşılaşmasına diqqət yetirdiyi üçün minnətdarlıqlarını bildirdilər.*

* * *

*İyulun 26-da Azərbaycan prezidenti İlham Əliyev Xaçmaz Regional Turizm Informasiya Mərkəzinin açılışında iştirak etdi.*

*Gənclər, Idman və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, mərkəzin əsas məqsədi regionda daxili turizmin inkişaf etdirilməsi, yerli və xarici turistlərin bölgəyə cəlb olunmasıdır. Onun fəaliyyəti nəticəsində ölkəmizin bu regionunun turizm potensialı haqqında bütün məlumatları dünyanın hər bir nöqtəsinə çatdırmaq mümkün olacaqdır. Son dörd ildə 30-a qədər belə mərkəz yaradılmışdır. İndi Xaçmaz rayonunda yataq yerləri ilə təmin olunmaqla eyni vaxtda 5 mindən artıq turisti qəbul etmək imkanı vardır.*

*Bildirildi ki, burada treninq kurslar, seminarlar keçirilməsi nəzərdə tutulur. Xüsusi sayt vasitəsilə dünyanın hər bir yerindən insanlar Xaçmazın istənilən yerində özlərinə əvvəlcədən yer sifariş verə və kirayə edə bilərlər.*

*Prezident İlham Əliyev ölkəmizdə turizmin inkişafı üçün mühüm layihələrin həyata keçirilməsinin, infrastruktur yaradılmasının vacibliyini diqqətə çatdırdı və dedi ki, bizim gözəl təbiətimiz, səfalı yerlərimiz var və bundan səmərəli istifadə olunmalıdır.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, məlumat, təlim, kompüter otaqlarına, konfrans salonuna baxdı, yaradılmış iş şəraiti, habelə ölkəmizdə turizmə dair çap olunmuş broşürlərlə tanış oldu.*

*Prezident İlham Əliyev mərasimdə iştirak edən BMT-nin rezident-əlaqələndiricisi Marko Borsotti ilə görüşdü, Azərbaycanda yoxsulluğun azaldılması istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər barədə söhbət etdi.*

## «Qafqaz» konserv zavodu ilə tanışlıq

*Prezident İlham Əliyev Xaçmaza səfərinin sonunda Azərsun Holdinq şirkətinin «Qafqaz» konserv zavoduna gəlmişdir.*

*Prezident İlham Əliyev konserv zavodunun sexlərini gəzdi. Burada quraşdırılmış müasir avadanlıqla tanış olan dövlətimizin başçısına məlumat verildi ki, zavodda istehsal sahələri genişləndirilmiş, məhsulların çeşidi və işçilərin sayı xeyli artmışdır. Emal olunan şirələr, ət konservləri, müxtəlif tərəvəz və meyvələrdən hazırlanmış yüksək keyfiyyətli konserv məhsulları ölkəmizdən kənarda da yüksək qiymətləndirilir. Rəqabətə davamlı bu məhsullara böyük tələbat vardır.*

*Azərbaycan prezidenti müəssisədə çalışan işçilərlə görüşüb səmimi söhbət etdi. Dövlətimizin başçısı ilə görüşdən məmnun olduqlarını bildirən işçilər dedilər ki, mərhum ümummilli liderimizin və Sizin qayğınız sayəsində fəaliyyət göstərən bu zavod işini daha da genişləndirəcək, iş yerlərinin sayı artacaqdır. Ailənizə və Sizə cansağlığı, uzun ömür arzulayırıq, Sizin uğurlu daxili və xarici siyasətinizi dəstəkləyirik.*

*Prezident İlham Əliyev dedi ki, bu zavoda artıq üçüncü dəfədir ki, gəlirəm. İlk dəfə 2003-cü ilin sentyabrında açılışda iştirak etdim. Keçən il də gəlmişdim. Hər dəfə gələndə görürəm ki, yeni avadanlıq quraşdırılır, yeni sahələr açılır, istehsal olunan malların keyfiyyəti artır, çeşidləri çoxalır. Məhsul həm ölkə daxilində, həm də xarici bazarda satılır. Burada iş şəraiti yaxşıdır, mənə deyirlər ki, əməkhaqqı yüksəkdir. Bu məni çox sevindirir. Yeni iş yerinin, istehsalın yaranması büdcəyə ödənilən vergi deməkdir. Yəni nəticə etibarilə ölkəmiz daha da inkişaf edir, insanlar daha da yaxşı yaşayırlar. Hələlik bizdə işsizlik çoxdur, amma onun səviyyəsi ildən-ilə aşağı salınır. Əgər belə zavodların sayı çox olsa, onda Azərbaycanda işsizlik olmayacaqdır.*

*Siz də yaxşı işlə təmin olunmusunuz, maaş alırsınız. Bunlar müsbət haldır və Azərbaycanda gedən ümumi inkişafın*

*dinamikasını əks etdirir. Azərbaycanın müxtəlif yerlərində müasir müəssisələr inşa edilir. İndi mənə dedilər ki, böyük şəkər zavodu tikilir. Bəlkə də orada minlərlə insan işlə təmin olunacaqdır. Ona görə mən hər dəfə belə gözəl müəssisələri, yüksək texnologiyaları görəndə çox sevinirəm. Sizə də arzu edirəm ki, yaxşı işləyəsiniz, uğurlar diləyirəm.*

*Dövlətimizin başçısı zavodun rəhbərlərinə də bəzi tövsiyələrini verərək dedi ki, fəaliyyəti genişləndirin. Azərbaycanın iqtisadiyyatını gücləndirmək lazımdır. Bunu hamı – dövlət, hökumət və özəl sektor etməlidir. Mən bu gün özəl sektorun nümayəndələri ilə görüşdüm. Çox sevinirəm ki, yeni müəssisələr, fabriklər, zavodlar sürətlə inkişaf edir, iş yerləri açılır, insanlar yüksək maaş alırlar. Azərbaycanda belə müəssisələrin sayı gərək çox olsun. Ona görə siz bundan sonra da fəal işləyin. Bu ilin 6 ayında iqtisadiyyatımızda artım 16,5 faiz olmuşdur. Bəlkə də adi vətəndaş başa düşmür ki, bu nə deməkdir. Amma reallıq odur ki, 16,5 faiz artım, sənaye istehsalının, əməkhaqqının artımı – bunlar hamısı zəncirvari şəkildə inkişafı təmin edir. Ona görə siz bunu genişləndirin, tələbat daha da çox olacaqdır.*

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Xaçmaz rayonunun Sayad və Müşkür kənd məktəblərinin tikintisində

*Azərbaycan prezidenti İlham Əliyevin Xaçmaza səfəri çərçivəsində prezidentin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva rayonun Sayad və Müşkür kəndlərində məktəblərin tikintisi ilə tanış olmuşdur.*

*Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi üzrə rayonda 3 təhsil ocağı tikilir.*

*Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, bu layihə dövlət tərəfindən də dəstəklənir və sentyabrın 15-dək respublikada 132 məktəbin hamısı istifadəyə hazır olacaqdır.*

*Xaçmazda məktəb tikintisini həyata keçirən «Azərkənd-tikinti» Səhmdar Cəmiyyətinin nümayəndələri işlərin gedişi barədə məlumat verdilər. Sakinlər və müəllimlər Sayad məktəbində nəzərdə tutulan 100 nəfərlik 4 sinifin azlıq edəcəyini diqqətə çatdırdılar.*

*Mehriban xanım söz verdi ki, əlavə olaraq daha 5 sinif otağı tikiləcək və 200-dən çox şagirdin təzə məktəbdə təhsil alması üçün şərait yaradılacaqdır.*

*Müşkür kəndində 11 nömrəli «Kəndtikinti» trestinin inşa etdiyi məktəb də 200 yerlikdir. Tikinti işləri sürətlə gedir. Kənd sakinləri humanist fəaliyyətinə, böyüyən nəslə göstərdiyi qayğıya, təhsilin maddi-texniki bazasının genişləndirilməsi üçün gördüyü işlərə görə Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdilər.*

*YUNESKO-nun Xoşməramlı səfiri belə layihələrin bundan sonra da əhatəli şəkildə həyata keçiriləcəyini söylədi.*

*Mehriban Əliyeva və qızı Leyla kənd sakinləri ilə xatirə şəkilləri çəkdirdilər.*

## ABŞ DÖVLƏT KATİBİNİN QLOBAL MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ XANIM POLA DOBRYANSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyul 2005-ci il*

*Görüş zamanı Azərbaycan prezidenti İlham Əliyev bildirdi ki, xanım Pola Dobryanskinin ölkəmizə səfəri ikitərəfli, regional əməkdaşlığın müxtəlif sahələrinə dair məsələləri müzakirə etmək üçün yaxşı imkan yaradır. Əməkdaşlığımız müxtəlif sahələri əhatə edir və uzun müddətdir uğurla inkişaf edir. Biz bu inkişafdan çox məmnunuq. ABŞ hökumətinin ölkəmizin iqtisadi inkişafında, o cümlədən enerji sektorunun inkişafında Azərbaycana verdiyi dəstək çox mühümdür.*

*Prezident İlham Əliyev dedi ki, təhlükəsizlik, sülhməramlı əməliyyatlar, demokratik inkişaf sahələrində ABŞ hökuməti Azərbaycana böyük kömək göstərir. Bu illərdə Azərbaycan özünü ciddi tərəfdaş kimi göstərmişdir. Biz ikitərəfli əməkdaşlığımızın inkişafı siyasətinə sadiqik.*

*Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz arasında əməkdaşlıq regional baxımından da çox əhəmiyyətlidir. Nəzərə alsaq ki, regionda vəziyyət çox da sabit və təhlükəsiz deyildir. Azərbaycanın regional məsələlərdə rolu artmaqdadır, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Ölkəmiz mühüm nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşir. Azərbaycanda böyük layihələr həyata keçirilir. Bu kontekstdə ABŞ-ın Azərbaycanla əməkdaşlığı region üçün böyük əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev bildirdi ki, biz hazırda ikitərəfli əməkdaşlığımızın mühüm mərhələsini yaşayırıq. Ümidvaram*

*ki, ölkələrimiz arasında əlaqələr bundan sonra da inkişaf edəcək və sizin səfəriniz Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlığın inkişafına öz töhfəsini verəcəkdir.*

*Xanım Pola Dobryanski dedi ki, gözəl ölkənizdə olmağımdan məmnunam. Azərbaycan ilə ABŞ arasında möhkəm tərəfdaşlıq vardır. Biz Azərbaycan ilə əməkdaşlığımızı yüksək qiymətləndiririk və bu çərçivədə hər iki ölkəyə aid olan bir sıra məsələləri həll etməyə nail olmuşuq. Bir sıra sülhməramlı əməliyyatlarda iştirakına və bu sahədə göstərdiyi köməyə görə Azərbaycana təşəkkürümüzü bildirmişik. Ölkələrimiz arasında enerji sektorunda əməkdaşlıq uğurla davam edir.*

*ABŞ Dövlət katibinin müavini bildirdi ki, qarşıdan gələn parlament seçkiləri Azərbaycanın demokratik inkişafında mühüm rol oynayacaqdır. Birləşmiş Ştatlar bu prosesdə Azərbaycana kömək göstərməyə hazırdır. İnsanlar qarşıdan gələn parlament seçkilərinə böyük maraq göstərirlər. Azərbaycanda demokratik, şəffaf seçkilərin keçirilməsi üçün Sizin seçki praktikasının təkmilləşdirilməsinə dair imzaladığınız sərəncamda təsbit olunmuş məqsədlərin gerçəkləşməsi, həyata keçirilməsi çox vacibdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUSARA SƏFƏRİ

*28 iyul 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 28-də Qusara gəlmişdir.*

*Dövlətimizin başçısını şəhərin girəcəyində minlərlə insan səmimiyyətlə, böyük hörmət və ehtiramla qarşıladı. Onların əllərində Azərbaycanın dövlət bayraqları, ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, respublikamızın rəhbərini salamlayan şüarlar yazılmış transparantlar var idi.*

*Dövlətimizin başçısı İlham Əliyevə, xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.*

*Sonra prezident İlham Əliyev Qusar Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində iştirak etmək üçün tikinti yerinə gəldi. Burada da dövlətimizin başçısını böyük hörmətlə qarşıladılar. Gənc idmançılar və uşaqlar prezidenti hərarətli alqışlarla salamladılar.*

*Dövlətimizin başçısı əvvəlcə layihələrlə tanış oldu. Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev məlumat verərək dedi ki, cənab Prezident, Siz keçən il iyulun 21-də Qusarda olarkən burada Olimpiya İdman Kompleksinin tikilməsi barədə də tapşırıq vermişdiniz. Bu tapşırığa əsasən, Xəzər Gəncləri Elmi-Texniki Yaradıcılıq Mərkəzinin memarı Vüqar Həsənov tərəfindən layihə hazırlanmışdır. Həmin dövrdən keçən bir il ərzində tikinti işlərini aparacaq təşkilat və maliyyə mənbəyi müəyyənləşdirilmiş, torpaq sahəsi ayrılmış və smeta sənədləri hazırlanmışdır. Bir ilə başa çatdırılacaq bu kompleksin tikintisinə 3–4 milyon dollar vəsait xərclənəcəkdir. 14 hektar sahəni əhatə edəcək olimpiya kompleksi açıq və qapalı idman qurğularından, 750 və 250 tamaşaçı tutan iki salondan, hovuzdan ibarət olacaqdır.*

*Azərbaycan prezidenti kompleksə daxil olan idman salonlarının, əsas inzibati binanın, yardımçı otaqların, minifutbol, basketbol, voleybol meydançalarının, açıq və qapalı tennis kortlarının və digər qurğuların layihələri ilə tanış oldu. Prezident İlham Əliyevə məlumat verildi ki, burada turizm və istirahət kompleksi də yaradılacaq, 20 kottec, mehmanxana tikiləcəkdir. Qusar Olimpiya İdman Kompleksi Azərbaycanda sayca 12-ci olacaq və ilin sonunadək daha 3 kompleksin təməli qoyulacaqdır.*

*Azərbaycan prezidenti və Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevin ölkədə qış idman növlərinin inkişafı ilə bağlı müvafiq nazirliklərə və qurumlara verdiyi tapşırıqlara əsasən, Qusarda dağ xizəkçiliyi və istirahət kompleksinin yaradılması üzərində də iş gedir.*

*Dövlətimizin başçısı bu kompleksin layihəsi ilə də maraqlandı. Məlumat verildi ki, bu məqsədlə İsveçrədən, Avstriyadan, Rusiyadan, Türkiyədən və Fransadan dəvət olunmuş mütəxəssislər respublikamızın müxtəlif yerlərində – Şamaxı, Şəki, Quba, Qusar rayonlarında tədqiqat işləri aparmışlar. Ən münasib yer kimi, Qusar şəhərindən 38 kilometr aralıda, Ləzə kəndi ətrafındakı ərazi – Şahdağın ətəyi seçilmiş və kompleksin burada yaradılması qərara alınmışdır.*

*Bildirildi ki, 10 kvadratkilometrdən çox ərazidə mehmanxana kompleksi tikiləcək, 9 min metr uzunluğunda kanat yollar çəkiləcək, qış idman növləri ilə məşğul olmaq və turizmin inkişafı üçün əlverişli şərait yaradılacaqdır. Regional və beynəlxalq miqyaslı yarışların keçirilməsi üçün hər cür imkana malik bu kompleksin Qafqazda analoqu olmayacaqdır. Kompleksin yerinin seçilməsi və onun smeta sənədlərinin hazırlanması Fransanın tanınmış mütəxəssislərinə həvalə olunub və indi onların təklifləri müzakirə edilir. İnşaat işlərini həyata keçirəcək Fransanın «CHAMBRE VİBERT» şirkəti indiyədək dünyanın bir çox ölkələrində ən müasir qış idman kompleksləri tikmişdir.*

*Xizək yollarının uzunluğu 30 kilometr olacaq və bu layihəyə 50 milyon avro sərmayə qoyulacaqdır. Bu ildən Şamaxıda da dağ xizəkçiliyi inkişaf etdirilir və bunun üçün 100 ədəd idman geyimi alınacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev idman-istirahət komplekslərinin bir il müddətində və dünya standartlarına uyğun tikilib başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi, beynəlxalq yarışların da keçirilməsinin mümkünlüyünü nəzərə alaraq, tamaşaçı yerlərinin sayını 3 minə çatdırmağın vacibliyini vurğuladı. Eyni zamanda, dedi ki, gözəl iqlimə malik bölgələrdə idman komplekslərinin yaradılması ölkəmizdə turizmin inkişafına da müsbət təsir göstərəcəkdir. Dövlətimizin başçısı hazırda Quba Olimpiya Kompleksində keçirilən voleybol yarışına yerli əhalinin və ölkəmizin qonaqlarının böyük maraq göstərdiyini misal gətirərək bildirdi ki, regionlarımızın Avropa səviyyəsinə çatdırılması üçün bütün tədbirlər görülməlidir. Ölkəmizdə qış idman növlərinin, o cümlədən dağ xizəkçiliyinin inkişafı faydalı olacaqdır. Biz gərək maksimum dörd ay ərzində bu işlərə başlayaq. Əgər başlasaq, işlər daha da sürətlə gedəcəkdir. Ondan sonra başqa firmalar da maraq göstərəcəklər. Görəndə ki, burada infrastruktur, şərait var, artıq qaldırıcı qurğular qurulub, digər firmalar da gələcəkdir.*

*Sonra dövlətimizin başçısı Qusar Olimpiya İdman Kompleksi və turizm bazasının təməlinə xatirə gilizini qoydu və ilk beton qarışığını tökdü. Xatirə gilizinin içərisindəki kağıza bu sözlər yazılmışdır:*

«Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideeyalarının dönmədən həyata keçirilməsi sayəsində gündən-günə çiçəklənən respublikamızın dilbər guşəsi olan Qusar rayonu sakinlərinə, müstəqil dövlətimizin sədaqətli vətəndaşlarına töhfə olaraq inşa edilən bu Olimpiya İdman Kompleksi hər bir qusarlıya sağlam həyat, Azərbaycanımızın idman tarixinə qızıl səhifələr bəxş etsin.

Qusarlılara hörmət və ehtiramla,

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**

*28 iyul 2005-ci il* »

* * *

*Azərbaycan prezidenti İlham Əliyev sonra Qusar rayonunun mərkəzindəki Heydər Əliyev bağına gəldi. Burada dövlətimizin başçısını minlərlə sakin böyük hörmət və ehtiramla qarşıladı. Prezidentə və xanımına gül dəstələri təqdim olundu.*

*President İlham Əliyev ümummilli lider Heydər Əliyevin bağda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı bağda nümayiş etdirilən Qusar rayonunun qədim xalçaçılıq sənəti nümunələri, məişət əşyaları ilə yaxından tanış oldu, təndir çörəyindən daddı. Qusarın milli rəqs, folklor ansamblı, özfəaliyyət kollektivi üzvlərinin çıxışlarına tamaşa etdi və onlara uğurlar arzuladı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra bağda ümummilli liderimizin xatirəsinə yaradılmış Heydər Əliyev guşəsi ilə tanış oldu.*

*Burada ulu öndərimizin Azərbaycan qarşısında tarixi xidmətlərini, xarici ölkələrə səfərlərini, dünyanın aparıcı ölkələrinin başçıları ilə görüşlərini, Qusar rayonunda olmasını əks etdirən fotoşəkillər nümayiş etdirilir. Ulu öndərimizin həyat və fəaliyyətinə həsr olunmuş dəyərli kitablar, prezident İlham Əliyevin siyasi fəaliyyətindən bəhs edən fotoşəkillər də böyük maraq doğurur. Prezident İlham Əliyev guşənin xatirə kitabına öz ürək sözlərini yazdı:*

«Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyətini əks etdirən fotoşəkillər, kitablar, başqa sənədlər Heydər Əliyevin xalqa nə qədər bağlılığını göstərir. Heydər Əliyevin tarixi irsinin öyrənilməsi və tədqiqi gələcək nəsillərin tərbiyə olunmasında çox mühüm rol oynayır.

Heydər Əliyev Qusara və qusarlılara həmişə böyük diqqət və qayğı göstərirdi. Mən də çalışıram ki, Qusar rayo-

nunda yaşayan insanların həyatı, güzəranı yaxşılaşsın, burada yaşayan bacı-qardaşlarım bundan sonra da rahat, firavan yaşasınlar. Qusarlılara öz dərin hörmət və məhəbbətimi ifadə edirəm.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**

*28 iyul 2005-ci il*
Qusar rayonu»

# QUSAR RAYONUNDAKI HEYDƏR ƏLİYEV BAĞINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*28 iyul 2005-ci il*

Əziz qusarlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi öpürəm, bağrıma basıram.

Təxminən bir il bundan əvvəl mən Qusara gəlmişdim, sizinlə görüşmüşdüm. Çox səmimi görüş idi və bu gün Heydər Əliyev guşəsində həmin görüşü əks etdirən fotoşəkillərə baxdım və bir daha o günləri yada saldım. O vaxtdan bir il keçəndən sonra yenidən buradayam. Bu gün buraya gələrək, Qusarda tikiləcək müasir Olimpiya İdman Kompleksinin təməl daşını qoyduq. Bir il bundan əvvəl Qusarda olarkən sizə bəyan etmişdim ki, Qusarda mütləq müasir Olimpiya kompleksi tikilməlidir. Uzun müddət bu kompleksin layihəsi üzərində işlədilər, əlavə təkliflər irəli sürüldü. Artıq bu, təkcə idman kompleksi olmayacaq, mehmanxana, turist bazası da tikiləcəkdir. Bir sözlə, Qusarın hərtərəfli inkişafı üçün, gənclərin idmanla məşğul olması, insanların rahat istirahəti üçün çox gözəl şərait yaradılacaqdır. Mən müddət qoydum ki, kompleks bir il ərzində tikilməlidir ki, bir ildən sonra yenidən Qusara gəlim və kompleksin açılışında iştirak edim.

Eyni zamanda, Qusarın inkişafı üçün çox önəmli məsələ də öz həllini tapmaqdadır. Bilirsiniz ki, Şahdağın ətəyi dağ xizəkçiliyi idman növü üçün çox əlverişlidir. Bunu nəzərə alaraq, xaricdən mütəxəssislərin böyük bir qrupu dəvət olunmuşdu. Onlar Qusar rayonuna göndərildilər, uzun müddət layihə üzərində işlədilər və nəticədə belə bir təklif irəli

sürdülər ki, Qusar rayonunun ərazisində müasir, Avropa standartlarına uyğun turizm kompleksi tikilsin. Orada bir neçə mehmanxana tikiləcək, dağ xizəkçiliyi idman növü ilə məşğul olmaq üçün lazımi şərait olacaqdır. Bütövlükdə bölgənin inkişafı, turizm baxımından buranın inkişafı bizim hamımızı çox maraqlandıran bir məsələdir.

Qusarın çox gözəl, füsunkar təbiəti, çox gözəl iqlimi, gözəl insanları var. Ona görə Qusar Azərbaycanda turizm mərkəzinə çevrilməlidir. Bunu etmək üçün, əlbəttə ki, böyük həcmdə sərmayə qoyulmalıdır və biz bunu edəcəyik. Amma eyni zamanda, dövlət tərəfindən görüləcək işlər də az deyildir. İlk növbədə, infrastrukturun yaranması – yeni yolların salınması, elektrik enerjisi təminatının yaxşılaşdırılması və digər məsələlər həllini tapmalıdır. Yəni bu işlərə kompleks şəkildə baxılacaqdır. Bu görüşdən sonra mən Qusarda geniş müşavirə keçirəcəyəm. Bu zonanın icra hakimiyyəti başçılarının hamısı Qusara gəlibdir. Eyni zamanda, Bakıdan nazirləri də çağırdım ki, bu bölgənin – Qusarın və ətraf rayonların hərtərəfli inkişafını müzakirə edək, konkret proqram tərtib edək və onu icra etməyə başlayaq.

Bütövlükdə Azərbaycan regionlarının inkişafı proqramı uğurla icra edilir. Bu yaxınlarda Nazirlər Kabinetinin toplantısında ilin ilk altı ayının yekunları müzakirə olunurdu və bir daha gördük ki, Azərbaycan bu altı ayda çox sürətlə inkişaf edir. Ölkə iqtisadiyyatında artım təxminən 17 faiz olub, sənaye istehsalı 20 faiz artıbdır. İl yarım ərzində görülən işlər nəticəsində Azərbaycanda 250 min yeni iş yeri açılıbdır ki, onların da 130 mini daimi iş yeridir. Bu siyasət davam etdiriləcəkdir. Azərbaycanda siyasi və iqtisadi islahatların başlanması Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Heydər Əliyevin büstünün önündə ondan sonrakı dövr ərzində görülən işlər haqqında bir növ ona da bir hesabat vermiş oluruq. Bu müddət ərzində, bu il yarım ərzində Heydər Əliyev siyasəti Azərbaycanda yaşadı, möhkəmləndi. Bu

siyasət Azərbaycan xalqının rahat, xoşbəxt gələcəyi üçün başlıca şərtdir.

Azərbaycan çox böyük bəlalarla, fəlakətlərlə üzləşmişdi. 1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində baş verən hadisələr Azərbaycanı tamamilə uçuruma, məhvə aparırdı. Yalnız xalqımızın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vəziyyət normallaşdı, inkişaf başladı. Azərbaycanda yaşayan bütün xalqlar rahat yaşamağa başladılar. Azərbaycanda heç vaxt nə dini, nə milli zəmində ayrı-seçkilik hallarına yol verilməyib və verilməyəcəkdir.

Heydər Əliyevin siyasəti həm ölkə daxilində inkişafa təkan verdi, həm də Azərbaycanın dünyaya tanıdılmasına çox müsbət təsir göstərdi. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə malik bir ölkədir. Azərbaycan beynəlxalq təşkilatlarda öz sözünü qətiyyətlə deyir və beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini – xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində – dəstəkləyir.

Ölkə daxilində gedən müsbət meyllər güclənməkdədir. İşsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində görülən işlər göz qabağındadır. Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatlar uğurla icra edilir. Kənd təsərrüfatında növbəti illərdə böyük irəliləyiş gözlənilir. Bu yaxınlarda «Aqrolizinq» səhmdar cəmiyyətinin yaranması kənd təsərrüfatına böyük təkan verəcəkdir. Azərbaycanda kəndlilər çoxdur, əhalisinin təxminən yarısı kənddə yaşayır. Burada yaxşı işləmək üçün, güzəranı yaxşılaşdırmaq üçün gərək kənd təsərrüfatı texnikası olsun, gübrə olsun, digər lazımi kredit verilsin. Bütün bunları həll edirik. İki gün bundan əvvəl Xaçmazda kredit yarmarkasında görülən işlər haqqında məlumat verildi. Sərgi ilə tanış oldum. O cümlədən Qusardan olan sahibkarlar öz məhsullarını orada nümayiş etdirirdilər. Çox sevindirici haldır ki, bir il bundan əvvəl ayrılan kreditlər bu gün artıq öz real bəhrəsini verir. Yeni iş yerləri açılıb, müəssisələr yaranıb,

insanlar işlə təmin olunublar. İnkişaf budur. Ölkə daxilində proseslər çox müsbət istiqamətdə gedir. Azərbaycanda həm iqtisadi inkişaf göz qabağındadır, həm də ictimai-siyasi vəziyyət çox normaldır. Azərbaycan xalqı milli həmrəylik nümayiş etdirir, bizim siyasətimizi dəstəkləyir. Bu dəstəyi mən hər yerdə hiss edirəm. Bakıda, getdiyim bütün rayonlarda, Azərbaycanın ən ucqar yerlərində bunu görürəm, buna arxalanıram və bu mənə güc verir. Bu gün burada, Qusarda olarkən bir daha görürəm ki, Azərbaycanda nə gözəl şərait var, nə gözəl ab-hava var, mehribanlıq var, əmin-amanlıq var, sülh var, qardaşlıq var.

Bizim digər ölkələrdə baş verən hadisələrdən xəbərimiz var. Görürük ki, dünyanın müxtəlif yerlərində, hətta Azərbaycana yaxın olan yerlərdə çox dəhşətli hadisələr, fəlakətlər baş verir. İnsanlar həlak olur, incidilir. Əmin-amanlıq pozulur. Asayiş, demək olar ki, ümumiyyətlə, mövcud deyildir. Azərbaycan bu regionda sabitlik məkanıdır, sabitlik adasıdır. Əmin-amanlıq məkanıdır. Biz hamımız bunu qorumalıyıq. Azərbaycanın hər bir vətəndaşı bunu qorumalıdır. Ölkə prezidentindən tutmuş, adi vətəndaşa qədər hamımız qorumalıyıq. Çünki bu bizim gələcəyimizdir. Əgər biz Azərbaycanı qüdrətli ölkəyə çevirmək istəyiriksə, insanların həyat səviyyəsini ildən-ilə yaxşılaşdırmaq, ölkə iqtisadiyyatını inkişaf etdirmək istəyiriksə, burada sabitlik, sülh, əmin-amanlıq olmalıdır. Bu da var və mən çalışıram ki, bunu qoruyaq, möhkəmləndirək və Azərbaycan xalqı daim sülh, əmin-amanlıq şəraitində yaşasın. Ona görə bu məsələlərə çox böyük diqqət göstərilir.

Azərbaycan çoxmillətli dövlətdir. Bu bizim xoşbəxtliyimizdir, bizim sərvətimizdir. Biz bilirik ki, monoetnik dövlətlərin, yəni bir millətin yaşadığı dövlətlərin siyasəti, ümumiyyətlə, ölkəni təcridə aparır. Qonşu Ermənistana baxın. Ermənistanda təkcə erməni milləti yaşayır, başqa millət yoxdur. Yəqin ki, onlar üçün şərait yoxdur. Əvvəllər, Sovet İttifaqı zamanında var idi. 250 min azərbaycanlı yaşayırdı,

ruslar var idi, başqa millətlər var idi. İndi heç kim qalmayıbdır. Onların ayrı-seçkilik siyasəti, çirkin əməlləri nəticəsində azərbaycanlılar oradan zorla qovulub, başqa millətlərin nümayəndələri də, belə demək olarsa, yavaş-yavaş çıxarılıbdır. Amma Azərbaycan çoxmillətli dövlətdir, ölkədir. Bu bizim gücümüzdür. Millətlərin müxtəlifliyi, mədəniyyətlərin müxtəlifliyi bizi zənginləşdirir. Azərbaycanda millətlər arasında tam mənada qardaşlıq hökm sürür.

Bu bizim xoşbəxtliyimizdir, bizim sərvətimizdir və bizim siyasətimizdir. Mən bu siyasətə sadiqəm, Azərbaycanda bu siyasəti davam etdirəcəyəm. Milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı mənim qardaşımdır.

Mən bu gün Qusarda olarkən çox gözəl hisslər keçirirəm. Görürəm ki, Azərbaycanın bütün bölgələri abadlaşır, quruculuq işləri gedir. Bir sözlə, Azərbaycan çox inamla irəliləyir. Mən həmişə deyirəm ki, Bakı bizim paytaxtımız, əziz, doğma şəhərimizdir. Amma Azərbaycan təkcə Bakı deyil, Azərbaycanın gələcəyi, qüdrəti bölgələrin güclənməsindədir. Bölgələrdə inkişaf getməlidir ki, oradakı insanlar yaxşı yaşasınlar.

Xalqımızı ən çox narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində haqq-ədalət bizim tərəfimizdədir. Bizim mövqeyimiz beynəlxalq hüquqa əsaslanır. Normal insani davranışa əsaslanır. Biz bu məsələni həll edəcəyik. Sadəcə olaraq, çalışırıq ki, bunu sülh yolu ilə həll edək ki, müharibə olmasın, qan tökülməsin. Ancaq bu vəziyyətlə də biz barışa bilmərik. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycanın tam haqqı var ki, öz doğma torpaqlarını istənilən yolla azad etsin. Siyasi, diplomatik, iqtisadi tədbirlər görülür. Azərbaycanın iqtisadiyyatı möhkəmlənir. Bu il bizim büdcəmiz 2 milyard dollardan çoxdur. Gələn il 3 milyard dollar olacaqdır. Ermənistan heç vaxt bizimlə rəqabət apara bilməyəcəkdir. Orduya ayrılan xərclər bu il 76 faiz artıbdır. Gələn il üçün göstəriş vermişəm ki, çox

kəskin surətdə artırılsın. Bizim hərbi gücümüz elə olmalıdır ki, istənilən anda məsələni həll edə bilək. Ancaq yenə də deyirəm, çalışırıq ki, bunu barış yolu ilə, sülh yolu ilə həll edək, Azərbaycan vətəndaşları, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıda bilsinlər. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Dünyada artan nüfuzumuz, ölkədə gedən proseslər, iqtisadiyyatın inkişafı, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi. Azərbaycanda mövcud olan milli həmrəylik – bütün bu amillər bizi gücləndirir. Hamımız istəyirik ki, Azərbaycan daha da güclü, daha da müasir olsun, daha da inamla addımlasın. Bu yolda biz hamımız birgə çalışmalıyıq.

Əziz bacılar və qardaşlar!

Mən bu gün sizi görməyimə çox şadam. Bu gün təməlini qoyduğum müasir Olimpiya kompleksinin açılışı gələn il bu vaxtlara nəzərdə tutulubdur. Yəni göstəriş vermişəm ki, bir ilə tikilsin. İnşallah, bir ildən sonra yenə gələcəyəm, sizinlə görüşəcəyəm və biz həmişə birlikdə olacağıq. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZİN ŞİMAL BÖLGƏSİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA VƏ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*Qusar*

*28 iyul 2005-ci il*

Mən artıq bir neçə gündür ki, şimal bölgəsindəyəm və görüşlər keçirirəm, vəziyyətlə tanış oluram. Bu gün Qusardayam, əvvəlki günlərdə Quba və Xaçmazda olmuşam. Mən bir il əvvəl də bu zonaya gəlmişdim və indi müqayisə etsəm deyə bilərəm ki, bir il ərzində irəliləyiş var. İnkişaf gedir, abadlıq, quruculuq işləri aparılır, əhval-ruhiyyə çox yüksək səviyyədədir. Bütövlükdə, ölkəmizdə gedən müsbət meyllər burada da özünü göstərir.

Bu yaxınlarda Nazirlər Kabinetinin geniş iclasında ilin altı ayının yekunlarını müzakirə etdik, çox ətraflı fikir mübadiləsi aparıldı və gələcək aylar üçün proqramlar tərtib olundu. Bütövlükdə, ölkə iqtisadiyyatı sürətlə inkişaf edir, iqtisadi artım təxminən 17 faizdir, sənaye istehsalı 20 faiz artıbdır. Bunlar dünyada analoqu olmayan göstəricilər, rəqəmlərdir. Eyni zamanda, əməkhaqqının artması, yeni iş yerlərinin açılması deməyə əsas verir ki, ölkə düzgün istiqamətdə inkişaf edir.

Biz gərək bu müşavirədə şimal bölgəsində mövcud olan problemləri müzakirə edək. Ona görə rayon icra hakimiyyətlərinin başçılarını, Bakıdan nazirləri və idarə rəhbərlərini buraya dəvət etdik.

Regionların sosial-iqtisadi inkişafı proqramı həyata keçirilir. Eyni zamanda, bütövlükdə Azərbaycanda sosial-iqtisadi inkişaf proqramı cədvəl üzrə icra olunur. Bu proqramlar çox önəmli istiqamətlər müəyyən edir. Ancaq bu proqramlar gərək yerlərdə icra olunsun. Bəlkə də elə məsələlər var ki, proqramda öz əksini tapmayıbdır. Çünki hər bir məsələni proqramda əks etdirmək çox çətindir. Şimal bölgəsinin böyük potensialı var. İlk növbədə, kənd təsərrüfatı, turizm sahəsində. İki gün bundan əvvəl Xaçmazda keçirilən kredit yarmarkasında nümayiş etdirilən məhsullar ona dəlalət edir ki, kənd təsərrüfatı və turizm sahəsində son bir il ərzində çox mühüm irəliləyiş vardır. Əgər bir il bundan əvvəl Qubada keçirilən kredit yarmarkasında turizm sahəsini əks etdirən sahibkarların sayı az idisə, bu gün onların sayı çoxdur.

Bölgə turizmin inkişafı üçün çox əlverişlidir, çox gözəl iqlimi var, gözəl təbiəti var. Eyni zamanda, kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar var. Hər iki istiqamətdə işlər görülür.

«Aqrolizinq» səhmdar cəmiyyəti tərəfindən texnika alınır, turizmin inkişafı üçün işlər görülür. Bu gün biz Qusarda Olimpiya və turizm kompleksinin təməl daşını qoyduq. Bu çox müasir bir kompleks olacaqdır. Eyni zamanda, idmanın dağ xizəkçiliyi növü ilə məşğul olmaq üçün kompleksin yaradılması nəzərdə tutulur. Bu sahələri inkişaf etdirmək üçün şübhəsiz ki, infrastruktur lazımdır – yollar çəkilməlidir, elektrik enerjisi təminatı, qaz təminatı yaxşı olmalıdır. Dediyim kimi, bu müşavirəyə bölgənin rayon icra hakimiyyətlərinin başçıları ilə yanaşı, nəqliyyat, gənclər, idman və turizm, kənd təsərrüfatı nazirləri, «Azərenerji» və «Azəriqaz» səhmdar cəmiyyətlərinin rəhbərləri də dəvət olunmuşlar. Ona görə, gəlin müşavirəni başlayaq.

**Zöhrab Pirimov** (*Qusar Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm Prezident!

Azərbaycanın gözəl guşələrindən biri olan Qusar torpağında Sizi ürəkdən salamlayıram. Rayonumuza gəlişinizi

qusarlılara olan qayğınızın təzahürü kimi yüksək dəyərləndirir və bu diqqətinizə görə bütün rayon sakinləri adından minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə onun göstərdiyi qayğı nəticəsində ölkəmizin bütün bölgələrində daim inkişaf olmuş, müəssisələr tikilmiş, yeni iş yerləri açılmışdır. O cümlədən Qusar rayonunda da çoxlu sosial obyektlər, sənaye müəssisələri tikilmişdir.

Siz prezident seçildikdən sonra qusarlılara göstərdiyiniz daimi qayğı göz qabağındadır. Biz bu gün respublikada gedən inkişafın şahidiyik. Rayonumuzda da bütün sahələrdə inkişaf var. Mövcud problemlərin həllini diqqət mərkəzində saxlayırıq. Su problemi ilə bağlı bəzi məsələləri qismən həll etmişik. Qarabulaq su hövzəsindən gələn 1 kilometrə yaxın xətti dəyişmişik. Rayonun qazla təminatını yaxşılaşdırmaq məqsədi ilə çəkilməsi nəzərdə tutulan 5,5 kilometrlik dairəvi qaz kəmərinin 2,5 kilometri istifadəyə verilmiş və bununla da 600 abonentin qaz təchizatı yaxşılaşdırılmışdır.

Rayonda dövlət vəsaiti ilə 6, daxili imkanlar hesabına 8 məktəb təmir olunmuşdur. Samur qəsəbəsində, Qusar şəhərinin mərkəzi parkında veteranlar evləri istifadəyə verilmişdir. İnfrastrukturla bağlı müəyyən problemlərimiz də var. Yollar çoxdan təmir olunmadığına görə pis vəziyyətdədir. Bir ilin ərzində təxminən 18 kilometrlik rayondaxili yol öz imkanlarımız hesabına qismən təmir edilmişdir. Maşın və mexanizmlərin çox köhnə olması əsasən dağ kəndlərinə gedən yolları təmir etməyə imkan vermir.

Demək olar, rayonun bütün yaşayış məntəqələrində 24 saat işığın verilməsi təmin olunmuşdur. Lakin müəyyən problemlər qalmaqdadır. Yeni yaşayış massivlərinin enerji təchizatını yaxşılaşdırmaq üçün 110 kilovoltluq yardımçı stansiya ilə Qusarın şimal hissəsində yeni tikiləcək yardımçı stansiya arasında əlaqə yaradılmalıdır.

Heydər Əliyev Fondunun hesabına rayonda 3 məktəbin tikilməsinin qusarlıların sevincinə səbəb olduğuna görə müəllim kollektivləri, rayon ictimaiyyəti adından minnətdarlığımı bildirirəm. Daxili imkanlar hesabına, yəni sahibkarların köməyi ilə məktəblərin əsaslı təmiri, Çiləbir qəsəbəsində və Nəcəfkəndxuda kəndində ibtidai məktəblərin tikintisi başa çatmaqdadır.

Möhtərəm Prezident, Sizi əmin edə bilərik ki, bütün imkanlardan istifadə edərək qarşımızda qoyduğunuz vəzifələri yerinə yetirəcəyik. Yaxınlaşan parlament seçkilərinin də şəffaf və ədalətli keçirilməsi üçün əlimizdən gələni edəcəyik.

**İlham Əliyev:** Rayondaxili yolların təmirinə təxminən nə qədər vəsait lazımdır, hesablamısınız?

**Zöhrab Pirimov:** Cənab Prezident, tam hesablamamışıq, amma hər il 1,5–2 milyard manat vəsait ayrılarsa, yaxın 5 il ərzində problemi həll etmək olar.

**İlham Əliyev:** 5 il gecdir. Tez eləməliyik. Ona görə, siz dəqiq hesablayın. Çünki şəhərlərarası yollarla Nəqliyyat Nazirliyi məşğuldur. Elədir?

**Ziya Məmmədov** (*Nəqliyyat naziri*): Daxili yollar rayonların, şəhərlərin balansındadır. Amma birləşdirici yollar bizim balansımızdadır.

**İlham Əliyev:** Hesablayın və mənə məlumat verin. Biz bunu etməliyik. Azərbaycanın bütün rayonlarında yollar abadlaşmalıdır. Bu həm insanlara rahatlıq verir, həm də inkişafdır. Yol olmasa, inkişaf olmayacaqdır. Sahibkarlarla Xaçmazda görüşümdə dedim, Qubada çəkilən təzə yolun kənarında turist kompleksləri tikilir. Əgər yol olmasa, heç kim gedib orada kompleks tikməz. Bu, başlıca şərtdir. Ona görə, siz, həmçinin başqa rayonların icra hakimiyyətlərinin başçıları da hesablayın ki, nə qədər vəsait lazımdır. Rayondaxili və kənd yollarını təmir edək, harada yol yoxdursa, yeni yol salaq. Əlbəttə, biz bunu imkan daxilində edəcəyik. Azərbaycanın bütün rayonlarında belə problemlər həll olunmalıdır. Vəsait artdıqca bunu edəcəyik.

**S ü n d ü z  B a b a y e v a** (*Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, mən bütün dəvəçililər adından Sizi salamlayıram. Rayonumuzun sakinləri xalqımızın böyük oğlu, bütün həyatını respublikamızın inkişafına həsr etmiş ulu öndərimiz cənab Heydər Əliyevin layiqli davamçısı olaraq, Sizi alqışlayır.

Dəvəçililər ulu öndərimiz Heydər Əliyevin ideyalarına həmişə sədaqətli olublar. 1970-ci illərə qədər Dəvəçi ölkədə ən geri qalmış kənd rayonu idi. Dahi şəxsiyyət cənab Heydər Əliyevin müstəqil Azərbaycanın bir hissəsi olan Dəvəçi rayonuna şəxsi qayğısını rayonumuzun əhalisi daim hiss etmişdir. Məhz 1970-ci illərdə Dəvəçidə sənayenin, kənd təsərrüfatının, mədəniyyətin, səhiyyənin, təhsilin inkişafının təməli qoyulmuşdur. Həmin illərdə rayonda gündəlik gücü 500 ton olan Taxıl Məhsulları Kombinatının tikintisinə başlanmış, illik istehsal gücü 3 milyon baş olan Dəvəçi Broyler quşçuluq fabriki istifadəyə verilmiş, xalq tətbiqi sənətinin ənənələrini yaşadan Pirəbədil xalça fabriki, digər istehsal sahələri yenidən qurulmuş, müasir texnologiya və avadanlıqla təchiz edilmişdir. Kənd təsərrüfatında möhkəm baza yaradılmış, yeni üzümlüklər salınmış, üzüm emalı zavodu tikilmişdir. Həmin illərdə çoxlu yaşayış evləri, müasir tipli məktəblər tikilmiş, kəndlər qazlaşdırılmış, yollar abadlaşdırılmışdır. Bütün bunlar ulu öndərimizin respublikada hakimiyyətə gəlməsinin bu yaxınlarda qeyd etdiyimiz 36-cı ildönümü münasibətilə keçirilən tədbirlərdə bir daha böyük rəğbətlə xatırlanmışdır.

Dəvəçililərin yaxşı yadındadır ki, cənab Heydər Əliyev iki dəfə rayonumuzda olmuş, həm tarixi abidələrlə, həm də kənd təsərrüfatının inkişafı ilə maraqlanmış və ondan sonra 1980-ci illərdə Dəvəçidə kənd təsərrüfatı sürətlə inkişaf etmişdir. Tərəvəz istehsalı 10–12 min tondan 45 min tona gəlib çatmışdır. O illərdə yeni məktəblər, səhiyyə obyektləri tikildi, kəndlər qazlaşdırıldı. 1970-ci ilə qədər Dəvəçidə qaz xətti yox idi.

1980-ci illərin axırlarından başlayaraq ölkədə gedən tənəzzül rayonumuza da sirayət etmişdi. Son on ildə Dəvəçidə əhalinin rifah halı yaxşılaşdı, aqrar islahatlar həyata keçirildi. Kəndlilərə 20 min hektar pay torpağı verildi. İndi Dəvəçidə 30 min ton taxıl istehsal olunur və hər hektardan məhsuldarlıq 26 sentnerə çatdırılmışdır. Əvvəlki illərdə isə 11–12 sentnerdən yuxarı qalxmırdı.

İctimai mal-qaranın özəlləşdirilməsindən sonra heyvandarlıq sürətlə inkişaf edir. Hazırda rayonda 33 min baş davar, 19 min baş qaramal var. Keçən il 640 min ton tərəvəz, 550 ton üzüm istehsal olunmuşdur.

Son iki ildə Qələgah, Leyti kəndlərində daxili imkanlar hesabına məktəblər, Güləmli kəndində isə büdcə vəsaiti hesabına 240 yerlik gözəl məktəb binası tikilibdir. Hazırda Heydər Əliyev Fondunun vəsaiti ilə üç dağ kəndində – Pirəmsən, Qorğan, Zeyvə kəndlərində qəza vəziyyətindəki məktəblər əvəzinə, hər biri 100 yerlik müasir tipli məktəb binalarının tikintisi sürətlə gedir. Respublika büdcəsi hesabına Dəvəçi şəhərində 340 yerlik məktəb binası da tikilir. Daxili imkanlar hesabına Əmirxanlı, Hacıqaraqaşlı kəndlərində məktəblər inşa olunur. İndiyədək kiçik bir rayonda bu qədər məktəb tikintisi olmamışdır.

Dəvəçinin yeni yaşayış massivinə 6 kilometrdən çox yeni qaz xətti çəkilmişdir. Bu yaxın günlərdə Güləmli yaşayış massivinə 2 kilometrlik qaz xətti çəkilmişdir. Kəndlərdə, şəhərdə abadlıq işləri davam etdirilir, küçələrə asfalt döşənir. Daxili imkanlarımız hesabına Rəhimli kəndində tibb məntəqəsi tikilmiş, Günəşli və Padar kəndlərində ambulatoriyalar istifadəyə verilmişdir.

Kənd təsərrüfatı sahəsində iş yerlərinin açılmasına, özəl sektorun inkişafına xüsusi diqqət yetirilir. Yaşayış yerlərindən uzaqda yerləşən 700 hektarlıq yarımşoran torpaqlar pay sahələri kimi əhaliyə verilsə də, texnika olmadığından camaat torpağı becərə bilmirdi. Keçən il «Qafqaz» konserv zavodunun rəhbərliyinə müraciət etdik və həmin sahəni

onlara icarəyə verdik. Oraya su arxları çəkildi, torpaq gübrələndi. İndi orada 220 sakinimiz işləyir.

1981-ci ildə istifadəyə verilən Dəvəçi Broyler quşçuluq fabriki fəaliyyətini dayandırmışdı. 2002-ci ildən bərpa olunmuşdur və hazırda orada 460 nəfər işləyir, ildə 2 min ton quş əti istehsal edir. Bu ilin sonuna kimi istehsal gücü 4 min tona çatacaqdır. 2006-cı ildə tam gücü ilə işləyəndə isə ildə 10 min ton quş əti istehsal edəcək, 700–800 nəfər işləyəcəkdir. 2003-cü ilin oktyabrından bu günə kimi 2227 nəfər işlə təmin olunmuşdur. Pirəbədil xalça fabriki uzun illər işləmirdi. Bu ildən fəaliyyəti bərpa olunmuşdur və indi orada 45 nəfər çalışır.

Möhtərəm cənab Prezident, bütün bunlar Sizin regionlara qayğınızın, diqqətinizin nəticəsidir. Lakin problemlərimiz də var. Siz Dəvəçidə xəstəxananın açılışında iştirak etmisiniz, bu, sakinlərimizi sevindirdi. Lakin xəstəxana uyğunlaşdırılmış binadadır. Səhiyyə Nazirliyi ilə iş gedir, torpaq ayrılmışdır və 2006-cı ildən tibb mərkəzinin tikintisinə başlanacaqdır. Stadion təmir olunub gənclərin ixtiyarına verilibdir.

Cənab Prezident, Siz ulu öndərimizlə birlikdə 1980-ci illərdə Qalaaltı sanatoriyasında olmusunuz. 2003-cü ildə Dəvəçiyə gələndə oradakı vəziyyəti soruşmuşdunuz. İndi orada vəziyyət çox pisdir. Siz qeyd etdiyiniz kimi, bizim bölgə turizm zonasıdır. Qalaaltı da turizm üçün çox əlverişlidir, müalicəvi suyu da var. Vaxtilə ulu öndərimiz Moskvada işləyərkən xüsusi bir qərara nail olmuş, bu sanatoriyaya ümumittifaq əhəmiyyətli sanatoriya statusu verilmişdi. Xahişim odur ki, Kurortlar idarəsinin nəzdində olan sanatoriyanın yolları bərpa olunsun.

Kənd təsərrüfatı nazirinin burada iştirakından istifadə edərək, bildirirəm ki, əgər imkanları varsa, Dəvəçidə üzümçülüyü inkişaf etdirsinlər. 1980-ci illərdə bu sahədə böyük uğurlar olubdur. Üzüm emalı zavodu işləmir, onu işə salmaq

mümkündür. Lakin bizim bölgəmizdə «Aqrolizinq»in bazasını yaratmaq nəzərdə tutulmayıbdır.

**İlham Əliyev:** Necə yəni bu bölgədə nəzərdə tutulmayıb, niyə?

**İsmət Abasov** (*Kənd Təsərrüfatı naziri*): Cənab Prezident, bazaların yaradılmasını biz müəyyən etmirik.

**İlham Əliyev:** Bəs kim müəyyən edir?

**İsmət Abasov:** İqtisadi inkişaf və maliyyə nazirlikləri.

**İlham Əliyev:** Mən bu məsələ ilə məşğul olmağı sizə tapşırmışam. Siz məşğul olun, hər bölgədə «Aqrolizinq»in bazası olmalıdır. Bunlar texnikanı haradan almalıdır? Burada ən yaxın baza haradadır?

**İsmət Abasov:** Bakıdadır.

**İlham Əliyev:** Belə olmaz.

**İsmət Abasov:** İndiki mərhələdə «Aqrolizinq»in on iqtisadi rayonda bazası olmalıdır.

**İlham Əliyev:** Olmalıdır. Biz «Aqrolizinq»i yaradanda bu məsələni sizə tapşırdım. Nə Maliyyə nazirinə – Maliyyə nazirinin «Aqrolizinq»lə nə əlaqəsi var – nə də Iqtisadi Inkişaf Nazirinə – onların da heç bir əlaqəsi yoxdur – tapşırdım. Bununla Kənd Təsərrüfatı Nazirliyi məşğul olmalıdır və o texnika bu nazirliyin vasitəsilə alınır. Deməli, bütün məsuliyyəti də siz daşıyırsınız. Ona görə bunu tənzimləyin. Əgər hansısa əlavə göstəriş, yaxud qərar qəbul etmək lazımdırsa, edək. Siz özünüz məşğul olun. Başqa aidiyyəti nazirliklər qoy sizə kömək etsinlər. Amma bu işi siz görün və mən sizdən soruşacağam. Bütün iqtisadi rayonlarda, bölgələrdə bazalar yaratmaq lazımdır.

**İsmət Abasov:** Cənab Prezident, aydındır. Sadəcə, yerlərin ayrılması məsələsində problemlərlə üzləşirik.

**İlham Əliyev:** Əgər lazımdırsa, Nazirlər Kabinetinin qərarı çıxarılsın. Mən göstəriş verərəm. Hər bir iqtisadi rayonda olmalıdır.

**S ü n d ü z  B a b a y e v a:** Nümayəndələrin burada iştirakından istifadə edərək deyirəm ki, Dəvəçi şəhərində 500 evlik yeni yaşayış massivi salınmışdır və 82 ev də 1995-ci ildə təbii fəlakətdən zərər çəkənlər üçündür. Ulu öndərimizin bu barədə xüsusi sərəncamı olmuşdur. Bu evlərin heç birində kommunikasiya yoxdur. İstərdik əlaqədar nazirliklər bu işdə bizə kömək etsinlər.

Sizin bütün tapşırıqlarınız, həmişə olduğu kimi, yenə də yerinə yetiriləcəkdir. Regionların sosial-iqtisadi inkişaf proqramının icrası, əhalinin işlə təmin olunması, vətəndaşların ərizə və şikayətlərinə ədalətlə baxılması – bütün bunlar gündəlik fəaliyyətimizdə əksini tapır. Əmin edirəm ki, biz bundan sonra da Sizin yaxın köməkçiniz olacağıq.

**İ l h a m  Ə l i y e v:** Sizdə elektrik enerjisi ilə təminatda vəziyyət necədir?

**S ü n d ü z  B a b a y e v a:** Pis deyil, gündə 22–24 saat verilir. Problem yoxdur. Xeyli iş görülübdür.

**İ l h a m  Ə l i y e v:** Bəs qaz?

**S ü n d ü z  B a b a y e v a:** Hazırda 22 kəndə qaz verə bilirik.

**İ l h a m  Ə l i y e v:** Buraya idxal qazı verilir, yəni Rusiyadan gələn xətdən verilir?

**N a z i m  S ə m ə d z a d ə** (*«Azəriqaz» Səhmdar Cəmiyyəti sədrinin müavini*): Cənab Prezident, təkcə Siyəzən rayonu yerli qazdan istifadə edir.

**İ l h a m  Ə l i y e v:** Xaçmaz, Qusar, Quba və Dəvəçiyə idxal qazı verilir?

**N a z i m  S ə m ə d z a d ə:** Bəli.

**İ l h a m  Ə l i y e v:** Mən Dəvəçi Broyler fabrikinin məhsullarını iki gün bundan əvvəl sərgidə gördüm. Bir il əvvəl də görmüşdüm, indi orada işlər yaxşı gedir.

**S ü n d ü z  B a b a y e v a:** İşsizliyin aradan qaldırılmasına çox böyük köməyi var.

**İ l h a m  Ə l i y e v:** Çünki daxili istehsaldır, bu lazımdır ki, idxalı əvəzləyək. Biz gərək Qalaaltı sanatoriyasının tale-

yinə də ciddi yanaşaq. O çox nadir yerlərdən biridir. Həm müalicəvi suyu var, həm də istirahət üçün çox gözəldir, təbiəti gözəldir. Kimin balansındadır?

**Əbülfəs Qarayev** (*Gənclər, Idman və Turizm naziri*): «Azərkurort» birliyinin tərkibindədir.

**İlham Əliyev:** Axı ora bərbad vəziyyətdədir. Oraya gəlib-gedən var, qalmağa şərait yoxdur.

**Əbülfəs Qarayev:** İnsanlar köhnə taxta evlərdə qalırlar.

**Sündüz Babayeva:** 1990–95-ci illərdə Rusiyadan gəlmirdilər. İndi sabitlik olduğuna görə gəlirlər. Amma şərait yoxdur.

**İlham Əliyev:** Siz oraya bir nümayəndə göndərin, xüsusi layihə hazırlayaq. O, turizm obyekti kimi də fəaliyyət göstərməlidir. Müəyyən güzəştlərlə xaricdən, yaxud daxildən investor cəlb etmək olar ki, orada müasir şərait yaradılsın.

**Əbülfəs Qarayev:** Bu çox əlverişli olar. Çünki belə su Azərbaycanın heç bir yerində yoxdur.

**İlham Əliyev:** Keçmiş Sovet İttifaqında bircə yerdə – Ukraynada idi.

**Əbülfəs Qarayev:** Turistlər həqiqətən oraya gəlmək istəyirlər. Rusiyada sərgilər keçirəndə hamısı Qalaaltı və Naftalanla maraqlanır.

**İlham Əliyev:** Qalaaltı sanatoriyasının layihəsini işləyin. Ayrıca otaqlar, müalicə üçün yerlər və əlbəttə ki, yol nəzərdə tutulmalıdır. Oranın yolu neçə kilometrdir?

**Ziya Məmmədov:** 18 kilometrdir və Azneftin balansındadır.

**İlham Əliyev:** Bunu həll edərik. Siz onunla məşğul olun.

**Şəmsəddin Xanbabayev** (*Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı*): Prezident İlham Əliyevin iki gün əvvəl rayona səfərini xatırlayaraq demək istəyirəm ki, biz həmin görüşlərin təsiri altında yaşayırıq, işləyirik. Sizin gəlişiniz bizim üzərimizə çox böyük məsuliyyət qoydu. Xaç-

maz Azərbaycanın böyük bir rayonudur, eyni zamanda, sərhəd rayonudur. Burada hər şey yaxşı olmalıdır. İndi camaat da yaxşı yaşayır, güzəranı yaxşıdır. Tikinti işləri geniş vüsət almışdır. Gətirilən tikinti materialları tez bir zamanda satılır. Taxta çəpərlər daş hasarlarla əvəz olunur. Bu onu göstərir ki, camaatın güzəranı çox yaxşıdır. Bunu görməmək olmaz.

Bu il Xaçmazda 4 min ton fındıq məhsulu gözlənilir. Bu, rayona 16 milyon dollar vəsait gətirəcəkdir. Fındıq emal edən 3 müəssisə tikilib istifadəyə verilmişdir. 46 min ton meyvə, 160 min ton tərəvəz məhsulu gözlənilir. Xahişim odur ki, tərəvəz qəbulu məntəqələri qiymət məsələsində camaata kömək etsin.

**İlham Əliyev:** Hansı qiymətlə alırlar?

**Şəmsəddin Xanbabayev:** Kiloqramını 200 manata alırlar, bu da çox azdır.

**İlham Əliyev:** Mən «Qafqaz» konserv zavodunda olarkən soruşdum. Onlar dedilər ki, 400 manata alırlar.

**Şəmsəddin Xanbabayev:** Keçən il 250 manata alıblar. Bu da azdır, insanlar çətinlik çəkir, satmaq üçün başqa rayonlara, Bakıya aparırlar. Siz emal müəssisələrinin birində soruşdunuz ki, rəqabət necədir. «Qafqaz» konserv zavodu çox gözəl müəssisədir, amma təəssüf ki, onun məhsulunu kənara çıxara bilmirik.

**İlham Əliyev:** Azərbaycanda istehsal olunan məhsulların tam əksəriyyəti indi satılır. Xaçmazda sərgi iştirakçılarının hamısından soruşurdum ki, satışda problem varmı? Deyirdilər ki, satışda heç bir problem yoxdur, nə qədər istehsal ediriksə, hamısını satırıq. Ona görə təqsir məhsulu istehsal edəndədir.

**Şəmsəddin Xanbabayev:** Biz bu il 85 min ton taxıl istehsal etmişik. Rayonun tələbatı isə 25 min tondur. 7 min ton toxum, bir hissə yem üçün ayrılacaq, qalanını isə satacaqlar. Demək istəyirəm ki, insanların vəziyyəti həqiqətən yaxşıdır. Amma bəzi problemlər də var. Məsələn, 120

məktəbdən 49-u orta məktəbdir. Qalanları doqquzillik, ibtidai məktəblərdir. Bu il 9 məktəb, o cümlədən Heydər Əliyev Fondu hesabına 3 məktəb tikilir. Öz gücümüzə 3 məktəb inşa edirik. Bu sahədə bizə kömək göstərilsə, yaxşı olardı. Məktəblərin avadanlığa da ehtiyacı var.

**İ l h a m   Ə l i y e v:** Təkcə Xaçmazda deyil, başqa rayonlarda da belədir.

**Ş ə m s ə d d i n   X a n b a b a y e v:** Bəli. İmkan daxilində köməyinizə ehtiyac vardır. Mən problemlərin hamısını sadalayıb vaxtınızı almaq istəmirəm. Biz onların öhdəsindən gələcəyik. Xaçmazda bu gün görülən işlərin hamısı Sizinlə bağlıdır. Xaçmaz camaatı ümummilli liderimizi çox sevib, həmişə dəstəkləyib, arxasınca gedibdir. 1982–83 və 1998-ci illərdə Xaçmazda olarkən rayona böyük işlər hədiyyə edibdir. Ümumiyyətlə, ulu öndərimizin Azərbaycanda gördüyü işlər sayagəlməzdir. Dünyada hər şeyin ölçü vahidi var. Amma Heydər Əliyevin xalqımıza göstərdiyi tarixi xidmətləri ölçmək üçün hələ cihaz ixtira olunmayıbdır.

Bu gün Siz bu siyasəti uğurla davam etdirirsiniz. Bunu xalqımız görür, Sizi çox sevir, Sizinlə fəxr edirlər. Xaricdə yaşayan bir nəfər televizorda Sizi görəndən sonra mənə zəng edib ki, nə qədər xoşbəxtsiniz ki, bu cür prezidentiniz var. Bunu eşitməmək, qiymətləndirməmək, buna sevinməmək nankorluqdan başqa bir şey deyildir.

Indiyədək rayonun Müqtədir qəsəbəsində torpaq islahatı aparılmayıb, ona görə ki, burada Xəzər Dəniz Gəmiçiliyinə məxsus 1700 hektar torpaq var. Gəmiçilik buradan istifadə edir, əkib-becərirlər, mal-qara saxlayırlar, camaata iş yeri açıblar. Amma qəsəbə sakinlərinə də torpaq lazımdır. Həmin ərazinin 700 hektarı qəsəbəyə ayrılarsa, camaatın güzəranını çox yaxşılaşdırar.

**İ l h a m   Ə l i y e v:** Xəzər Dəniz Gəmiçiliyi o torpaqda nə edir?

**Ş ə m s ə d d i n   X a n b a b a y e v:** Taxıl əkirlər, mal-qara saxlayırlar. Onların yardımçı təsərrüfatıdır.

**İ l h a m  Ə l i y e v:** Məhsulu öz işçilərinə satırlar?

**Z i y a  M ə m m ə d o v:** Yeməkxanalarını ərzaqlarla təmin edirlər.

**Ş ə m s ə d d i n  X a n b a b a y e v:** Cənab Prezident, «Qafqaz» konserv zavodunun yanında 66 hektar dövlət torpağı var. Sovet dövründə mal-qara saxlamaq üçün istifadə olunurdu. İndi dövlət torpağı olduğu üçün heç kimə verə bilmirik, istifadəsiz qalıbdır. Bununla bağlı Nazirlər Kabinetinə müraciət etmişəm. Əgər bələdiyyələrə verilərsə, yaxşı istifadə edə bilərik, minlərlə insanın vəziyyəti yaxşılaşar.

Xaçmaz, Quba, Qusar rayonlarının kanalizasiyası birbaşa Xəzərə axır. Təmizləmə qurğusu işləmir. Bu məsələdə də kömək göstərilməsini istəyirik. Rayonumuzda iki şəhər – Xaçmaz və Xudat şəhərləri var. Küçələrin təmiri, abadlaşdırılması üçün vəsait lazımdır.

**İ l h a m  Ə l i y e v:** Mən bütün rayon icra hakimiyyəti başçılarına dedim, hesablayın ki, şəhər küçələrinin, kəndlərə gedən yolların təmiri üçün nə qədər vəsait lazımdır. Hamısını hesablayın, smeta olsun. Ondan sonra baxaq, nə qədər imkanımız olacaqsa, o qədər də vəsait ayıracağıq.

**Ş ə m s ə d d i n  X a n b a b a y e v:** Cənab Prezident, su və qaz xətlərinin çəkilməsində köməyə ehtiyacımız var.

Sizə demişdim, bu il avqustun 8-də Xaçmaz rayonunun 75 yaşı tamam olur. İstərdik bununla əlaqədar Nazirlər Kabineti bir qərar qəbul etsin və ondan istifadə edərək şəhərimizdə abadlıq-tikinti işləri aparaq. Sizə bir daha dərin minnətdarlığımı bildirirəm, rayonumuzda oldunuz, hər gəlişiniz böyük sevincə səbəb olur. Növbəti gəlişiniz zamanı görəcəksiniz ki, hansı işlər görülübdür.

**İ l h a m  Ə l i y e v:** 75 illiklə əlaqədar mənə dediniz. Gərək Nazirlər Kabinetinə müraciət edəsiniz, qərar çıxarıla. Burada deyilən məsələləri cəmləşdirin, bütün problemlərin həlli ilə əlaqədar lazımi göstərişlər verəcəyəm.

**M ö v s ü m  B ə d i r x a n o v** (*Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm Prezident, Sizin res-

publikamızın müxtəlif bölgələrində keçirdiyiniz önəmli və səmərəli görüşlər bu gün Qusar rayonunda öz məntiqi davamını tapır. Son bir ildə şimal bölgəsinə ikinci səfəriniz, 2003-cü ildə prezident seçkiləri ərəfəsində Siyəzən kərpic zavodunun açılışında, 2004-cü ilin iyul və dekabr aylarında Mərkəzi neftçilər xəstəxanasının Siyəzən filialının tikintisinə başlanmasında və açılışında iştirakınız, rayon ictimaiyyəti ilə görüşləriniz və etdiyiniz dərin məzmunlu çıxışlarınız biz siyəzənlilərin yaxşı xatirindədir.

Bu günlər Qubada ulu öndər, ümummilli liderimiz Heydər Əliyevin abidəsinin və onun adını daşıyan parkın, 3 saylı Ərazi vergilər idarəsi binasının, Xaçmazda özəl xəstəxana binasının və digər obyektlərin açılışları inamla deməyə əsas verir ki, respublikamızın bütün bölgələrində olduğu kimi, şimal rayonlarda da tikinti və abadlıq işləri geniş vüsət alaraq davam etməkdədir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı Siyəzən rayonunda da uğurla davam etdirilir, respublikanın bölgələrinə səfərləriniz zamanı, habelə sahibkarlarla görüşlərdə verdiyiniz tövsiyə və tapşırıqlar daim diqqət mərkəzində saxlanılır.

Siyəzən rayonunun sosial-iqtisadi inkişafı ümummilli liderimiz Heydər Əliyevin də daim diqqət mərkəzində olmuşdur. Cənab Heydər Əliyev 1998-ci ildə ölkənin şimal rayonlarında olarkən Siyəzən rayonunun sadə zəhmət adamları və ictimaiyyətin nümayəndələri ilə görüşmüş, rayonun problemləri ilə maraqlanmış, rayon rəhbərliyinə dəyərli tövsiyə və tapşırıqlarını vermişdir.

1980-ci illərdə ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində keçmiş ittifaqda ən iri hesab edilən Siyəzən Broyler fabriki, habelə kondensator zavodu, üzüm emalı zavodu tikilib istifadəyə verilmişdir. Lakin 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində ölkədə gedən ictimai-siyasi və iqtisadi proseslər rayonun iqtisadiyyatına öz mənfi təsirini göstərmişdir. Yalnız 1993-cü ildə xalqın təkidli tələbi

ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkənin bütün regionları kimi, Siyəzən rayonunun da iqtisadiyyatı yenidən dirçəlməyə başlamışdır.

Cənab Prezident, Sizin təsdiq etdiyiniz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsi həm də yerli icra hakimiyyəti orqanlarının ümdə işidir. Ötən müddət ərzində rayonumuzda bu sahədə müəyyən uğurlar əldə olunmuşdur. Siyəzən rayonunun iqtisadiyyatının əsasını neft sənayesi təşkil edir. Neft və qaz hasilatının sabitləşdirilməsi və artırılmasına xüsusi diqqət yetirilir. Cari ilin birinci yarısında bu sahəyə 9,3 milyard manat sərmayə yönəldilmiş, 8,2 milyard manatlıq əsas fondlar istifadəyə verilmişdir. Siyəzən kərpic zavodunda bu gün 120-dək adam işləyir. Müəssisənin yerləşdiyi ərazidəki gil yatağından istifadə olunmaqla ucuz və keyfiyyətli məhsul istehsal edilir. Ataçay və Gilgilçay çaylarının hövzələrində 12 çınqıl-qırmadaş istehsal edən sex istifadəyə verilmişdir və onlarda iş yerlərinin sayı 100-dən çoxdur. Tikinti işləri geniş vüsət almışdır. Neftçilər üçün tikilən 5 mərtəbəli 40 mənzilli yaşayış binası avqustun sonuna kimi təhvil veriləcəkdir. Keçən il və bu ilin altı ayında 117 vətəndaşa ümumi dəyəri 819 milyard manat həcmində fərdi mənzil tikintisinə icazə verilmişdir.

Bu il taxıl əkinləri 27 faiz genişləndirilərək 4588 hektara çatdırılmışdır.

Taxılçılığın inkişafı ilə əlaqədar olaraq rayonun bir neçə kəndində və Siyəzən şəhərində sutkada 12 ton un üyüdən dəyirman işə salınmışdır.

1200 nəfərdən çox işçisi olan «Siyəzən–Broyler» ASC-nin istehsal gücü artmaqdadır. 2005-ci ilin 6 ayında burada 3,8 min ton quş əti, 6,3 milyon ədəd yumurta istehsal olunmuşdur. Hazırda burada genişləndirmə işləri davam etdirilir və ilin sonuna qədər daha 120 adamın daimi işlə təmin olunması nəzərdə tutulur.

«Azərbaycan–İsrail» birgə müəssisəsinə quşçuluğun inkişafı üçün 60 hektar torpaq sahəsi ayrılmışdır və indi layihə-smeta sənədləri hazırlanır. Ötən altı ayda rayonda 40,2 milyard manatlıq və ya əvvəlki ilin həmin dövrünə nisbətən 12 faiz çox kənd təsərrüfatı məhsulu istehsal edilmişdir.

Su, kanalizasiya xətlərinin, qaz kəmərlərinin çəkilməsi, küçə və yolların abadlaşdırılması sahəsində xeyli işlər görülmüşdür.

Əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üçün 110 kV-luq «Siyəzən» yardımçı stansiyasında yenidənqurma işləri artıq başa çatdırılmış, yeni çəkilmiş 110 kV-luq «Xəzri–Siyəzən» xətti istismara hazır vəziyyətə gətirilmişdir. 6400 abonentdən 3800-ü üçün elektrik sayğacları quraşdırılmış və bu iş ilin sonuna qədər başa çatdırılacaqdır. Sayğacların quraşdırılması nəticəsində keçən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon kilovat-saat elektrik enerjisinə qənaət edilmişdir. Cənab Prezident, Siyəzən rayonunda işıq və su problemi yoxdur. 24 saat ərzində 110 min kubmetr qaz alırıq, 60 min kubmetr də «Siyəzənneft» verir.

**İlham Əliyev:** Yəni burada hasil olunan qazdan.

**Mövsüm Bədirxanov**: Bəli, ona görə heç bir problemimiz yoxdur.

**İlham Əliyev:** Bütün yaşayış məntəqələri qazlaşdırılıb?

**Mövsüm Bədirxanov:** Bəli.

**İlham Əliyev:** Çox gözəl.

**Mövsüm Bədirxanov**: Son vaxtlar rayonun Qozağacı kəndində əsas məktəb binası, Məşrif kənd məktəbi üçün 4, Tuğay kənd məktəbi üçün 2 əlavə sinif otağı tikilmiş, Sədan, Dağ Quşçu kənd məktəbləri əsaslı təmir olunmuşdur. Heydər Əliyev Fondu tərəfindən Siyəzən şəhər əsas məktəbində 200 yerlik və Daşlı Çalğan ibtidai məktəbində 100 yerlik binaların tikintisinə başlanmışdır və yeni dərs ilinə qədər istifadəyə veriləcəkdir. Eyni zamanda, Dövlət Proqramı çərçivəsində cari ilin sonuna qədər 640 yerlik Siyəzən şə-

hər orta məktəbi və Gilgilçay qəsəbə məktəbinin tikilməsi nəzərdə tutulmuşdur.

Siyəzən şəhər stadionu yüksək səviyyədə yenidən qurulmuş, 1000 yerlik müasir tipli oturacaqlar quraşdırılmış, lazımi idman avadanlığı alınmışdır. Gənclər, İdman və Turizm Nazirliyinin xətti ilə örtülü mini stadionun tikintisi üçün yer ayrılmış və bununla əlaqədar müvafiq sənədləşmə işləri aparılmışdır. Turizmin inkişafı ilə əlaqədar ərazinin əlverişli yerləri, xüsusilə Xəzər sahillərindəki meşə zolaqları, tarixi abidələr barədə Gənclər, İdman və Turizm Nazirliyinə məlumatlar, fotoşəkillər toplusu göndərilmişdir. «Kamran» turizm və istirahət mərkəzi fəaliyyət göstərir.

Qalaaltı sanatoriyasına Siyəzən və Dəvəçi rayonlarının ərazisindən yol var.

**İlham Əliyev:** Əsas yol hansıdır?

**Mövsüm Bədirxanov:** Hər iki yol axırda birləşir və «Azneft» İstehsalat Birliyinin balansındadır. Yolboyu rayonun 6 kəndi yerləşir. Dövlət Proqramında nəzərdə tutulub, bu ildən təmirə başlayacaqlar.

**İlham Əliyev:** Nəzərdə tutulub?

**Ziya Məmmədov:** Bəli. Eyni zamanda, əsas magistral Siyəzən şəhərinin kənarından gedəcəkdir. Həmin kəndlər də bundan istifadə edə biləcəklər. Qalaaltı yoluna alternativ yol çəkmək yaxşı olardı. Çünki ağır texnika gedəndə asfalt örtüyünü dağıdacaqdır. Ona ağır texnikanın getməsi üçün ayrıca yol çəkmək yaxşı olar.

**İlham Əliyev:** Çəkmək olar, məşğul olun.

**Mövsüm Bədirxanov:** Son vaxtlar sahibkarlığın inkişafı ilə əlaqədar «Kapital» Bankın Siyəzən rayon filialı tərəfindən sahibkarlara 577 milyon manat kredit verilmişdir. Sahibkarlığa Kömək Milli Fondundan da on layihə üzrə 400 milyon manat və bir layihə üzrə 100 min ABŞ dolları kredit verilmişdir.

**İlham Əliyev:** Bu il üçün?

**Mövsüm Bədirxanov:** Bəli.

**İ l h a m  Ə l i y e v:** İşsizlik məsələsi necədir?

**M ö v s ü m  B ə d i r x a n o v:** Bu problem, demək olar ki, həll edilmişdir. Bizdə əhalinin pul gəlirinin həcmi 25 faiz artıbdır. Rayon üzrə orta aylıq əməkhaqqı 529 min manatdır. 250–300 min manatlıq əməkhaqqı təklif olunan işlərə getmirlər. Bu gün 200 min manat əməkhaqqı verməklə, 100 adamı işlə təmin edə bilərik.

**İ l h a m  Ə l i y e v:** Amma istəmirlər.

**M ö v s ü m  B ə d i r x a n o v:** Bəli.

**İ l h a m  Ə l i y e v:** Baxın, bu, inkişafın əlamətidir.

**M ö v s ü m  B ə d i r x a n o v:** Rayonda sahibkarlığın inkişafı üçün əlverişli şərait var. Hazırda rayonda qeydiyyata alınmış 199 hüquqi şəxs, 774 nəfər isə fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Bütün bunların nəticəsidir ki, rayonda 488 yeni iş yeri açılmış, 87 iş yeri bərpa edilmiş və 621 mövsümi və müvəqqəti iş yeri yaradılmışdır.

Əsas sahələrdə məhsul istehsalı əvvəlki illə müqayisədə 41,3 faiz artaraq 183,5 milyard manata çatmışdır. Ötən dövrdə 61,8 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 10 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Cənab Prezident, bütün bunlar görülmüş işlərin bir hissəsidir. Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı kimi, Sizin apardığınız daxili və xarici siyasət inamla deməyə əsas verir ki, çox tezliklə əhalinin həyat səviyyəsi daha da yaxşılaşacaq, dövlətimizin iqtisadi qüdrəti durmadan yüksələcəkdir.

Görülmüş işlərlə yanaşı, bir sıra problemlərimiz də mövcuddur. Vaxtilə 600-dən çox fəhlə və qulluqçu işləyən kondensator zavodu və Böyük Həmyə kəndindəki şərab zavodu bu günə qədər özəlləşdirilməmişdir.

**İ l h a m  Ə l i y e v:** Özəlləşdirilməyibdir?

**M ö v s ü m  B ə d i r x a n o v:** Özəlləşdirməyə açılıbdır. Amma eləcə qalıbdır. Böyük Həmyə kəndindəki zavodda vaxtilə 100 adam işləyirdi. Bu müəssisələr işə düşsə, Siyəzəndə işsizlik problemi olmayacaqdır. Taxılçılığın inkişafı ilə

əlaqədar əkin sahələrini 1,5–2 dəfə genişləndirməyə imkan vardır. Lakin texnikanın çatışmaması bu işə ciddi təsirini göstərir. Ona görə də rayonda lazımi servis xidmətinin yaradılmasına ciddi ehtiyac vardır.

Hörmətli cənab Prezident, əmin edirik ki, Siyəzən rayon əhalisi ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrində həyata keçirdiyiniz bütün işlərdə Sizi həmişə dəstəkləyəcək və ətrafınızda daha sıx birləşəcəkdir.

**Ərzuman Əliyev** (*Quba Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, bütün Azərbaycanda olduğu kimi, bu rayonda da əsl tərəqqi xalqımızın dahi oğlu Heydər Əliyevin adı ilə bağlıdır. Əldə edilən bütün uğurlar ümummilli liderimizin vaxtilə qubalılara göstərdiyi böyük atalıq qayğısının, gündəlik diqqətinin nəticəsində qazanılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında 1970–1980-ci illərdə Quba rayonunda sənayenin, kənd təsərrüfatının, elm, təhsil və mədəniyyətin dinamik inkişafı təmin edilmiş, yüzlərlə obyekt tikilib istifadəyə verilmişdir. O dövrdə respublikamıza rəhbərlik edən Heydər Əliyevin qayğısı sayəsində intensiv bağçılığın inkişafı üçün çox mühüm işlər görülmüşdür. 1974–75-ci illərdə bu sahənin inkişafı ilə əlaqədar qəbul edilmiş qərarlara uyğun olaraq, Qubanın təsərrüfatlarında 10 min hektara yaxın intensiv bağ salınmışdır. Həmin bağların tam məhsula düşdüyü 1980-ci illərin ortalarında rayonda meyvə istehsalı 100 min tona çatmışdı. İndi həmin bağlar qubalıların əsas gəlir mənbəyi, necə deyərlər, çörək ağacıdır.

Qubalılar ümummilli liderimiz Heydər Əliyevin xatirəsini daim əziz tutur, onun müəyyənləşdirdiyi yolla gedirlər. Xalqımız müstəqil Azərbaycanın daha parlaq gələcəyinə inanır. Çünki bu gün ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini, onun ideyalarını görkəmli dövlət xadimi, Azərbaycanın haqq səsini bütün dünyaya çatdıran və onu qətiyyətlə müdafiə edən cənab prezidentimiz İlham Əliyev layiqincə davam etdirir və möhkəmləndirir.

Çox hörmətli cənab Prezident! Qubalılar Sizinlə 2003-cü ilin oktyabrında, keçən ilin və bu ilin iyulunda olmuş və əsl ümumxalq bayramına çevrilmiş görüşlərin xoş təsiri altındadırlar. 2003-cü ilin oktyabrında Qubada Sizin rəhbərliyiniz və gündəlik qayğınız nəticəsində tikilmiş Olimpiya İdman Kompleksi istifadəyə verildi. Bu nəhəng kompleks Qubada və ümumiyyətlə, şimal bölgəsində təkcə idmanın deyil, eyni zamanda iqtisadiyyatın, mədəniyyətin, sosial sahələrin inkişafında əvəzedilməz əhəmiyyətə malikdir. Ümummilli liderimiz, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedən müstəqil Azərbaycan Sizin rəhbərliyiniz altında, müdrik daxili və xarici siyasətiniz, böyük liderlik qabiliyyətiniz nəticəsində daha da möhkəmlənmiş, həyatın bütün sahələrində irəliyə doğru çox mühüm addımlar atmış, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı təmin edilmiş, xalqın maddi rifah halı xeyli yaxşılaşmışdır.

Ölkə əhalisinin Sizin ətrafınızda sıx birləşməsi geniş xalq kütlələrinin dövlət başçısının yeritdiyi xətti müdafiə etməsinin parlaq sübutuna çevrilmişdir. Sizin müntəzəm olaraq regionlara səfər etməyiniz, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının vəziyyəti ilə, insanlarla görüşüb onların problemləri ilə yerindəcə tanış olmağınız ölkənin inkişaf potensialından daha səmərəli istifadə edilməsinə zəmin yaratmış, bu prosesə güclü təkan vermişdir.

2004-cü ildə 30,1 min ton taxıl, 11,4 min ton kartof, 11,2 min ton tərəvəz, 165,4 min ton meyvə istehsal edilmişdir. Qaramalın və davarların sayı artaraq, müvafiq surətdə 67,7 min və 265,1 min başa çatmışdır.

Sahibkarlığın inkişafı da diqqət mərkəzindədir. Keçən il sahibkarlığın inkişafına kömək məqsədi ilə təxminən 750 nəfərə 1 milyon 900 min dollar həcmində kredit verilmişdir. Bu il həmin rəqəmin daha çox olacağı gözlənilir. Ötən 7 ayda 483 nəfərə 1 milyon 382 min dollar kredit verilmişdir. Hazırda özəl sektorda 3000-dən çox vergi ödəyicisi qeydiyyatdadır. Prezidentimizin iştirakı ilə keçən il istifadəyə verilmiş «Əli» Ticarət Mərkəzi uğurla fəaliyyət göstərir. Ra-

yonda ildə 150–200 min ədəd ting yetişdirilən təsərrüfat, 25 hektar torpaq sahəsi olan taxıl və kartof toxumçuluğu təsərrüfatı, 4 arıçılıq təsərrüfatı yaradılmışdır. 4 kənddə 315 başlıq 5 qaramal ferması fəaliyyət göstərir.

İkinci Nügədi kəndində taxta tara sexi fəaliyyətə başlamış, Quba «Konserv-1» Səhmdar Cəmiyyətində süfrə sularının istehsalı və qablaşdırılması təşkil edilmiş, «Qədim Quba» MMC-də sahəsi 420 kvadratmetr olan əyirici və boyaq sexi işə salınmışdır. Əlil və şəhid ailələri üçün 16 mənzilli yaşayış evi tikilib istifadəyə verilmişdir. 192 şagirdlik Səbətlər, 100 şagirdlik Mirzəməmmədkənd məktəbləri tikilmişdir. 240 şagirdlik Qələdüz kənd məktəbinin tikintisində son tamamlama işləri görülür.

Hazırda Quba rayonunda 16 yeni məktəb binası tikilir ki, bunun da 14-ü Heydər Əliyev Fondu hesabınadır. Bu işin möhtəşəmliyini göstərmək üçün yalnız belə bir faktı demək kifayətdir ki, XX əsrdə rayonda dövlət vəsaiti hesabına cəmi 16 məktəb binası tikilmişdir. Cənab Prezident, fürsətdən istifadə edərək, bu qayğıya görə Sizə, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevaya sonsuz minnətdarlığımızı bildiririk.

Şəhərin müxtəlif yerlərində yeni, müasir tipli ticarət və digər xidmət obyektləri inşa edilmişdir. Yüzlərlə adam özü üçün gözəl, yaraşıqlı fərdi yaşayış evləri tikmiş, təhsil, mədəniyyət, səhiyyə ocaqlarında təmir işləri aparılmışdır. Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində 5340 yeni iş yeri açılmışdır.

Bütün bunlarla yanaşı, yaxşı başa düşürük ki, yeni iş yerlərinin açılması, xalqın maddi rifah halının yaxşılaşdırılması üçün biz hələ çox çalışmalıyıq. Sizin qarşınızda məsuliyyətimizi dərindən dərk edərək söz veririk ki, bütün tapşırıqlarınızı layiqincə yerinə yetirəcək, Qubanı nümunəvi park-şəhərə, nümunəvi rayona çevirəcəyik.

Narahatlıq doğuran problemlər də vardır. Bunların aradan qaldırılmasında köməyə ehtiyac duyuruq. Hələ 1970–

1980-ci illərdə rayonun 33 kəndi, 2 qəsəbə və Quba şəhəri qazlaşdırılmışdır. Qaz xətlərinin indiyədək qorunub saxlanılmasına baxmayaraq, hazırda kəndlərdən cəmi 6-na təbii qaz verilir. Digər kəndlərə qazın verilməsi əhalinin sosial-məişət şəraitini yaxşılaşdırmaqla yanaşı, ətraf mühitin, meşələrin mühafizə olunmasına da müsbət təsir göstərərdi.

Möhtərəm cənab Prezident, Sizin yorulmaz fəaliyyətiniz, müdrik daxili və xarici siyasətiniz müstəqil Azərbaycan dövlətinə, xalqımıza fədakarlıqla, sədaqətlə xidmətin ən yaxşı nümunəsidir. Sizin andiçmə mərasimində söylədiyiniz və daim sadiq qaldığınız «Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam» sözləri xalqa sonsuz məhəbbətinizin ifadəsidir. Heç şübhəsiz ki, bu gün hər bir Azərbaycan vətəndaşı da öz prezidentini ürəkdən sevir, Sizinlə fəxr edir. Bu gün biz xoşbəxtik ki, Sizin kimi prezidentimiz var!

Cənab Prezident, icazə verin, çıxışımın sonunda rayonumuzun bütün ictimaiyyəti adından Sizi möhkəm əmin edim ki, qubalılar ümummilli liderimiz Heydər Əliyev siyasi xəttinə həmişə sadiq qalan möhtərəm prezidentimiz cənab İlham Əliyevin müəyyənləşdirdiyi yolla gedəcək, müstəqil Azərbaycanın tərəqqisi naminə var qüvvələrini, bilik və bacarıqlarını əsirgəməyəcəklər.

**İlham Əliyev:** Qaz problemi, demək olar ki, bütün bölgələrdə var. Düzdür, son illər ərzində görülən işlər nəticəsində qazla təminat yaxşılaşıbdır. Biz 2000-ci ilin sonundan Rusiyadan qaz almağa başlamışıq. Ondan sonra rayon mərkəzlərimiz tam olmasa da, haradasa 50–60 faiz qazla təmin edilir. Amma indi bütün kəndlərə qaz verilməsi mümkün deyil, çünki qaz yoxdur. Biz özümüz 4 milyard kubmetr qaz hasil edirik, 4,5 milyard kubmetr idxal edirik, bu da edir 8,5 milyard kubmetr. Tələbat isə 12 milyard kubmetrdir. Ona görə bu məsələ hələ bir müddət problem kimi qalacaqdır. Bunu həll etmək üçün ilk növbədə, Azərbaycanda gərək qazın hasilatı artsın. Bu ildən başlayaraq bu artım müşahidə olunur. «Azəri» yatağından çıxarılan səmt qazı hesa-

bına il ərzində əlavə olaraq təxminən 500–600 milyon kubmetr qaz alacağıq. Elədirmi?

**N a z i m  S ə m ə d z a d ə:** 800 milyon kubmetr.

**İ l h a m  Ə l i y e v:** Düzdür, 800 milyon kubmetr söz veriblər. Amma mən gözlənilən reallığı deyirəm. Gələn ilin sonunda istismara veriləcək «Şahdəniz» yatağı əlavə qazın verilməsinə imkan yaradacaqdır. Ona görə, hələ minimum 1-2 il bu problem olacaqdır. Ona görə yox ki, bunu həll eləmirik, yaxud bunu həll etmək çətindir. Yox, xətlər təmir olunur. Hətta bizim Azərbaycanı İranla birləşdirən magistral xəttimiz də təmir olunub və iki aydan sonra istismara veriləcəkdir. Sadəcə olaraq, qaz azdır. Bu elə problemdir ki, biz istəsək də, hələlik buna tam şəkildə nail ola bilmirik. Amma bütövlükdə, bu bölgədə qazla təminat keçən illərə nisbətən yaxşılaşıbdır.

Azərbaycanda yolların – magistral və şəhərlərarası yolların çəkilməsi geniş vüsət alıbdır. Ona görə bu bölgəyə aid məsələləri Nəqliyyat naziri indi məruzə etsin.

**Z i y a  M ə m m ə d o v** *(Nəqliyyat naziri)*: Ulu öndərimiz Heydər Əliyevin müəyyən etdiyi strateji xətt çox layiqincə davam etdirilir. Cənab Prezident, Azərbaycan iqtisadiyyatının bütün sahələrinə göstərdiyiniz diqqət nəqliyyat sektoruna da çox böyük uğurlar gətirir. Sizin birbaşa rəhbərliyiniz nəticəsində Azərbaycanın infrastrukturu inkişaf edir və tələbiniz ondan ibarətdir ki, ölkədə gedən bütün işlər müasir standartlara cavab verməlidir. Sizin tapşırığınızdan sonra şimal istiqamətində Bakı–Rusiya sərhədi avtomobil yolunun yenidən qurulmasına hazırlıq işləri görülür. Sizin sərəncamınızla müəyyənləşmiş kredit sazişi Çexiyanın «İxrac» Bankı tərəfindən təsdiqlənmişdir. 180 milyon dollar vəsait hesabına Giləzidən Rusiya sərhədinə, Samur–Dəvəçi kanalı (SDK) deyilən əraziyədək yol çəkiləcəkdir. Hazırda müsabiqə elan olunub, bir neçə şirkət ərizələrini təqdim etmişdir. Sentyabrın əvvəlindən bu yolun yenidən qurulmasına başlanacaqdır.

Bakıdan Rusiya sərhədinə qədər 208 kilometr məsafədə yol 4 zolaqlı olacaqdır. Ortada təhlükəsizlik zolağı olacaq ki, bu da sürücülərə rahat şərait yaradacaqdır. Dəvəçi, Siyəzən və Quba şəhərlərini nəzərə alaraq, magistral yolun yerini bir az dəyişdirmişik. Əsas magistraldan dönmə yeri Xaçmaz istiqamətinə gələcək, sonra Qusar ərazisindən mövcud magistrala çıxaraq sərhədə gedəcəkdir.

**l h a m Ə l i y e v:** Yeni magistral hansı yerdən sonra salınacaqdır?

**Z i y a M ə m m ə d o v:** Dəvəçiyə qədər magistral mövcud vəziyyətdə gələcək, sonra Dəvəçi şəhərinin arxa hissəsindəki dağların arasından keçəcəkdir.

**İ l h a m Ə l i y e v:** Yəni şəhərin içindən keçməyəcək, bütün maşınlar şəhərdən kənardan gedəcəkdir?

**Z i y a M ə m m ə d o v:** Bəli. Hazırkı yol şəhər nəqliyyatının hərəkətinin tənzimlənməsində problem yaradır və xüsusilə insanların təhlükəsizliyi ilə birbaşa bağlıdır. Bəzən uşaqlar sürətlə hərəkət edən maşınların qarşısına çıxır və hətta bir neçə dəfə ölüm hadisəsi baş vermişdir. Ona görə Sizin bu tapşırığınızı icra etmək məqsədi ilə layihədə bunları nəzərə almışıq.

**İ l h a m Ə l i y e v:** Ondan sonra şəhərlərlə birləşmə yolları çəkiləcəkdir. Məsələn, magistraldan Dəvəçiyə gəlmək üçün yol çəkiləcəkdir.

**Z i y a M ə m m ə d o v:** Bəli, bu, Dövlət Proqramında da nəzərdə tutulubdur. Nazirlər Kabinetinin yol haqqında təsnifatı da qəbul olunubdur. Nəqliyyat Nazirliyinin balansında 18 min kilometr yol vardır. Rayon-şəhərdaxili və kəndləri birləşdirən yollar da bu təsnifatda əksini tapıbdır. Birinci mərhələ ondan ibarətdir ki, turizmin inkişafını, daxili və tranzit yüklərin daşınmasını nəzərə alaraq, Azərbaycanda olan 4 min kilometr baş magistral yollar təmir ediləcəkdir. Paralel olaraq, Sizin tapşırığınızla dövlətin ehtiyatında olan vəsaitlər hesabına daxili yolların çəkilişinə başlanılır. Yəni Azərbaycan öz vəsaiti hesabına yollarını bərpa edir.

Azərbaycanın bütün istiqamətlərində avtomobil yollarının bərpası birbaşa, cənab Prezident, Sizin tapşırığınız, diqqət və qayğınızın nəticəsidir. Əgər nəzərə alsaq ki, il yarım bundan əvvəl ölkəmizin avtomobil yolları dözülməz vəziyyətdə idi, indi bərpa edilir, problemlər aradan qaldırılır, insanların gediş-gəlişi üçün lazımi şərait yaradılır.

Möhtərəm prezidentimizin tapşırığı ondan ibarətdir ki, bütün bu işlər beynəlxalq standartlara cavab verməlidir. Əvvəllər yol xidmətində olan zavodlar, texnika sıfır vəziyyətində idi, bir çox hallarda özəlləşdirmə təyinatı üzrə getməmişdi. Zavodlar asfalt istehsalını dayandırmış və mövcud texnika tamamilə sıradan çıxmışdı. İndi 300-ə yaxın texnika gətirmiş, müxtəlif bölgələrdə 11 zavodu yenidən qurmuşuq və bu proses davam edir. Çünki yolçəkmə texnologiyasına görə, asfalt 50 kilometrdən artıq aralıdan gətirilməməlidir. Bu məsafədən çox olanda asfalt soyuyur, yola döşənəndə keyfiyyətini itirir. İndiyədək 20-dək zavodu bərpa etmişik. Bunlar az da olsa, asfalt istehsal edirlər. Kompüterlə təchiz edilmiş asfaltdöşəyən texnika gətirmişik. Dövlət imkanlarına görə vəsait ayırır. Bu il 150 milyard manat vəsait ayrılıbdır. Lakin bu, kifayət etmir. Ona görə möhtərəm prezidentimiz beynəlxalq maliyyə qurumlarından kreditlərin alınmasına böyük önəm verir ki, yeni yollar dünya standartlarına uyğun çəkilsin. Yaxın üç ildə Azərbaycanın avtomobil yolları müasir tələblərə uyğun qurulacaq, bu da, cənab Prezident, Sizin adınız ilə bağlı olacaqdır.

**İlham Əliyev:** Bakıdan Rusiya sərhədinədək yolun tikintisindən sonra bu bölgə daha da inkişaf edəcəkdir. Yol inkişafın əsas amilidir. Azərbaycanda uzun illər ərzində yol tikintisinə vəsait ayrılmırdı. Səbəbi də o idi ki, imkanımız yox idi, büdcəmiz buna imkan vermirdi. 1990-cı illərin əvvəllərində Azərbaycanın üzləşdiyi çətin siyasi və iqtisadi problemlər imkan vermirdi ki, yol infrastrukturuna lazımi səviyyədə sərmayə qoyulsun. Çünki yola qoyulan vəsait, bəlkə də, 5–10 ildən sonra özünü doğruldacaqdır. Yəni birbaşa gəlir

gətirmir. Sadəcə, yolun salınması, digər infrastruktur obyektlərinin yaranması bütövlükdə inkişafın təmin olunmasına xidmət göstərir. Ancaq ölkəmizin o qədər ciddi problemləri var idi ki, yol təsərrüfatına ayrılan xərclər çox az idi. Bir də beynəlxalq maliyyə qurumları bu layihələrə kreditlərin ayrılmasına tələsmirdilər.

Misal üçün, Böyük İpək yolunun bərpasının maliyyə təminatı görün nə qədər vaxt aparır. Müxtəlif beynəlxalq maliyyə qurumları ilə neçə vaxt danışıqlar getdi. Dünya Bankı, İslam İnkişaf Bankı, müxtəlif fondlarla danışıqlar aparıldı ki, vəsait ayrılsın. Ancaq Azərbaycan Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla icra edilən neft strategiyasını tam mənada işə salandan sonra, ölkəmizə valyuta axını başlanandan sonra, Neft Fondunda böyük vəsaitin yaranması təmin olunduqdan sonra kreditlərin verilməsi asanlaşdı. Nə üçün? Çünki maliyyə qurumları bütün riskləri ölçüb-biçir – əgər hansısa ölkədə maliyyə vəziyyəti yaxşı deyilsə, o ölkəyə kreditin verilməsi böyük problemdir.

Bu gün kreditin götürülməsi Azərbaycan üçün problem deyildir. İstənilən məbləğdə istənilən layihəyə kredit götürə bilərik və Bakı–Rusiya sərhədi yolunun maliyyə təminatı bunun əyani təzahürüdür. Ancaq eyni zamanda, bu gün Azərbaycanın büdcəsi artır. Keçən ilə nisbətən xərclər təxminən 45 faiz artıbdır. Gələn il minimum bu qədər də artım gözlənilir. Məqsəd qoyulubdur ki, gələn ilin büdcəsi 3 milyard dollar təşkil etməlidir. Bu o deməkdir ki, büdcəmiz bu ilə nisbətən 800 milyon dollar çox olacaqdır. Vəsaitin böyük əksəriyyəti investisiya layihələrinə sərf olunmalıdır: yeni elektrik stansiyaları, sosial obyektlər, sənaye müəssisələri, infrastruktur və yol. Gələcək illərdə həm magistral yolların, həm də şəhərlərarası yolların çəkilməsi prioritet məsələ olmalıdır. Hər bir yolun tikintisi inkişafa əlavə təkan verir. Bunu biz hamımız yaxşı bilirik. Bu məqsədə çatmaq üçün əməli addımlar atırıq. Sentyabrda Bakı–Rusiya sərhədi

yolunun inşasına başlanacaq və təxminən iki il yarıma qurtaracaqdır.

**Z i y a  M ə m m ə d o v:** Cənab Prezident, Baş nazir tərəfindən Sizə məlumat verilib ki, bu yolun ümumi dəyəri 280 milyon dollara bərabərdir. 100 milyon dollar kredit ayrılması barədə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə razılaşma olubdur. Əlaqədar nazirliklərlə də razılaşdırılıb, Sizə təqdim edilibdir.

**İ l h a m  Ə l i y e v:** Bəli. Bu onu göstərir ki, Azərbaycanda gedən ümumi inkişaf beynəlxalq maliyyə qurumları tərəfindən də qəbul edilir. Çox böyük göstəricidir ki, ölkəyə 100, 200, 300 milyon dollar kredit gətirilir. Bunların da hamısı, yenə də deyirəm, Heydər Əliyevin uzaqgörənliyinin, müdrikliyinin, neft strategiyasının nəticəsidir. Azərbaycanın neft sənayesinə milyardlarla dollar pul qoyulubdur, Azərbaycan etibarlı tərəfdaş kimi tanınır. Ona görə Azərbaycan iqtisadiyyatının digər sahələrinə kreditin cəlb olunması bizim üçün asanlaşıbdır. Bakı–Rusiya sərhədi yolunun maliyyələşmə məsələləri çox qısa müddətdə həll olundu. Hətta ilk mərhələdə bu məsələdə iştirakı olmayan Avropa Bankı da maraq göstərirdi. Çünki ilk danışıqlar Çexiyanın «Eksim» Bankı ilə aparılmışdı, kredit sazişi imzalanmışdı. Bundan sonra Avropa Bankı istədi ki, özü də iştirak eləsin. Nəyə görə? Çünki bilirdi ki, kredit vaxtında faizi ilə qaytarılacaq, Azərbaycanda infrastruktur layihələrinə verilən vəsaitlərdən səmərəli istifadə olunur.

Eyni mənzərə, məsələn, enerji sahəsində də müşahidə olunur. İndi Sumqayıt elektrik stansiyasına 300 milyon avro kredit verilir. Bakıdakı «Şimal–2» elektrik stansiyasına yüz milyonlarla dollar pul ayrılıbdır. Bütün bunlar onu göstərir ki, ölkəyə, onun gələcəyinə böyük inam var, etibar var. İnam var ki, Azərbaycanın iqtisadiyyatı inkişaf edəcək. İnam var ki, Azərbaycanda sabitlik qorunub saxlanacaq. İnam var ki, Azərbaycan möhkəm dövlətə çevriləcək. Hazırda alınan kreditlərin həcmi bəlkə də 1 milyard dollara yaxınlaşır. Nəq-

liyyat sektorunda, enerji sektorunda, başqa sektorlarda. Bu bizə imkan verir ki, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirək. Biz o kreditləri qaytaracağıq. Buna nə bizim şübhəmiz var, nə bu kreditləri bizə verən təşkilatların şübhəsi var. İndi bizim valyuta ehtiyatlarımız 2 milyard dollardır. Gələn il daha da artacaqdır. Biz gərək bu puldan səmərəli istifadə edək. İnfrastruktur layihələri, elektrik stansiyaları, qaz təchizatı, yolların salınması, bölgələrin abadlaşdırılması, məktəblərin tikintisi – hamısı kompleks şəkildə olmalıdır.

Əlbəttə ki, bizim üçün, bəlkə də yeni olan bir sahə – turizmin inkişafı da çox böyük önəm daşıyır. Mən iki gün bundan əvvəl Xaçmazda sahibkarlarla görüşdə bir daha gördüm ki, turizm sahəsinin inkişafı artıq sürətlə gedir. Bir il bundan əvvəl Qubada olarkən kredit yarmarkasında bəlkə də bir və yaxud iki turizm layihəsi var idi. Özü də sərmayə həcmi çox az idi və görürdün ki, buna o qədər də böyük maraq yoxdur. Amma bir il ərzində görün buna maraq nə qədər artıb və bunun böyük potensialı var. Azərbaycanda sülh var, əmin-amanlıq var, sabitlik var, gözəl təbiət var, dəniz var, dağlar var, çaylar var, tarixi abidələr var, gözəl insanlar yaşayır, mehribanlıq, qonaqpərvərlik, gözəl mətbəximiz var. Turizmin inkişafı üçün bütün şərait var. Ona görə indi bu, Azərbaycanda prioritet sahəyə çevrilib və mən çox şadam ki, Gənclər, İdman və Turizm Nazirliyi bununla çox ciddi məşğuldur. İndi nailiyyətlər haqqında məruzə edin.

**Əbülfəs Qarayev:** (*Gənclər, İdman və Turizm naziri)*: Respublikamızın, o cümlədən şimal bölgəsinin gəncləri adından, cənab Prezident, gənclərə göstərilən qayğıya görə, dərin minnətdarlığımı bildirərək demək istəyirəm ki, bu günlər Qubada iki il bundan öncə bəlkə də heç ağlımıza gətirmədiyimiz böyük, Avropa səviyyəli bir tədbir keçirilir. Bunun da gerçəkləşməsi Sizin təşəbbüsünüzlə, təkidinizlə və təşkilatçılığınızla Qubada yaradılmış müasir Olimpiya İdman Kompleksinin olması ilə bağlıdır. Bu gün bütün Avropa

ölkələri gündə 6 saat müddətində birbaşa yayımla Qubada keçirilən yarışları seyr edir. Sizin buraya səfəriniz zamanı Xaçmazda yeni idman məktəbinin, turizm informasiya mərkəzinin açılışı, bu gün Qusarda böyük iki layihənin başlandığını elan etməyiniz, sözsüz ki, bu zonanın ciddi inkişafına, habelə gənclərimizin sağlam həyat sürməsinə və idmanla məşğul olmasına, Azərbaycanın gələcəyinə böyük nikbinliklə baxmağa böyük zəmin yaradır.

Ulu öndərimiz Heydər Əliyev hələ 1980-ci illərdə bu zonanın inkişafı haqqında çox ciddi təşəbbüslər irəli sürmüşdü. Vaxtilə SSRİ hökuməti Azərbaycanın şimal-şərq hissəsində ümumittifaq səviyyəli kurort zonasının yaradılmasına dair qərar qəbul etmişdi, lakin bu məsələ uzandı, sonra da Sovet İttifaqı dağıldı. Ancaq indi Sizin apardığınız siyasətin nəticəsində biz tədricən bu proqramın həyata keçirilməsinə yaxınlaşırıq.

Təkcə son 3 ildə Azərbaycanda 52 yeni hotel və ona bərabər tutulan müəssisə yaradılıbdır. Bu müddətdə Azərbaycana gələn turistlərin sayı 25–30 faiz artmışdır. Sözsüz ki, bu təkcə turizmin inkişafı ilə deyil, həm də iqtisadi vəziyyətlə, Azərbaycanda olan sabitliklə bağlıdır. Qubada və Xaçmazda (xüsusilə Nabranda) hər birində eyni vaxtda min turist qəbul etmək mümkündür. Mən demək istəməzdim ki, bunlar hamısı yüksək səviyyədədir. Bəzi sahibkarlar tikinti zamanı normalara riayət etmirlər. Lakin son vaxtlar biz bu işlərə nəzarət edirik. İndi Xaçmazda eyni vaxtda 5 min adam istirahət edə bilir. Orta hesabla bir adam bir həftə dincəlirsə, deməli, bir ay müddətində Xaçmaz rayonunda 20 minə qədər adam istirahət edə bilir.

**İlham Əliyev:** Müxtəlif yerlərdə?

**Əbülfəs Qarayev:** Cənab Prezident, hamısı özəl sektora məxsusdur.

**İlham Əliyev:** Bəs fərdi qaydada qalanlar var?

**Əbülfəs Qarayev:** Bəli, var. Cənab Prezident, Siz bu gün belə bir fikir söylədiniz ki, qış idman növlərini inkişaf

etdirmək üçün infrastruktur haqqında da düşünmək çox vacibdir və Siz tapşırıq vermisiniz. Mən xahiş etmək istərdim ki, yolun çəkilməsi də nəzərdə tutulsun. Çünki yol olmasa, oraya heç kim getməyəcək.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, şəksiz çəkilməlidir. Özü də yüksək səviyyədə. Yol olmasa, orada kompleksin tikintisi mənasızdır.

**Ə b ü l f ə s  Q a r a y e v:** Cənab Prezident, bu zona, turizmin müxtəlifliyi baxımından Azərbaycanda bəlkə də nadir bir yerdir. Dəvəçi limanının ovçuluq potensialı haqqında da düşünməyə dəyər. Oraya böyük maraq var və mövsüm zamanı orada ov edirlər. Yəqin ki, bunun lazımi səviyyədə təşkili üçün müvafiq orqanlara, o cümlədən bizim nazirliyə tapşırıq verilsə, bu proqramın üzərində də işləyə bilərik.

**İ l h a m  Ə l i y e v:** Ovçuluq və turizm, siz bununla məşğul olmalısınız.

**S ü n d ü s  B a b a y e v a :** Dəvəçidən dənizə qədər məsafə 12 kilometrdir. Vaxtilə Moskvadan da həvəskarlar quş ovuna gələrdilər. Ora indi Respublika Ovçular İttifaqınındır...

**Ə b ü l f ə s  Q a r a y e v:** Orada heç bir iş görülmür.

**İ l h a m  Ə l i y e v:** Görülmürsə, gərək onu balansdan balansa keçirək.

Əgər hansısa qurumun nəzdindədirsə, o qurum buna biganə yanaşırsa, heç bir iş görmürsə, onda qalmağının heç bir mənası yoxdur. Təklif verin, həll edək.

**Ə b ü l f ə s  Q a r a y e v:** Cənab Prezident, Siz tamamilə düzgün qeyd elədiniz ki, bu zonanın müalicəvi mineral sularından səmərəli istifadə edilməsi üçün də geniş imkan var. Qalaaltıdan əlavə, Xaçmaz və Qusar rayonlarında da bulaqlarımız var və müalicəvi suyu olan bu yerlərə də turistləri cəlb edə bilərik. Sovet dövründə bu bölgələrdə uşaqların istirahəti üçün düşərgələr var idi. Hazırda Dəvəçidə və Siyəzəndə belə düşərgələr fəaliyyətdədir. Lakin yaxşı olardı

ki, onlar yeni tipli müəssisələr kimi formalaşsın. Biz bu barədə Dövlət Proqramına daxil edilmək üçün təkliflər vermişik. Elə hesab edirəm ki, bütün rayonlarda gənclər evlərinin yaradılması da lazımdır. Artıq bu yaxınlarda Qubada yer müəyyənləşdirmişik və orada gənclər evinin yaradılmasına başlayırıq.

Cənab Prezident, Siz tamamilə düzgün tələb edirsiniz ki, əgər biz nəyisə yaradırıqsa, bu, beynəlxalq standartlara cavab verməlidir. Lakin əfsuslar olsun ki, turizm üçün yararlı yerlər ayrı-ayrı adamlara verilir, onlar da tikinti işlərini necə gəldi aparırlar. Hətta Nabranda heç bir sanitariya normaları gözlənilmir, çirkab suları birbaşa dənizə axırdı və orada dincələnlər çox böyük narazılıqlarını bildirirdilər. Son vaxtlar tikilənlərdə bu problem, demək olar ki, yoxdur və biz bunu nəzarətdə saxlayırıq. Xahişimiz ondan ibarətdir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və bizim nazirliyimiz turizm üçün yararlı yerlərin ayrılması zamanı mütləq bunun perspektivlərini nəzərə alsınlar və bu sahədə vahid siyasət həyata keçirilsin. Çünki indi yeni müasir kompleksin yaradılması üçün biz artıq fərdi adamlardan torpaq almaq məcburiyyəti qarşısındayıq. Ümumiyyətlə, Azərbaycanın turizm potensialı çox ümidvericidir və Siz bu gün bəyan etdiniz ki, bu, ölkəmiz üçün prioritet istiqamətdir. Hesab edirik ki, Azərbaycanda Sizin daxili və xarici siyasətiniz sayəsində qorunub saxlanılan sabitlik, Azərbaycan həqiqətlərinin bütün dünyaya yayılması nəticəsində ölkəmizə maraq artmaqdadır. İnanıram ki, yaxın 7–10 il müddətində Azərbaycanın böyük turizm potensialına malik olan ölkəyə çevrilməsi mümkündür və bu işdə bizi dəstəklədiyinizə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Azərbaycanda turizmi kompleks şəkildə, dövlət səviyyəsində, proqram çərçivəsində inkişaf etdirməliyik. Bütün işlər uzunmüddətli strategiyamıza uyğun

aparılmalıdır. Ona görə mən bu təklifi bəyənirəm. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin birgə fəaliyyəti zəruridir. Siz təklifləri hazırlayın və biz qərar qəbul edək. Çünki düz deyirsiniz, kimsə gedir hansısa yolla torpaq alır, o torpaqda da heç nə etmir, oranı hasarlayır. Sonra hansısa bir müəssisəni yaratmaq üçün, turizm obyektini yaratmaq üçün gərək gedəsən ondan o torpağı alasan. Buna yol vermək olmaz. Azərbaycanın müxtəlif zonaları üzrə yaxşı təcrübəmiz var. Hansı turizm obyektləri harada tikilməlidir – bu, müəyyən olunmalıdır, ona xidmət edəcək infrastruktur obyektləri də müəyyən edilməlidir. Su, qaz xətləri, yollar da həmçinin. Ondan sonra müsabiqə yolu ilə özəl sektora, daxili və xarici investorlara təklif olunmalıdır. Kim onu inkişaf etdirmək, kim pul qazanmaq istəyirsə, gəlsin, işləsin. Ancaq kompleks şəkildə.

Təklifləri hazırlayın və təqdim edin. Bir də ki, bunu təkcə turizm obyektlərinin yaranmasına aid etməyin. Məsələn, burada qeyd olundu ki, yeni salınan yaşayış massivində elektrik enerjisi yoxdur. Massiv salınanda fikirləşmirdilər ki, elektrik enerjisi problemdir. Evləri tikiblər, indi deyirlər ki, elektrik enerjisi yoxdur. Bu, təkcə sizin rayonunuzda deyil, təəssüflər olsun ki, müxtəlif yerlərdə belədir. Yeni massivlər salınanda mütləq bütün bu məsələlər öz əksini tapmalıdır. Gərək bunlar kompleks şəkildə həll olunsun. Turizmin geniş inkişafı üçün də bütün məsələlər – qaz, su, elektrik enerjisi təminatı, yolların çəkilməsi – həll olunmalıdır.

**İsmət Abasov** *(Kənd Təsərrüfatı naziri)*: Cənab Prezident, əsası ümummilli liderimiz tərəfindən qoyulmuş aqrar islahatların nəticəsi artıq öz bəhrəsini vermişdir və indi bu sahədə davamlı inkişaf gedir. 2004-cü ildə və son altı ayda imzaladığınız 5 tarixi sənəd aqrar sahədə çalışan insanlar tərəfindən çox yüksək qayğı və kömək, ümummilli liderin layiqli davamçısı kimi, Sizin apardığınız siyasətin davamı kimi qiymətləndirilir.

Biz artıq bir çox ərzaq məhsullarını idxal edən ölkədən indi onları ixrac edən ölkəyə çevrilmişik. Məhsul istehsalının artırılması ilə emal müəssisələrinin yaradılmasına ehtiyac duyulacaq və gələcəkdə emal məhsullarını ixrac edəcəyik. Bunun da nəticəsində ölkəmizə külli miqdarda vəsait daxil olacaqdır.

Bu il 2 milyon 230 min ton və ya ötən ildəkindən 92 min ton çox taxıl yığılacağı gözlənilir. Pambıq əkinləri 35,2 min hektar artırılaraq 112,9 min hektara çatdırılmışdır. Mövsümün sonuna 185 min ton məhsul gözlənilir ki, bu da ötən ildəkindən 50 min ton çoxdur. Cari ildə 70,6 min hektardan 1 milyon tondan çox kartof, 78 min hektardan 1 milyon 100 min tondan çox tərəvəz və 360 min ton bostan məhsulu götürüləcəyi proqnozlaşdırılır. 82,5 min hektar bağlardan 580 min tondan çox meyvə yığılacağı və bunun da təxminən 150 min tonunun ixrac ediləcəyi gözlənilir.

Dövlət büdcəsi hesabına 2005-ci ildə 100 milyard manatlıq, 2006-cı ildə isə 150 milyard manatlıq texnika alınacaqdır. 100 milyard manatlıq texnikanın alınması üçün müsabiqə keçirilib və texnika artıq alınıb Azərbaycana gətiriləcəkdir. Sizə çox təşəkkürümü bildirmək istəyirəm ki, bizə icazə verdiniz ki, cəmiyyətin bazalarının sayını artıraq.

Sizin sərəncamınızla yaradılmış «Aqrolizinq» Səhmdar Cəmiyyəti işə başlayarkən biz bütün iqtisadi rayonlarda bazalar yaradılmasını nəzərdə tutmuşduq. Ancaq onlara yeri biz ayırmırıq.

**İlham Əliyev:** Kim ayırır?

**İsmət Abasov:** İqtisadi İnkişaf Nazirliyi.

**İlham Əliyev:** Niyə ayırmırlar, səbəbi nədir?

**İsmət Abasov:** Cənab Prezident, bu günə qədər ayrılmayıbdır.

**İlham Əliyev:** Biz «Aqrolizinq»i nə vaxt yaratdıq?

**İsmət Abasov:** 23 oktyabr 2004-cü ildə.

**İlham Əliyev:** Təxminən bir il vaxt keçib, bu vaxta qədər yer ayrılmayıbdır. Bu nə deməkdir? Dözülməz bir

haldır. Bunu dərhal etmək lazımdır. Sadəcə, siz də gərək bu barədə mənə vaxtında məruzə edəydiniz. Biz nəyə görə «Aqrolizinq»i yaratdıq? Yaratdıq ki, hər bir iqtisadi rayonda baza olsun, ona yer ayrılsın və o baza da işləsin. Texnikanı versinlər kəndlilərə, kəndlilər də icarəyə götürüb işləsinlər, məhsuldarlığı artırsınlar.

Mən xatırlayıram, biz «Aqrolizinq»i yaradanda da bəziləri, necə deyərlər, fəaliyyət davasına çıxmışdılar ki, kim bununla məşğul olacaq? Mən o vaxt dedim ki, bu işlə Kənd Təsərrüfatı Nazirliyi məşğul olacaqdır. Biz kənd təsərrüfatının inkişafı üçün böyük proqramlar həyata keçirməliyik. Kənd Təsərrüfatı Nazirliyi, demək olar ki, yenidən formalaşıbdır. Bir neçə başqa təşkilatlar ona birləşibdir. Yəni kənd təsərrüfatı sahəsində siyasəti aparan nazirlik Kənd Təsərrüfatı Nazirliyidir. Başqa nazirliklər ki, siz qeyd elədiniz – Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, onlar bu işdə sizə sadəcə olaraq, kömək etməlidir. Amma xatırlayıram ki, o vaxt bu məsələyə baxılanda səlahiyyət davası başlanmışdı. Mən buna son qoydum. Səlahiyyət davası bizdə bir xəstəlikdir. Hamı istəyir ki, hər şey ona bağlı olsun. Nəticə etibarilə sonra vəziyyət daha da ağır olur. Ümumiyyətlə, son zamanlar bu, Azərbaycanda bir meyldir – hamı istəyir ki, səlahiyyətləri artırılsın. Səlahiyyət artdıqca, şişirlər. Onun da nəticəsi pis olur. Ona görə mən bunu sizə tapşırmışam, sizdən də soruşacağam. Kim ki, bu işdə maneçilik törədir, yaxud da ki, öz vəzifə borclarını yerinə yetirmir, ciddi tədbir görəcəyəm.

Bilirsiniz, bu bizim, necə deyərlər, ümumi siyasətimizdir. Kənd təsərrüfatına aid olan bütün məsələlər bir nazirlikdə cəmləşməlidir. Ona görə biz bunu yenidən formalaşdırdıq. Eyni yanaşma «Azərsu» Səhmdar Cəmiyyətinin yaranmasında da özünü göstərdi. Bizdə su ilə məşğul olan təşkilatların sayı çox idi, amma heç bir məqsəd daşımırdı. Biri Dövlət Tikinti və Arxitektura Komitəsində idi, biri «Abşeronsu»da idi. «Abşeronsu» Bakıya və Abşerona baxırdı. Başqa rayonlar baxırdı Tikinti Komitəsinə. Ona görə biz onu yığdıq, bir

səhmdar cəmiyyəti yaratdıq. Bu yaxınlarda «Azəristilik-təchizat» Səhmdar Cəmiyyəti yaradıldı. Yenə də mən soruşuram, Azərbaycanda istilik məsələsi ilə kim məşğul olurdu? Heç kim bir iş görmür, heç kim məşğul olmurdu. İndi biz vahid bir qurum yaratdıq və o, bütün istilik sistemi ilə məşğul olacaqdır. Bakı və Sumqayıtda, başqa iri şəhərlərdə, ondan sonra bütün rayonlarda istilik sisteminin işi ilə məşğul olacaqdır. Yəni bu bizim siyasətimizdir ki, sahələr üzrə, istiqamətlər üzrə məsuliyyətli qurum müəyyən olunur və bütün məsələləri həll edir, mən də ondan soruşuram.

**İsmət Abasov:** Cənab Prezident, bir məsələni də istəyirəm ki, diqqətinizə çatdıram. «Aqrolizinq»in fəaliyyətə başlaması üçün Kənd Təsərrüfatı Nazirliyindən nə lazım idisə, biz bir gün də gecikdirməmişik. Nazirlər Kabineti bu il martın 31-də «Aqrolizinq»in fəaliyyət göstərməsi barədə qərar vermişdir.

**İlham Əliyev:** Bir neçə ay keçəndən sonra. Mən bunu bilirəm. Siz mənə məruzə elədiniz. Mən maraqlandım ki, bunun Əsasnaməsi haradadır. Biz onu oktyabr ayında yaratdıq, bir neçə aydan sonra maraqlandım, Əsasnamə yoxdur. Belə də iş olar? Ona görə mən Nazirlər Kabinetinə, başqa nazirlərə irad tutdum. Bilmirəm nəyə görə bu «Aqrolizinq»in yaranmasına belə münasibət var? Çox ögey münasibət göstərilir. Bu mənim üçün qaranlıqdır və mən buna dözmək fikrində deyiləm. Mən qərar qəbul edirəm və hamı da o qərarı icra etməlidir. Beş ay onlar uzatdılar. Ondan sonra neçə ay İqtisadi İnkişaf Nazirliyi uzatdı. Bir il keçir üstündən, hələ bazalar yoxdur. Belə şey olar?!

**İsmət Abasov:** Cənab Prezident, əmin ola bilərsiniz ki, Kənd Təsərrüfatı Nazirliyi bir gün də gecikdirməyibdir.

**İlham Əliyev:** Siz gecikdirmədiniz, amma vaxtında mənə məlumat vermirsiniz.

**İsmət Abasov:** Cənab Prezident, bu barədə məktubla İqtisadi İnkişaf Nazirliyinə müraciət eləmişik. Bir neçə dəfə Baş nazirə yazılı surətdə müraciət etmişəm. Bu

yaxınlarda Sizə məruzə etmək fikrim var idi, çünki artıq müsabiqə keçirilmişdir. Mən özüm «Aqrolizinq»in fəaliyyətə başlaması üçün nazirliyimizdə otaqlar ayırdım. Bu günə qədər «Aqrolizinq»ə mərkəzi bina da ayrılmamışdır.

Cənab Prezident, bizə 4 baza ayırmaq nəzərdə tutulur. Əfsuslar olsun ki, bu günə kimi nə mərkəzi aparat, nə də bazalar var.

Cənab Prezident, torpaqların münbitliyinin azalması barədə Sizə məlumat vermişdim. Siz mənə göstəriş verdiniz ki, gübrə alınması məsələsini tez bir zamanda araşdıraq. İlkin mərhələdə təxminən 100 min ton gübrənin alınmasına ehtiyac duyulur ki, buna da cari ildə təxminən 100 milyard manat vəsait tələb olunur.

**İ l h a m   Ə l i y e v:** Bizdə bu ilin büdcəsində bu vəsait nəzərdə tutulmayıbdır. Ona görə gərək fikirləşək ki, hansı yolla bunun, heç olmasa, bir hissəsini təmin edək. Burada mexanizm necə olacaq? Siz bunu alacaqsınız, sonra «Aqrolizinq» vasitəsilə kəndlilərə pulsuz verəcəksiniz, yoxsa satacaqsınız?

**İ s m ə t   A b a s o v:** Cənab Prezident, fikrimiz belədir ki, əgər məsləhət olsa, vəsait ayrılarsa, «Aqrolizinq» vasitəsilə lizinq formasında sahibkarlara veriləcəkdir.

**İ l h a m   Ə l i y e v:** Gübrə? Lizinq formasında traktor verilə bilər.

**İ s m ə t   A b a s o v:** Mən nəzərdə tuturam ki, verəcəyik, istifadə etdikdən sonra pulunu qaytaracaqlar.

**İ l h a m   Ə l i y e v:** Yəni ki, bəri başdan pul almadan verəcəksən.

**İ s m ə t   A b a s o v:** İmkanı olanlar pulunu ödəyə bilərlər.

**İ l h a m   Ə l i y e v:** Yəni pul ödəmədən bunu götürsünlər, ondan istifadə etsinlər, məhsulu satandan sonra pulunu qaytarsınlar.

**İ s m ə t   A b a s o v:** İmkanı olanlar bir hissəsini öncədən ödəyərlər, bir hissəsini də məhsulu yığandan sonra.

**İ l h a m Ə l i y e v:** Ya da ki, kredit formasında ola bilər. Məsələn, bir ilin ərzində. Məhsulu götürəndən sonra qaytararlar. Yaxşı, təklifinizi verin baxaq, görək vəsaiti haradan tapırıq.

**İ s m ə t A b a s o v:** Cənab Prezident, bir məsələni də deyim. Sahibkarlar kreditlərin ayrılması barədə mənə çox müraciət edirlər. Ölkə büdcəsindən ötən il 100 milyard manat ayrılmışdısa, bu il Sizin tərəfinizdən bu məbləğ iki dəfə artırılaraq 200 milyard manat olmuşdur. Gələn il üçün bu məbləğ 400 milyard manata çatacaqdır. Ancaq kənd təsərrüfatı məhsullarının istehsalı ilə birbaşa məşğul olan insanlara bu vəsaitin çox az hissəsi çatır.

**İ l h a m Ə l i y e v:** Necə yəni az çatır? Mən soruşmuşdum ki, bu verilən kreditlərin strukturu nədir? Mənə dedilər ki, bunun 95 faizi rayonlara paylanır. Tam əksəriyyəti də kənd təsərrüfatı ilə məşğul olanlara verilir.

**İ s m ə t A b a s o v:** Cənab Prezident, icra hakimiyyəti başçıları da buradadırlar, bəli, vəsaitlər regionlara ayrılır. Ancaq əsas hissəsi – 94 faizi, demək olar ki, emal sahəsinə verilir. Yəni birbaşa torpaqda işləyən, məhsulları istehsal edən insanlar bunun çox cüzi hissəsini alırlar.

**İ l h a m Ə l i y e v:** Baxmaq olar. Hər halda, yəqin ki, biz gərək müəyyən bir mexanizm hazırlayaq və bilək ki, verilən kreditin neçə faizi gedir, tutaq ki, turizmin inkişafına, neçə faizi emal müəssisələrinə, neçə faizi kənd təsərrüfatında birbaşa istehsalla məşğul olanlara. Çünki bunların hamısı lazımdır. Emal da vacibdir. Emal müəssisələri yaratmasaq, məhsul harada emal edilsin? Özünüz deyirsiniz ki, o qədər meyvə yığılır ki, satmağa yer yoxdur. Əgər emal müəssisəsi yoxdursa, nə etməliyik?

**Ə b ü l f ə s Q a r a y e v:** Cənab Prezident, üzr istəyirəm, yəqin ki, məlumatın əldə olunmasında problem vardır. Turizm üzrə ayrılan kreditlər haqqında əksər hallarda bizim nazirliyin xəbəri yoxdur. Məsələn, Dövlət Proqramında nəzərdə tutulan layihələrə kredit ayrılmır, amma başqa

yerlərə ayrılır. Ona görə mən xahiş etmək istərdim ki, tutaq ki, kənd təsərrüfatına kredit ayrılanda, heç olmasa, nazirliyə məlumat verilsin ki, onlar da bunu bilsinlər. Yaxud da bizə məlumat verilsin ki, turizmə nə qədər verildi.

**İ l h a m Ə l i y e v:** Yəni hansı sahəyə verilməsi barədə.

**İ s m ə t A b a s o v:** Cənab Prezident, göstərilən qayğı və diqqətə görə Sizə həm öz adımdan, həm də aqrar sahədə çalışan bütün fermerlər və sahibkarlar adından təşəkkür edirəm. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Kənd təsərrüfatının böyük potensialı var, böyük gələcəyi var. Azərbaycan iqtisadiyyatında çox mühüm rol oynayan bir sahədir və bunun inkişafı ölkəmizin hərtərəfli tərəqqisi üçün çox vacibdir. Bu həm sahibkarlığın inkişafına təkan verəcək, həm də qeyri-neft sektorunun inkişafına kömək göstərəcəkdir. Azərbaycanda vaxtilə 1 milyon ton pambıq istehsal olunubdur. İndi siz deyirsiniz 185 min ton. Bu da böyük nailiyyətdir, çünki 2-3 il bundan əvvəl haradasa 90 min, ondan da az, 80 min ton idi. 2-3 ilin ərzində böyük artım olubdur. Amma yenə də 1 milyon hara, 185 min hara! Yaxud da ki, Azərbaycanda 2 milyon ton üzüm istehsal olunurdu. Bu il nə qədər olacaqdır?

**İ s m ə t A b a s o v:** Təxminən 185 min ton gözlənilir. Amma sevindirici bir haldır ki, ötən il və bu ilin altı ayında 2 min hektar yeni üzümlük salınmışdır və gələn illərdə artıq ilk məhsulunu verəcəkdir.

**İ l h a m Ə l i y e v:** Bütün görülən işlər bu məqsədə xidmət edir. Kəndli necə məhsul yetişdirsin? Pul yox, texnika yox, gübrə yox. Nə eləsin? Ona görə də gəlin biz kömək edək. «Aqrolizinq»i yaratdıq ki, texnika versin. Təkcə bu il 250 ədəd kombayn, 250 ədəd traktor, başqa texnika gətirəcək.

**İ s m ə t A b a s o v:** Başqa kənd təsərrüfatı texnikası – kultivator, kotan və s. 585 ədəd.

**İ l h a m Ə l i y e v:** Digər tərəfdən, sahibkarlara yardım şərtilə kreditlərin verilməsi. Üçüncü istiqamət isə, o dediyiniz gübrənin alınmasıdır, onu da həll eləyin. Biz gərək kəndlilərə

bunları verək ki, kəndli də məhsul götürsün, özü yaxşı yaşasın, inkişaf olsun və əlbəttə ki, emal müəssisələri də yaransın.

Etibar Pirverdiyev, «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti, mən bölgələrdə tez-tez oluram, soruşuram. Mən bu bölgədə olarkən, ondan əvvəl Göyçayda, Ağdaşda, Şamaxıda olarkən təxminən hamı deyir ki, problem yoxdur. Yəni 24 saat, yaxud da ki, 22 saat işıq verilir. Bu məni çox sevindirir. Çox müsbət haldır, yəni həmişə deyirik ki, gərək mütləq belə olsun. İndi görülən işlər haqqında məruzə edin.

**Etibar Pirverdiyev** *(«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti)*: Mən müşavirənin keçirilməsinin şimal bölgəsinin sosial-iqtisadi inkişafına mühüm təsir göstərəcəyini bildirirəm. Qışa hazırlıqla bağlı elektrik stansiyalarında planlı təmir işləri aparılır. Cənab Prezident, Sizin tapşırığınıza əsasən biz bütün rayonları 24 saat ərzində elektrik enerjisi ilə təmin etməyə çalışırıq. Hazırda Azərbaycan DRES-də beşinci blokda yenidənqurma işləri aparılır. İşi «Siemens» və Rusiyanın «Siloviye maşını» şirkətləri birgə görürlər. Stansiyanın səkkiz blokunun hamısında yenidənqurma işləri aparıldıqdan sonra həm onun gücü artacaq, həm də 430 min ton mazuta qənaət ediləcəkdir. Kredit ayrılması ilə bağlı Avropa Yenidənqurma və İnkişaf Bankı ilə danışıqlar, demək olar, başa çatmışdır.

**İlham Əliyev:** Kreditin ayrılması nə vaxt gözlənilir?

**Etibar Pirverdiyev:** Problem ondadır ki, onlar bizə daha bir kredit təklif edirlər. Amma biz qəbul etmirik.

**İlham Əliyev:** Əvvəllər biz istəyirdik, vermirdilər. İndi deyirlər götürün, biz deyirik ki, lazım deyildir.

**Etibar Pirverdiyev:** Şərtləri çox yüngülləşdiriblər.

**İlham Əliyev:** Biz çıxılmaz vəziyyətdə olanda elə şərtlər qoyurdular ki, məcbur olub onları qəbul edirdik. Baxın, əlverişli şərtlər deyilsə, biz büdcədən də vəsait ayıra bilərik.

**E t i b a r  P i r v e r d i y e v:** Sərfəli şərtlərdir. Cənab Prezident, Siz bölgələrdə yeni güclərin yaradılması ilə bağlı qarşımızda proqram xarakterli vəzifə qoydunuz. Bu yöndə işlər davam etdirilir. Astara rayonunda ayrılmış ərazidə stansiyanın bünövrəsinin qoyulmasına hazırlıq işləri gedir. Yaxın 1-2 ay ərzində Sizin razılığınızla orada təməlqoyma mərasimi ola bilər. Eyni zamanda, Şəki rayonunda 90, Bakı şəhərində 106, Naxçıvan şəhərində 90 meqavatlıq stansiyaların quraşdırılması nəzərdə tutulubdur. Naxçıvanda bu ilin sonuna qədər dizel yanacağı ilə işləyən turbinlərin qaz yanacağına keçirilməsi üçün tədbirlər görülür. Nəticədə biz bu bölgədə 90, 50, 140 meqavatlıq yeni güclər əldə edəcəyik. İrandan qaz almaq imkanımız var. Gələn ildən biz Naxçıvanın enerjiyə olan tələbatını tam şəkildə ödəyəcəyik.

**İ l h a m  Ə l i y e v:** İrandan alınacaq kredit nə yerdədir?

**E t i b a r  P i r v e r d i y e v:** Kreditlə bağlı bütün məsələlər Sizin sərəncamınız əsasında həll olunubdur. Bankla bağlı problemimiz var. Onlar kreditin açılması üçün bizdən 1 faiz pul istəyirlər. Bu, böyük məbləğdir. Artıq Beynəlxalq Bankla razılıq əldə etmişik.

**İ l h a m  Ə l i y e v:** Həll etmək lazımdır. Kiçik həcmli stansiyaların biri, deyəsən, bu bölgəyə aiddir, Xaçmazda olacaqdır?

**E t i b a r  P i r v e r d i y e v:** Bəli. Artıq yer ayrılıbdır. Bu bölgənin enerji təchizatı hazırda Giləzi və Siyəzən xətləri vasitəsilə həyata keçirilir. Bu xətlərdən biri 1950, digəri 1956-cı ildə çəkilmişdir. Onların vəziyyəti texniki cəhətdən çox yararsızdır, elektrik enerjisinin ötürülməsində ciddi itkiyə məruz qalırıq.

**İ l h a m  Ə l i y e v:** Xaçmazda 90 meqavatlıq stansiya quraşdırılandan sonra burada enerji qıtlığı problemi nə dərəcədə aradan qaldırılacaq? Axı bu stansiya təkcə Xaçmaz üçün deyil, region üçün nəzərdə tutulubdur.

**E t i b a r  P i r v e r d i y e v:** Cənab Prezident, vaxtilə ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə

Rusiya ilə Azərbaycan arasında 330 kilovoltluq sistemlərarası xətt çəkilmişdi. Həmin vaxt Gürcüstanla Azərbaycan arasında da belə bir xətt çəkilmişdi. Təəssüf ki, 1990-cı illərin əvvəllərində bu xətlərin müəyyən hissəsi dağıdılıbdır.

**İlham Əliyev:** Oğurlanıb satılıbdır. Azərbaycanın o vaxtkı rəhbərliyinin bilavasitə iştirakı ilə bütün müəssisələrin infrastrukturu dağıdılıb, o cümlədən elektrik naqilləri kəsilib satılıbdır. Ölkə dağıdılırdı. Bu yaxınlarda Nazirlər Kabinetinin iclasında dediyim kimi, biz ancaq hələ bu il 1990-cı ilin səviyyəsinə gəlib çatmışıq. Görün Azərbaycana rəhbərlik edən bu bacarıqsız adamlar bizə nə qədər ziyan vurublar! Onların məqsədi satmaq, dağıtmaq, varlanmaq idi, başqa bir şey yox idi. Yaratmaq, qurmaq onlara yad bir məsələ idi.

**Etibar Pirverdiyev:** Cənab Prezident, elə o vaxt nəzərdə tutulmuşdu ki, Xaçmazda Yaşma–Dərbənd xəttinin 230 kilovoltluq «Xaçmaz» yardımçı stansiyasına giriş-çıxışı təmin edilsin. Lakin bu layihə həyata keçirilmədi. Mən Sizə məlumat verəndən sonra göstəriş verdiniz ki, bu yardımçı stansiya tikilsin. Hazırda İslam İnkişaf Bankı ilə kreditin şərtləri barədə danışıqlar aparılır.

**İlham Əliyev:** Xaçmazda 90 meqavatlıq stansiya tikiləndən sonra burada qış aylarında enerjiyə tələbat nə dərəcədə yaxşılaşacaq?

**Etibar Pirverdiyev:** Cənab Prezident, ciddi şəkildə yaxşılaşacaq, problemlər, demək olar, tam aradan qalxacaqdır.

**İlham Əliyev:** Mən Şəmsəddin Xanbabayevdən soruşdum, dedi ki, 60 meqavat işlədirlər.

**Şəmsəddin Xanbabayev:** İndi 35 meqavat işlədirik.

**İlham Əliyev:** Bəs edir?

**Şəmsəddin Xanbabayev:** Keçən il 45 meqavat işlədirdik. Sayğacları qoyandan sonra 10 meqavat qənaət edirik. Amma qış aylarında 65–70 meqavat lazımdır.

**İlham Əliyev:** Bəs nə qədər alırsınız?

**Şəmsəddin Xanbabayev:** Az alırıq. Kəndlərdə çatışmır, cədvəllə verilir.

**Etibar Pirverdiyev:** Cənab Prezident, əsas tələbat axşamlar 3-4 saat ərzində olacaqdır. Bunu Abşerondan çatdıra biləcəyik.

**İlham Əliyev:** İtkilər də azalacaqdır.

**Etibar Pirverdiyev:** İtkilər çox ciddi şəkildə azalacaqdır.

**İlham Əliyev:** Stansiyalar həm də başqa bölgələrdə – Şəkidə, Naxçıvanda, Bakıda quraşdırılacaqdır.

**Etibar Pirverdiyev:** Cənab Prezident, bütün bölgələrdə texniki itkilər azalacaqdır. Müəyyən hesablamalar aparmışıq. Xaçmaz bölgəsi ilə bağlı onu deyə bilərəm ki, 330 kilovoltluq yardımçı stansiya tikildikdən sonra 10-25 meqavat arasında itkilərimiz olacaqdır. Hazırda qışda itkilərimiz 20 meqavata çatır.

**İlham Əliyev:** Hər halda, görülən tədbirlər nəticəsində bu il, gələn il böyük stansiyaların («Şimal», Sumqayıt) tikintisindən sonra Azərbaycanda elektrik enerjisi qıtlığı olmamalıdır.

**Nazim Səmədzadə** *(«Azəriqaz» Səhmdar Cəmiyyəti sədrinin müavini)*: İlk növbədə, bizim qlobal layihəmiz olan Naxçıvan Muxtar Respublikasını təbii qazla təmin etmək məsələsi qarşımızda qoyulmuşdur. Bir il ərzində, demək olar ki, 18 layihə üzrə bütün müsabiqələri keçirdik və artıq birinci mərhələdə nəzərdə tutulmuş işləri tam başa çatdırmaqdayıq. İnşallah, sentyabrın əvvəlində Astara sərhədindən İrana təbii qazın 55 atmosfer təzyiqlə verilməsi və oktyabrın əvvəlindən Naxçıvan Muxtar Respublikasına çatdırılmasında işlər, demək olar ki, yekunlaşacaqdır. İndi biz Naxçıvan Muxtar Respublikasında 23 mindən çox abonentə təbii qaz vermişik. Muxtar respublikada yenidən qurulan istilik-elektrik mərkəzinin qaz təchizatına da nail olacağıq.

**İlham Əliyev:** Bu bölgəyə ayrılan diqqət ilə tam razıyam. Şimal bölgəsinin tələbatı nə dərəcədə ödənilir?

**N a z i m  S ə m ə d z a d ə:** Respublikanın şimal bölgəsi əsasən idxal olunan magistral qaz kəmərinin üzərində yerləşir. Siyəzən rayonundan savayı, digər rayonlar idxal qazı ilə təmin olunur. Hazırda bu magistral qaz kəmərində lazımi səviyyədə təzyiq var, yəni texniki baxımdan imkan verir ki, biz rayonları təbii qazla tam təmin edək. Magistral qaz kəməri də, ondan ayrılan qollar da, qazpaylayıcı stansiyalar da yaxşı vəziyyətdədir. Hazırda şimal bölgəsində 34 minə yaxın abunəçi təbii qazdan istifadə edir. Bu, təxminən 50–55 faizi təşkil edir.

Cənab Prezident, biz regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq, hər bir bölgə üzrə texniki-iqtisadi əsaslandırmalar hazırlamışıq. 2008-ci ilə qədər nəzərdə tutduğumuz bu proqramı həyata keçirmək üçün 180 milyard manatdan artıq vəsait tələb olunur. Proqramı üç mərhələyə bölmüşük. Birinci mərhələdə təbii qazla keçmişdə təmin olunan rayon mərkəzləri və kəndlərin, ikinci mərhələdə xətlərdə müəyyən təmir işlərinə ehtiyacı olan kəndlərin, üçüncü mərhələdə indiyədək qazlaşdırılmayan kəndlərin təbii qazla təmin olunması nəzərdə tutulur. Birinci mərhələ üzrə, işlər əslində tamamlanıb və rayon mərkəzləri demək olar ki, təbii qazla tam təmin olunubdur. Təkcə Qusar və Xaçmaz rayonlarında problemimiz var.

**İ l h a m  Ə l i y e v:** Onları da həll edin.

**N a z i m  S ə m ə d z a d ə:** Baş üstə, cənab Prezident. Ancaq verilən təbii qazın haqqının ödənişində vəziyyət yaxşı deyildir.

**İ l h a m  Ə l i y e v:** Mən demişəm ki, kimin imkanı yoxdursa, ödəməsin. İndi deyirlər, heç kim ödəmək istəmir, deyir, mənim imkanım yoxdur.

**N a z i m  S ə m ə d z a d ə:** Biz tapşırıq vermişik ki, aztəminatlı, kasıb ailələrə fərdi yanaşsınlar. İstərdik rayon icra hakimiyyətlərinin başçıları da bizə kömək etsinlər. İlin altı aylıq nəticəsinə görə ödəniş faizi Qusar rayonunda 40 faiz, Quba rayonunda 36 faiz, Dəvəçi rayonunda 23 faiz,

Siyəzən rayonunda 22,3 faiz, Xaçmaz rayonunda 26 faiz təşkil edir.

**İ l h a m Ə l i y e v:** Sonuncu yerdə Siyəzən rayonudur. Ancaq deyir ki, qazla problem yoxdur, qazı 100 faiz alırsınız, pulunu da ödəyin. Orta əməkhaqqı Azərbaycan üzrə 561 min manat, Siyəzəndə 590 min manatdır. Qazı da 100 faiz alırlar, amma pulunu vermirlər. Belə şey olar? Siz gərək 100 faiz ödəyəsiniz.

**M ö v s ü m B ə d i r x a n o v:** Baş üstə, çalışarıq.

**İ l h a m Ə l i y e v:** Sizdən soruşdum ki, işsizlik var, dediniz, yoxdur. Əməkhaqqı da 590 min manatdır.

Mən bu yaxınlarda bu məsələyə toxundum, doğrudan da, qiymətlər artdıqdan sonra kasıb təbəqədən tələb etmək olmaz. Ona görə gərək vətəndaşlar bu işə məsuliyyətlə yanaşsınlar. Kimin imkanı varsa, mütləq ödəməlidir. Yəqin yerli icra hakimiyyəti orqanları da bilirlər ki, kimin imkanı var, kimin imkanı yoxdur. Eşidirəm, deyirlər ki, prezident dedi ödəmə, mən də ödəmirəm, kasıbam, pulum yoxdur. Belə olmaz, gərək biz yığımı təşkil edək. Bizim qonşu Gürcüstanda 1000 kubmetr qazın qiyməti 150 dollardır, amma yığım 100 faizdir. Bizdə isə 48 dollardır. Orada orta aylıq əməkhaqqı bizdəki kimi 120 dollar deyil, aşağıdır. Gərək vətəndaşlar bu işə məsuliyyətlə yanaşsınlar və yerli orqanlar da kömək etsinlər.

**N a z i m S ə m ə d z a d ə:** Cənab Prezident, qəribə də olsa, qazın pulunu ödəyən kasıblardır.

**İ l h a m Ə l i y e v:** Görürsünüz, siz kasıb olmayanları möhkəm sıxışdırın.

**N a z i m S ə m ə d z a d ə:** Siyahılar hazırlayırıq, rayon icra hakimiyyətlərinə təqdim edəcəyik.

**İ l h a m Ə l i y e v:** Hazırlayın. Ödəməyənlərin siyahılarını dərc edin, televiziyada deyin. Qoy utansınlar. İmkanı olanlar ödəmirlərsə, qoy utansınlar.

**N a z i m S ə m ə d z a d ə:** Cənab Prezident, qaz sayğaclarının quraşdırılması ilə bağlı Sizin tapşırığınızı

yerinə yetiririk. 126 mindən artıq sayğac quraşdırılıbdır. Bu il quraşdırılanlar 55 mindən yuxarıdır.

**İlham Əliyev:** Sayğac quraşdırılandan sonra fərq görünür? Yəqin qənaət daha çoxdur.

**Nazim Səmədzadə:** Elə adam var ki, sayğac istəmir.

**İlham Əliyev:** Səbəbi nədir?

**Nazim Səmədzadə:** Yəni, normativlə az çıxır.

**İlham Əliyev:** Bəs deyirsiniz ki, normativlə qışda çox çıxır.

**Nazim Səmədzadə:** Şimal bölgəsində qaz zox işlənilir.

**İlham Əliyev:** Yəni, normativ real vəziyyətdən daha da əlverişlidir. Bəs elektrik sayğacları necə, Şəmsəddin Xanbabayev dedi ki, sayğac quraşdırandan sonra vəziyyət yaxşıdır.

**Şəmsəddin Xanbabayev:** Cənab Prezident, çox yaxşıdır, kəndlərdə də yaxşıdır. Hamı razıdır.

**Nazim Səmədzadə:** Cənab Prezident, biz araşdırmırıq ki, bunun xeyri var, ziyanı var. Biz proqramı yerinə yetiririk, sayğacları quraşdırırıq.

**İlham Əliyev:** Bunu etməliyik. Bir də bütün texniki işləri başa çatdırmalıyıq. İndi qaz çatmır. 4 milyard kubmetr özümüz hasil edirik, 4,5 milyard kubmetr də alırıq. Əslində, Rusiyanın «Qazprom» şirkəti ilə bizim müqaviləmiz 5,5 milyard kubmetr idi. İndi onu vermir, məktub yazıb ki, vermirəm. Bizə qaz başqa haradan gəlsin? Yoxdur. Amma özümüz hasil edəndə olacaq. Ona görə gərək elə edək ki, qaz tam həcmdə olanda bütün xətlər saz vəziyyətdə olsun. İcra hakimiyyətlərinin başçıları ilə birgə işləyin. Təkcə bu bölgədə yox, bütün bölgələrdə gərək icra hakimiyyətlərinin başçıları yığıma kömək etsinlər.

# YEKUN NİTQİ

Müşavirə çox səmərəli oldu, çox vacib məsələlər müzakirə edildi. Əminəm ki, bölgənin indi və gələcək üçün vacib olan məsələləri bu gün öz həllini tapıbdır və tapacaqdır. İqtisadiyyatın müxtəlif sahələrini və gedən prosesləri təhlil etdik. Yolların çəkilməsi, kənd təsərrüfatının, turizmin, sahibkarlığın inkişafı – bütün istiqamətlərdə işlər daha da sürətlə getməlidir. Görülən işlər məni qane edir, mövcud olan bütün problemlərə baxmayaraq, çox sürətlə inkişaf edirik. Əlbəttə ki, enerjiyə olan tələbat da daha böyük həcmdə ödənilməlidir.

Məktəblərin tikintisinə də toxunuldu. Bu bizim böyük problemimizdir. Azərbaycanda 400–500-dən çox məktəb var ki, yararsız vəziyyətdədir, uzun illərdir təmir olunmur. Bəziləri qəza vəziyyətindədir. Heydər Əliyev Fondu tərəfindən qəza vəziyyətində olan məktəblərin tikintisi təşəbbüsü irəli sürülmüşdür. 130-dan çox məktəb tikilir. Sentyabrın 15-nə onlar hazır olacaqlar. Amma bununla məsələ bitmir. Bu çox böyük, genişmiqyaslı və çox böyük vəsait tələb edən proqramdır. Gələn ilin büdcəsində bunu nəzərdə saxlamalıyıq. Bizim uşaqlarımız müasir şəraitdə oxumalıdırlar, məktəblərin istilik sistemləri olmalıdır, uşaqlar qışda üşüməməlidirlər. Partalar, digər ləvazimatlar olmalıdır. Biz indi bütün məktəbləri internet sisteminə qoşuruq. 4500 məktəbdə kompüter sinifləri olacaqdır. Kompüter sinfi olan yerdə gərək başqa şərait də yaxşı olsun. Amma yenə də deyirəm, uzun illər bu sahəyə vəsait az ayrılırdı, yəni imkan daxilində ayrılırdı. Bu gün imkan var və gələn ilin büdcəsində böyük həcmdə vəsait nəzərdə tutmalıyıq ki, məktəblərin tikintisi sürətlə getsin. Azərbaycanda yararsız vəziyyətdə olan bir dənə də məktəb qalmamalıdır.

Bu gün daha çox iqtisadi-sosial məsələlərə vaxt sərf etdik və bu da təbiidir. Bu bölgənin böyük potensialı var. İnkişaf

sürətlə gedir. Ancaq eyni zamanda, gərək başqa məsələləri də unutmayaq. İlk növbədə insanlara qarşı münasibət, diqqət, qayğı yüksək səviyyədə olmalıdır. Mən bütün bölgələrdə olarkən icra hakimiyyətlərinin başçılarından bunu tələb edirəm. Məmnunam ki, bu sahədə işlər görülür.

Mənə çoxlu ərizələr verilir, şikayət məktubları verilir. Bütün bu məktublar yığılır, təhlil olunur. Onların, demək olar ki, əksəriyyəti şəxsi məsələlərlə bağlıdır. Kiminsə xəstəsi var, kimsə xahiş edir ki, müalicəyə göndərilsin. Kiminsə qohumu, yaxud əri, ya qardaşı həbsdədir. Belə məktubların sayı həddən artıq çoxdur və xahiş olunur ki, onların işlərinə yenidən baxılsın, yaxud da əfv olunsunlar. Təhlil onu göstərir ki, əhalini narahat edən ümumi məsələlərin məktublarda əks olunması azalır. Yəni bu o deməkdir ki, ümumi məsələlər öz həllini tapır.

Əhalini narahat edən ciddi məsələlər, tutaq ki, elektrik enerjisi, su, qaz, yaxud hansısa bir ədalətsizlik, belə hallar azalır. Ərizələrdə daha çox xahişlər, müraciətlər səslənir. Bu, müsbət bir haldır və onu göstərir ki, ölkədə ciddi problemlərin kəskinliyi azalmaqdadır. Bu, görülən işlərin nəticəsində, aparılan və davam etdirilən islahatlar nəticəsində yaranmış vəziyyətdir. Bütövlükdə onu göstərir ki, ölkə düzgün istiqamətdə inkişaf edir. Çünki bu məktublar mənə uzun illərdir ki, gəlir. Hələ mən Milli Məclisin deputatı kimi fəaliyyət göstərəndə həmişə bütün məktublara cavab verirdim, onları təhlil edirdim. Əlbəttə, indi məktubların sayı qat-qat çoxalıbdır. Təhlil aparanda bunu görürük. Bu da müsbət haldır. Ancaq fərdi qaydada vətəndaşların ərizələrinə daha da böyük diqqətlə yanaşılmalıdır. Harada imkan varsa, kömək edilməlidir. İmkan yoxdursa, mərkəzi orqanlara müraciət olunmalıdır. Mən demişəm  əgər insanı heç nə narahat etmirsə, incitmirsə, o heç vaxt ərizə ilə saatlarla gözləməyəcək, heç vaxt başqa rayondan, şəhərdən mən gələn yerə gəlməyəcək. Əgər gəlirsə, deməli, onu doğrudan da nəsə narahat edir. Ona görə, insanlara diqqət göstərmək, onlara xidmət etmək bizim vəzifəmizdir və icra hakimiyyətlərinin başçılarından tələb edirəm ki, bu məsələyə daim böyük diqqət göstərsinlər.

Parlament seçkiləri yaxınlaşır, noyabr ayında seçkilər keçiriləcəkdir. Seçkilərə hazırlıq çox yaxşı gedir. Lazım olan bütün məsələlər öz həllini tapır. Bilirsiniz ki, bir müddət bundan əvvəl mən seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam imzaladım. Artıq seçki kampaniyasına başlanmışdır. Kampaniya çox rahat, sakit keçir. Artıq yüzlərlə insan seçki vərəqələrini almışdır. Deputatlığa namizəd olmaq, parlamentə seçilmək istəyirlər. Bu onu göstərir ki, seçkilərə və seçkilərin ədalətli keçiriləcəyinə insanların inamı çox böyükdür. Əgər bu olmasaydı, indiyədək 400–500 insan öz namizədliyini irəli sürməzdi. Özü də onların tam əksəriyyəti cəmiyyətdə o qədər də tanınmayan insanlardır. Əgər onlar öz namizədliklərini irəli sürürlərsə, deməli, inanırlar ki, seçkilər ədalətli keçəcəkdir. Bu, həqiqətən də belədir. Mən əminəm ki, seçkilər ədalətli keçəcək, Azərbaycan xalqının iradəsi, 2003-cü ildə keçirilmiş prezident seçkilərində olduğu kimi, tam mənada öz əksini tapacaqdır.

Yerli icra orqanlarından tələb edirəm ki, seçkilərin ədalətli, şəffaf keçirilməsi üçün şərait yaratsınlar. Bütün namizədlərə eyni şərait yaradılmalıdır. Mitinqlərin keçirilməsi üçün, namizədlərin insanlarla görüşlərini təşkil etməsi üçün lazımi şərait yaradılmalıdır, heç bir maneçilik törədilməməli, heç bir məhdudiyyət qoyulmamalıdır. Azərbaycan xalqı müdrik xalqdır. Yaxşını pisdən ayıra bilir və dəstəklədiyi namizədə öz səsini verəcəkdir. Yerli icra orqanları seçki prosesinə müdaxilə etməməlidirlər. Şəraiti yaratmalıdırlar, amma bu prosesə müdaxilə etməməlidirlər. Biz seçkiləri ən yüksək səviyyədə keçirməliyik və keçirəcəyik də. Əminəm ki, yeni formalaşacaq parlament Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir. Xalqın arzularını yerinə yetirəcək və Azərbaycanda demokratiyanın inkişafına növbəti böyük və güclü təkan veriləcəkdir.

Mən bir daha demək istəyirəm ki, bu müşavirə çox səmərəli keçdi. Sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycanın Prezidenti kimi, mən öz vəzifə borclarımı bundan sonra da inamla yerinə yetirəcəyəm. Mən xalqın dəstəyinə, inamına arxalanıram. Mənim güc mənbəyim də xalqdır. Xalq məni

seçib, mənə inanıb, mən də gərək xalqa ləyaqətlə xidmət edim və bunu etməyə çalışıram.

Sizə də tövsiyə edirəm ki, öz yerinizdə səmərəli işləyəsiniz. Mövcud olan bütün problemləri həll edəsiniz, insanlara daha böyük diqqətlə yanaşasınız ki, biz ölkəmizi daha da gücləndirək, zəngin və qüdrətli dövlətə çevirək. Bu işdə sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

* * *

## Heydər Əliyev fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Qusarda internat məktəbində

*Azərbaycan prezidenti İlham Əliyevin Qusar rayonuna səfəri çərçivəsində dövlətimizin başçısının xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Qusar şəhərindəki internat məktəbində olmuşdur.*

*Məktəbin kollektivi hörmətli qonağı böyük səmimiyyətlə, öz doğmaları kimi qarşıladı.*

*Məktəbin yataq və tədris korpusunu gəzən Mehriban xanıma məlumat verildi ki, 1957-ci ildə tikilmiş 189 yerlik bu tədris ocağı sonuncu dəfə 35 il bundan əvvəl əsaslı təmir olunduğuna görə bərbad vəziyyətdədir. Son vaxtlar yerli iş adamı tərəfindən qismən təmir edilsə də, məktəbin problemləri çoxdur. Qazanxana tamamilə sıradan çıxdığına görə qış aylarında böyük çətinlik yaradır. Yeməkxana binası isə istifadə üçün tamamilə yararsız haldadır.*

*Pedaqoji kollektiv Heydər Əliyev Fondu tərəfindən məktəbin təmirinə, avadanlıq və dərsliklərlə təminatına kömək göstəriləcəyi barədə Mehriban xanımın verdiyi məlumatı sonsuz razılıqla qarşıladı.*

*Heydər Əliyev Fondu tərəfindən ölkədə bu il tikiləcək 132 kənd məktəbindən dördü Qusar rayonunun payına düşür. Həmin məktəblərin tikintisinin gedişi ilə yaxından tanış olmaq üçün əvvəlcə köhnə Xudat kəndinə gələn prezidentin xanımını*

*sakinlər ehtiramla qarşıladılar. Mehriban xanım Əliyeva tikinti meydançasına gedərək işlərin gedişi ilə maraqlandı. Məktəbi inşa edən «Azərsu təchizattikinti» Səhmdar Cəmiyyətinin sədri Mirzəcan Xəlilov 12 sinif otağından ibarət 240 yerlik məktəbin sentyabrın 15-dək istifadəyə veriləcəyini bildirdi. «Yeniləşən Azərbaycana yeni məktəb» proqramına uyğun olaraq, Qusarın Gündüzqala kəndində də yeni məktəb binası tikilir. Fondun prezidenti burada da inşaat işlərinin vəziyyəti ilə yaxından maraqlandı. Söhbət zamanı kənd sakinləri uzun illər onları düşündürən və narahat edən məsələnin həllinə görə hörmətli qonağa təşəkkürlərini bildirdilər. İnşaatçılar isə tikinti işlərində kənd camaatının yaxından köməyini xüsusi vurğuladılar.*

*Azərbaycan prezidentinin səmimi salamlarını sakinlərə çatdıran Mehriban xanım onların digər sosial problemlərlə bağlı arzularını dövlətimizin başçısına yetirəcəyini söylədi.*

*Quba rayonu Qımılqazma kəndinin uşaqları indiyədək keçən əsrin əvvəllərində tikilmiş, bir neçə otaqdan ibarət və heç bir şəraiti olmayan binada təhsil almaq məcburiyyətində qalmışdılar. İndi Heydər Əliyev Fondunun təşəbbüsü ilə köhnə məktəbin yerində yeni tədris korpusu ucaldılacaqdır.*

*Mehriban Əliyeva yerli sakinlərlə səmimi görüşdükdən sonra məktəbin inşa olunduğu yerə baş çəkdi, tövsiyələrini verdi. İnşaat işlərini yerinə yetirən Nəqliyyat Nazirliyinin Avtoyol Departamentinin trest rəisi Rauf Həbibov tikinti işlərinin planı barədə məlumat verdi.*

*Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Leyla məktəbin bünövrəsinin qoyulması mərasimində iştirak etdilər.*

*İnşaatçılar müasir tələblərə uyğun istilik və digər kommunikasiya sisteminə malik 20 otaqlı məktəbdə əsas işləri yeni dərs ilinədək başa çatdıracaqlarını bildirdilər.*

*Prezidentin xanımı və qızı məktəblərin hər birində müəllimlər, uşaqlar və inşaatçılarla xatirə şəkli çəkdirdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN VƏ ALMANİYA VOLEYBOL KOMANDALARININ YARIMFİNAL GÖRÜŞÜNÜ İZLƏMİŞDİR

*Quba şəhəri*

*30 iyun 2005-ci il*

*Quba Olimpiya İdman Kompleksində qadınlar arasında voleybol üzrə dünya «Qran-pri» yarışlarının Avropa təsnifat mərhələsinin yarımfinal oyunları keçirilmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan və Almaniya komandalarının oyununu izləmək üçün Olimpiya kompleksinə gəldi. Salona toplaşan çoxsaylı tamaşaçılar dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətli alqışlarla qarşıladılar.*

*Bu görüşü Avropa Voleybol Konfederasiyasının prezidenti Andre Meyer və digər rəsmi şəxslər də izləyirdilər.*

*Azərbaycan və Almaniya yığma komandalarının oyunu voleybolçularımızın tam üstünlüyü ilə keçdi. Almanlar yalnız birinci hissədə voleybolçularımıza müqavimət göstərərək uduzdular (26:28). Voleybolçu qızlarımızın tam üstünlüyü ilə keçən ikinci hissə 25:10 hesabı ilə başa çatdı. Üçüncü hissədə komandamız ciddi müqavimətlə üzləşsə də, qalib gəldi (25:20).*

*Beləliklə, Azərbaycan voleybolçuları güclü Almaniya komandası üzərində 3:0 hesabı ilə qələbə qazanaraq, final görüşünün nəticəsindən asılı olmayaraq, 2006-cı ildə İtaliyada keçiriləcək dünya «Qran-pri» yarışlarının finalında oynamaq hüququ qazanmışlar.*

*Prezident İlham Əliyev Azərbaycan və Almaniya komandalarının görüşündən sonra «Lider» televiziyasına müsahibə verdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin «Lider» televiziyasına müsahibəsi

**M ü x b i r: Cənab Prezident, Milli Olimpiya Komitəsinə rəhbərliyə başladığınız vaxtdan qarşıya qoyduğunuz vəzifələrə nə dərəcədə nail olmusunuz?**

**İ l h a m Ə l i y e v:** Səkkiz il çox tez keçdi. Mən o günü çox yaxşı xatırlayıram. Səkkiz il bundan əvvəl Milli Olimpiya Komitəsinin rəhbərliyinə gəldim. Bu illər ərzində mənim həyatımın, fəaliyyətimin bir hissəsi idmanla bağlı olmuşdur. Bu illər ərzində uğurlar həddindən artıq çoxdur. Azərbaycanda idman geniş vüsət aldı, kütləvi xarakter aldı. Ölkəmizin müxtəlif şəhərlərində gözəl olimpiya kompleksləri tikildi. İdmançılarımız beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında Azərbaycanın milli bayrağını yüksəklərə qaldırdılar. Azərbaycanda komanda idman növləri inkişaf etdi. Bugünkü qələbə bunun əyani təzahürüdür.

Bir neçə il bundan əvvəl bütün bunları heç təsəvvür etmək mümkün deyildi. İki il bundan əvvəl təsəvvür etmək mümkün deyildi ki, Qubada 8 milli komandanın iştirakı ilə beynəlxalq turnir keçiriləcəkdir. Bütün bunlar görülən işlərin, Azərbaycanda gedən inkişafın nəticəsidir.

Bugünkü qələbə məni çox sevindirir. Çox güclü rəqib üzərində tam üstünlüklə qələbə qazanıldı. Bizim qızlarımız çox gözəl oyun nümayiş etdirirlər. Görün nə qədər insan sevinc içindədir, nə qədər böyük ruh yüksəkliyi var. İdman bu baxımdan da çox vacib sahədir. İnsanlarda ruh yüksəkliyi doğurur, gənclərimizin vətənpərvərlik ruhunda böyüməsində, tərbiyə olunmasında idmanın müstəsna rolu vardır. Qazanılan bütün uğurları bir müsahibə çərçivəsində demək çətindir. Hər halda, nəticələr göz qabağındadır. Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınır.

**M ü x b i r: Cənab Prezident, Siz təxminən bir il bundan əvvəl bu bölgəyə səfər etmişdiniz. İndi də gəlmisiniz. Burada nə kimi dəyişikliklər gördünüz?**

**İ l h a m Ə l i y e v:** Dəyişikliklər görünür. Bu bir il ərzində Qubada, Qusarda, Xaçmazda ciddi dəyişikliklər baş vermişdir. Şəhərlər abadlaşır, yeni iş yerləri açılır, müəssisələr işə salınır, insanların əhval-ruhiyyəsi yüksək səviyyədədir. Əlbəttə, müqayisə etmək mənim üçün çətin deyil, çünki düz bir il bundan əvvəl burada idim.

Çox sevinirəm ki, Azərbaycanın, demək olar, hər yerində inkişaf özünü büruzə verir. Ölkə sürətlə inkişaf edir. Mənim fəaliyyətimin prioritet istiqamətlərindən biri də odur ki, regionların inkişafına böyük diqqət göstərilsin. Azərbaycanın güclənməsi regionların hesabına olmalıdır, insanların yaşayış səviyyəsi yüksəlməlidir. Paytaxtla bölgələr arasındakı fərq azalmalıdır. Bu da var. Bu həm görülən işlərin nəticəsidir, həm də ümumi iqtisadi inkişafın təzahürüdür. Yəni, inkişaf olmayan yerdə bu dəyişikliklər baş vermir. Mən çox sevinirəm ki, Azərbaycanın bölgələri inkişaf edir, bölgələrdə yaşayan insanların həyat səviyyəsi yaxşılaşır.

Gələn il də gələcəyəm və yəqin ki, daha yaxşı nəticələri görəcəyəm.

**M ü x b i r: Dediyiniz kimi, Qubada keçirilən yarışda 8 ölkənin komandaları iştirak edir. Avropanın idman federasiyaları olducqa həssasdırlar, hər bir məsələyə çox diqqətlə yanaşırlar. «Lider» televiziyasının «Eurosport» telekanalı ilə əməkdaşlığı sayəsində Qubada keçirilən yarış bütün Avropaya və dünyanın bir çox başqa ölkələrinə də birbaşa yayımlanır. Yəqin ki, ekrandakı «Quba» sözü xarici idmansevərləri təəccübləndirir. Çünki öyrəşiblər ki, belə yarışlar, adətən, Bakıda keçirilir. Necə bilirsiniz, gələcəkdə Azərbaycanın digər idman komplekslərində də yüksək səviyyəli yarışlar keçirilməsinə im kan olarmı?**

**İ l h a m Ə l i y e v:** Hər halda, belə imkan var. Bu gün birinci oyunu – Rusiya və Polşa komandaları arasında keçirilən görüşü mən də sizin kanalın yayımı vasitəsilə «Eurosport»da izlədim. Çox sevindim ki, «Eurosport» yarışı canlı yayımlayır və göstərilir ki, yarış Azərbaycanda, özü də paytaxt Bakıda deyil, Qubada keçirilir. Azərbaycanda olimpiya kompleksə-

rinin tikintisi bir tərəfdən, idmançıların məşğul olması, təlim-məşq toplanışları keçirməsi, digər tərəfdən də, beynəlxlaq tədbirlərin keçirilməsi məqsədi güdür. Bakılılar artıq bu cür tədbirlərə öyrəşmişlər. İndi növbə çatıb ki, bölgələrdə belə tədbirlər keçirilsin. Qubada keçirilən bu beynəlxalq yarış ilk belə hadisədir. Şübhə etmirəm ki, gələcəkdə başqa yerlərdə də buna bənzər tədbirlər keçiriləcəkdir. Çünki artıq bu təcrübə var, Beynəlxalq Voleybol Federasiyası bundan əvvəl də buradakı mövcud vəziyyətlə tanış olub və çox razıdır. Bir halda ki, belə təcrübə, necə deyərlər, tarix var, deyə bilərik ki, gələcəkdə başqa yarışlar da keçiriləcəkdir. Azərbaycan dünyada bu cəhtədən daha da məşhurlaşacaqdır.

**M ü x b i r**: **İnanıram ki, Sizin bu müsahibənizi bizim komandanın üzvləri də dinləyəcəklər. Onlara nə demək istərdiniz?**

**İ l h a m Ə l i y e v:** Onları ürəkdən təbrik edirəm. Həm yüksək peşəkarlıq, həm də böyük ruh yüksəkliyi nümayiş etdirdilər, bizim tamaşaçıları sevindirdilər. Bütün Azərbaycan xalqını sevindirdilər. Biz hamımız qürur hissi keçiririk ki, komandamız Avropanın ən güclü komandaları üzərində qələbə qazanmışdır. Mən qızları təbrik edirəm, Faiq Qarayevi təbrik edirəm, onun çox böyük əməyi vardır. Bu yaxınlarda onunla görüşmüşdük və ilk görüşümüzü xatırlayırdıq. Bir neçə il bundan əvvəl görüşdük və söhbət əsnasında belə qərara gəldik ki, o, Bakıya qayıtmalı, komandaya rəhbərlik etməlidir, Milli Olimpiya Komitəsi də onu tam dəstəkləyəcəkdir. Bir tərəfdən, ona şərait yaradıldı, digər tərəfdən də, peşəkarlığı, doğma Vətənə bağlılığı, qızların səriştəsi və bacarığı, eyni zamanda vətənpərvərliyi bütün bu nailiyyətlərin əldə olunmasında rol oynadı. Bu gün biz həqiqətən çox böyük sevinc içindəyik. Qürur hissi keçiririk ki, bizim milli komandamız belə yüksək səviyyədədir. Avropa və dünya çempionatlarına da vəsiqə qazanıbdır və şübhə etmirəm ki, ölkəmizi layiqincə təmsil edəcəkdir.

«Lider» telekanalına təşəkkürümü bildirirəm ki, bu gözəl yarışları canlı efirlə tamaşaçılara təqdim edir. Gələcək fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Sağ olun.

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Qırğızıstan xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri Azərbaycan və Qırğızıstan xalqlarının rifahı naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, Qırğızıstan xalqına əmin-amanlıq, sabitlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU SEYİD SİRACUDDİN PUTRA CAMALULLAİLƏ**

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malayziya arasında dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək  və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza dinc və xoş güzəran arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**MALAYZİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLA ƏHMƏD BADAVİYƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Malayziya arasında dostluq münasibətlərinin, işgüzar əlaqələrin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

# «ATAHOLDİNQ» ŞİRKƏTLƏR QRUPUNA DAXİL OLAN «ATATURİZM» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN 5+ ULDUZLU «EXCELSİOR» HOTELİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ* NİTQ

*Bakı,*
*Nərimanov rayonu ərazisi*

*1 avqust 2005-ci il*

*Mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hotelin önündə böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev hotelin rəmzi açılışını bildirən lenti kəsdi, «Ataİnşaat» tərəfindən 2 il ərzində inşa edilən bina ilə yaxından tanış oldu. «AtaHoldinq» Şirkətlər Qrupunun Məsləhət Şurasının sədri Əhməd Erentok məlumat verdi ki, 22,5 milyon dollara başa gələn «Excelsior» hotelinin tikintisində Türkiyə, ABŞ, Fransa, Almaniya, İtaliya istehsalı olan aksesuar və materiallardan istifadə olunmuş, daxili və xarici görünüşündə isə Avropa üslubuna üstünlük verilmişdir. Bu yaraşıqlı bina bir «İmperial» lüks, iki «Royal» lüks, dörd «Crown» lüks, qırx beş «Heritage» standart, doqquz «Duke» kiçik otaqlardan, iclas otaqları və biznes mərkəzlərindən, restoran və barlardan, sağlamlıq mərkəzindən və s. ibarətdir. Beynəlxalq mühafizə və təhlükəsizlik standartlarına*

---

* Mərasimdə «AtaHoldinq» Şirkətlər Qrupu İdarə Heyətinin sədri Mahir Rəfiyev, Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev, «AtaHoldinq» Şirkətlər Qrupu Məsləhət Şurasının sədri Əhməd Erentok çıxış etdilər.

*uyğun şəkildə inşa edilən 5+ ulduzlu hoteldə qonaqlara 210 nəfər peşəkar heyət xidmət göstərəcəkdir. Hotelin sağlamlıq mərkəzi ən müasir avadanlıqla təchiz olunmuşdur. Müştərilərin kabelsiz internet xidmətindən, 24 saat ərzində ofis xidmətlərindən və s. istifadə etmək imkanı olacaqdır.*

*Bildirildi ki, «Excelsior» hotelinin əsas məqsədlərindən biri Bakını görmək arzusunda olan qonaqlara Azərbaycanı tanıtmaqdır. Onlar burada Azərbaycanın ənənələrini, incəsənətinin çalarlarını hiss edəcəklər. «Excelsior» Azərbaycanın turizm sənayesinə yüksək səviyyəli xidmət standartlarını əks etdirən perspektivlər gətirəcəkdir.*

*Prezident İlham Əliyev hotelin ayrı-ayrı otaqları, xidmət sahələri, salonları, idman qurğuları ilə tanış oldu, yuxarı mərtəbədən ətraflı seyr etdi.*

*Prezident İlham Əliyev Azərbaycan Otüstü Xokkey Federasiyasının yaxınlıqdakı idman bazası ilə də tanış oldu.*

*Federasiyanın prezidenti Fazil Məmmədov məlumat verdi ki, Amerikanın «Astratuf» şirkəti tərəfindən İspaniyadan gətirilmiş xüsusi ot örtüyü olan meydança dünya standartlarına cavab verir. Sentyabrda burada otüstü xokkey üzrə Avropa birinciliyi keçiriləcəkdir. Bütün geyinmə-soyunma otaqları, meydançanın suvarma sistemi tamamilə yenidən qurulmuş, bir sözlə, idmançılara hər cür şərait yaradılmışdır. Bütünlükdə idman bazasına 1 milyon dollar vəsait sərf olunmuşdur.*

*Prezident İlham Əliyev müvafiq otaqları, meydançanı gəzdi, suvarma sistemi ilə tanış oldu, görülən işləri yüksək qiymətləndirdi, xokkeyçilərin məşqinə baxdı.*

* * *

*«AtaHoldinq» Şirkətlər Qrupunun Məsləhət Şurasının sədri Əhməd Erentok dövlətimizin başçısına hotelin qızıl açarını təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Sizin hamınızı «Excelsior» hotelinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu hotelin açılışı çox əlamətdar bir hadisədir. Bu bir daha göstərir ki, Azərbaycan inkişaf edir, öz iqtisadi potensialını gücləndirir və Azərbaycanda ən yüksək dünya standartlarına cavab verən yeni binalar, müəssisələr, hotellər tikilir və istifadəyə verilir. Bu, Azərbaycanda gedən böyük işlərin, böyük inkişafın nəticəsi və təzahürüdür.

Bu gün hotellə tanış olarkən əyani şəkildə gördüm ki, burada dünyada mövcud olan ən yüksək standartlar, bəzi hallarda isə başqa hotellərdə görmədiyim avadanlıq, texnologiyalar tətbiq edilibdir. Mən dünyanın bir çox ölkəsində olmuşam, hotellərdə qalmışam və müqayisə də edə bilirəm. Müqayisə edəndə görürəm ki, «Excelsior» hoteli dünyada mövcud olan ən yüksək standartlara cavab verir. Burada həm dincəlmək, istirahət etmək üçün, həm də səmərəli işləmək üçün gözəl şərait var. Bir məsələni də xüsusilə vurğulamaq istəyirəm ki, burada işlər böyük zövqlə, böyük məhəbbətlə görülübdür. Hotel tikmək olar, hansısa müəssisəni ərsəyə gətirmək olar. Əgər məsələyə yalnız biznes baxımından yanaşılırsa, əlbəttə, bu bizi tam şəkildə qane edə bilməz. «Excelsior» hotelindəki avadanlıq, texnologiya, dizayn onu göstərir ki, bu işə çox böyük məhəbbətlə, zövqlə yanaşılıbdır. Bu, Azərbaycana, Bakıya yaraşıq verən gözəl bir binadır. Həm memarlıq baxımından, həm də ən müasir avadanlığın mövcudluğu baxımından deməyə əsas verir ki, «Excelsior» hoteli bu gün Azərbaycanda ən aparıcı hotellərdən biridir.

Azərbaycanda son illər ərzində baş verən hadisələr, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış siyasi və iqtisadi islahatlar bu gün ölkəmizin çox inamlı inkişafına gözəl şərait yaradıbdır. Vaxt var idi ki, Bakıda dünya standartlarına cavab verən hotel yox idi. Vaxt var idi ki, Azərbaycanda, Bakıda hotellərdə otaqların 40–50 faizi dolurdu. Amma bu gün Bakıda hoteldə yer tapmaq böyük problemdir. Yeni hotellərin yaranması, tikilməsi bu meylin

nəticəsidir. Bu gün Azərbaycan o qədər sürətlə inkişaf edir ki, burada yeni hotellərə də böyük ehtiyac vardır. Şübhəsiz ki, bu həm iqtisadi inkişafın göstəricisidir, həm də Azərbaycanın dünya birliyinə, Avropa Birliyinə inteqrasiyasının nəticəsidir. Çünki Azərbaycana çoxlu heyətlər – həm rəsmi şəxslər, həm də iş adamları gəlir.

Ölkəmizdə turizm inkişaf edir. Bu yaxınlarda şimal bölgəsində olarkən bir daha gördüm ki, Azərbaycanda turizmin inkişafı artıq görünməkdədir. Həm Bakıda, həm də Azərbaycanın müxtəlif yerlərində çox gözəl şərait var. Əlbəttə, ən əlamətdar hadisə odur ki, hotel çox böyük zövqlə tikilib və burada qalan insanlar üçün çox gözəl şərait yaradılıbdır. Bir daha demək istəyirəm ki, memarlıq baxımından da hotel çox cəlbedicidir.

Əminəm ki, «AtaHoldinq» şirkətinin Azərbaycandakı fəaliyyəti bundan sonra da uğurlu olacaqdır. «AtaHoldinq» Azərbaycanda müxtəlif sahələrdə böyük işlər görür, sərmayələr qoyur, Azərbaycanın qeyri-neft sektoruna böyük töhfə verir. Şübhə etmirəm ki, «AtaHoldinq» bundan sonra da Azərbaycanda biznes aləmində çox mühüm yer tutacaqdır.

Qeyri-neft sektorunun inkişafı bizim hamımızın əsas, prioritet vəzifəsidir və bu sektor Azərbaycanda uğurla inkişaf edir. Amma onu da bilirik ki, bu sektorun inkişafına ilk növbədə, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi təkan vermişdir. Əgər 1994-cü ildən başlayaraq dünyanın aparıcı, iri neft şirkətləri ilə müqavilələr bağlanmasaydı, bu cür inkişafa nail ola bilməzdik. Bu gün Azərbaycan iqtisadiyyatın artım sürəti baxımından lider ölkədir. İqtisadiyyat ilin ilk 6 ayında təxminən 17 faiz artıbdır. Bu da dünyada görünməmiş hadisədir və böyük uğurdur.

Sahibkarlığın inkişafı, özəl sektorun Azərbaycanın gələcəyinə inamı belə gözəl hotellərin yaranmasına təsir göstərir. Əgər investorların Azərbaycanın bu gününə və gələcəyinə inamı olmasaydı, Azərbaycanda hökm sürən sabitliyin davam edəcəyinə inamı olmasaydı, əlbəttə, bu qədər böyük sərmayə qoyulmazdı. Əgər bu varsa, deməli, bu inam var. Bu

inam investorlarda var, bu inam Azərbaycan xalqında var, bu inam cəmiyyətdə var.

Mən şübhə etmirəm ki, ölkəmiz daha da sürətlə inkişaf edəcəkdir. 2006-cı il ölkəmizin inkişafı baxımından kəskin şəkildə fərqlənəcəkdir. Baxmayaraq ki, ümumiyyətlə, inkişaf sürətlə gedir, 2006-cı ildə bu özünü daha da qabarıq şəkildə göstərəcəkdir. Nəticə etibarilə Azərbaycan güclənəcək, xalqımız daha da yaxşı yaşayacaq, Azərbaycanda vəziyyət ildən-ilə yaxşılaşacaq və ölkəmiz bölgədə öz liderlik mövqelərini daha da möhkəmləndirəcəkdir.

Əziz dostlar, bu gözəl hotelin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. «AtaHoldinq»ə gələcəkdə uğurlar arzulayıram.

Sağ olun.

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Görkəmli dövlət xadimi, böyük şəxsiyyət Kral Fəhd bin Əbdüləziz Al Səudun vəfatı ilə əlaqədar Azərbaycan xalqının sonsuz kədər hissini ifadə edərək bu əvəzsiz itkinin ağrı-acısını Sizinlə bölüşürəm.

Bütün həyatını öz doğma xalqına sədaqətlə xidmət etmiş Kral Fəhdin islam sivilizasiyasının, ümumbəşəri dəyərlərin qorunub saxlanmasında müstəsna rolu olmuşdur. Onun parlaq xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, ailənizə, qardaş Səudiyyə Ərəbistanı xalqına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Sinqapur xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost İndoneziya xalqını öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İndoneziya arasında dostluq münasibətlərinin, işgüzar əlaqələrimizin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, ölkənizə və xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**ƏFQANISTAN İSLAM DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Əfqanıstan münasibətləri tarixi ənənələrə sadiq qalaraq, bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və sabitlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB AVUL PAKİR CAYNULABDİN
ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Hindistan arasında böyük ənənələri olan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Əmin olduğumu bildirmək istərdim ki, qarşılıqlı maraq doğuran əlaqələrimizin daha da genişlənməsi üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ROH MU-HYUNA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Koreyanın azad olunması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin və hərtərəfli əməkdaşlığımızın inkişafı istiqamətində atdığımız addımlarla biz bundan sonra da xalqlarımızın iradəsini yerinə yetirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Koreya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**UKRAYNANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Ukrayna xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Ukrayna ictimai həyatın bütün sahələrinin demokratikləşməsində böyük uğurlar qazanmış, onun beynəlxalq aləmdə nüfuzu artmış və mövqeləri möhkəmlənmişdir.

Əminəm ki, Azərbaycan ilə Ukrayna arasında dərin tarixi kökləri olan dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək ənənələri dövlətlərarası münasibətlərimizin daha da inkişaf etməsi üçün bundan sonra da möhkəm təməl olacaqdır.

Hörmətli Viktor Andreyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, Ukrayna xalqına əmin-amanlıq, həmrəylik və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Moldova xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, dost ölkələrimiz arasındakı ikitərəfli münasibətlər, regional və beynəlxalq təşkilatlarda qarşılıqlı surətdə faydalı əməkdaşlığımız xalqlarımız və dövlətlərimizin mənafeləri naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, Moldova xalqına əmin-amanlıq, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*2 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev kral Fəhd bin Əbdüləziz Al Səudin dəfn mərasimində iştirak etmək üçün avqustun 2-də Səudiyyə Ərəbistanına yola düşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 2-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyada gəlmişdir. Prezident İlham Əliyevi hava limanında Ər-Riyad qubernatorunun müavini, kralın qardaşı əmir Səttam ibn Əbdüləziz Al Səud, ölkənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Elman Apaslı qarşıladılar. Azərbaycan prezidentinin qarşılanması Səudiyyə Ərəbistanının dövlət televiziyası ilə birbaşa yayımlanırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev kralın ailə üzvlərinə, onu qarşılayan rəsmi şəxslərə başsağlığı verdi.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha yola güşdü.*

* * *

*Avqustun 2-də Səudiyyə Ərəbistanının ən böyük məscidlərindən biri olan Kəbir məscidində görkəmli dövlət xadimi kral Fəhd bin Əbdüləziz Al Səud ilə vidalaşma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün Kəbir məscidinə gəldi. Burada dövlətimizin başçısını iki müqəddəs ocağın xadimi, Səudiyyə Ərəbistanının kralı Abdüllah bin Əbdüləziz Al Səud, kral ailəsinin üzvləri qarşıladılar.*

*Vidalaşma mərasimində dünyanın 70 ölkəsindən dövlət və hökumət başçıları, rəsmi nümayəndə heyətləri iştirak edirdi.*

*Kəbir məscidində cənazə namazı qılındı. Azərbaycan prezidenti İlham Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, ölkəmizin Ər-Riyaddakı səfiri Elman Apaslı cənazə namazına durdular.*

*Prezident İlham Əliyev mərhumla vidalaşdı, Kral Abdullah bin Əbdüləziz Al Səuda Azərbaycan xalqı və öz adından başsağlığı verdi, bütün həyatını doğma xalqına sədaqətlə xidmət etmiş mərhuma Allahdan rəhmət dilədi.*

*Kral Abdullah bin Ədbüləziz Al Səud bu matəm günündə Səudiyyə Ərəbistanına gələrək onların yanında olduğuna və xalqın dərdinə şərik çıxdığına, verdiyi başsağlığına görə prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycan prezident mərhumun yaxınları ilə bir daha görüşdü, onlara Allahdan səbr dilədi.*

*Kral Fəhd bin Əbdüləziz Al Səud həmin gün Ər-Riyaddakı ailə qəbiristanlığında dəfn olundu.*

## Səfər başa çatdı

*Səudiyyə Ərəbistanının kralı Fəhd bin Əbdüləziz Al Səudun dəfn mərasimində iştirak edən Azərbaycan prezidenti İlham Əliyevin  Ər-Riyada səfəri başa çatdı.*

*Dövlətimizin başçısı İlham Əliyevi Ər-Riyad hava limanında Səudiyyə Ərəbistanı kralının rəsmi nümayəndəsi Abdullah əl-Şuvair və digər rəsmi şəxslər böyük hörmətlə yola saldılar.*

*Abdüllah əl-Şuvair Azərbaycan prezidentinə Səudiyyə Ərəbistanına gəldiyinə və Fəhd bin Əbdüləziz Al Səudun dəfn mərasimində iştirak etdiyinə görə kral ailəsi adından təşəkkürünü bildirdi.*

* * *

*Prezident İlham Əliyev avqustun 2-də axşam Bakıya qayıtdı.*

# RUSİYANIN NTV TELEVİZİYASININ «PROFESSİYA – REPORTYOR» PROQRAMINA MÜSAHİBƏ

*Prezident sarayı*

*5 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiyanın NTV Televiziyasının «Professiy– reportyor» verilişi üçün müsahibə vermişdir. Həmin veriliş Rusiyadakı Azərbaycan icmasına həsr olunmuşdur.*

*Dövlətimizin başçısı Rusiyadakı Azərbaycan icmasının fəaliyyəti ilə bağlı müxtəlif suallara ətraflı cavab vermişdir.*

## BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYALARI ASSOSİASİYASININ (FİLA) PREZİDENTİ RAFAEL MARTİNETTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 avqust 2005-ci il*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirən cənab Rafael Martinetti Azərbaycanda idman sahəsində böyük işlər görüldüyünü söylədi. Azərbaycanın özünün ikinci ölkəsi olduğunu vurğulayan qonaq 2007-ci ildə Bakıda keçiriləcək sərbəst güləş və Yunan-Roma güləşi üzrə dünya çempionatına hazırlıq işləri ilə tanış olduğunu və bu çempionatın böyük müvəffəqiyyətlə keçəcəyinə əminliyini bildirdi.*

*Azərbaycanda idman sahəsində böyük işlər görüldüyünü vurğulayan prezident İlham Əliyev Beynəlxalq Voleybol Federasiyasının «Qran-Pri» turnirinin Avropa təsnifat mərhələsi yarışlarının Azərbaycanda, xüsusilə Qubadakı Olimpiya İdman Kompleksində keçirilməsinin böyük əhəmiyyət daşıdığını və bu yarışların respublikamızda, o cümlədən regionlarda idmanın inkişafına böyük töhfə verdiyini bildirdi.*

*2007-ci ildə Bakıda keçiriləcək sərbəst güləş və Yunan-Roma güləşi üzrə dünya çempionatına böyük hazırlıq işləri görüldüyünü nəzərə çatdıran dövlətimizin başçısı bunun Azərbaycanda ilk dünya çempionatı olacağını məmnunluqla vurğuladı. Bu il oktyabrın 3–9-da bədii gimnastika üzrə dünya çempionatının da Bakıda keçiriləcəyini xatırladan prezident İlham Əliyev bu beynəlxalq idman yarışlarının ölkəmizdə təşkilini Azərbaycanın idman sahəsində böyük uğurlar qazanmasının təzahürü kimi qiymətləndirdi.*

## DAĞISTANLI YAZIÇI-TƏDQİQATÇI, TÜRKDİLLİ XALQLARIN TARİXİNİN ARAŞDIRICISI MURAD ACİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 avqust 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dedi ki, Siz tarixi həqiqətlərin üzə çıxarılması üçün fəal yaradıcılıq işləri aparırsınız. Türk dünyasının qədim tarixi vardır, türkdilli ölkələrin əməkdaşlığının möhkəmlənməsi böyük əhəmiyyətə, potensiala malikdir. Müasir dövrdə bu ölkələrin siyasi, iqtisadi və mədəni əlaqələrinin genişlənməsi və möhkəmlənməsi böyük əhəmiyyət kəsb edir. Türkdilli xalqların müştərək tarixinin dərindən öyrənilməsi çox vacibdir.*

*Cənab Murad Aci bildirdi ki, Naxçıvan Muxtar Respublikasında Gəmiqayada aparılan axtarışların nəticələri bizim gözlədiyimizdən də ciddi oldu. Naxçıvan tədqiqatlar üçün çox mühüm və nadir bir yerdir. Bütün bunlar Azərbaycanın, Naxçıvanın türk dünyası tarixində önəmli yer tutduğunu göstərir.*

*O dedi ki, türk dünyası qədim tarixə malikdir. Geniş tədqiqatlar apardıqca türkdilli xalqların çox zəngin və qədim tarixə malik olduğu, dünyanın hər yerində türk tarixinin və mədəniyyətinin böyük izlər qoyduğu və bu günədək yaşadığı sübut olunur.*

## «RUSSKİY NYUSUİK» NƏŞRİNİN (MOSKVA) BAŞ REDAKTORU LEONİD PARTYONOVA VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*8 avqust 2005-ci il*

*Gürcüstan, Ukrayna və Qırğızıstandakı xalq hakimiyyəti inqilablarından sonra regionda küçə etirazları ilə üzləşəcək növbəti ölkənin Azərbaycan olub-olmayacağı barədə fərziyyələr artmaqdadır. Prezident İlham Əliyevin mövqeyi zəif deyil: O, ABŞ və Rusiyanın dəstəyi ilə 2003-cü ilin oktyabrında seçilmiş və may ayında gürcüstanlı həmkarı Mixeil Saakaşvili, habelə Türkiyə, ABŞ və Britaniyadan olan tərəfdaşları ilə birgə Bakı–Tbilisi–Ceyhan neft boru kəmərini açmaqla siyasi populyarlığını artırmışdır. Lakin noyabr ayına nəzərdə tutulmuş parlament seçkilərinin yaxınlaşması ilə onun nəzərdə tutduğu demokratiya ilə bağlı məyusluq istər ölkə daxilində, istərsə də xaricdə artmaqdadır. Müsahibədən müəyyən hissələr:*

**– Necə fikirləşirsiniz, Azərbaycanda qarşıdan gələn parlament seçkiləri inqilaba səbəb ola bilərmi?**

– Mən belə hesab etmirəm. Əvvəla, Azərbaycan prezident idarəçiliyi olan respublikadır və hətta parlamentdə qüvvələr nisbətinin dəyişməsi də siyasətdə dəyişiklik demək deyildir. İkincisi, xalq hökumətə, onun həyata keçirdiyi islahatlara etimad göstərir. Son altı ay ərzində ümumi daxili məhsul 17 faiz artmışdır və mən vəzifəyə gəldikdən etibarən minimum əməkhaqqı üç dəfə qaldırılmışdır. Ölkə büdcəsi təxminən 60 faiz artmışdır. Üçüncüsü, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrindən fərqli olaraq, bizim müxalifətin xüsusi cəhəti ondan ibarətdir ki, o, 1992–1993-cü illərdə hakimiyyətdə olmuş və tamamilə iflasa uğramışdır. On ildir ki, eyni insanlar

eyni mövqedə qalmaqdadırlar. Beləliklə, Azərbaycanda çevriliş üçün heç bir real şərait mövcud deyildir.

**– İstibdaddan qurtulmuş bir çox keçmiş sovet respublikaları nəzarət edilən demokratiya adlanan mərhələdə dayanaraq onu keçə bilməmişlər.**

– Ölkənin nə qədər karbohidrogen ehtiyatlarına malik olmasına baxmayaraq, ictimai nəzarət olmadan firavan dövlət qurula bilməz. Mən buna tam əminəm və bu mənim siyasi fəaliyyətimin prioritetlərindən biridir. Lakin nəzərə alsaq ki, əhalinin 40 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayırsa və bu rəqəm il yarım bundan öncə təqribən 50 faiz təşkil edirdisə, bu halda demokratikləşmə insanları ən çox narahat edən məsələ ola bilməz.

**– Deməк, Sizin fikrinizə görə, ölkədə siyasi azadlıqların səviyyəsi onun inkişaf səviyyəsinə uyğun gəlir.**

– Ölkədə hər şey onun inkişaf səviyyəsini əks etdirir. Burada hazırkı vaxta uyğun olmayan standartların bərqərar edilməsi qeyri-mümkündür. Əlbəttə ki, Azərbaycan cəmiyyətinin bugünkü inkişaf səviyyəsi Qərbi Avropa və Şimali Amerikanın siyasi standartlarının buraya köçürülməsinə imkan vermir. Lakin inkişaf siyasəti həyata keçirilməlidir, bugünkü hazırlığın olmaması status-kvonun saxlanmasına bəraət qazandıra bilməz. Real dünyanı tanıyan bir şəxs üçün geriyə, mühafizəkarlıq istiqamətində hərəkət etmək və ölkəni təcrid etmək, sadə dildə desək, faciəli olar.

**– İslahatlar yuxarıdan həyata keçiriləndə hökumətdə «biz liberalıq, lakin xalqımız zəif və sadəlövhdür, biz bilirik onlar üçün ən yaxşı nədir» demək həvəsi yaranır.**

– Hər şey sizin planlarınızdan asılıdır. Əgər siz, sadəcə olaraq, beş və ya on ili ölkənizin rəhbəri kimi keçirmək istəyirsinizsə, bu bir şeydir. Lakin əgər ölkədə dəyişiklik etmək istəyirsinizsə, böyük addımlar atmadan buna nail ola bilməzsiniz. Vəzifədə olduğum müddətdə Azərbaycanın firavan bir ölkəyə çevrilməsini istəyirəm. Mən siyasəti prezidentlik illərim ərzində sosial tərəqqi yolu ilə getmiş tamamilə fərqli bir ölkədə tərk etmək istəyirəm.

**– 2003-cü ilin prezident seçkiləri dövründə polis ilə müxalifət arasında zorakı qarşıdurmalar olmuşdur. Bu yay belə şeylərə rast gəlinmədi.**

– Mən istəyirdim ki, bunlar hətta 2003-cü ildə də baş verməsin. Cəmiyyət şok vəziyyətində idi, çünki bu, Azərbaycanı 1993-cü ilə qaytarırdı və həmin dövrdən bəri bizdə belə bir qarşıdurma olmamışdı. Lakin sonra, bir sıra halları istisna etməklə, normal siyasi proses cərəyan edirdi. Buna baxmayaraq, prezident seçkilərində məğlub olduğunu anlayan müxalifət bunu qəbul etmək istəmədi və hakimiyyəti güclə ələ keçirməyə cəhd etdi. Biz nümayişi dağıtmaq məcburiyyəti qarşısında qaldıq. Mən küçələrdə deyil, masa arxasında dialoqun tərəfdarıyam. Bununla belə, müxalifət indiki seçki günündə və seçkidən sonra özünü necə aparacaqdır? Çünki bu seçki on və ya on beş il ərzində bütün həyatını müxalifətə həsr etmiş insanlar üçün son şansdır.

**– İran tərəfində belə fikirlər yaranmaqdadır ki, Amerika Birləşmiş Ştatları Azərbaycanı Xəzər dənizində özünün avanpostu kimi istifadə etmək arzusuna düşə bilər.**

– Xeyr, biz heç kimin avanpostu deyilik. Biz əsl müstəqil xarici siyasət həyata keçiririk və bu siyasət qonşularımıza münasibətdə tarazlıdır. Ümumiyyətlə, regionumuzda ən mühüm məsələ tarazlığın qorunub saxlanılmasıdır. Eyni zamanda bizim İranla etibarlı münasibətlərimiz var.

**– Özünüzü böyük siyasətdən kənarda təsəvvür edirsinizmi?**

– Mən bunu asanlıqla təsəvvür edə bilərəm: il yarım bundan öncə mən böyük siyasətdən kənarda idim. Əlbəttə ki, mən bu barədə düşünməliyəm. Həyat yalnız hakimiyyət demək deyildir.

# GÜNƏŞLİ VƏ HÖVSAN QƏSƏBƏLƏRİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*10 avqust 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Suraxanı rayonunun Günəşli və Hövsan qəsəbələrində olmuş, sakinlərlə görüşmüş, onların qayğı və problemləri ilə maraqlanmışdır.*

*Dövlətimizin başçısını Günəşli sakinləri böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyevə Günəşli və Hövsan qəsəbələrində görülən işlərlə bağlı ətraflı məlumat verildi. Bildirildi ki, gələn ilin sonuna kimi Bakı şəhərində mənzillərin istiliklə təchizatı problemi həll olunacaqdır. Bu baxımdan, rayon qazanxanalarının əvəzinə, istilik təchizatı məntəqələrinin yaradılması məqsədəuyğundur.*

**Hacıbala Abutalıbov** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, Sizin tapşırığınızla istilik təchizatı ilə əlaqədar noyabr ayınadək nə işlər görüləcəksə, hamısı hazırlıq vəziyyətindədir.

**İlham Əliyev:** Təkcə noyabra qədər deyil, gələn il də.

**Hacıbala Abutalıbov:** Biz noyabra qədər Günəşlidə və Hövsan qəsəbəsində işləri qurtarmalıyıq. Gələn il isə bütün Bakıda. Bu il doqquzmərtəbəli 1500 bina tam istilik alacaqdır.

**İlham Əliyev:** Şəhərdə binaların neçə faizi istilik alır?

**Yaşar Həsənov** (*«Azəristiliktəchizat» ASC-nin sədri*): Cənab Prezident, 22 faizi.

**İlham Əliyev:** 22 faiz azdır. Ona görə biz «Azəristiliktəchizat»ı yaratdıq ki, Bakının və bütün ölkənin istilik problemini aradan qaldıraq.

**Y a ş a r  H ə s ə n o v:** Cənab Prezident, «Azəristiliktəchizat» Açıq Səhmdar Cəmiyyəti Sizin sərəncamınızla iki ay bundan əvvəl yaradılmışdır. Bu müddətdə təşkilati tədbirlər görülmüşdür. Hökumət, Bakı Şəhər İcra Hakimiyyəti və Prezidentin İcra Aparatı tərəfindən kömək göstərilir. Əminik ki, bu işin öhdəsindən gələcəyik. Sizin verdiyiniz tapşırıqlar da tam yerinə yetiriləcəkdir. Bakı şəhərindən sonra isə respublikanın böyük şəhərlərində və rayon mərkəzlərində bu işlər görüləcəkdir. Hacıbala müəllim bu günlərdə sərəncam vermişdir. O sərəncamda bildirilir ki, «Azəristiliktəchizat» tərəfindən istiliklə təmin olunacaq bütün binalar istilik almalıdır, binadaxili sistemlər hazır vəziyyətə gətirilməlidir. Bu barədə rayon icra hakimiyyətlərinin başçılarına göstəriş verilmişdir. İstilik alacaq binaların sayının 1500-ə çatdırılması tapşırılmışdır. Biz binaların yox, bilavasitə istilik alan mənzillərin sayının artırılmasına xüsusi fikir veririk. Bu il Bakı şəhəri üzrə belə mənzillər 50 faiz təşkil edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Bu ilin sonuna qədər?

**Y a ş a r  H ə s ə n o v:** Yox, noyabra qədər.

**İ l h a m  Ə l i y e v:** Yəni, noyabra qədər 50 faiz olacaqdır.

**Y a ş a r  H ə s ə n o v:** Biz inanırıq ki, olacaqdır. Bizi narahat edən ancaq binadaxili sistemlərdir. Qışa hazırlıqla bağlı digər məsələləri isə Sizin dəstəyinizlə, öz gücümüzlə həll edəcəyik. Bütün təşkilatlar bizə kömək göstərir.

**İ l h a m  Ə l i y e v:** Yəni biz yeni sistemə ki keçirik, məhəllədə qazanxanalar tikiləcək, su anbarları və binadaxili sistemlər, kommunikasiyalar bərpa olunmalıdır.

**Y a ş a r  H ə s ə n o v:** Cənab Prezident, Bakıda 7, ölkəmizin böyük şəhərlərində bu tipdə, amma gücü az olan qazanxanalar var və onlar özlərini doğrultmur.

**İ l h a m  Ə l i y e v:** Bunlarda itki çoxdur.

**Y a ş a r  H ə s ə n o v:** Günəşli qəsəbəsində magistral xətlərin uzunluğu 5,5–6 kilometrdir. Hələ məhəllədaxili xətləri demirəm. Bunun da nəticəsində su itkisi, ötürmə vaxtı istilik itkisi çox olduğundan bu, iqtisadi cəhətdən səmərəli deyildir. İndiki qazanxanalardakı avadanlığın faydalı iş əmsalı çox

aşağıdır. Müasir qazanlardan istifadəyə keçəndə isə qaza üç dəfə qənaət ediləcəkdir.

**İ l h a m  Ə l i y e v:** Həm də elektrik enerjisinə qənaət olunacaqdır. Qışda 4 min meqavat, yayda isə 2 min meqavat elektrik enerjisi işlənilir. Yəni qışda əlavə 2 min meqavatın əsas hissəsi istilik almaq üçün istifadə olunur, insanlar qızdırıcı cihazlar alırlar. Almasınlar neyləsinlər, almalıdırlar.

**Y a ş a r  H ə s ə n o v:** Sizin göstərişinizlə yeni qazanxanalar quraşdırılacaq, elektrik enerjisinə iki dəfə qənaət olunacaqdır. 90 faiz su təminatı var, qaz təminatında isə problem var. Çünki məişət qazı ilə sənaye qazı fərqlidir. Bu haqda "Azəriqaz"a müraciət etmiş, texniki şərtləri vermişik.

**İ l h a m  Ə l i y e v:** Bəli, «Azəriqaz»la birlikdə işləyin. Deməli, burada, Günəşlidə 1500 bina...

**H a c ı b a l a  A b u t a l ı b o v:** Bakı şəhəri üzrə.

**Y a ş a r  H ə s ə n o v:** Günəşlidə keçən il 100 bina istilik alıb, bu il 137 bina nəzərdə tutulmuşdur. Burada binaların hamısı doqquzmərtəbəlidir, beşmərtəbəli bina yoxdur.

**İ l h a m  Ə l i y e v:** Günəşlidə bütövlükdə binaların neçə faizi istilik alacaqdır?

**Y a ş a r  H ə s ə n o v:** Hamısı alacaqdır.

*Dövlətimizin başçısına Günəşli qəsəbəsində istilik probleminin birdəfəlik həlli məqsədi ilə nəzərdə tutulan tədbirlər barədə konkret məlumat verildi. Məktəblərin, uşaq bağçalarının istilik təchizatına xüsusi diqqət yetiriləcəyi vurğulandı.*

**H a c ı b a l a  A b u t a l ı b o v:** Möhtərəm Prezident, Siz hər 2 min nəfər əhaliyə bir qazanxana quraşdırılmasını demişdiniz. Günəşlidə optimal variant elə yaranıb ki, 7 min nəfərə bir qazanxana bəs edir. Yəni vəsaitə üç dəfə qənaət olunur.

**Y a ş a r  H ə s ə n o v:** Hövsan qəsəbəsində qazanxana var idi. Doqquzmərtəbəli binalardan 15-i istilik almırdı. Nəzərdə tutmuşuq ki, buradakı 2 nömrəli istilik təchizatı məntəqəsini qazanxanaya çevirək. Bununla da 15 binada təqribən 7,1 min nəfər istiliklə təmin olunacaqdır. Texniki cəhət-

dən istiliyi lazımi səviyyədə vermək üçün hər şey hazırdır. Sadəcə olaraq, qaz təzyiqində müəyyən qədər problem var.

«Azəriqaz» söz verir ki, qaz problemi həll olunacaqdır. Hacıbala müəllim də Hövsanın qaz təminatı ilə çox ciddi məşğuldur. Qaz təminatı olsa, camaat kifayət qədər istilik alacaqdır. Çünki məhəllədaxili xətlərin hamısının təmiri 10-15 günə başa çatacaqdır.

**Hacıbala Abutalıbov:** Hövsan qəsəbəsində 15 minə qədər əhali, ümumiyyətlə, istilik almırdı. Amma indi burada istilik təchizatı məntəqəsinin binası hazırdır, rayon icra hakimiyyətinin başçısına göstəriş vermişik ki, 15 günə kimi binadaxili istilik xətlərini tam hazır vəziyyətə gətirsinlər. Beləliklə, biz Hövsanın 42 minlik əhalisini istiliklə tam təmin edəcəyik. Günəşlidə də həmçinin. Məktəblər, uşaq bağçaları da daxil olmaqla, binaların hamısı istilik alacaqdır.

Möhtərəm Prezident, hər yaşayış sahəsinə 9 istilik təchizatı məntəqəsi düşür. Qazanxana binası tikmək lazım deyil, binaları var, sadəcə, qazanı gətirib quraşdırmaq lazımdır. Bunları quraşdırandan sonra rayon istilik təchizatı məntəqəsindən çəkilmiş böyük diametrli borulara ehtiyac olmayacaqdır.

**İlham Əliyev:** Əlbəttə, heç buna da ehtiyac yoxdur. Burada olan lazımlı avadanlığı götürəcəksiniz, istifadə edəcəksiniz.

**Hacıbala Abutalıbov:** Bəli, istifadə olunacaqdır. Başqa sözlə, Sizin göstərişinizlə böyük həcmdə vəsait qoyulur ki, Bakı şəhərinin bütün binaları istiliklə təmin olunsun. İşi böyük qənaətlə icra edirik.

**İlham Əliyev:** Çox yaxşı. Mən demişəm ki, biz bu məsələlərə gərək maliyyə yardımı göstərək. Mən göstəriş verdim, nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaq. İlk növbədə, Bakıda, ondan sonra Azərbaycanın başqa şəhərlərində istilik təchizatı sistemi qaydaya salınmalı və yüz faiz işləməlidir. Maliyyə problemi olmayacaqdır. Sadəcə olaraq,

texniki məsələləri həll etmək, «Azəriqaz»la birgə əlaqələndirilmiş fəaliyyət göstərmək və səmərəli işlər görmək lazımdır.

**H a c ı b a l a A b u t a l ı b o v:** Möhtərəm Prezident, «Azəriqaz», «Azərsu», «Azərenerji» ilə işlər yaxşı gedir. Əllərindən gələni edirlər ki, Sizin göstərişiniz ən yüksək səviyyədə yerinə yetirilsin. İndiyədək Bakı şəhərində 988 bina istilik alırdı.

**İ l h a m Ə l i y e v:** Noyabr ayında nə qədər olacaq?

**H a c ı b a l a A b u t a l ı b o v:** Noyabr ayında 1500 bina. Birdən-birə görün, yalnız daxili imkanlar hesabına nə qədər artacaqdır.

**İ l h a m Ə l i y e v:** Bəs gələn ilin sonuna kimi?

**H a c ı b a l a A b u t a l ı b o v:** Gələn ilin sonuna isə daha 50 faiz artıracağıq. Başqa sözlə, binaların ən azı 70–75 faizi istiliklə təmin olunacaqdır.

**İ l h a m Ə l i y e v:** Ümumiyyətlə, Bakı şəhərində çoxmərtəbəli binaların sayı nə qədərdir?

**H a c ı b a l a A b u t a l ı b o v:** 3 minə qədərdir.

**İ l h a m Ə l i y e v:** Deməli, yarısını təmin edəcəksiniz.

**H a c ı b a l a A b u t a l ı b o v:** Bəli, bu ilin sonuna kimi tam yarısını təmin edəcəyik. Amma iki il bundan qabaq istilik alan binaların sayı 700-dən yuxarı qalxmırdı. Son iki ildə əlavə 288 binaya istilik verilibdir. Yeni sistemin tətbiqi sayəsində həm istiliyə, həm elektrik enerjisinə, həm qaza, həm də suya qənaət olunacaqdır.

**İ l h a m Ə l i y e v:** Aydındır. Bəs yeni tikilən binalarda bu sistem nəzərdə tutulubdur?

**H a c ı b a l a A b u t a l ı b o v:** Onların hamısının təchizatı müstəqildir.

**İ l h a m Ə l i y e v:** Yəni, bu sistemlə işləyirlər.

**H a c ı b a l a A b u t a l ı b o v:** Hamısı Sizin bizə göstəriş verdiyiniz sistemlə işləyirlər. Başqa sözlə, özlərinin müstəqil qazanxanaları var. Əlavə olaraq yolların qazılmasına, boruların çəkilməsinə ehtiyac yoxdur. Özlərinin su anbarları, su xətləri və müstəqil qaz xətləri var.

**N a t i q  M e h d i y e v** (*Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, xətlərin hamısı Günəşlinin küçələrindən keçir. Deməк, bir yerdə boru partlasa – düzdür, müəyyən texniki vasitələrimiz var ki, yerini dəqiq tapa bilək, – məcburuq magistral yolları qazaq. Magistral yolun asfaltının bərpası isə xeyli vəsait tələb edir.

**İ l h a m  Ə l i y e v:** Özü də biz indi yeni asfalt salırıq. Mən Babək prospekti ilə gəlirdim, nə gözəl yol salınıbdır.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Babək prospektini Sizin göstərişinizlə asfaltladıq. Çox sağ olun, hədsiz minnətdarlıq edirik ki, buna kömək etdiniz. Dövlət Yol Polisi mənə məlumat verib ki, indi Heydər Əliyev prospektində maşınların hərəkəti 30 faiz azalıbdır. Babək prospekti qısa, geniş yoldur, işıqfor yoxdur.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə. Bilirsiniz ki, mən Bakı şəhərinin yollarının abadlaşdırılmasına 60 milyard manat vəsait ayırdım. Bu puldan səmərəli istifadə edin ki, Bakıda bərbad vəziyyətdə bir dənə də yol olmasın. Biz bu işi ətraf qəsəbələrdə də görürük.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Möhtərəm Prezident, Sizin göstərişlərinizi əsas tutaraq, 8 firma tam yüksək səviyyədə bu işlərə başlayıbdır. İndi Bakının elə bir rayonu və qəsəbəsi yoxdur ki, orada biz yolları əsaslı təmir etməyək.

**N a t i q  M e h d i y e v:** Cənab Prezident, binaların çoxu bizim tabeliyimizdə deyildir. Dövlət Neft Şirkətinə və digər idarələrə məxsus binaların öz qazanxanaları var.

**Y a ş a r  H ə s ə n o v:** Dövlət Neft Şirkəti tabeliyindəki binaların, habelə kommunikasiya və qazanxanaların şəhər icra hakimiyyətinin balansına verilməsi haqqında Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişdi. «Azəristiliktəchizat» yaranandan sonra bu məsələ dayanıbdır. Yəqin Dövlət Neft Şirkəti bu məsələyə yenidən qayıdacaqdır.

**N a t i q  M e h d i y e v:** Cənab Prezident, qəza olanda bütün rayon əziyyət çəkir.

**İ l h a m  Ə l i y e v:** Yəni, mərkəzdə qəza olduqda...

**H a c ı b a l a A b u t a l ı b o v:** 75 min əhali istilikdən məhrum olur.

**N a t i q M e h d i y e v:** Müasir qazanxanaların səmərəsi böyükdür.

**İ l h a m Ə l i y e v:** Deməli, Günəşlidə bir qazanxana 7 min insana xidmət edəcəkdir. Amma başqa yerlərdə başqa cür ola bilər.

**H a c ı b a l a A b u t a l ı b o v:** Biz çalışırıq ki, 3 min nəfərdən az olmasın. Bakı şəhərində elə müstəqil istilik məntəqələri var ki, o ətrafdakı 5 mərtəbəli binalarda 3 min adam yaşayır. 9 mərtəbəli binalar olan məhəllələrdə isə 7 minə çatır.

**İ l h a m Ə l i y e v:** Hər halda, siz hər şeyi dəqiqliyi ilə hesablayın. Bu ilin sonuna kimi və gələn il nə qədər vəsait lazımdırsa, biz bunu büdcədə nəzərdə tutaq. Çalışmalıyıq ki, biz gələn il Bakıda işləri tamamilə qurtaraq, ondan sonra Sumqayıt, Gəncə, Mingəçevir və başqa şəhərlərdə, ölkəmizin hər bir yerində istilik məsələsini həll edək.

**H a c ı b a l a A b u t a l ı b o v:** Möhtərəm Prezident, Sizi əmin edirəm ki, gələn ilin axırınadək Bakı şəhərinin istilik ala biləcək binalarının hamısında sistem yüksək səviyyədə bərpa ediləcək, əhali istiliklə təmin olunacaqdır.

**N a t i q M e h d i y e v:** Günəşlidə binaların 75 faizi istilik alır. Ona görə qışda qaz, işıq problemi olmadı.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, istilik olanda əlavə elektrik cihazları yandırmırlar.

**N a t i q M e h d i y e v:** Son nəticədə də işığın, qazın ödəniş pulu az olur, ailənin büdcəsinə müsbət təsir edir.

**İ l h a m Ə l i y e v:** Qazın qiyməti qalxdı.

**H a c ı b a l a A b u t a l ı b o v:** Günəşlidə əhalinin 75 faizi istilik alırdı, qalan 25 faizi noyabradək təmin edəcəyik. Onu da deyim ki, əhaliyə istilik verəndə pulun yığılmasında problem olmur.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, gərək istilik verəsən ki, pul tələb edəsən.

**H a c ı b a l a A b u t a l ı b o v:** İnanın, pulu özləri verirlər. İndi Sizin göstərişinizlə qaz sayğacları qoyulur. Əhali bi-

zimlə görüşlərdə də deyir ki, möhtərəm prezidentimizə minnətdarlığımızı çatdırın, sayğaclar quraşdırılan kimi, pulun verilməsində problem olmayacaqdır. Yəni kasıb insanlar da bunu deyir.

**N a t i q  M e h d i y e v:** Cənab Prezident, su ilə bağlı problem var. Doğrudur, indi verilən su camaatı qismən də olsa təmin edir. Su pulunun yığılmasında çətinlik olur, çünki iki gündən bir su verilir. Amma sayğac qoyulandan sonra həm pulunu verəcəklər, həm də ailələrin büdcəsinə qənaət olunacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bəli, biləcək ki, nəyin pulunu verir. Bütün sayğaclar – işıq, su, qaz sayğacları tezliklə quraşdırılacaqdır.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Sizin göstərişinizdən sonra «Azəriqaz» və «Azərsu» Hövsanda sayğac qoyulmasını böyük sürətlə davam etdirir.

* * *

*Prezident İlham Əliyev Günəşli qəsəbəsinin sakinləri ilə görüşdü. Onlar qısa vaxtda görülən işlərdən dərin razılıqlarını bildirdilər.*

**S a k i n:** Mən 31 nömrəli poliklinikanın Baş həkimiyəm. Sizin buraya gəlməyinizə çox şadıq. Sizə minnətdarıq, poliklinikamız dağılmışdı, Sizin göstərişiniz əsasında Hacıbala müəllim orada əsaslı təmir işlərinə başlamışdır. Çox minnətdarıq, Allah Sizə cansağlığı versin.

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, «Azəristiliktəchizat» Səhmdar Cəmiyyəti bu məqsədlə yaradıldı ki, Bakıda və Azərbaycanın başqa yerlərində istilik problemi olmasın. Bütün binalara, ilk növbədə, çoxmərtəbəli binalara istilik verilsin ki, insanlar qışda əziyyət çəkməsinlər. Bu çox böyük bir proqramdır. Biz buna böyük vəsait ayırırıq. Ona görə mən gəlmişəm ki, vəziyyətlə tanış olum. Demişəm ki, bu məsələ ilk növbədə Suraxanı rayonunda, Günəşlidə həll edilsin. Bu ilin sonunadək bütün çoxmərtəbəli binalarda istilik məsələləri həll olunacaqdır. Gələn ilin sonuna qədər isə Bakının bü-

tün yerlərində bu məsələ öz həllini tapmalıdır. Bu, əsas məsələlərdən biridir. İşıq, qaz, su, istilik – bunların təchizatını təmin etməliyik. Buna imkanımız da var, iradəmiz də var. Çox şadam ki, bu işlə məşğul olan insanlar da belə böyük həvəslə işləyirlər.

**S a k i n:** Əziz Prezidentimiz, biz Günəşlinin bünövrəsi qoyulandan burada yaşayırıq. Sizi burada görməyimizə ürəkdən şadıq. Sizin insansevərliyinizə, qayğıkeşliyinizə, ətrafınızdakı insanların bizə olan xüsusi qayğısına görə Sizə böyük təşəkkür edirik. Allah Sizə dəyməsin, Sizi qorusun. Azərbaycan xalqı üçün həmişə var olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu mənim borcumdur. Mən Azərbaycan xalqına xidmət etməyə gəlmişəm.

*Hövsan qəsəbəsində böyük məhəbbətlə qarşılanan prezident İlham Əliyevin şərəfinə qurban kəsildi.*

*Dövlətimizin başçısı hövsanlılarla səmimiyyətlə görüşdü, qayğı və problemləri ilə maraqlandı. Qəsəbənin ağsaqqalları burada aparılan quruculuq işlərini onlara göstərilən diqqətin konkret təzahürü kimi dəyərləndirdilər.*

**S a k i n:** Allah atanıza rəhmət eləsin. Allah-Təala Sizə cansağlığı versin. Siyasətinizə güc versin ki, düşmənlərimizi məğlub, torpaqlarımızı azad edəsiniz. O gündə böyük bir mərasimlə Sizi Hövsanda məsciddə böyük bir şərafətlə qarşılayaq. Allah arzu edənləri muradına çatdırsın, bizi də arzumuza çatdırsın.

**İ l h a m Ə l i y e v:** Allah qəbul etsin!

**S a k i n:** Möhtərəm Prezident, icazə verin, Sizi təhsil işçiləri adından salamlayım və qədim Hövsan torpağına «Xoş gəlmisiniz!» deyim. Hamıya məlumdur ki, ulu öndərimiz, əbədiyaşar prezidentimiz Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük irəliləyiş olmuşdur. İstəyirəm bunu konkret misallarla deyim.

Hörmətli Hacıbala Abutalıbov Sizin göstərişlərinizi həmişə vaxtında, layiqincə, yüksək səviyyədə yerinə yetirməyə çalışmışdır. Seçkilər ərəfəsində bu işlər daha da geniş vüsət al-

mışdır. Bu gün Suraxanı rayonunun 7 məktəbində əsaslı təmir işləri aparılır. Hövsan qəsəbəsində altı ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan ikisi keçən il təmir olunub istifadəyə verilmişdir. Bir məktəb rayon icra hakimiyyətinin vəsaiti hesabına təmir olunur. Əminik ki, şagirdlərimiz sentyabrın 15-də geniş, təmiz, səliqəli sinif otaqlarında dərsə başlayacaqlar.

Bu gün qəsəbədə aparılan abadlıq işləri dövlətimizin qüdrətlənməsindən, varlanmasından, iqtisadiyyatımızın yüksələn xətlə inkişafından xəbər verir. Bunların hamısının başında Siz durursunuz. Buna görə Sizə minnətdarıq. Sizin göstərişlərinizi layiqincə yerinə yetirən kadrlara minnətdarıq.

Suraxanı rayon təhsil işçilərinin bir xahişini çatdırmaq istəyirəm. Tarixinə görə ən köhnə məktəblərdən olan 87 nömrəli orta məktəbin binası sökülüb təzədən inşa olunur. İstərdik, 15 sentyabr Bilik gününü bizimlə həmin məktəbdə keçirəsiniz. Bu bizim üçün böyük şərəf olardı.

**İlham Əliyev:** Əziz dostlar!

Mən bu gün Hövsana gəlmişəm ki, görüm necəsiniz, işlər necə gedir. Mən bütün bölgələrə səfər edirəm, vəziyyətlə tanış oluram. O cümlədən Bakının problemlərinin həlli istiqamətində hansı addımları atmaq lazımdırsa, biz bunları etməliyik və edirik. Abadlıq, quruculuq işləri, yeni məktəblərin tikintisi, təmir işləri, yolların salınması, su, elektrik sisteminin bərpası – bütün bunlar diqqət mərkəzindədir.

Bir müddət bundan əvvəl məlumat gəldi ki, Hövsanda su problemi çox kəskinləşib və suyun verilməsi günlərlə mümkün olmur. Ona görə mən dərhal «Azərsu» Səhmdar Cəmiyyətinə, Hacıbala müəllimə göstəriş verdim ki, tezliklə məsələyə baxılsın və tədbirlər görülsün. Sonra dedilər ki, bu məsələ qismən öz həllini tapıbdır. Yəni, burada görülən işlərin nəticəsində vəziyyət yaxşılığa doğru dəyişdi. Amma bizi tam mənada qane etmir. Ona görə bizim diqqətimiz, səylərimiz indi bu məsələlərə yönəldilibdir.

Buraya gələrkən Günəşlidə istilik sisteminin bərpası işləri ilə tanış oldum. Böyük proqram çərçivəsində Bakının bütün

yerlərində yeni istilik sistemi yaradılmalıdır ki, qışda istiliklə bağlı problem olmasın. Bu həm insanlara rahatlıq verər, eyni zamanda elektrik enerjisinin, qazın istehlakına qənaət etməyə imkan yaradar. Bilirsiniz ki, qazın qiyməti qalxdı və mən də dedim ki, kimin imkanı yoxdursa, haqqını ödəməsin. İmkan olandan sonra ödəyər.

Əlbəttə, ölkəmizin qlobal problemləri var. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi öz həllini tapmamışdır. Çalışırıq ki, bunu həll edək və şübhə etmirəm ki, buna nail olacağıq. Bunu etmək üçün gərək güclü iqtisadiyyat, güclü ordu olsun və bu istiqamətdə işlər aparılır. Azərbaycanın dünyadakı mövqelərinin möhkəmlənməsi, iqtisadiyyatın inkişafı yönündə ciddi addımlar atılır. Bütün bunlar qlobal məsələlərdir. Amma bunlarla yanaşı, digər məsələlər də var. Qəsəbənin, kəndin, məhəllənin problemləri var. Bunlarla da məşğul olmalıyıq. İlk növbədə, bunlarla mənim yerlərdəki nümayəndələrim – icra hakimiyyəti başçıları, qəsəbələrdəki vəzifəli şəxslər məşğul olmalıdırlar. Eyni zamanda, şəxsən mən özüm vəziyyətlə tanış olmalıyam, bilməliyəm. Sizdən eşitməliyəm ki, hansı məsələ var, hansı problem var. Elə problem var ki, onun həlli nə böyük vəsait, nə də böyük vaxt tələb edir. Sadəcə olaraq, gərək ürəklə işləyəsən, həvəslə işləyəsən, öz vəzifə borcuna laqeyd yanaşmayasan, biganə olmayasan.

Mənim məqsədim budur ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, daha rahat yaşasın, əmin-amanlıq olsun, inkişaf olsun. Ölkəmiz daha da inkişaf etsin, güclənsin və Azərbaycan dünyada daha da möhkəm bir dövlətə çevrilsin.

Hövsana da gəlmişəm ki, sizinlə görüşüm, problemlərinizi soruşum. Mənə sözünüz nədir, problemlərinizi deyin – bunun üçün gəlmişəm. Mənə verilən məktublara da baxacağam.

**S a k i n:** Cənab Prezident, sözümüz odur ki, biz həmişə Sizə arxa-dayağıq.

Hörmətli Prezident, mən kənd təsərrüfatı ilə məşğul olmuşam. 1996-cı ildən təsərrüfatım üçün 40 min dollar kredit

aldım. Ondan sonra heç nə ala bilmirəm. Getmədiyim yer qalmayıbdır.

**İ l h a m Ə l i y e v:** İqtisadi İnkişaf Nazirliyinə müraciət etmisiniz?

**S a k i n:** Bəli, cənab Prezident, hamının qəbulunda olmuşam. Heç yaxın qoymurlar.

**İ l h a m Ə l i y e v:** Axı niyə?! Mən bu yaxınlarda Xaçmazda keçirilən kredit yarmarkasında şəxsən iştirak etmişəm. Orada məni inandırdılar ki, bütün müraciətlərə müsbət baxılır. Mən sizə inanıram. Siz müraciət etmisiniz, cavab veriblər, yoxsa yox?

**S a k i n:** Bəli, verdikləri cavabların hamısı məndədir.

**İ l h a m Ə l i y e v:** Sizə nə qədər kredit lazımdır?

**S a k i n:** Gəlib baxsınlar, nə qədər məsləhətdirsə...

**İ l h a m Ə l i y e v:** Siz hansı iş üçün istəyirsiniz?

**S a k i n:** Mənim 5 milyard manatlıq əmlakım var, böyük təsərrüfatım var. Abşeron rayonunda bizə baxan yoxdur.

**İ l h a m Ə l i y e v:** Abşeron rayonudur?

**S a k i n:** Bəli.

**İ l h a m Ə l i y e v:** Yenə həmin problemdir?

**H a c ı b a l a A b u t a l ı b o v:** Möhtərəm Prezident, həmin problemdir.

**S a k i n:** Hacıbala müəllimin məktubu ilə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı məni qəbul etmir.

**İ l h a m Ə l i y e v:** Düz edir, çünki Hacıbala müəllim Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır.

**H a c ı b a l a A b u t a l ı b o v:** Cənab Prezident, mən qəbul etmişəm. Məktub verdim ki, Abşeron Rayonu İcra Hakimiyyətinin başçısı bu adamı qəbul etsin.

**İ l h a m Ə l i y e v:** Bu yaxınlarda Maştağa qəsəbəsində olarkən mənə müraciət olundu ki, yol çəkilsin. Hacıbala müəllimə göstəriş verdim. Dedi ki, bu, Abşeron rayonunun ərazisidir. Dedim, eybi yoxdur, Abşeron rayonu olsa da, bunu elə. Amma sonra bu məsələni araşdırdı. Sən demə, Bakının içində Abşeron rayonunun müxtəlif əraziləri var.

Belə şey ola bilməz. Mən göstəriş verdim, həm Hacıbala müəllimə, həm Prezidentin İcra Aparatına ki, mənə təklif verilsin, o yerlər ki, Bakının içindədir və Abşeron rayonuna aiddir, onlar birləşsin Bakıya. Siz də bunu istəyirsiniz?

**S a k i n l ə r:** Bəli, cənab Prezident. Torpağı Suraxanı rayonu Abşeron rayonuna icarəyə veribdir. Abşeron rayonunun ixtiyarı yoxdur ki, orada təsərrüfatdan başqa, ayrı işlə məşğul olsun.

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, mən bu məsələ ilə maraqlananda dedilər ki, vaxtilə guya bunu kənd təsərrüfatının inkişafına görə ediblər. Amma indi bunun mənası yoxdur. Çünki artıq biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq.

**S a k i n:** O vaxt sovxoz var idi.

**İ l h a m  Ə l i y e v:** Düz deyirsən, sovxoz var idi. Amma indi yoxdur. O yerlərin hamısını – hansı ki, Bakının ərazisində yerləşir, biz şəhərə birləşdirəcəyik.

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident. Canımız qurtarardı, yaxın olardı. Yoxsa bizi on ildə bir dəfə də olsun oraya çağırmayıblar.

**İ l h a m  Ə l i y e v:** Mən bu məsələ ilə məşğul olacağam.

**S a k i n l ə r:** Cənab Prezident, çox çətin vəziyyətdəyik. Abşeron rayonunda fermer təsərrüfatına, ümumiyyətlə, baxan yoxdur. Sovxozdan camaata heç nə verilməyib, əmlak paylanmayıbdır. Oradan 4 min yer paylayıblar. Hansı ki, onun xeyli hissəsi Hövsanın ərazisinə düşür. Bu günlərdə televiziyada göstərirlər ki, ad qoymaq istəyirlər. Hövsanın adı var. Yenidən Hövsanın ərazisində təzədən kənd yaradıb, ad qoymaq olar?

**İ l h a m  Ə l i y e v:** Kim onu etmək istəyir?

**S a k i n:** Cənab Prezident, and olsun Allaha, televiziyada deyiblər.

**İ l h a m  Ə l i y e v:** Kim deyib, Hacıbala müəllim.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Möhtərəm Prezident, Sizin göstərişinizlə bütün məsələlər, demək olar ki, həll edilibdir. Bakının ətraf qəsəbələrindəki torpaqlar şəhərin torpaq-

larıdır. Sadəcə olaraq, o zaman Abşeron rayonuna icarəyə verilibdir. O torpaqları paylamağa onların ixtiyarı yoxdur.

**İ l h a m Ə l i y e v:** İxtiyarı yoxdur?

**H a c ı b a l a A b u t a l ı b o v:** Xeyr, yoxdur. Amma paylayıblar.

**İ l h a m Ə l i y e v:** Paylayıblar?

**H a c ı b a l a A b u t a l ı b o v:** Müəyyən qədərini paylayıblar. Çox sağ olun ki, Siz bu göstərişi tez bir zamanda verdiniz. Heç olmasa, qalan yerlər qəsəbə camaatına verilsin. Hövsan ərazisinin, demək olar ki, yarısı Abşeron rayonuna aiddir. Buranın yolunu Sizin göstərişinizlə Bakı Şəhər İcra Hakimiyyəti çəkir.

**İ l h a m Ə l i y e v:** Axı əslində siz etməməlisiniz. Sadəcə olaraq, mən sizə tapşırıq verdim ki, edin.

**H a c ı b a l a A b u t a l ı b o v:** Mən Sizə məlumat verəndən sonra dediniz ki, gedin, bu məsələni həll edin. Su məsələsini də həll edin.

**İ l h a m Ə l i y e v:** Bəli.

**H a c ı b a l a A b u t a l ı b o v:** Biz keçmişdən qalmış, tamamilə sıradan çıxmış 3 quyunu bərpa etdik. Sizin göstərişinizlə yolları, quyuları bərpa etmişik. Analizə də vermişik, təmiz sudur, içməyə tam yararlıdır. Bununla bərabər, əlavə olaraq Abşeron rayonu ilə birlikdə 4,5 kilometr su kəməri çəkirik. Bununla da Sizin göstərişinizə əsasən, nəinki Abşeron rayonuna aid olan keçmiş sovxozun ərazisindəki əhali su ilə təmin olunacaq, həm də Hövsan qəsəbəsinin su problemi, demək olar, tam həll ediləcəkdir. Özü də bu işi ayın axırına qədər qurtarmalıyıq.

**İ l h a m Ə l i y e v:** Mən bu məsələyə baxacağam.

**S a k i n:** Cənab Prezident, biz Zığ qəsəbəsindən Sizin görüşünüzə gəlmişik. Bizim qəsəbədə hər şey yaxşıdır. İcra hakimiyyətinin başçısı əlindən gələni edir. Bir problemimiz var, o da su məsələsidir. İşıq var, qaz var. Bir də marşrut problemimiz var. Zığla Suraxanı istiqamətində işləyən marşrut yoxdur.

**İ l h a m Ə l i y e v:** Niyə yoxdur?

**H a c ı b a l a A b u t a l ı b o v:** Yol çox bərbad halda idi. İndi gəldiyimiz yoldur.

**İ l h a m Ə l i y e v:** Biz o yolu yenidən salırıq.

**H a c ı b a l a A b u t a l ı b o v:** Bəli, artıq avtobusların gedib-gəlməsinə heç bir çətinlik olmayacaqdır. Sabahdan həmin yolda yeni marşrut açacağıq.

**İ l h a m Ə l i y e v:** Təşkil edin, sabahdan marşrut açın.

**H a c ı b a l a A b u t a l ı b o v:** Baş üstə, cənab Prezident, sabahdan açılacaqdır.

**S a k i n:** Hörmətli Prezidentimiz, mən qəsəbə sakinləri adından Sizə təşəkkür etmək istəyirəm. Təsəvvür edin, son üç-dörd ayın ərzində Hövsan qəsəbəsində su, yol məsələləri həll edilib. Bütün məktəblər təmir edilib, evlərimizə qaz, su sayğacları qoyulub və bu proses davam edir. Sizin göstərişinizdən sonra Hacıbala müəllim, demək olar ki, hər gün, hər axşam Hövsan qəsəbəsində olur. Natiq müəllim Hövsanda olur, camaatla görüşür, hamının şikayətini dinləyir. Bunların hamısı sübut edir ki, bizim əgər bu günümüz dünənimizdən yaxşıdırsa, demək, sabahımız bu günümüzdən də yaxşı olacaqdır. Bax, buna görə Sizə minnətdarıq. Böyük, şərəfli işinizdə Sizə uğurlar arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən Hacıbala müəllimi göndərdim, o bu məsələlərlə məşğuldur. Amma istədim özüm də gəlim, eşidim, bəlkə sizə əlavə nə isə lazımdır?

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident, Allah Sizə cansağlığı versin. Elə bu işlərə görə biz Sizə təşəkkür edirik. Biz inanırıq ki, sabah bugünkündən də yaxşı olacaqdır.

**İ l h a m Ə l i y e v:** Mən də inanıram, bunu edəcəyik.

**H a c ı b a l a A b u t a l ı b o v:** Möhtərəm Prezident, 30 il idi, ümumiyyətlə, Hövsanda qaz yox idi. Sizin göstərişinizdən sonra 3,5 kilometrlik qaz xətti çəkdik. İndi qaz verilir, özləri təsdiq edə bilərlər.

**S a k i n:** Cənab Prezident, birincisi, bizim ümidimiz var. Siz demisiniz ki, əlavə bir milyon kubmetr qaz alacağıq və həmin qazdan Bakıətrafı qəsəbələrə verəcəyik. Həmin qəsəbələrdən biri də Hövsandır. Biz də ümidlə yaşayırıq ki, Allah

qoysa, o qaz alınacaq, qışda qazımız çox olacaqdır. Yəni yayda var, amma qışda problemlər olur.

Əhali arasında olduğunuza görə, Hövsanın sakinləri, ağsaqqalları adından Sizə bir daha təşəkkür edirik. Sizin gəlişinizdən sonra bizim kənddə böyük inkişaf var. Hələ indiyədək görünməyib ki, dövlət başçısı Hövsana gəlsin. Bu gün müqəddəs gündür ki, bunu tarixə yazdıq.

**İ l h a m Ə l i y e v:** Bu tarixi yazdıq.

**S a k i n:** İkincisi, gözəl yol çəkilib, işıq problemimiz həll olunubdur. Qazın haqqının ödənişi ilə bağlı bildirdiniz ki, kimin nə vaxt pulu olsa, onda versin. Buna görə də çox minnətdarıq. Allah Sizə cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** Amma kimin imkanı var, gərək versin.

**S a k i n:** Bəli. Hazırda su problemimiz də düzəlir. Artıq işlər gedir, borular çəkilir. Bundan da arxayın ola bilərsiniz.

Bir problemimiz qalıb. O da Sizin üçün yüngül bir problemdir. Çirkab suları yığılıb qalır, axıntısı yoxdur. Bundan çox əziyyət çəkirik, yollar korlanır. Bu cür gözəl yollar çəkilibdir. Amma qarşıdan qış gəlir, elə ki, yağış, qar yağdı, asfaltı su basacaq, yollarımızı dağıdacaqdır. Ona görə də bu problemin həllində Sizdən kömək istəyirik.

**İ l h a m Ə l i y e v:** Mən onunla bağlı da tapşırıq verəcəyəm.

**S a k i n:** Çox sağ olun. Bizim qəbiristanlığımız var, o da Abşeron rayonu ərazisindədir. 1,5 kilometr aralıdadır, qışda oradan cənazə aparmaq mümkün deyildir.

**İ l h a m Ə l i y e v:** O ərazi də sizin olacaqdır. Hacıbala müəllim, sizə tapşırıq verirəm, həll edin.

**H a c ı b a l a A b u t a l ı b o v:** Sabahdan həmin o yol asfaltlanacaqdır.

**S a k i n:** Vaxtilə ölkəmizdə baş alıb gedən xaosa ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə gələndə son qoyuldu. Ölkəmizdə inkişaf başladı, atəşkəs əldə edildi, müharibə dayandırıldı. Cənab Prezident, Siz ulu öndərimiz Heydər Əliyevin siyasətini layiqli davam etdirirsiniz ki, biz

torpaqlarımızı sülh yolu ilə alaq. 1990-cı illərin əvvəlində bu məscidə gətirilən şəhid cənazələrinin ardı-arası kəsilmirdi. İnanın, gün ərzində Hövsana 2-3 şəhid cənazəsi gətirilirdi. Allah ümummilli liderimiz Heydər Əliyevə rəhmət eləsin. O qanın qarşısını ulu öndərimiz kəsdi.

Allah Sizə də cansağlığı versin. Bakı–Tbilisi–Ceyhan neft kəmərini işə saldınız, maaşlarımızı, pensiyamızı artırdınız.

**İ l h a m Ə l i y e v:** Yenə də artıracağam. Hər il artacaqdır.

**S a k i n:** İnşallah, qocalar, cavanlar, əlillər – hamı Sizə dua edir. Bu gördüyünüz məscid İmam Hüseynlə Həzrət Abbasın adınadır. İmam Hüseyn, Həzrət Abbas Sizə kömək olsun, qüvvət versin. Balaca Heydərə cansağlığı arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** 1994-cü ildə yoldaşım şəhid olubdur. Mənim problemlərimin həll olunmasına görə Hacıbala müəllimə, Natiq müəllimə minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v:** Sizə kömək edirlər?

**S a k i n:** Bəli, çox sağ olsunlar, gözəl insanlardır. Mənim Sizdən bir xahişim var. Aldığım pensiya ilə üç uşağımı dolandıra bilmirəm. Mənə Qaraçuxurda yol qırağında 4-5 kvadratmetrlik mağazanın tikintisinə icazə verilməsinə kömək edin.

**İ l h a m Ə l i y e v:** İcazə verin, kömək edin. Əlavə nə lazımdırsa, yardım edin.

**H a c ı b a l a A b u t a l ı b o v:** Baş üstə, cənab Prezident, sabah sərəncam onun əlində olacaqdır.

**S a k i n:** Mənim yoldaşım şəhid olub, iki oğlum əsgərlikdən gəlibdir. Ulu Tanrı Sizə yar olsun. Allah-Təala Sizə kömək olsun, biz həmişə Sizinlə fəxr edirik. Necə ki, ulu öndərimizlə fəxr edirdik. Biz hamımız Əliyevçilərik, Heydərçilərik.

* * *

*Prezident İlham Əliyev qəsəbə sakinlərinin fərdi xahişlərini diqqətlə dinlədi, konkret tapşırıqlar verdi. Sakinlər ölkəmizdə dövlət səviyyəsində aparılan ardıcıl və məqsədyönlü siyasət-*

*dən, sosial-iqtisadi inkişafdan, abadlıq-quruculuq işlərindən razılıqlarını bildirdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Hövsanda tikilən stadionla tanış oldu, gənc idmançılarla səmimi görüşdü.*

**İlham Əliyev:** Bunlar futbolçulardır?

**Hacıbala Abutalıbov:** Bəli, cənab Prezident. Hazırda 6 futbol komandası var. Halbuki indiyədək bir komanda da yox idi.

**İlham Əliyev:** Burada stadion yox idi?

**Hacıbala Abutalıbov:** Heç nə yox idi, zibilxana idi. Bu, əlavə futbol meydançasıdır. Sizin göstərişinizə əsasən burada yaşıl örtüklü stadion olacaqdır. Soyunub-geyinmə otağı, duşxana da tikilib istifadəyə verilibdir. Bütün işlər daxili imkanlarımız hesabına görülübdür. Sizin göstərişinizlə Hövsan qəsəbəsində əlavə 25 quyu qazdıq, böyük təzyiqlə su gəlir. Həmin suyu buraya vermişik.

**İlham Əliyev:** Kifayət edir?

**Hacıbala Abutalıbov:** Bəli, cənab Prezident, Hövsanda texniki su problemi yoxdur.

* * *

*Sonra dövlətimizin başçısı Hövsan qəsəbəsinə gedən yolun yenidən qurulması ilə tanış oldu.*

*Tezliklə Bakının bütün küçə və prospektlərinin yenidən qurulacağını bildirən prezident İlham Əliyev paytaxtın ətrafındakı yaşayış məntəqələrinin bundan sonra da abadlaşdırılması barədə konkret tapşırıqlar verdi.*

# SUMQAYITDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 avqust 2005-ci il*

Əziz sumqayıtlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ulu öndər Heydər Əliyevin abidəsinin açılışı münasibətilə sizin hamınızı təbrik edirəm.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın güclənməsinə, müstəqil Azərbaycan dövlətinin inkişafına xidmət edirdi. Bütün dövrlərdə – 1970-ci illərdə Azərbaycanın rəhbəri vəzifəsində çalışdığı dövr ərzində və 1990-cı illərdə müstəqil Azərbaycanın prezidenti kimi, Sumqayıta həmişə böyük diqqətlə, böyük qayğı ilə yanaşırdı. Sumqayıtın inkişafı, burada iqtisadi və sənaye potensialının güclənməsi yolunda çoxlu qərarlar qəbul edilmişdi, böyük işlər görülmüşdü, yeni müəssisələr yaradılmışdı.

Bu gün Azərbaycanın sənaye potensialında çox böyük çəkisi olan Sumqayıt uğurla inkişaf edir, abadlaşır, burada gözəl işlər görülür. Bütün bu işlərin təməli 1990-cı illərin əvvəllərində Heydər Əliyev xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdandan sonra qoyulmuşdur. 1970-ci illərdə olduğu kimi, 1990-cı illərdə də – lakin artıq başqa ictimai-siyasi quruluşda – xalqımızın liderinin fəaliyyəti Azərbaycanın uğurla inkişaf etməsinə imkan yaratdı. Biz o illəri yaxşı xatırlayırıq.

Heydər Əliyev 1982-ci ilin sonunda Azərbaycandan Moskvaya getmişdi. Əgər tarixə nəzər salsaq, iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, məhz o illərdən Azərbaycan

iqtisadiyyatında tənəzzül başlanmışdır. İqtisadi inkişaf yavaş-yavaş azalmışdı, nəticədə 1990-cı illərin əvvəllərində Azərbaycanda siyasi və iqtisadi böhran yaşanırdı. Ölkə iqtisadiyyatı tamamilə iflic vəziyyətinə düşmüşdü və perspektivlər ürəkaçan deyildi. 1993-cü ildən başlayaraq ardıcıl, məqsədyönlü siyasətin nəticəsində, siyasi və iqtisadi islahatlar nəticəsində indi Azərbaycan bölgədə, dünyada ən sürətlə inkişaf edən ölkədir. 1990-cı illərdə indiki inkişafın təməli qoyulmuşdur. Əgər o illərdə görülən işlər olmasaydı, neft müqavilələri imzalanmasaydı, bu gün Azərbaycan bu cür sürətlə inkişaf edə bilməzdi.

Məhz bu gün o sağlam təməlin üzərində biz yeni Azərbaycanı, müasir Azərbaycanı qururuq, iqtisadi, siyasi cəhətdən güclü ölkəni qururuq. Son müddət ərzində görülən işlər nəticəsində bir daha əmin oluruq ki, bizim gələcəyimiz çox uğurlu olacaqdır.

Azərbaycanın iqtisadiyyatı dünyada ən yüksək sürətlə inkişaf edir. Bu ilin ilk 6 ayında Azərbaycanda sənaye potensialı 20 faiz artmışdır. Bu, dünyada ən yüksək göstəricidir. Yüz minlərlə yeni iş yerinin açılması, yoxsulluqla mübarizənin aparılması bizə imkan verdi ki, qısa müddət ərzində insanların rifah halı yaxşılaşdı. Əlbəttə, bu bizi tam şəkildə qane etmir. Azərbaycanda çoxlu problemlər var, iqtisadi, sosial problemlər var, yoxsulluq həddi çox yüksəkdir, baxmayaraq ki, yoxsulluq şəraitində yaşayan insanların sayı il yarım ərzində təxminən 10 faiz azalıbdır. Amma bu bizi qane etmir. Ona görə bütün səylərimiz Azərbaycanda yeni iş yerlərinin yaranmasına, regionların inkişafına, yoxsulluğun aradan qaldırılmasına yönəldilibdir. Bu istiqamətdə nəticələr var. Mən istəyirəm ki, bu nəticələr daha da gözəgörünən olsun. Mən istəyirəm ki, Azərbaycanın hər bir yerində insanlar yaxşı yaşasınlar, yaxşı maaş alsınlar, yaşlılar yaxşı pensiya alsınlar, tələbələr yaxşı təqaüd alsınlar və ölkəmiz daha da güclənsin.

Bu gün bölgədə baş verən proseslər deməyə əsas verir ki, Azərbaycanın seçdiyi yol ən düzgün yoldur. Sabitliyin qorunması, sülhün, əmin-amanlığın saxlanması hər bir ölkənin inkişafı üçün başlıca amildir. Bu, Azərbaycanda var və bu məsələlə-

rə çox böyük diqqət göstərilir. Xalqla iqtidar arasında birlik, vəhdət var. Bu birlik və vəhdət imkan verir ki, biz həm siyasi, həm də iqtisadi islahatları daha da inamla, cəsarətlə aparaq.

Bizim çox böyük planlarımız var. İqtisadi potensialın artması Azərbaycanın hər cəhətdən güclü, qüdrətli dövlətə çevrilməsinə imkan verəcəkdir.

Bu gün Sumqayıtda yeni, böyük elektrik stansiyasının təməlqoyma mərasimi olacaqdır. 506 meqavat gücündə olan stansiya 2 il ərzində tikiləcəkdir. O həm Sumqayıta xidmət edəcəkdir və həm də bütövlükdə Azərbaycanın energetika sisteminə böyük töhfə verəcəkdir.

Enerji təhlükəsizliyi bizim üçün çox vacib məsələdir. Mən istəyirəm ki, bütün yerlərdə bu inkişaf getsin, bütün şəhərlərdə, rayonlarda bu inkişaf hiss olunsun. Əlbəttə, böyük şəhərlərdə problemlər də böyükdür. Biz bunların hamısını bilirik və əlimizdən gələni edirik və edəcəyik ki, böyük şəhərlərdə insanları narahat edən problemlər tezliklə aradan qaldırılsın. Elektrik enerjisi, qaz, su, istilik təchizatı daha da yaxşılaşsın. Bütün bunlar olacaq və mən buna şübhə etmirəm.

Ən önəmlisi odur ki, insanlara qayğı göstərilsin. Bu gün gördüm ki, insanlar buraya ərizələrlə gəlmişlər. Bu da təbiidir. Mən həmişə deyirəm ki, əgər hər şey yaxşıdırsa, əgər insanları heç nə narahat etmirsə, heç vaxt ərizə ilə gəlməyəcək, heç vaxt saatlarla gözləməyəcəklər. Əgər bu problem varsa, bu, həll olunmalıdır. Bütün yerlərdə mənə verilən ərizələrə baxılır və dərhal reaksiya verilir. Mən buradan gedəndən sonra nümayəndələrim qalacaqlar. Kimin şikayəti var, ərizəsi var, xahiş edirəm ki, siz mənim nümayəndələrimə çatdırasınız. Onlara operativ qaydada baxılacaqdır.

Azərbaycanın inkişafı üçün həm iqtisadi, həm də siyasi islahatlar çox mühümdür. Bu il Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Bilirsiniz ki, dünya ictimaiyyəti bu seçkilərə çox böyük diqqət göstərir. Bu da təbiidir, çünki Azərbaycan dünya birliyi üçün çox önəmli bir ölkədir. Azərbaycan regionda lider ölkədir. Həm insan potensialına, həm də iqtisadi potensialına, təbii ehtiyatlarına görə, coğrafi və geo-

siyasi vəziyyətinə görə dünya birliyi üçün çox önəmli ölkədir. Biz də çox istəyirik ki, bu parlament seçkiləri tam şəffaf və ədalətli keçsin və mən də buna şübhə etmirəm.

Mənim tərəfimdən bu yaxınlarda imzalanmış sərəncam buna imkan yaradacaqdır, eyni zamanda Seçki Məcəlləsi buna imkan yaradacaqdır. Seçki praktikasının təkmilləşdirilməsi üçün sərəncamda göstərilən bütün müddəalar həyatda öz əksini tapacaqdır və 2003-cü ildə olduğu kimi, Azərbaycan xalqı tam ədalətli, şəffaf şəkildə öz iradəsini ifadə edəcəkdir. Əziz dostlar, mən əminəm ki, siz ən layiqli namizədlərə səs verəcəksiniz. O namizədlərə ki, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə öz töhfəsini verir. O namizədlərə ki, gəlib sizin qayğılarınızla birbaşa məşğul olacaqlar, xalqa bağlı olacaqlar. O namizədlərə ki, azərbaycançılıq fəlsəfəsini öz gündəlik həyatında və fəaliyyətində tətbiq edirlər və inkişaf etdirirlər.

Azərbaycan xalqı müdrik xalqdır və yaxın tariximiz hamımızın xatirindədir. Azərbaycanı məhvə, uçuruma aparan, Azərbaycanı talayan, ölkəmizi vətəndaş müharibəsinə sürükləyən, faktiki olaraq, parçalanma ərəfəsinə gətirib çıxaran qüvvələrə Azərbaycan siyasətində yer yoxdur. Azərbaycan xalqı bu qüvvələri rədd edir, onlara öz münasibətini bütün parlament və prezident seçkilərində dəfələrlə bildirmişdir və mən şübhə etmirəm ki, noyabrda keçiriləcək parlament seçkilərində də xalq öz sözünü deyəcəkdir.

Mən istəyirəm ki, seçkilərdə iştirak edən namizədlər üçün eyni şərait yaradılsın, bərabər imkanlar yaradılsın və biz buna nail olacağıq. Ən vacib məsələ odur ki, yerli icra orqanları seçki prosesinə müdaxilə etməsinlər. Heç bir namizədə heç bir maneçilik törətməsinlər. Seçki prosesinə müdaxilə etməsinlər və bütün namizədlərin seçicilərlə görüşlərinin, mitinqlərin keçirilməsinə imkan yaratsınlar. Qoy hər şey ədalətli olsun və xalq özü seçsin.

Mən bu gün çox şadam ki, yenidən Sumqayıtdayam. Son dəfə Sumqayıta 2003-cü ildə gəlmişdim, burada vəziyyətlə tanış olurdum. Yeni müəssisələrlə, fəaliyyətə başlamış müəssisələrlə

tanış olurdum. Bu gün də görəndə ki, burada inkişaf gedir, yeni binalar tikilir, yeni xiyabanlar, parklar salınır, abadlıq, quruculuq işləri gedir, çox sevinirəm. Bu işlər daha da sürətlə getməlidir. Azərbaycanın iqtisadi potensialı buna imkan yaradacaqdır. Gələn ilin büdcəsi ən azı 3 milyard dollar təşkil etməlidir. Bizim bu ilki büdcəmiz keçən ilin, 2004-cü ilin büdcəsinə nisbətən təxminən 40 faiz artmışdır, orduya ayrılan xərclər 76 faiz artmışdır. Hökumət qarşısında vəzifə qoymuşam ki, 2006-cı ilin büdcəsi də təxminən eyni sürətlə artsın. Həm ümumi xərclər, həm də orduya ayrılan xərclər artsın.

Biz müharibə şəraitində yaşayırıq. Danışıqlar aparırıq və çalışırıq ki, Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Amma düşmən bilməlidir ki, biz istənilən anda doğma torpaqlarımızı hərbi yolla azad etməyə qadirik. Bunu etmək üçün güclü ordu potensialı yaranmalıdır. Bu istiqamətdə görülən işlər göz qabağındadır. İldən-ilə artırılan hərbi büdcəmiz bizə imkan yaradacaq ki, ordumuzun güclü maddi-texniki bazası yaradılsın. Əgər xərclər bu il 76 faiz artıbsa, gələn il də ən azı o qədər artmalıdır. Şübhə etmirəm ki, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycanın dünyadakı mövqeyi, bizim iqtisadi potensialımızın güclənməsi bu məsələnin tezliklə həll olunmasına imkan yaradacaqdır. Biz danışıqlar prosesindən axıra qədər istifadə etməliyik. Əgər ümid varsa ki, bunu sülh yolu ilə həll edə bilərik, gərək bütün imkanları sınayaq. Əgər gördük ki, sülh yolu heç bir səmərə vermir, onda yeni vəziyyət yaranacaqdır və biz sizinlə birlikdə lazımi qərarları qəbul edəcəyik.

Əziz dostlar, mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Arzu edirəm ki, Sumqayıt bundan sonra da sürətlə inkişaf etsin, burada yaşayan insanların həyat səviyyəsi yaxşılaşsın, sosial problemlər öz həllini daha sürətlə tapsın, abadlıq-quruculuq işləri gələcəkdə də sürətlə getsin. Bir sözlə, sumqayıtlılar Azərbaycanın bütün başqa yerlərində yaşayan insanlarla birlikdə yaxşı, firavan həyat yaşasınlar.

Mən sizi bir daha salamlayıram, öz dərin hörmət və məhəbbətimi bildirirəm. Sağ olun.

## SUMQAYIT BUXAR-QAZ QURĞUSUNUN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

*12 avqust 2005-ci il*

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün çox əlamətdar bir gündür. Sumqayıtda yeni elektrik stansiyasının təməlqoyma mərasimi keçirilir. Bu çox böyük hadisədir. Azərbaycanın müasir tarixində çox əlamətdar bir hadisədir. Stansiyanın tikintisi təxminən iki, iki il yarım çəkəcəkdir və ondan sonra Azərbaycanın vahid energetika sisteminə gücü 500 meqavatdan çox olan stansiya daxil olacaqdır.

Azərbaycanda iqtisadiyyat sürətlə inkişaf edir. Görülən işlərin əyani nəticəsi kimi, yüz minlərlə yeni iş yeri açılıbdır. Regionların sosial-iqtisadi inkişafı sürətlə gedir və əlbəttə ki, hər yeni yaranan müəssisə, yeni tikilən ev, bina elektrik enerjisi tələb edir. Bunu təmin etmək üçün isə yeni stansiyalar tikilməlidir.

Azərbaycanın zəngin neft və qaz ehtiyatları vardır. Bu baxımdan Azərbaycanın enerji təhlükəsizliyi təmin olunur və gələcəkdə də təmin olunacaqdır. Ancaq bildiyiniz kimi, xüsusilə qış aylarında bəzi yerlərdə enerji qıtlığı yaranır və bunu aradan qaldırmaq üçün yeni stansiyalar tikilməlidir. Bu istiqamətdə məqsədyönlü işlər aparılır və yeni, müasir stansiyalar tikiləcəkdir. Bakıda «Şimal-2» elektrik stansiyasının, Əli Bayramlıda stansiyanın tikintisi nəzərdə tutulubdur. 2006-cı ilin sonuna qədər kiçik həcmli modul elektrik stansiyaları da tikilib istifadəyə veriləcəkdir ki, bu da təxminən 400–500 meqavat əlavə gücü təmin edəcəkdir.

Bu gün Sumqayıtda 506 meqavat gücündə olan stansiyanın təməlini qoyuruq. Mən əminəm ki, stansiya ən yüksək dünya standartlarına cavab verəcək, burada ən müasir texnologiyalar tətbiq olunacaqdır. Çünki bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda yaradılan hər yeni müəssisə, infrastruktur obyekti dünyanın ən yüksək standartlarına cavab versin. Təsadüfi deyil ki, stansiyanın inşasında dünyanın aparıcı şirkətlərindən biri olan «Siemens» şirkəti iştirak edəcək və şübhə etmirəm ki, burada bütün işlər ən yüksək səviyyədə görüləcəkdir.

Bu fürsətdən istifadə edib stansiyanın tikintisinin maliyyə məsələlərinin həllində iştirak etmiş banklar sindikatının nümayəndələrinə də öz təşəkkürümü bildirmək istəyirəm. Bu bir daha onu göstərir ki, Azərbaycana, Azərbaycanın gələcəyinə böyük inam var. Əgər bu inam olmasaydı, banklar Azərbaycana və burada yaranan müəssisələrə bu həcmdə kreditlər ayırmazdı. Vaxt var idi ki, kreditlərin alınması bizim üçün problem idi, Azərbaycan çox riskli bir ölkə kimi dünyada tanınırdı. Azərbaycanın iqtisadiyyatı inkişaf etmirdi və bizim üçün alınan hər kredit böyük hadisəyə çevrilirdi. Bu gün bizim qarşımızda belə problem durmur. Amma eyni zamanda çox sevindirici haldır ki, Azərbaycana kreditləri beynəlxalq aləmdə tanınan banklar verirlər və bu vəsaitin hesabına stansiya tikiləcəkdir.

Azərbaycan iqtisadi və sosial baxımdan çox sürətlə inkişaf edir. Bölgələrdə aparılan işlər, yeni iş yerlərinin açılması, yeni müəssisələrin işə salınması, işsizliyin aradan qaldırılması, yoxsulluqla mübarizə – bütün bu istiqamətlərdə müsbət nəticələr var. Biz istəyirik ki, bu nəticələr daha da böyük olsun və buna nail olacağıq. Bunu etmək üçün iqtisadi potensial güclənməlidir. Energetika isə iqtisadiyyatın inkişafında ən mühüm rol oynayan sahədir. Əgər elektrik enerjisi olmasa, heç bir müəssisə işləməyəcək, binalar tikilməyəcək və ümumiyyətlə, inkişaf getməyəcəkdir.

Azərbaycanın üstünlüyü ondadır ki, biz ölkəmizin enerji təhlükəsizliyini təmin edirik. Bunun təməli 1970-ci illərdə

qoyulmuşdu. Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində, görülən tədbirlər nəticəsində 1970-ci illərdə Azərbaycanda çox güclü energetika potensialı yaranmışdı. Baxmayaraq ki, 1970-ci illərdə Azərbaycan müstəqil ölkə deyildi, ancaq energetika sahəsində müstəqilliyə nail olmuşdu. 1990-cı illərdə Azərbaycan çox çətin, ağır problemlərlə üzləşəndə xalqımızın lideri Heydər Əliyevin səyləri ilk növbədə energetika sisteminin bərpasına, inkişafına yönəldilmiş və çox böyük işlər görülmüşdü. Yeni elektrik stansiyaları tikildi və Azərbaycanda elektrik enerjisi qıtlığı yavaş-yavaş aradan qaldırıldı.

İndi isə yeni mərhələ başlanmışdır. Bu mərhələ də ondan ibarət olacaq ki, Azərbaycanda çox böyük həcmdə enerji gücü yaranacaqdır. Mən şübhə etmirəm ki, bizim elektrik enerjisinə olan bütün tələbatımız ödəniləcəkdir. Bir neçə ildən sonra isə biz hətta elektrik enerjisini ixrac etməyə də qadir olacağıq. Beləliklə, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edəcək, yeni iş yerləri yaranacaq, yeni müəssisələr, fabriklər, zavodlar işə düşəcəkdir. Bu bizim məqsədimizdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, iqtisadi potensial daha da möhkəmlənsin və nəticə etibarilə Azərbaycan xalqı daha da yaxşı yaşasın.

İldən-ilə sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Son il yarım ərzində minimum əməkhaqqı 60 min manatdan 125 min manata qaldırılmışdır. Bir neçə aydan sonra isə minimum əməkhaqqı 150 min manat olacaqdır. Pensiyalar, tələbələrin təqaüdləri qaldırılacaq, bütün başqa sosial məsələlər öz həllini tapacaqdır. Amma sirr deyil ki, buna nail olmaq üçün ilk növbədə iqtisadiyyat güclənməlidir. İqtisadiyyatın güclənməsi üçün həm islahatlar aparılmalıdır, həm də regional inkişaf proqramı həyata keçirilməlidir və ilk növbədə, bizim energetika potensialımız güclənməlidir.

Mən çox şadam ki, biz buna nail oluruq. Yadımdadır, prezident seçkiləri ərəfəsində mənim iqtisadi proqramımın bir hissəsi də məhz energetika problemlərinə həsr olunmuşdu və enerji təhlükəsizliyi məsələləri orada öz əksini tapmış-

dı. Yadımdadır, bəyan etmişdim ki, Azərbaycanda, Sumqayıtda 500 meqavat gücündə yeni stansiya tikiləcəkdir. Bütün bu müddət ərzində həm banklarla, həm də şirkətlərlə çox gərgin iş gedirdi, danışıqlar gedirdi və nəticədə biz bu gün stansiyanın tikintisinə başlayırıq.

Azərbaycan elə bir ölkədir ki, burada iqtisadi inkişaf çox sürətlə gedir və gedəcəkdir. 1994-cü ildə və sonralar ulu öndər Heydər Əliyev tərəfindən atılan cəsarətli və müdrik addım – neft müqavilələrinin imzalanması bu gün Azərbaycanı iqtisadi cəhətdən müstəqil ölkəyə çeviribdir. Biz çox xoşbəxtik ki, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarındayıq, heç kimdən asılı deyilik. İqtisadi cəhətdən heç kimdən asılı deyilik və əlbəttə ki, siyasi cəhətdən də müstəqil siyasət aparmaq iqtidarındayıq. Bu, böyük xoşbəxtlikdir, böyük nemətdir. Sizə deyə bilərəm, dünyada bir çox ölkə var ki, bu imkanla öyünə bilmir.

İqtisadi potensialın güclənməsi bizim mövqelərimizi möhkəmləndirəcək, bölgədəki nüfuzumuzu artıracaq, dünyada gedən proseslərə təsirimizi gücləndirəcəkdir. Ona görə biz bu stansiyanın tikintisinə sadəcə bir iqtisadi layihə, yaxud da infrastruktur layihəsi kimi baxmırıq. Bu bizim ümumi siyasi konsepsiyamızın tərkib hissəsidir və şübhə etmirəm ki, xalqın dəstəyi ilə biz öz proqramımızı axıra qədər icra edəcəyik, Azərbaycanı, Azərbaycan xalqını narahat edən problemlərin hamısını aradan qaldıracağıq. İşsizlik aradan qaldırılmalıdır, yoxsulluq azaldılmalıdır. Azərbaycanın iqtisadiyyatı ildən-ilə inkişaf etməlidir və Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır.

Stansiyanın tikintisi eyni zamanda beynəlxalq əməkdaşlığın təzahürüdür. Qeyd etdim ki, bu stansiyanı Almaniyanın «Siemens» şirkəti tikəcəkdir. Fürsət düşmüşkən demək istəyirəm ki, biz Azərbaycan – Almaniya əlaqələrinə çox böyük önəm veririk. Keçən ilin avqust ayında mən Almaniya Federativ Respublikasına rəsmi səfər etmişdim. Həm prezident, həm də kanslerlə və başqa vəzifəli şəxslərlə çox səmərəli danışıqlar aparılmışdır və bizim aramızda çox işgüzar münasi-

bətlər mövcuddur. Həm siyasi müstəvidə, həm də iqtisadi və mədəni sahələrdə Almaniya – Azərbaycan əlaqələri çox sürətlə inkişaf edir.

Almaniya Avropa İttifaqının aparıcı ölkələrindən biridir və bildiyiniz kimi, bizim siyasətimizin önəmli istiqaməti Avropa məkanına inteqrasiyadan ibarətdir. Biz indi Avropa İttifaqı ilə yeni qonşuluq siyasətinin çərçivələrini müəyyən edirik. Azərbaycan bu proqrama daxil olunubdur. Bizim ikitərəfli münasibətlərimizdə, eyni zamanda Azərbaycanın Avropa İttifaqı ilə olan əlaqələrində Almaniyanın dəstəyini həmişə hiss edirik.

Eyni zamanda, Fransanı təmsil edən maliyyə qurumları da bu stansiyanın tikintisində, onun maliyyə məsələlərinin həllində iştirak edəcəkdir. Onu da demək istəyirəm ki, Fransa ilə Azərbaycanın çox gözəl əlaqələri var. Mənim Fransaya həm rəsmi səfərlərim, eyni zamanda işgüzar səfərlərim, aparılan danışıqlar onu göstərir ki, iki ölkə arasında doğrudan da çox səmərəli, işgüzar əlaqələr mövcuddur. Çoxlu birgə layihələrimiz var.

Bu stansiyanın tikintisi eyni zamanda beynəlxalq əməkdaşlığın təzahürüdür, beynəlxalq əməkdaşlığın möhkəmlənməsidir. Azərbaycan regionda öz mövqelərini gücləndirir və bizim imkanlarımız artdıqca, iqtisadi sahədə Avropanın aparıcı şirkətləri ilə daha da çox işlər görəcəyik.

Azərbaycanın büdcəsi ildən-ilə artır. Gələn il bu çox kəskin şəkildə artacaqdır. Azərbaycanın qarşısında həllini tələb edən çox böyük layihələri var. Biz Azərbaycanın mövcud olan bütün infrastrukturunu yeniləşdirməliyik. Yeni elektrik stansiyalarının tikintisinə, su xətlərinin çəkilməsinə, Bakının içməli su ilə təmin olunmasına, yeni avtomobil yollarının salınmasına, dəmir yollarının bərpasına, yeni hava limanlarının tikintisinə, nəqliyyat infrastrukturunun bərpasına, sosial məsələlərə çox böyük diqqət göstəriləcəkdir.

Fürsətdən istifadə edib demək istəyirəm ki, «Siemens» şirkəti səhiyyə sahəsində də böyük təcrübəyə malikdir. Azərbaycanda yeni xəstəxanalar, yeni məktəblər, digər sosial ob-

yektlər tikiləcəkdir. Yəni onu demək istəyirəm ki, Azərbaycanda görüləsi işlər çoxdur. Bizim iqtisadi imkanlarımız gücləndikcə, maliyyə durumumuz yaxşılaşdıqca, əlbəttə, istəyəcəyik ki, dünyanın aparıcı şirkətləri ilə, Avropa şirkətləri ilə daha da səmərəli işbirliyi quraq, əməkdaşlıq edək. Ümid edirəm ki, gələcək illərdə Azərbaycanda belə böyük layihələrin həyata keçirilməsi ənənəyə çevriləcək və biz dostlarımızla, xarici şirkətlərlə bundan sonra da səmərəli işləyəcəyik.

Əziz dostlar!

Sizin hamınızı bir daha ürəkdən salamlayıram. Mən çox şadam ki, bu stansiya məhz Sumqayıtda tikilir. Vaxtilə burada, bu ərazidə stansiya var idi. Ancaq o, artıq köhnəlmişdi və qərar qəbul olundu ki, məhz bu yerdə Sumqayıt üçün, sumqayıtlılar üçün lazım olan, onlara xidmət edəcək yeni stansiya tikilsin və istifadəyə verilsin.

Mən sizin hamınızı bu münasibətlə bir daha təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyev buxar-qaz qurğusunun tikildiyi yerə gəldi. Tikintidə çalışanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Respublikamızın rəhbəri tikintinin layihəsi ilə tanış oldu. «Siemens» şirkətinin vitse-prezidenti Norbert Könінq burada görüləcək işlər barədə konkret məlumat verdi.*

*Sonra prezident İlham Əliyev Sumqayıt buxar-qaz qurğusunun təməlinə xatirə gilizini qoydu və ilk beton qarışığını tökdü, inşaatçılara uğurlar arzuladı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYITDA

*12 avqust 2005-ci il*

## «Real sağlamlıq» tibb mərkəzi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Sumqayıtda «Real sağlamlıq» tibb mərkəzində olmuşdur.*

*Dövlətimizin başçısını bu özəl tibb müəssisəsinin işçiləri binanın önündə böyük hörmət və ehtiramla qarşıladılar, ona gül dəstəsi təqdim etdilər.*

*Prezident İlham Əliyev əvvəlcə tibb mərkəzinin foyesində «Müasir Azərbaycan Respublikasının banisi Heydər Əliyev və səhiyyə» güşəsinə baxdı.*

*Mərkəzin Baş həkimi Təranə Rəcəbli məlumat verdi ki, bu il martın 23-də istifadəyə verilmiş ginekoloji təmayüllü bu tibb mərkəzi müasir avadanlıqla təchiz olunmuşdur. Mərkəzin 70 əməkdaşı ambulatoriya şəraitində, habelə 30 çarpayılıq stasionarda qadınlara yüksək ixtisaslı xidmət göstərəcəkdir. Yeni mərkəzin tibb heyəti texnika və avadanlıq təqdim etmiş xarici firmaların nümayəndələri ilə üç ay ərzində məşgələlər keçmişdir.*

*Dövlətimizin başçısı mərkəzin poliklinikasındakı funksional diaqnostika, fizioloterapiya, nevrologiya, oftalmologiya kabinetləri ilə, habelə müxtəlif laboratoriyalarla tanış oldu. Mərkəzin ikinci mərtəbəsində yerləşən stasionardakı doğum şöbəsinin yaxşı təchiz olunmuş palatalarını, əməliyyat otaqlarını gəzdi, yeni doğulmuş körpələrə baş çəkdi.*

*Prezident İlham Əliyev ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinin vacibliyini, belə səhiyyə müəssisələrinin yaradılmasının əhəmiyyətini vurğuladı,*

*Avropa standartlarına uyğun yaradılan, ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunan tibb mərkəzindəki şəraiti yüksək qiymətləndirdi və kollektivə uğurlar arzuladı.*

## Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə yeni mənzillərin orderlərinin təqdim edilməsi

*Azərbaycan prezidenti İlham Əliyev Sumqayıtda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yeni yaşayış binası ilə tanış olmuş, mənzillərin sahiblərinə orderləri təqdim etmişdir.*

*Binanın qarşısına toplaşan sakinlər dövlətimizin başçısını mehribanlıqla, gül dəstələri ilə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Sumqayıtda bu kateqoriyadan olan insanlara daim diqqət və qayğı göstərilir, onların sosial problemlərinin həlli ilə bağlı tədbirlər həyata keçirilir. Şəhərin 47-ci məhəlləsində yerləşən bu beşmərtəbəli binada hərəsi 2 otaqlı 30 mənzil var. Mənzillər telefonlaşdırılmış, otaqlarda Kareya istehsalı olan qızdırıcılar quraşdırılmış, bir sözlə, yaşayış üçün hər cür şərait yaradılmışdır. Şəhər icra hakimiyyətinin əsaslı tikinti idarəsinin yeddi aya inşa etdiyi binaya 1,8 milyard manat vəsait xərclənmişdir. İndiyədək 3 yaşayış binası istifadəyə verilmişdir. Prezidentin göstərişi ilə Sumqayıtda daha iki bina inşa olunacaqdır. Mənzilə ehtiyacı olanların sayı azalmışdır. Gələn ilin sonunadək onların hamısı mənzillə təmin olunacaqlar.*

*Azərbaycan prezidenti İlham Əliyev bir neçə mənzilin sahibinə orderləri, açarları təqdim etdi, onları təbrik etdi, xeyirli və uğurlu olmasını arzuladı.*

*Mənzil alan sakinlər ulu öndər Heydər Əliyevin xidmətlərini xatırladaraq onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıqlarını bildirdilər, Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını söylədilər.*

*Respublikamızın rəhbəri mənzillərlə tanış oldu, ayrı-ayrı otaqları gəzdi, yaşayış şəraiti ilə maraqlandı.*

*Dövlətimizin başçısı sonra binanın qarşısına toplaşan sakinlərlə səmimi söhbət etdi, onların problemləri ilə maraqlandı, şikayətlərini dinlədi.*

*Sumqayıtlılar prezident İlham Əliyevin fəaliyyətini yüksək dəyərləndirərək xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirdiyinə və regionların sosial-iqtisadi inkişafı, əhalinin güzəranının yaxşılaşdırılması sahəsində gördüyü böyük işlərə görə minnətdarlıqlarını bildirdilər.*

# ALMANİYA FEDERATİV RESPUBLİKASI FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN RƏHBƏRİ AUQUST HANNİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 avqust 2005-ci il*

*Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluq duyduğunu bildirərək dedi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaradır.*

*Azərbaycan ilə Almaniya arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ötən il AFR-ə səfərinin uğurla keçdiyini nəzərə çatdırdı.*

*Avqustun 12 -də Sumqayıtda «Siemens» şirkətinin Almaniya bankının krediti əsasında inşa edəcəyi elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etdiyini məmnunluqla vurğulayan dövlətimizin başçısı bunu iqtisadi əlaqələrin yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Ölkələrimiz arasında siyasi sahədə də əməkdaşlığın inkişafından razılıq ifadə edən prezident İlham Əliyev Azərbaycanın və Almaniyanın xüsusi xidmət orqanları arasında da qarşılıqlı informasiya mübadiləsi ilə bağlı yaxşı əlaqələrin mövcud olduğunu bildirdi.*

*Dövlətimizin başçısı dedi ki, hazırkı dövrdə dünyada, regionda sülh və sabitlik üçün böyük təhlükələrin mövcud olduğu bir vaxtda ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın regional təhlükəsizlik üçün böyük əhəmiyyəti vardır.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, cənab Auqust Hanninqin Bakıya bu səfəri ölkələrimizin xüsusi xidmət orqanları arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək, Azərbaycan ilə Almaniya arasında münasibətlər bundan sonra da inkişaf edəcəkdir.*

*Rəhbərlik etdiyi nümayəndə heyətinə Azərbaycanda göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlıq edən cənab Hanninq Bakıya ikinci dəfə səfərə gəldiyini söylədi. İndiki səfəri zamanı Azərbaycanın tarixi yerləri ilə tanış olmaq imkanı yarandığını bildirən qonaq dedi ki, gördüyü yerlər, əldə etdiyi məlumatlar onda Azərbaycan haqqında yüksək təəssürat yaratmışdır.*

*AFR-in federal kanslerinin salamlarını prezident İlham Əliyevə çatdıran cənab Auqust Hanninq dedi ki, cənab Gerhard Şröder Sizin Almaniyaya səfərinizin uğurla keçdiyini bildirdi. O, dövlətimizin başçısının AFR-ə səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına böyük töhfə verdiyini vurğuladı. Avqustun 12-də Azərbaycanda Almaniya gününün keçirildiyini nəzərə çatdıran qonaq onun səfərinin belə bir vaxta təsadüf etməsindən məmnun qaldığını söylədi.*

*Regionda sülhün, sabitliyin qorunmasının vacibliyini vurğulayan cənab Auqust Hanninq ölkələrimizin xüsusi xidmət orqanları arasında çox yaxşı əməkdaşlığın mövcud olduğunu bildirərək dedi ki, Almaniyanın regionda ən çox etimad əsasında əməkdaşlıq etdiyi ölkə Azərbaycandır. O, Almaniya xüsusi xidmət orqanlarının zəngin təcrübəsini Azərbaycanın xüsusi xidmət orqanları ilə bölüşməyə hazır olduqlarını söylədi. Cənab Auqust Hanninq Azərbaycanın bu sahədə çox dəyərli bir tərəfdaş olduğunu vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev onun salamlarını AFR-in federal kansleri Gerhard Şröderə çatdırmağı xahiş etdi.*

# Q E Y D L Ə R

**1. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 780,6 min $km^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 5–26,38–46,49,61, 62,82,148–149,286.

**2. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri seçildi.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 5–26,40,46,49,149.

**3. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 6,7,9,10,12,14,17,24,31,36,41,43,77, 96,157,158,159,194,225,227,337–338.

**4. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezident-

ləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 7,8,10,12,25,41,49,67,68,76,79,193, 203,208,228,304,323.

**5. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycanın, 248 km Gürcüstanın ərazisindən keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 8,10,12,26,41,49.

**6. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK

Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal

diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 8,11,20,22–23,25,26,28,29,32,39,44,49,61, 63,66,67,68,69,70,71,72,73,76,78,104,148,152,153,154,155,168, 169,173,180–181,186,191,198–200,201,203,206,221,,223,224, 225,231,242,246,247,251,288,289,302,315,322,323,325–329,332, 333,338.

**7. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin

bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 12,149.

**8. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. –12,16,35,45,54,157,181.

**9. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 12,17,43,49,142,272,304.

**10. Ceyhan** – Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 13,26,49.

**11. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 13,14,109–110,306.

**12. Şimali Kipr Türk Respublikası** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrısı elan etdi. –13,14,40,42,149.

**13. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 14,157.

**14. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 14.

**15. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – AAEB. AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa İttifaqı yarandı. – 14,42,43,45.

**16. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 15,49,62, 82,113–114,119,120,131,216–217,286,287,304,306.

**17. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 17,51,52,62,84,160,196,219,238,251,252,253,254,267, 281,301,304–306.

**18. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 18,20.

**19. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 22–23,69,70,86,172–173,197,200,214–215,244,249,274,277–278.

**20. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 22,70,86,197,214–215,249,277–278.

**21. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, pre-

zident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 22–23,61,64,68,69,70,86,179, 181,197,214–215,218,249,277–278,279,286.

**22. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərara-

sı birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 29,150,304.

**23. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 27–34.

**24. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 35,196,279,286,333,339–340.

**25. «AQO»** – seçki monitorinq qrupu. Qrupa cəmi 13 dövlət daxildir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 2001-ci ildə yaradılan «AQO» qrupunun vəzifəsi Cənubi

Qafqaz ölkələrinin AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət etməkdir. – 35–36.

**26. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 37,121,178.

**27. Hüsnü Mübarək,** Seyid Məhəmməd (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 37,121,178.

**28. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağı-

dılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 38,166.

**29. Lenin,** V l a d i m i r  İ l i ç (Ulyanov) (1870–1924) – RSFSR-in siyasi və dövlət xadimi. Hələ tələbəlik illərindən inqilabi hərəkata qoşulmuşdur. Lenin 1895-ci ildə Peterburq «Fəhlə sinfinin azadlığı uğrunda mübarizə ittifaqı»nın yaradılmasında iştirak etmişdir. 1900-cu ildə Plexanovla birlikdə «İskra» qəzetini nəşr edir. 1903-cü ildən RSDFP-nin 2-ci qurultayında bolşevik fraksiyasına başçılıq edir. 1907-ci ildən xaricə emiqrasiya edir. 1917-ci ildə Petroqrada qayıdıb silahlı üsyana başçılıq edir. Lenin başda olmaqla 2-ci Ümumrusiya Sovetlər qurultayında hökumət – XKS yarandı. Vətəndaş müharibəsi dövründə «hərbi kommunizm» siyasətinin yaradıcılarından olmuşdur. Bu dövrdə ölkə birpartiyalı sistemə keçmiş, ölkədə geniş surətdə repressiya başlanmış, müxalifət qüvvələri və orqanları ləğv edilmiş, görkəmli adamlar və ziyalılar ölkəni kütləvi surətdə tərk etmişlər. 1922-ci ildə xəstələnmiş və ölkənin siyasi həyatından uzaqlaşmışdır. – 38.

**30. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində muxtar respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min $km^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 43.

**31. Osetiya** – Mərkəzi Qafqazda region. 1774-cü ildə Rusiya imperiyası Osetiyanı işğal etmişdir. 1922-ci ildə Osetiya iki hissəyə bölünür – Şimali Osetiya RSFSR-in, Cənubi Osetiya Gürcüstanın tərkibinə daxil olur. 2008-ci ildə RF Cənubi Osetiyanı müstəqil dövlət kimi tanımışdır. – 43.

**32. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 43,84,298.

**33. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış respublika. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı toqquşmalar zamanı Lebedin komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 43.

**34. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. –44.

**35. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 47,49.

**36. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 47.

**37. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London

xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 49,59,60,94–95,304.

**38. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 51,53,54.

**39. Mixail Margelov** (d.1964) – hazırda Rusiya Federasiya Şurasının Beynəlxalq Məsələlər üzrə Komitəsinin sədridir. Mixail Margelov AŞ PA-da Avropa demokratlar qrupunun üzvü və sədri olmuşdur. – 51.

**40. Viktor Çernomırdin,** V i k t o r S t e p a n o v i ç (1938–2009) – Rusiya Federasiyasının dövlət xadimi. 1992–98-ci illər Rusiya Federasiyasının Baş naziri, 1999–2009-cu illərdə Rusiya Federasiyasının Ukrayna Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 52.

**41. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyətidir. Mənzil-qərargahı Moskvadadır. – 52.

**42. Giorgi Frunda** (d.1951) – Rumıniya siyasətçisi, vəkil. 1992–2004-cü illərdə ASPA-nın üzvü, 2003-cü ildə AŞPA Monitorinq Komitəsinin sədri olmuşdur. – 53.

**43. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 55–56,101,219,286,334.

**44. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti olmuşdur. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 55–56.

**45. Bastiliya** – Parisdə qala. 1370–82-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur. – 55.

**46. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 55,158.

**47. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc

vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 55, 96,157.

**48. Monqolustan,** M o n q o l u s t a n R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Batordur. –57.

**49. Avropa İttifaqı** – 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi məkanın və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 58,157,334.

**50. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 59.

**51. London –** Böyük Britaniyanın paytaxtı. Dünyanın ən böyük şəhərlərindən və limanlarından biri. Əhalisi 8 milyon nəfərdir. İdarəçilik funksiyalarının çoxunu Böyük Londonun Bələdiyyə Şurası və dairə şuraları həyata keçirir. XI əsrin sonu XII əsrin əvvəlində London rəsmən İngiltərənin paytaxtı oldu. – 59,60,94.

**52. Toni Bleyr,** E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentin deputatı, 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail – Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 60.

**53. Ağdaş** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1048 km$^2$, əhalisi 91,7 min nəfərdir. – 61–80,84.

**54. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 62,177,219.

**55. Süleyman Rüstəm,** S ü l e y m a n Ə l i a b b a s o ğ l u R ü s t ə m z a d ə (1906–1989) – görkəmli Azərbaycan şairi, dramaturq, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın Xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Müharibə dövrü (1941–1945) yaradıcılığında Cənubi Azərbaycanda xalqın milli azadlıq uğrunda mübarizəsinə həsr olunmuş şeirləri xüsusi yer tutur. – 64.

**56. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət

göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 61,68,81,85,215,278.

**57. «Şahdəniz»** – Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 65,105,162,251.

**58. Maqsud Şeyxzadə,** M ə q s u d M ə s i m o ğ l u (1908–1967) – Azərbaycan əsilli özbək yazıçısı, alim və pedaqoq. Özbəkistan Əməkdar incəsənət xadimi. Özbək xalqının monqol istilaçılarına qarşı mübarizəsinə həsr edilmiş «Cəlaləddin» pyesi, Uluqbəyə həsr edilmiş «Mirzə Uluqbəy» faciəsi, Azərbaycan mövzusunda əsərləri və Azərbaycan ədəbiyyatından tərcümələri ona Özbəkistanda şöhrət qazandırmışdır. – 70.

**59. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 km$^2$, əhalisi 148,4 min nəfərdir. –73,198–215,225,229,230,232,237,238–239,241,256, 257,268,269,270,271,272,281.

**60. Xəzər İsayev**, X ə z ə r A ğ a ə l i o ğ l u (d.1963) – güləşçi, gömrük xidməti polkovniki. SSRİ-nin Əməkdar idman ustası. Dəfələrlə SSRİ, Avropa və dünya çempionatlarının qalibi olmuşdur. Hazırda Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidentidir. – 74,75.

**61. Göyçay** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 739 km$^2$, əhalisi 102,9 min nəfərdir. – 81–93.

**62. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-- Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Muxtar Respublikası daxildir. Dövlət başçısı prezident, qa-

nunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 84,297,304.

**63. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 83,99,100,142.

**64. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 km$^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 83, 162,255,263,325–338,340.

**65. Maştağa** – Bakının Sabunçu rayonunda şəhər tipli qəsəbə. Maştağa qədim yaşayış məntəqələrindəndir. Maştağa sözünün etimologiyasını vaxtilə burada məskunlaşmış massagetlər (maskutlar) tayfasının adı ilə əlaqələndirirlər. Maştağa Abşeronun xalq memarlığı mərkəzlərindən olmuşdur. Maştağa Şirvanşah I İbrahimin dövründə (1414-cü ildə tikilmiş məscidin kitabəsi Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır) tikilmişdi. 1669-cu ildə Stepan Razinin dəstəsi Maştağanı dağıtmış, çoxlu qənimətlə geri dönmüşdü. Memarlıq abidələrindən hamam (XVII əsr), Aqilbaba türbəsi, Xunxar türbəsi, Xoca Aslan, Həsənbəy, Pirşad (XVIII əsr) məscidləri və s. qalır. – 97–106,146–147.

**66. Şəki** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-

ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2397 km$^2$, əhalisi 132,5 min nəfərdir. – 99,100,219,268.

**67. Əli Abbasov,** Ə l i  M ə m m ə d  o ğ l u (d.1953) – texnika elmləri doktoru, AMEA-nın həqiqi üzvü. 2004-cü ildən Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 99.

**68. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 99,254.

**69. Əsmətxanım Məmmədova,** Ə s m ə t x a n ı m  B ə y ə h m ə d  q ı z ı (d.1941) – şərqşünas. Filologiya elmləri namizədi. 1996–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 101.

**70. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 107,283,304.

**71. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 107,283.

**72. Macarıstan,** M a c a r ı s t a n  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon

nəfərdir. Dövdət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 108.

**73. Laslo Şoyom** (d.1942) – Macar hüquqşünası, Macarıstan Elmlər Akademiyasının müxbir üzvü. 2005–2010-cu illərdə Macarıstanın prezidenti olmuşdur. Hazırda hüquq müdafiəsi və ekologiya təşkilatlarının işi ilə məşğul olur. – 108.

**74. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 109, 110,270.

**75. Mahmud Əhmədinejad** (d.1956) – 2005-ci ildən İran İslam Respublikasının prezidenti. Xarici siyasətdə ABŞ ilə münasibətlərin olduğu kimi qalmasını və heç bir güzəştə gedilməməsini müdafiə edir, BMT-ni fəaliyyətsizlikdə ittiham edir və İranın nüvə proqramının həyata keçirilməsinin labüd olduğunu bildirir. – 109.

**76. Xatəmi,** Seyid Məhəmməd Xatəmi (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 110.

**77. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Ya-

poniya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 111-112.

**78. Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 111.

**79. Olbrayt Madlen** (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997–2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. –113–114.

**80. Kolumbiya,** Kolumbiya Respublikası – Cənubi Amerikanın şimal-qərbində dövlət. Sahəsi 1139 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 115.

**81. Alvaro Uribe Veles** (d.1952) – 2002–2009-cu illərdə Kolimbiyanın prezidenti olmuşdur. – 115.

**82. Belçika,** Belçika Krallığı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. –116,117.

**83. II Albert** (d.1934) – 1993-cü ildən Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. –116.

**84. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 117.

**85. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cə-

hətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. –118.

**86. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş Qərargah rəisi olmuşdur. –118.

**87. Nyu-Hetrşir** – ABŞ-ın şqimal-şərqində ştat. Sahəsi 24,2 min $km^2$, əhalisi 1201 min nəfərdir. İnzibati mərkəzi Konkord şəhəridir. –119.

**88. Corc Buş Herbert (ata)-**(1924) – Amerikanın görkəmli dövlət xadimi. 1980–89-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989–92-ci illərdə ABŞ-ın 41-ci prezidenti olmuşdur. – 119.

**89. Fiona Hill** – ABŞ-ın Brukinqs İnstitutunda xarici siyasət proqramının analitiki, Avrasiya Fondu prezidentinin müşaviri. –120.

**90. Vitali Rəhimov,** Vitali Məcid oğlu (d.1984) – güləşçi, milli yığma komandanın üzvü. 2008-ci il Pekin olimpiadasının gümüş, 2009,2012-ci il dünya çempionatının bürünc medalının qalibi olmuşdur. –122.

**91. Abbas Abbasov,** Abbas Aydın oğlu (d.1949) – 1992–2006-cı illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuşdur, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 123–124.

**92. Nizami Paşayev** (d.1981) – ağırlıqqaldırma idmançısı. Yeniyetmələr arasında Avropa və dünya rekordçusu. 2001-ci ildə gənclər arasında dünya çempionu və dünya çempionatının mütləq qalibi olmuşdur. 2001-ci ildə dünya çempiona-

tının gümüş mükafatçısı, 2002-ci ildə Avropa çempionatının bürünc medalını almışdır. – 125.

**93. Beynəlxalq Olimpiya Komitəsi** (BOK) – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 127.

**94. Kəmaləddin Heydərov,** Kəmaləddin Fəttah oğlu (d.1961) – gömrük xidməti general-polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 127,128.

**95. Füzuli Musayev** (d.1962) – karate üzrə dəfələrlə ölkə çempionu, beynəlxalq turnirlərin qalibi, keçmiş SSRİ çempionatlarının mükafatçısı, SSRİ çempionu olmuşdur. İkiqat dünya çempionudur (1995, Meksika), (1997, Avstraliya). Karate üzrə VI dan qara kəmər sahibidir. Azərbaycan Taykvando Federasiyasının birinci vitse-prezidentidir. – 127.

**96. Fazil Məmmədov,** Fazil Əsəd oğlu (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 130–131,187.

**97. Ziya Məmmədov,** Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. –136–137,138,229–273.

**98. Faiq Qarayev** (d.1959) – SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, Azərbaycanın «Əməkdar bədən tərbiyəsi və idman xadimi», 2002-ci ildən qadınlardan ibarət Milli

yığma voleybol komandasının Baş məşqçisi və Azərbaycan Voleybol Federasiyasının vitse-prezidentidir. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. –137,138,139.

**99. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 137,291,299–300.

**100. Qətər,** Q ə t ə r d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11 min km$^2$, əhalisi 59 min nəfərdir. Dövlət başçısı əmir, paytaxtı Doha şəhəridir. – 140–141.

**101. Həməd Bin Xəlifə ət-Tani** (d.1952) – 1995-ci ildən Qətər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. 1997-ci ildən həm də Müdafiə naziridir. Ordunu sivilizasiyalı etmişdir. – 140, 141.

**102. Zurab Noğaideli** – Gürcüstan siyasi xadimi. 2005–2007-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. –

**103. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km$^2$, əhalisi 266 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. – 143.

**104. Məmun Əbdül Qəyyum** (d.1937) – 1978–2008-ci illərdə Maldiv Respublikasının prezidenti. Diktator üsul-idarəsinə görə həmişə tənqid edilmişdir. – 143.

**105. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min $km^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefekturaya bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 144.

**106. VI Məhəmməd,** B i n  ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sülaləsindən 18-ci kraldır. – 144.

**107. Peru,** P e r u  R e s p u b l i k a s ı – Cənubi Amerikanın qərbində dövlət. Sahəsi 1285,2 min $km^2$, əhalisi 23,95 milyon nəfərdir. İnzibati ərazisi 12 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Demokratik Müəssislər Məclisi Konqresidir. Paytaxtı Limadır. – 145.

**108. Alexandro Toledo** Manrike (d.1948) – iqtisadçı, Peru siyasətçisi. 2001–2006-cı illərdə Perunun prezidenti olmuşdur. –145.

**109. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. –149.

**110. İsa,** İ i s u s  X r i s t o s – xristianlığın əfsanəvi banisi. Xristianlığın təliminə görə İsa «Allah insandır» və «Allah oğludur». Rəvayətə görə İsa Roma imperatoru Avqustun dövründə Fələstinin Vitleyem şəhərində doğulmuş İudeya, Qalileya, Samariya və s. yerlərdə yeni dini təbliğ

etmiş, çarmıxa çəkilmiş, sonra diriləərək qeyb olmuşdur. İsaya etiqad xristianlığın əsas ehkamlarındandır. –153.

**111. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 157.

**112. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 158,212.

**113. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 160,133,254.

**114. Əli Həsənov,** Əli Şamil oğlu (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 164.

**115. Həsən bəy Zərdabi,** Məlikov Həsən bəy Səlim bəy oğlu (1842–1907) – Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F. Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. – 166.

**116. «Həyat» –** gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. Bakıda «Kaspi» mətbəəsində Azərbaycan dilində nəşr edilmişdir. İlk nömrəsi 1905-ci il iyunun 7-də, sonuncusu 1906-cı il sentyabrın 3-də (cəmi 325 nömrə) çıxmışdır. Naşiri Əlimərdan bəy Topçubaşov, redaktorları Ə.Ağayev və Ə.Hüseynzadə olmuşdur. Azərbaycanın mütərəqqi və demokratik ziyalıları öz ideyalarını yaymaq üçün bu qəzetdə çıxış edirdilər. – 166.

**117. «Azərbaycan» –** Azərbaycan Respublikasında gündəlik siyasi, ictimai qəzet. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur. 1992-ci ildən yenidən nəşr edilir. Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır. – 166.

**118. Elmar Hüseynov,** Elmar Sabir oğlu (1967–2005) –jurnalist. «Monitor» jurnalının Baş redaktoru. 2005-ci ildə muzdlu qatil tərəfindən qətlə yetirilib. – 169.

**119. Əli Həsənov,** Əli Məhəmmədəli oğlu (d.1960) – tarix elmləri doktoru, professor. Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü (1999). 1993–95-ci illərdə partiyanın ideoloji şöbəsinin müdiri işləmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinə rəhbərlik edir. Müasir siyasi problemlərə aid kitabların və məqalələrin müəllifidir. – 171.

**120. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin tədiyə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 174–175,195.

**121. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 60 milyon nəfərdir. Dövdət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 176.

**122. Samuel Şmid** (d.1947) – İsveçrə dövlət və siyasi xadimi. 2005-ci ildən İsveçrə prezidenti. – 177.

**123. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 km$^2$, əhalisi 140,0 min nəfərdir. – 179–197,204,219,229,230,232,237,241,242,247, 248, 249,252,256,271,279–282.

**124. Abbasqulu ağa Bakıxanov,** ədəbi təxəllüsü Qüdsi (1794–1847) – Azərbaycan alimi, şair, maarifpərvər. Bakı xanı II Mirzə Məhəmmədin (1784–91) oğlu. 1828-ci ildə Türkməncayda Rusiya–İran danışıqlarında iştirak etmişdi. Bakıxanovun «Gülüstani-İrəm» (1841) əsəri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynamışdır. –179.

**125. Kolumbiya Universiteti** – ABŞ-ın ən böyük elm mərkəzlərindən biri. Əsası Nyu-York şəhərində 1754-cü ildə

qoyulmuşdur. Universitet statusunu 1912-ci ildə almışdır. Burada 20 minə yaxın tələbə təhsil alır. –195.

**126. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 201.

**127. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. –203,268,303.

**128. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm

naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse-prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. –212,218,229–273.

**129. Qusar** (1938-ci ilədək Hil rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1542 km$^2$, əhalisi 83,0 min nəfərdir. –218–282.

**130. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1610 km$^2$, əhalisi 93,1 min nəfərdir. – 219.

**131. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2004-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. –229–273.

**132. İslam İnkişaf Bankı** (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 154.

**133. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 255,267.

**134. «Azəriqaz»,** İstehsalat Birliyi – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi

respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 230,237,270,310,311,314.

**135. «Azərenerji»** – Açıq Səhmdar cəmiyəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişafı məsələlərini həll edir. – 230,267,311.

**136. Dəvəçi** (*hal-hazırda Sabran*)– Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Abşeron rayonuna verilmişdir. 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1739 $km^2$, əhalisi 59,9 min nəfərdir. – 233–236,237,252,258,271.

**137. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min $km^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. –251.

**138. Lider**– Azərbaycanda televiziya kanalı. 2000-ci ildən fəaliyyətə başlamışdır. «Lider Tv Radio–Azərbaycan» MMC-nin nəzdində fəaliyyət göstərən telekanalın əsas meyarı özəl, professional və rəngarəng proqramların hazırlanmasıdır. 2001-ci ildən Lider televiziyası dünya teleməkanına daxil olaraq, dünyaya yayımlanmağa başlamışdır. –280–282.

**139. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min $km^2$, əhalisi 20,4 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya

konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 284,285.

**140. Abdulla Əhməd Badavi** (d.1939) – 2003–2009-cu illərdə Malayziyanın Baş və Maliyyə naziri olmuşdur. Hakim Milli Cəbhə Partiyasının lideridir. – 285.

**141. Abdullah bin Əbdüləziz,** Al Səud (d.1924) – 2005-ci ildən Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildə Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandanı təyin edilmişdi. Birinci kral Əbdüləziz ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin birinci müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 291,299–300.

**142. Fəhd bin Əbdüləziz,** Al Səud (1922–2005) – 1982–2005-ci illərdə İki Müqəddəs Ocağın Xidmətçisi və Səudiyyə Ərəbistanının kralı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 291,299–300.

**143. Sinqapur,** Sinqapur Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 639 km$^2$, əhalisi 3,05 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapurdur. – 292.

**144. Sellapan Rama Natan** (d.1924) – 1999-cu ildən Sinqapur prezidenti. – 292.

**145. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici

orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridır. – 293.

**146. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 293.

**147. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min $km^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 294.

**148. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. –294.

**149. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon $km^2$, əhalisi 1,2 milyard nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 295.

**150. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 295.

**151. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min $km^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzə tabeli şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 296.

**152. Roh Mu-Hyun (Ho Mu Xeyn)** (1946–2009) – 2003–2008-ci illərdə Koreya Respublikasının prezidenti. Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 296.

**153. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 297.

**154. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 298.

**155. Elman Araslı** (d.1933) – ərəbşünas. Filologiya elmləri namizədi. Xarici ölkələrdə diplomatik vəzifələrdə çalışmışdır. Moskvada Sovet Dostluq Cəmiyyətləri və Xarici Ölkələrlə Mədəni Əlaqələr Birliyi Yaxın və Orta Şərq ölkələri şöbəsinin müdiri işləmişdir. Əvvəl Səudiyyə Ərəbistanı Krallığında, hazırda isə Qətərdə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. –299,300.

**156. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Müsəlmannları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 300.

**157. «NTV»** – Rusiya Federasiyasının müstəqil televiziya kanallarından biri. 1991-ci ildən fəaliyyət göstərir. –301.

**158. Dağıstan,** Dağıstan Respublikası – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min $km^2$, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına

qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 303.

**159. Murad Aci**, M u r a d İ s g ə n d ə r o ğ l u (d.1944) – Dağıstan yazıçı-tədqiqatçısı. Tarixi folklor janrında yazılmış məşhur əsərlərin – Altayda, türklərin tarixi vətənində yaranmış «Xalqların böyük əsərinin müəllifidir. Murad Acinin kitabları Rusiya və türkdilli dövlətlərdə də onu geniş tanıtmışdır. 1994-cü ildən Murad Aci təxəllüsü ilə nəşr edilir. – 303.

**160. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 307–324.

**161. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 312.

**162. İmam Hüseyn** (əl-Hüseyn ibn Əli) – Əli ibn Əbu Talibin Məhəmməd peyğəmbər əleyhissalamın qızı Fatimədən olan kiçik oğlu. Müsəlmanların üçüncü imamı. 680-ci ildə xəlifə Müaviyənin vəfatından sonra xəlifə Yəzid zamanı islam dinində təhriflər yaranırdı. Məhz buna görə də İmam Hüseyn 70 döyüşçüsü ilə birlikdə Kufə yaxınlığında olan Kərbəlaya gəlir. Tezliklə xəlifənin 4 minlik dəstəsi Hüseynin dəstəsinə basqın edir və qeyri-bərabər döyüşdə Hüseynin dəstəsi tamamilə qırılır. Hüseyn özü onlarla yara alıb həlak olur.

«Hüseyn ən böyük şəhid» adlanır. Kərbəla isə şiələrin başlıca ziyarətgahlarından birinə çevrildi. Bütün şiələr Hü-

seynin həlak olduğu günü matəm günü kimi (Aşura) qeyd edirlər. – 323.

**163. «Siemens»** – alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda nümayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektrik avadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 267,333,334,35,339.

**164. Avqust Hanninq** (d.1946) – alman dövlət xadimi 1998–2005-ci illərdə Almaniya Federal Kəşfiyyat Xidmətinin rəhbəri olmuşdur. –339–340.

**165. Gerhard Şröder** (d.1944) – Almaniyanın dövlət və siyasi xadimi. 1980-ci ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 340.

## Şəxsi adlar göstərici


**Abasov İsmət** – 229–273
**Abbasov Abbas** – 123–124
**Abbasov Əli** – 99
**Abutalıbov Hacıbala** – 307–324
**Acı Murad** – 303
**Ağamirzəyeva Fatimə** – 179
**Ağasiyev Ceyhun** – 125
**Ağayev Rəfael** – 125
**Al Səud Abdullah** – 291,299–300
**Al Səud Fəhd** – 291,299–300
**Al-Səid Səttam** – 299
**II Albert** – 116
**Araslı Elman** – 299,300
**Azəfi Elmira** – 180
**Atatürk Mustafa Kamal** – 18,20
**Auşev Ruslan** – 150
**Babayev Nəriman** – 198
**Babayeva Sündüz** – 229–273
**Badavi Abdulla** – 285
**Bakiyev Kurmanbek** – 107,283
**Bakıxanov Abbasqulu ağa** – 179
**Batsyuni Əli Cəlal** – 37
**Bədəlov Mustafa** – 84
**Bədirxanov Mövsüm** – 229–273
**Bəşirov Yaşar** – 127
**Bleyr Toni** – 60
**Borsotti Marko** – 212
**Bristoun Lorens** – 94–95
**Buş Corc *(ata)*** – 119
**Camalullai Seyid Siracuddin** – 284
**Cəfərov Yusif** – 125

**Çanq Von Çu** – 128
**Çernomırdin Viktor** – 52
**Dobryanski Pola** – 216–217
**II Elizabet** – 59
**Enxbayar Nambarin** – 57
**Erentok Əhməd** – 286,287
**Əbdül Kalam** – 295
**Əhmədinejad Mahmud** – 109
**Əhmədov Yaqub** – 63,65,67
**Əl-Atiyyə Həməd** – 140,141
**Əliyev Heydər** – 8,11,20,22–23,25,26,28,29,32, 39,44,49,61,63,66,67,68,69, 70,71,72,73,76,78,104,148, 152,153,154,155,168,169, 173,180–181,186,191,198–200,201,203,206,221,223, 224,225,231,242,246,247,251, 288,289,302,315,322,323, 325–329,332,333,338
**Əliyeva Leyla** – 61,68,81,85,215,278
**Əliyeva Mehriban** – 22–23,61,64,68,69,70,81,85, 86,179,181,197,214–215, 218,249,277–278,286
**Ərdoğan Rəcəb Tayyib** – 5–26,40,46,49,149
**Əsgərov Elman** – 122
**Ət-Tani Həməd** – 140,141
**Frunda Giorgi** – 53
**Fucivara Toşiyuki** – 111–112
**Günəşov Tariyel** – 69
**Hacıyeva Məryəm** – 179
**Hanninq Auqust** – 339–340
**Heydərov Kəmaləddin** – 127,128
**Həsənov Əli** – 164
**Həsənov Əli** – 171
**Həsənov Yaşar** – 307–324
**Həsənova Alla** – 139

**Həsənzadə Məhərrəm** – 104
**Hill Fiona** – 120
**Hüseynov Elmar** – 169
**Hüseynov Rəşad** – 125
**Xanbabayev Şəmsəddin** – 229-273
**Xatəmi Məhəmməd** – 110
**Xəlilov Mirəzcan** – 278
**Xəlilov Ramiz** – 81
**İsa (*peyğəmbər)*** – 153
**İsayev xəzər** – 74,75
**İsmayılqızı Məlahət** – 68
**Kanazava Hirokazu** – 127
**Kaoçarern Kampr** – 176
**Karstens Aqustin** – 174–175
**Kərimova Sevda** – 63,64
**Kərzai Həmid** – 294
**Kojevnikova Mariya** – 152–153
**Koidzumi Dzünitiro** – 111
**Kozlovtsev Aleksey** – 153–154
**Köninq Norbert** – 335
**Kurtinaytis Rimas** – 133,134
**Könül Vəcdi** – 148–149
**Qarayev Əbülfəs** – 212,218,229–273
**Qarayev Faiq** – 137,138,139
**Qəyyum Məmun** – 143
**Qoms Rita** – 196
**Lenin Vladimir** – 38
**Manrike Alexandro** – 145
**Margelov Mixail** – 51
**Martinetti Rafael** – 124,302
**Mehdiyev Natiq** – 307–324
**Meyer Andre** – 201
**VI Məhəmməd** – 144
**Məmmədov Fazil** – 130–131,287
**Məmmədov Yaşar** – 127
**Məmmədov Ziya** – 136–137,138,229–273

**Məmmədova Əsmətxanım** – 101
**Məmmədova Humay** – 181,182
**Moral Turan** – 18
**Musayev Füzuli** – 127
**Mübarək Hüsnü** – 37,121,178
**Müşərrəf Pərviz** – 118
**Natan Sellapan** – 292
**Nazarbayev Nursultan** – 47
**Nəbiyev Rafiq** – 71
**Nəsibov Nadir** – 133
**Niftəliyev Rafiq** – 65,73,75
**Noğaideli Zurab** – 142
**Nuri Alim** – 83
**Nuriyeva Zeynəb** – 131
**Olbrayt Madlen** – 113–114
**Paşayev Nizami** – 125
**Paşazadə Hacı Allahşükür** – 300
**Pirimov Zöhrab** – 229–273
**Pirverdiyev Etibar** – 61,229–273
**Rəcəbli Təranə** – 336
**Rəhimov Vitali** – 12
**Roh Mu-Hyun** – 296
**Rüstəmov Qulam** – 63,64,66
**Saakaşvili Mixeil** – 304
**Sezər Əhməd Necdət** – 149
**Səfəri Mehdi** – 109–110
**Səlimov Şah** – 71,74,75
**Səmədov Əlibəy** – 125
**Səmədzadə Nazim** – 229–273
**Süleyman Rüstəm** – 64
**Sunün Con** – 119
**Şabanov Hidayət** – 127
**Şeyxzadə Maqsud** – 70
**Şirak Jak** – 55–56
**Şmid Samuel** – 177
**Şoyom Laslo** – 108

**Şröder Gerhard** – 340
**Tavitiye Heyki** – 58
**Usubov Ramil** – 27–34
**Vegener Roland** – 35–36
**Veles Alvaro** – 115
**Verhofstadt Gi** – 117
**Voronin Vladimir** – 298
**Yudhoyono Susilo** – 293
**Yuşşenko Viktor** – 297
**Zentürk Ardan** – 38–46
**Zərdabi Həsən bəy** – 166

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 43
**Abşeron** – 267,318,319,320
**Afina** – 127,128
**Ağdaş** – 61–80,84
**Albaniya** – 123
**Almaniya** – 35,196,279,286,333,339–340
**Amerika Birləşmiş Ştatları** – 15,49,62,82,113–114,119, 120,131,216–217,286,287, 304,306
**Asiya** – 48
**Astara** – 203,268
**Avrasiya** – 48
**Avropa** –40,42,48,51,58,97,123,125, 168,220,256,286,305,335
**Bakı** – 6,13,23,29,38,47,50,51,52, 56,57,59,60,72,73,83,87,94, 97,98,100,101,107,108,111, 113,115,117,118,212,130, 143,144,145,146,149,175, 177,178,203,24,226,229,252, 253,254,255,262,263,268, 281,282,283,284,285,287, 288,291,292,293,294,302, 308,309,310,311,312,316, 318,324,330,334,340
**Belarus** – 84
**Belçika** – 116,117
**Bərdə** – 84
**Bolqarıstan** – 138,196
**Böyük Britaniya** – 49,59,60,94–95,304
**Böyük Həmyə** – 246

**Ceyhan** – 13,26,49
**Çexiya** – 251
**Dağ Quşçu** – 244
**Dağlı Çalğan** – 244
**Dağlıq Qarabağ** – 6,7,9,10,12,14,17,24,31,36,41, 43,77,96,157,158,159,194,225, 227,337–338
**Dağıstan** – 303
**Dəvəçi** – 233–236,237,252,258,271
**Dnestryanı** – 43
**Estoniya** – 84
**Əfqanıstan** – 294
**Əmirxanlı** – 234
**Ər-Riyad** – 299–300
**Fransa** – 55–56,101,219,286,334
**Gəncə** – 83,99,100,142
**Giləzi** – 251,268
**Goranboy** – 84
**Göyçay** – 81–93
**Güləmli** – 234
**Günəşli** – 234,307–324
**Gürcüstan** – 12,17,43,49,142,272,304
**Gündüzqala** – 278
**Hacıqaradaşlı** – 234
**Hindistan** – 295
**Hövsan** – 307–324
**Xaçmaz** – 73,198–215,225,229,230,232, 237,238–239,241,256,257, 258,268,269,270,271,272,281
**Xəzər dənizi** – 23,49,241
**Xudat** – 241
**İmişli** – 85
**İndoneziya** – 293
**İran** – 13,14,109–110,306
**İsmayıllı** – 153
**İsrail** – 84

**İsveç** – 83,84
**İsveçrə** – 62,177,219
**İtaliya** – 280
**İvanovka** – 153
**Kolumbiya** – 115
**Kopenhagen** – 15
**Koreya Respublikası** – 296
**Qafqaz** – 39,41,219
**Qalaaltı** – 238
**Qazaxıstan** – 47,49
**Qələgah** – 234
**Qələdüz** – 249
**Qərbi Avropa** – 305
**Qətər** – 140–141
**Qırğızıstan** – 107,283,304
**Qırmızı qəsəbə** – 191–197
**Qorğan** – 236
**Qozağacı** – 244
**Quba** – 179–197,204,219,229,230, 232,237,241,242,247,248, 249,252,256,271,279,282
**Qusar** – 218–282
**Leyti (*Qusarda kənd*)** – 234
**Litva** – 123
**London** – 59,60,94
**Macarıstan** – 108
**Malayziya** – 284,285
**Maldiv** – 143
**Masallı** – 84
**Maştağa** – 97–106,146–147
**Mərakeş** – 144
**Məşrif** – 244
**Mingəçevir** – 83,98
**Misir** – 37,121,178
**Moldova** – 43,84,298
**Monqolustan** – 57

| | |
|---|---|
| **Moskva** | – 235,325 |
| **Nabran** | – 257 |
| **Naftalan** | – 238 |
| **Naxçıvan MR** | – 109,110,270 |
| **Naxçıvan** | – 203,268,303 |
| **Niderland *(Hollandiya*)** | – 130,184,196 |
| **Nyu-Hetrşir (*ABŞ-da ştat*)** | – 119 |
| **Orta Asiya** | – 99 |
| **Orta Şərq** | – 15 |
| **Osetiya** | – 43 |
| **Padar** | – 234 |
| **Pakistan** | – 118 |
| **Paris** | – 16 |
| **Peru** | – 145 |
| **Pirəmsən** | – 234 |
| **Pirkəkə (*Ağdaşda kənd*)** | – 70 |
| **Polşa** | – 196,281 |
| **Rəhimli** | – 234 |
| **Ruminiya** | – 196 |
| **Rusiya** | – 17,51,52,62,84,160,196,219,<br>238,251,252,253,254,267,<br>281,301,304–306 |
| **Püstəqasım (*Qubada kənd*)** | – 197 |
| **Sabunçu** | – 104 |
| **Sənan** | – 244 |
| **Səudiyyə Ərəbistanı** | – 137,291,299–300 |
| **Sinqapur** | – 292 |
| **Siyəzən** | – 241–247,252,268,272 |
| **Sloveniya** | – 131 |
| **Sumqayıt** | – 83,162,255,263,325–338,340 |
| **Suraxanı** | – 320 |
| **Şahdağ** | – 223 |
| **Şamaxı** | – 219 |
| **Şəki** | – 99,100,219,268 |
| **Şərqi Avropa** | – 99 |
| **Şərm əş – Şeyx** | – 178 |

**Şimali Amerika** – 305
**Şimali Kipr** – 13,14,40,42,149
**Tailand** – 176
**Tehran** – 127
**Təbriz** – 14
**Tirana** – 123
**Tuğay** – 244
**Türkiyə** – 5–26,38–46,49,61,62,82,148–149,283,196,219,286
**Ukrayna** – 84,297,304
**Vaşinqton** – 113,114
**Vilnüs** – 123
**Yaxın Şərq** – 99
**Yaponiya** – 111–112
**Yevlax** – 84
**Zeyvə** – 234
**Zərdabi** – 197
**Zığ** – 320

# MÜNDƏRİCAT

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*30 iyun 2005-ci il*....................................................................................... *5*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*30 iyun 2005-ci il*....................................................................................... *6*

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*30 iyun 2005-ci il* ...................................................................................... *7*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*30 iyun 2005-ci il*....................................................................................... *9*

TÜRKİYƏ SƏFİRLİYİNİN YENİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*30 iyun 2005-ci il*....................................................................................... *18*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN HEYDƏR ƏLİYEV FONDUNDA

*30 iyun 2005-ci il*....................................................................................... *22*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*30 iyun 2005-ci il*....................................................................................... *24*

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ BƏZİ YERLİ POLİS ORQANLARININ RƏHBƏR HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*1 iyul 2005-ci il* ........................................ *27*

«AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyul 2005-ci il* ........................................ *35*

MİSİR XARİCİ İŞLƏR NAZİRLİYİNİN MDB VƏ AVROPA İSLAM ÖLKƏLƏRİ ÜZRƏ TEXNİKİ YARDIM FONDUNUN BAŞ KATİBİ ƏLİ CƏLAL BATSYUNİ İLƏ GÖRÜŞ

*1 iyul 2005-ci il* ........................................ *37*

TÜRKİYƏNİN NÜFUZLU «HÖQTƏ» HƏFTƏLİK İCTİMAİ-SİYASİ JURNALININ BAŞ REDAKTORU, «STAR» QƏZETİNİN KÖŞƏ YAZARI VƏ «STAR» TELEVİZİYA KANALININ SİYASİ İCMALÇISI ARDAN ZENTÜRKƏ VERDİYİ MÜSAHİBƏ

*1 iyul 2005-ci il* ........................................ *38*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*1 iyul 2005-ci il* ........................................ *47*

AVRASİYA ÖLKƏLƏRİ SƏKKİZİNCİ İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA!

*1 iyul 2005-ci il* ........................................ *48*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AVROPA DEMOKRATLAR QRUPUNUN RƏHBƏRİ MİXAİL MARGELOV İLƏ GÖRÜŞ

*4 iyul 2005-ci il* ........................................ *51*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN KEÇMİŞ SƏDRİ VİKTOR ÇERNOMIRDİN İLƏ GÖRÜŞ

*4 iyul 2005-ci il* ........................................ *52*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ GİORGİ FRUNDA İLƏ GÖRÜŞ

*5 iyul 2005-ci il* ........................................ *53*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN VƏ QAÇQINLAR ÜZRƏ ALİ KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*5 iyul 2005-ci il ........................................................ 54*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

*5 iyul 2005-ci il ........................................................ 54*

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NAMBARİN ENXBAYARA

*5 iyul 2005-ci il ........................................................ 57*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYE İLƏ GÖRÜŞ

*6 iyul 2005-ci il ........................................................ 58*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*7 iyul 2005-ci il ........................................................ 59*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ

*7 iyul 2005-ci il ........................................................ 60*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAŞ RAYONUNA SƏFƏRİ

*7 iyul 2005-ci il ........................................................ 61*

RAYON ZİYALILARI, AĞSAQQALLARI VƏ MÜHARİBƏ VETERANLARI İLƏ GÖRÜŞ

*7 iyul 2005-ci il ........................................................ 70*

AĞDAŞ ŞƏHƏR STADİONUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*7 iyul 2005-ci il ........................................................ 76*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÖYÇAY RAYONUNA SƏFƏRİ

*7 iyul 2005-ci il ........................................................ 81*

GÖYÇAY RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*7 iyul 2005-ci il........................................................................................................87*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN BAKIDAKI SƏFİRLİYİNDƏ

*8 iyul 2005-ci il........................................................................................................94*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*11 iyul 2005-ci il......................................................................................................96*

BAKININ MAŞTAĞA QƏSƏBƏSİNDƏ MÜASİR TİPLİ RABİTƏ EVİNİN AÇILIŞ MƏRASİMİ

*12 iyul 2005-ci il......................................................................................................97*

MAŞTAĞA QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*12 iyul 2005-ci il....................................................................................................103*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*13 iyul 2005-ci il ...................................................................................................107*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LASLO ŞOYOMA

*13 iyul 2005-ci il....................................................................................................108*

İRAN İSLAM RESPUBLİKASI PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*13 iyul 2005-ci il....................................................................................................109*

YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU, XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ MÜŞAVİRİ, SƏFİR TOŞİYUKİ FUCİVARA İLƏ GÖRÜŞ

*13 iyul 2005-ci il....................................................................................................111*

ABŞ-ın MİLLİ DEMOKRATİYA İNSTİTUTU İDARƏ HEYƏTİNİN SƏDRİ, SABİQ DÖVLƏT KATİBİ XANIM MADLEN OLBRAYT İLƏ GÖRÜŞ

*13 iyul 2005-ci il ...................................................................................................113*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBE VELESƏ

*14 iyul 2005-ci il*........................................................................................ *115*

BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*14 iyul 2005-ci il*........................................................................................ *116*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB Gİ VERHOFSTADTA

*14 iyul 2005-ci il*........................................................................................ *117*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ PƏRVİZ MÜŞƏRRƏFƏ

*14 iyul 2005-ci il*........................................................................................ *118*

ABŞ-in NYU-HETRŞİR ŞTATININ KEÇMİŞ QUBERNATORU, ATA CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ AĞ EV ADMİNİSTRASİYASININ RƏHBƏRİ OLMUŞ CON SUNUN İLƏ GÖRÜŞ

*14 iyul 2005-ci il*........................................................................................ *119*

ABŞ-ın BRUKİNQS İNSTİTUTUNUN ANALİTİKİ XANIM FİONA HİLL İLƏ GÖRÜŞ

*14 iyul 2005-ci il*........................................................................................ *120*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*14 iyul 2005-ci il* ........................................................................................*121*

GÜLƏŞ FEDERASİYASININ RƏHBƏRLƏRİ, AVROPA ÇEMPİONATLARINDA CÜDO, YUNAN–ROMA GÜLƏŞİ VƏ SƏRBƏST GÜLƏŞ ÜZRƏ MEDAL QAZANAN İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*15 iyul 2005-ci il*........................................................................................ *122*

İSLAM ÖLKƏLƏRİNİN BİRİNCİ HƏMRƏYLİK OLİMPİADASINDA MEDAL QAZANMIŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*15 iyul 2005-ci il*........................................................................................ *125*

OTÜSTÜ XOKKEY FEDERASİYASININ RƏHBƏRLƏRİ, AVROPA ÇEMPİONLARI KUBOKU YARIŞLARINDA İKİNCİ YERİ TUTMUŞ QADINLARDAN İBARƏT «ATASPORT» XOKKEY KOMANDASININ ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*15 iyul 2005-ci il................................................................................................ 129*

BASKETBOL FEDERASİYASININ RƏHBƏRLƏRİ, İSLAM ÖLKƏLƏRININ BİRİNCİ HƏMRƏYLIK OLİMPİADASINDA QIZIL MEDAL QAZANMIŞ MİLLİ BASKETBOL KOMANDASININ ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*15 iyul 2005-ci il................................................................................................ 132*

VOLEYBOL FEDERASİYASININ RƏHBƏRLƏRİ, QADINLARDAN İBARƏT YIĞMA VOLEYBOL KOMANDASININ ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*15 iyul 2005-ci il................................................................................................ 136*

QƏTƏR DÖVLƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ GENERAL-POLKOVNİK HƏMƏD BİN ƏLİ ƏL-ATİYYƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2005-ci il................................................................................................ 140*

GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİ İLƏ GÖRÜŞ

*19 iyul 2005-ci il ................................................................................................ 142*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA

*19 iyul 2005-ci il................................................................................................ 143*

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*19 iyul 2005-ci il................................................................................................ 144*

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEXANDRO TOLEDO MANRİKEYƏ

*19 iyul 2005-ci il ................................................................................................ 145*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ MAŞTAĞA QƏSƏBƏSİNDƏ

*20 iyul 2005-ci il................................................................................................ 146*

TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ VƏCDİ KÖNÜL İLƏ GÖRÜŞ

*20 iyul 2005-ci il* ......... *148*

MDB ÖLKƏLƏRİ HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİNİN SƏDRİ RUSLAN AUŞEV İLƏ GÖRÜŞ

*20 iyul 2005-ci il* ......... *150*

MALAKANÇILIQ TƏRİQƏTİNİN 200 İLLİYİ İLƏ ƏLAQƏDAR ÖLKƏMİZDƏKİ MALAKAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*20 iyul 2005-ci il* ......... *151*

2005-ci İLİN BİRİNCİ YARISINDA RESPUBLİKAMIZIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*21 iyul 2005-ci il* ......... *156*

YEKUN NİTQİ ......... *163*

AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 130 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*21 iyul 2005-ci il* ......... *166*

HEYDƏR ƏLİYEV FONDUNUN YENİ LAYİHƏSİ OLAN «AZƏRBAYCAN» İNTERNET PORTALININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

*22 iyul 2005-ci il* ......... *172*

BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORUNUN MÜAVİNİ AQUSTİN KARSTENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 iyul 2005-ci il* ......... *174*

TAİLAND KRALLIĞININ BAŞ PROKURORU KAMPRİ KAOÇARERN İLƏ GÖRÜŞ

*22 iyul 2005-ci il* ......... *176*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAMUEL ŞMİDƏ

*22 iyul 2005-ci il* ........ *177*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*23 iyul 2005-ci il* ........ *178*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUBAYA SƏFƏRİ

*25 iyul 2005-ci il* ........ *179*

QUBA ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*25 iyul 2005-ci il* ........ *186*

QIRMIZI QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*25 iyul 2005-ci il* ........ *191*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XAÇMAZA SƏFƏRİ

*26 iyul 2005-ci il* ........ *198*

XAÇMAZ ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*26 iyul 2005-ci il* ........ *201*

XAÇMAZDA KEÇİRİLMİŞ BİZNES-FORUM VƏ KREDİT YARMARKASINDA NİTQ

*26 iyul 2005-ci il* ........ *206*

ABŞ DÖVLƏT KATİBİNİN QLOBAL MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ XANIM POLA DOBRYANSKİ İLƏ GÖRÜŞ

*27 iyul 2005-ci il* ........ *216*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUSARA SƏFƏRİ

*28 iyul 2005-ci il* ........ *218*

QUSAR RAYONUNDAKI HEYDƏR ƏLİYEV BAĞINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*28 iyul 2005-ci il*........................................................................................ *223*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZİN ŞİMAL BÖLGƏSİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA VƏ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*28 iyul 2005-ci il*........................................................................................ *229*

YEKUN NİTQİ.................................................................................................. *274*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN VƏ ALMANİYA VOLEYBOL KOMANDALARININ YARIMFİNAL GÖRÜŞÜNÜ İZLƏMİŞDİR

*30 iyun 2005-ci il*........................................................................................ *279*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*1 avqust 2005-ci il*........................................................................................ *283*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU SEYİD SİRACUDDİN PUTRA CAMALULLAİLƏ

*1 avqust 2005-ci il*........................................................................................ *284*

MALAYZİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA ƏHMƏD BADAVİYƏ

*1 avqust 2005-ci il*........................................................................................ *285*

«ATAHOLDİNQ» ŞİRKƏTLƏR QRUPUNA DAXİL OLAN «ATATURİZM» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN 5+ ULDUZLU «EXCELSİOR» HOTELİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*1 avqust 2005-ci il*........................................................................................ *286*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*1 avqust 2005-ci il*........................................................................................ *291*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA

*1 avqust 2005-ci il*.............................................................................................. *292*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*1 avqust 2005-ci il*.............................................................................................. *293*

ƏFQANISTAN İSLAM DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*1 avqust 2005-ci il*.............................................................................................. *294*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA

*1 avqust 2005-ci il*.............................................................................................. *295*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROH MU-HYUNA

*1 avqust 2005-ci il*.............................................................................................. *296*

UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA

*1 avqust 2005-ci il*.............................................................................................. *297*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

*1 avqust 2005-ci il*.............................................................................................. *298*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*2 avqust 2005-ci il*.............................................................................................. *299*

RUSİYANIN NTV TELEVİZİYASININ «PROFESSİYA – REPORTYOR» PROQRAMINA MÜSAHİBƏ

*5 avqust 2005-ci il*.............................................................................................. *301*

BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYALARI ASSOSİASİYASININ (FİLA) PREZİDENTİ RAFAEL MARTİNETTİ İLƏ GÖRÜŞ

*5 avqust 2005-ci il*.............................................................................................. *302*

DAĞISTANLI YAZIÇI-TƏDQİQATÇI, TÜRKDİLLİ XALQLARIN TARİXİNİN ARAŞDIRICISI MURAD ACİ İLƏ GÖRÜŞ

*8 avqust 2005-ci il*........................................................................................ *303*

«RUSSKİY NYUSUİK» NƏŞRİNİN (MOSKVA) BAŞ REDAKTORU LEONİD PARTYONOVA VERDİYİ MÜSAHİBƏ

*8 avqust 2005-ci il*........................................................................................ *304*

GÜNƏŞLİ VƏ HÖVSAN QƏSƏBƏLƏRİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*10 avqust 2005-ci il*...................................................................................... *307*

SUMQAYITDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 avqust 2005-ci il*...................................................................................... *325*

SUMQAYIT BUXAR-QAZ QURĞUSUNUN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

*12 avqust 2005-ci il*...................................................................................... *330*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYITDA

*12 avqust 2005-ci il*...................................................................................... *336*

ALMANİYA FEDERATİV RESPUBLİKASI FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN RƏHBƏRİ AUQUST HANNİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 avqust 2005-ci il*...................................................................................... *339*

*Q E Y D L Ə R* .......................................................................................*341*

*Şəxsi adlar göstəricisi* ........................................................................378

*Coğrafi adlar göstəricisi* .....................................................................*383*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.